Azərbaycan Respublikası
Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının
Təhsil İnstitutu

XXV
NASCO

# DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXV RESPUBLİKA ELMİ KONFRANSININ *MATERİALLARI*

II
cild

**Bakı-2023**

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL İNSTİTUTU**

***Konfrans Azərbaycanın qədim şəhəri***
***Şuşanın 270 illik yubileyinə həsr olunur***

# DOKTORANTLARIN VƏ GƏNC TƏDQİQATÇILARIN XXV RESPUBLİKA ELMİ KONFRANSININ (NASCO XXV)

## M A T E R İ A L L A R I

***(Humanitar elmlər)***

***Bakı şəhəri, 23-24 noyabr 2022-ci il***

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Emin Əmrullayev (sədr)** | Azərbaycan Respublikası elm və təhsil naziri |
| **Firudin Qurbanov** | Azərbaycan Respublikası elm və təhsil nazirinin müavini |
| **Rüfət Əzizov (sədr müavini)** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktoru |
| **Yaqub Piriyev** | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin aparat rəhbərinin müavini |
| **Elnur Nəsibov** | Elm və təhsil nazirinin müşaviri |
| **Nicat Məmmədli** | Elm və təhsil nazirinin müşaviri |
| **Rauf Orucov** | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Maliyyə şöbəsinin müdiri |
| **Cəsarət Valehov** | Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri |
| **Ənvər Abbasov** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini |
| **Ülkər Babayeva** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun direktor müavini |
| **İlham Cavadov** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi-pedaqoji tədqiqatlar mərkəzinin direktoru |
| **Abutab Abbasova (elmi katib)** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsildə innovasiyalar şöbəsinin müdiri |
| **Könül Abaslı** | Azərbaycan Respublikasının Təhsil İnstitutunun Təhsildə strateji tədqiqatlar şöbəsinin müdiri |

# MÜNDƏRİCAT

**I TARİX, FƏLSƏFƏ, HÜQUQ, SİYASİ ELMLƏR, SOSİOLOGİYA BÖLMƏSİ ...... 7**
1. BEYNƏLXALQ NÜVƏ HÜQUQU VƏ NÜVƏ TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİ 7
2. I ŞAH İSMAYIL VƏ I ŞAH TƏHMASİB DÖVRÜNDƏ İSPANİYA İLƏ DİPLOMATİK YAZIŞMALAR (İSPAN MƏNBƏLƏRİ ƏSASINDA) ........................ 12
3. AVROPA İTTİFAQI XARİCİ SİYASƏTİNİN NEOREALİST PERSPEKTİVDƏN ANALİZİ ........................................................................................................ 15
4. AVROPA İTTİFAQI İLƏ QEYRİ-DÖVLƏT AKTORLARIN QARŞILIQLI MÜNASİBƏTLƏRİ: TRANSMİLLİ KORPORASİYALAR NÜMUNƏSİNDƏ........... 20
5. RESTRICTIONS TO ABORTION IN CONTEXT OF GENDER EQUALITY ............. 24
6. ƏBDÜLƏLİ BƏY ƏMİRCANIN MÜHACİRƏT HƏYATI ONUN XATİRƏ VƏ MƏKTUBLARINDA (TÜRKİYƏ ARXİVLƏRİ VƏ MƏTBUATINDA) ..................... 28
7. THE IMPACT OF THE "POST-SOVIET COUNTRY" LABEL ON AZERBAIJAN'S NATIONAL IDENTITY UNDER SAID'S PRISM OF "ORIENTALISM" .................... 31
8. BAKI-TBİLİSİ-CEYHAN ƏFSANƏDƏN REALLIĞA ÇEVRİLƏN LAYİHƏ............ 36
9. CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏ XARİCİ SİYASƏTİN AVROPAYA İNTEQRASİYA PROSESİ................................................................................. 40
10. AZƏRBAYCANDA QADIN SİYASƏTİNİN HÜQUQİ-NORMATİV ƏSASLARI (1920-Cİ İLLƏR)............................................................................................. 45
11. CƏNUBİ QAFQAZ YENİ DÖNƏMDƏ: YENİ PERSPEKTİVLƏR VƏ İNKİŞAF ...... 49
12. RƏQƏMSAL MƏKANDA MÜƏLLİF HÜQUQLARI ............................................ 53
13. TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ ....................................................................................... 56
14. 1921-1922-Cİ İLLƏRDƏ KOOPERATİV TİCARƏTİN AZƏRBAYCAN SSR-NİN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ ROLU ......................................................... 60
15. COMPARATIVE ANALYSIS OF STATE-BUILDING AND NATION-BUILDING FROM THE CEASEFIRE TO THE VICTORY IN AZERBAIJAN ............................... 63
16. SAXURLARDA AİLƏ TƏRBİYƏSİ ..................................................................... 67
17. AZƏRBAYCANIN BEYNƏLXALQ İNFORMASİYA MÜBADİLƏSİ PROSESİNDƏ İŞTİRAKI DÖVLƏTİN XARİCİ SİYASƏTİNİN ELEMENTİ KİMİ ........................... 72
18. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN QARABAĞIN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ ROLU (1969-1982-Cİ İLLƏR) ........................................................................................................................ 77
19. QEYRİ-KOMMERSİYA HÜQUQİ ŞƏXSİ KİMİ DİNİ QURUMLARIN STATUSU .. 81
20. AZƏRBAYCANIN AVROPA İTTİFAQINA İNTEQRASİYASININ GEOSİYASİ MƏHDUDİYYƏTLƏRİ........................................................................................ 85
21. İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN LEGİONUNUN FORMALAŞMASI MƏSƏLƏSİNƏ DAİR ............................................................ 90
22. QARABAĞIN TƏHSİL TARİXİ VƏ İNKİŞAF İMKANLARI.................................... 93

23. HÜQUQİ DÖVLƏT QURUCULUĞU PROSESİNDƏ ƏDLİYYƏ ORQANLARINDA APARILAN İSLAHATLARIN ROLU ........ 96
24. THE CRUSADE OF MONARCHS ........ 100
25. AZƏRBAYCAN SSR-DƏ ZƏHMƏTKEŞLƏRİN MADDİ RİFAHININ YAXŞILAŞDIRILMASINA DAİR TƏDBİRLƏR (1946-1950-Cİ İLLƏR)........ 104
26. AZƏRBAYCAN VƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI (FAO) ƏLAQƏLƏRİ........ 107
27. LƏNKƏRAN ŞƏHƏRİNİN MƏDƏNİ HƏYATI (1993-2003-CÜ İLLƏR)........ 111
28. SİYASİ İNSTİTUTLARIN HESABATLILIQ YOLUYLA DEMOKRATİYA VƏ İNKİŞAFDA ROLU ........ 114
29. AVROPA ÖLKƏLƏRİNDƏ İDARƏETMƏ MƏDƏNİYYƏTİ ........ 118
30. HACI ZEYNALABDİN TAĞIYEVİN SAHİBKARLIQ FƏALİYYƏTİNİN İLKİN DÖVRÜNƏ DAİR........ 122
31. KİTABXANA-İNFORMASİYA TEXNOLOGİYALARININ LAYİHƏLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ........ 126
32. MOBİL JURNALİSTİKANIN TELEVİZİYADA ROLU ........ 129
33. AXC-NİN MALİYYƏ SAHƏSİNDƏ İLK ADDIMLARI ........ 133
34. NADİR ŞAH VƏ ƏFŞARLARIN MƏNŞƏYİ TARİXİ TƏDQİQATLARDA........ 138
35. BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİNDƏ TÜRKİYƏNİN MÖVQEYİ ........ 141
36. BRETTON VUDZ SİSTEMİ ........ 146
37. SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İNKLÜZİV JURNALİSTİKAYA TƏTBİQİ........ 150
38. SHUSHA AS A PEARL OF GARABAGH: A BRIEF HISTORY OF CULTURAL CITY ........ 156
39. BRITISH ECONOMY AFTER BREXIT........ 161

**II PEDAQOGİKA VƏ PSİXOLOGİYA BÖLMƏSİ ........ 166**

40. VII SİNİFDƏ “CİSMİN ƏTALƏTLİLİYİ. NYUTONUN I QANUNU” MÖVZUSUNUN TƏDRİSİNDƏ VİRTUAL LABORATORİYA İŞLƏRİNDƏN İSTİFADƏ TEXNOLOGİYASI ........ 166
41. İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ ELMİ SAVADLILIQ BACARIĞININ FORMALAŞDIRILMASI PROBLEMİ ........ 170
42. TƏHSİLALANLARIN SAĞLAM HƏYAT TƏRZİNİN FORMALAŞDIRILMASINDA VALEOLOGİYANIN ROLU........ 173
43. LAYİHƏ ƏSASLI TƏLİM YANAŞMASININ FƏLSƏFİ ƏSASLARI ........ 176
44. PUBLIC SCHOOL RANKINGS IN AZERBAIJAN FROM EDUCATION MANAGERS’ PERSPECTIVES........ 179
45. XARİCİ DİLLƏRİN TƏDRİSİNDƏ TƏTBİQ OLUNAN MOTİVASİYA NƏZƏRİYYƏLƏRİ ........ 184

46. IMPACT OF HOME LEARNING ENVIRONMENT ON THE READING COMPREHENSION SKILLS OF THE 4TH GRADERS IN AZERBAIJAN ............. 187
47. İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ DİL BACARIQLARININ FORMALAŞDIRILMASI ............................................................................................................. 191
48. REGİONLARIN İNKİŞAFINDA ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU .......... 194
49. SCIENTIFIC AND PEDAGOGICAL BASIS OF USING STEM TECHNOLOGIES IN BIOLOGY LESSONS ............................................................................................ 197
50. NATAMAM AİLƏLƏRDƏ BÖYÜYƏN YENİYETMƏLƏRİN TƏRBİYƏ İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ.......................................................................................... 200
51. ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİL SİSTEMİMİZDƏKİ ROLU VƏ MÖVQEYİ.................................................................................................................. 204
52. İKT-NIN TƏTBİQİ İLƏ DİSKURSİV BACARIQLARIN TƏKMİLLƏŞDİRİLMƏSİNİN DİDAKTİK XÜSUSİYYƏTLƏRİ ............................ 208
53. AZƏRBAYCANDA ÜMUMİ TƏHSİL PİLLƏSİNDƏ ÇALIŞAN MÜƏLLİMLƏRİN NEYROMİFLƏRƏ İNANCINA TƏSİR EDƏN FAKTORLARIN TƏHLİLİ.............. 212
54. RƏĞBƏTLƏNDİRMƏ VƏ CƏZALANDIRMA STİMULLAŞDIRMA VƏ MOTİVASİYA METODU KİMİ ............................................................................. 225
55. PEDAQOJİ FƏNLƏRİN TƏDRİS KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARININ VƏ İKT-NİN TƏTBİQİ İMKANLARI ............. 229
56. İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ KREATİV DÜŞÜNCƏNİN FORMALAŞMASINDA TƏLİMİN TƏŞKİLİNƏ MÜASİR YANAŞMA ................. 234
57. KİMYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİ YARADICILIQ FƏALİYYƏTİNƏ TƏŞVİQETMƏNİN 5 YOLU ........................................................................................ 237
58. İNGİLİS DİLİNDƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDRİSİNİN LİNQVİSTİK PROBLEMLƏRİ ......................................................................................................... 240
59. PEDAQOJİ YÖNÜMLÜ ALİ VƏ ORTA İXTİSAS TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MƏSAFƏDƏN TƏHSİL ............................................................................................. 245
60. ƏYANİLİK ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ TƏDRİSİNİN OPTİMALLAŞDIRILMASI VASİTƏSİ KİMİ.................................... 249
61. RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN ŞİFAHI NİTQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ ROLLU OYUNLARIN ƏHƏMİYYƏTİ........................................................................................................... 253
62. ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN KOLLEGİAL İDARƏ EDİLMƏSİNDƏ VALİDEYNLƏRİN ROLU, MÜASİR TƏLƏBLƏR BAXIMINDAN MƏKTƏB-VALİDEYN ƏLAQƏLƏRİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI TƏCRÜBƏSİNDƏN ......................................................................................... 257
63. AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ KOMMUNİKATİV TAPŞIRIQLAR ... 263

64. BİOLOGİYANIN TƏDRİSİNDƏ HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASI İMKANLARI ..... 268
65. PSİXİ İNKİŞAF AMİLLƏRİNİN KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİMİNİN UĞURUNA TƏSİRİ..... 271
66. SOME APPROACHES TO THE DETERMINATION OF THE PROFESSIONALLY IMPORTANT PSYCHOLOGICAL QUALITIES OF ATC INSTRUCTORS..... 275
67. ŞAGİRDLƏRİN TƏLİM NƏTİCƏLƏRİNƏ YENİ YANAŞMALAR ..... 278
68. İDARƏETMƏDƏ RƏHBƏR-İCRAÇI MÜNASİBƏTLƏRİNDƏ SOSİAL QAVRAYIŞIN ƏSAS PROBLEMLƏRİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ..... 282

## TARİX, FƏLSƏFƏ, HÜQUQ, SİYASİ ELMLƏR, SOSİOLOGİYA BÖLMƏSİ

# BEYNƏLXALQ NÜVƏ HÜQUQU VƏ NÜVƏ TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİ

**Xələfli Alı Xələf**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-6342-4359**
**alikhalafli91@gmail.com**

# INTERNATIONAL NUCLEAR LAW AND NUCLEAR SECURITY PROBLEMS

**Khalafli Ali Khalaf**
**Baku State University**
**https://orcid.org/0000-0002-6342-4359**
**alikhalafli91@gmail.com**

### Summary

The use of nuclear energy can pose a serious threat to the world's population and its natural environment. First of all, this is due to the fact that in the event of an accident at a nuclear power plant, a large amount of highly radioactive substances will be released into the environment, and their movement in the natural environment can lead to radioactive contamination of the environment in different countries.

Nuclear power is fraught with great potential danger. Therefore, when using atomic energy for peaceful purposes, special attention should be paid to security issues through the study of international legal regulatory mechanisms.

Another important problem of the peaceful use of atomic energy from the point of view of environmental protection is related to the production and collection of radioactive waste. Environmentally safe disposal and disposal of radioactive waste is an integral part of ensuring environmental protection in the peaceful use of atomic energy.

Environmental protection in the peaceful use of atomic energy is one of the conditions for ensuring environmental safety on Earth as a whole. Thus, on the one hand, the presence and aggravation of the environmental crisis in the modern era, and on the other hand, the dangerous nature of nuclear activity due to its nature, make the study of international legal means of maintaining environmental safety and environmental protection in the use of nuclear energy for peaceful purposes relevant.

**Keywords:** nuclear energy, international law, international atomic law, international nuclear law.

# МЕЖДУНАРОДНОЕ ЯДЕРНОЕ ПРАВО И ПРОБЛЕМЫ ЯДЕРНОЙ БЕЗОПАСНОСТИ

**Халафли Али Халаф**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-6342-4359**
**alikhalafli91@gmail.com**

**Резюме**

Использование ядерной энергии может представлять серьезную угрозу для населения Земли и ее природной среды. В первую очередь это связано с тем, что в случае аварии на АЭС в окружающую среду будет выброшено большое количество высокорадиоактивных веществ, а их перемещение в природной среде может привести к радиоактивному загрязнению окружающей среды в разные страны.

Ядерная энергетика таит в себе большую потенциальную опасность. Поэтому при использовании атомной энергии в мирных целях особое внимание следует уделить вопросам обеспечения безопасности путем изучения международно-правовых механизмов регулирования.

Другая важная проблема мирного использования атомной энергии с точки зрения охраны окружающей среды связана с производством и сбором радиоактивных отходов. Экологически безопасное захоронение и захоронение радиоактивных отходов является неотъемлемой частью обеспечения охраны окружающей среды при мирном использовании атомной энергии.

Охрана окружающей среды при мирном использовании атомной энергии является одним из условий обеспечения экологической безопасности на Земле в целом. Таким образом, с одной стороны, наличие и обострение экологического кризиса в современную эпоху, а с другой стороны, опасный характер ядерной деятельности в силу ее характера, делают исследование международно-правовых средств сохранения экологической безопасности и экологического защита при использовании ядерной энергии в мирных целях актуальна.

**Ключевые слова:** ядерная энергия, международное право, международное атомное право, международное ядерное право.

Nüvə enerjisindən dinc məqsədlərlə istifadə, ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təminatı öz miqyasına və həlli yollarına görə ümumdünya əhəmiyyətli, qlobal problemlərdir. Xüsusilə də yaşadığımız dövrdə nüvə enerjisindən dinc, qeyri-hərbi məqsədlərlə istifadə, bu enerji növünün ənənəvi növləri əvəz edə bilmə imkanları kimi məsələlər xüsusilə aktual problemlər sırasındadır. Hazırkı işdə aparılan tədqiqat təsdiq edir ki, dövlətlər müvafiq problemlərin effektiv şəkildə həllində beynəlxalq hüquqi vasitələrə önəm verməyə meyllidirlər.

Dünyada atom energetikasının mövcudluğu dövründə demək olar ki, ətraf mühitə radionuklid-lərin tullanması ilə bağlı 300 nüvə və radiasiya qəzası baş vermişdir, onların arasında çoxsaylı tələfatlarla nəticələnmiş qəzalardan bəzilərini xüsusilə qeyd etmək lazımdır: Kanadada Çok-Rivers laboratoriyasında qəza (1951), Böyük Britaniyada Vindskayl reaktorunda qəza (1957), ABŞ-ın Kaliforniya ştatında Santa Süzanna qəzası (1959), ABŞ-da Aydaho-Fols qəzası (1961), ABŞ-da Tri-Mayl-Aylend AES-də baş vermiş qəza (1979), Fransada Sen-Loran dezo qəzası (1980), Çernobl AES-də baş vermiş qəza (1986), İspaniyada Vindelyos AES-də yanğın (1989), Rusiyada Sibir Kimyəvi Kombinatında qəza (1993), Yaponiyanın Tokaymura Nüvə Obyektində qəza (1999), Belçikanın Flüryüs radioelementlər İnstitutunda qəza (2006) və Yaponiyanın Fukusima-1 (2011) AES-ində baş vermiş qəzaları qeyd etmək olar.

11 mart 2011-ci ildə Yaponiyada baş vermiş 9 maqnitudalı zəlzələ və sunamidən sonra Fukusima-1 AES-dəki qəza Yerin atmosfer təbəqəsinə ciddi ziyan vurmaqla böyük təhlükə mənbəyinə çevrilmişdir. Yaponiyada baş vermiş bu qəzadan sonra demək olar ki, bütün nüvə reaktorları dayandırılmış və yalnız iki reaktor yenidən işə salınmışdı. Nəzərə almaq lazımdır ki, insanlar bu hadisələrdən düzgün nəticə çıxarmayınca belə təhlükəli hadisələr təkrarlanacaq. Beynəlxalq ictimaiyyət nüvə enerjisini istismar etmək məsuliyyətini öz üzərinə götürdüyündən, bütövlükdə

bütün bəşəriyyətin maraqlarını nəzərə alaraq, ilk növbədə belə istismarın təhlükəsizliyinin şərtsiz zəmanətlərini təmin etməlidir.

Tədqiqatın obyekti və predmeti nüvə enerjisindən dinc məqsədlərlə istifadə üzrə meydana çıxan ictimai münasibətlərdir. Tədqiqatın predmetini nüvə enerjisindən dinc məqsədlərlə istifadə zamanı meydana çıxan beynəlxalq hüquqi problemlərin hüquqi tənzimlənməsi təşkil edir. Tədqiqat zamanı analiz, sintez və sistemli yanaşma metodundan da istifadə edilmişdir.

Müasir dövrdə ekspertlər belə bir fikirlə qarşılaşırlar ki, XXI əsrdə enerji təchizatı problemi beynəlxalq təhlükəsizliyə ciddi təhlükələr (təhdidlər) yarada bilər. Bu haqda hələ 2005-ci ildə Bərpa olunan enerji üzrə Amerika Şurasının ABŞ hökuməti ilə birgə keçirdiyi beynəlxalq konfrans zamanı ABŞ-ın keçmiş müdafiə nazirinin müavini (2001-2005) və Dünya Bankın Prezidenti (2005-2007) işləmiş Pol Vulfoviç fikir bildirmişdi. Belə təhlükələrin aradan qaldırılması üçün əlaqədar dövlətlərin enerji təchizatının optimal variantını tapmaq lazımdır. Atom-energetika sahəsi – potensial olaraq tükənməz enerji mənbəyidir.

Müasir dövrdə atom enerjisindən istifadə üzrə yüksələn tendensiya müşahidə olunur. Hazırda dünyada 436 enerji reaktoru fəaliyyət göstərir ki, 2030-cu ilə kimi 131 yeni enerji blokunun qurulması planlaşdırılır, daha 282 reaktorun layihəsi potensial tikinti üçün nəzərdən keçirilir. Hazırda atom enerjisi hesabına dünya üzrə elektroenerjinin 15-16%-i ödənilir (Беляев, 2006).

Bəzi sənayecə inkişaf etmiş ölkələrdə bu göstərici daha yüksəkdir. Məsələn Yaponiyada 24%, Koreya Respublikasında 36%, Belçikada 54%, Fransada 76% təşkil edir.

Nüvə enerjisindən istifadə üzrə göstəricilər və müxtəlif vaxtlarda baş vermiş nüvə qəzalarından sonra beynəlxalq ictimaiyyət dərk etdi ki, nüvə kimi təhlükəli enerjidən istifadə vaxtı birinci plana atom qurğularının istismarından fayda əldə edilməsinin iqtisadi göstəricilərini yox, onların təhlükəsizliyi ilə bağlı məsələlər ön plana çəkilməlidir. Belə təhlükəsizlik tədbirlərinin təminatı olmadan yerli və qlobal miqyasda hər hansı fayda haqqında danışmaq mümkün deyil.

Nüvə hüququ üzrə hüquq mütəxəssisləri Conatan L.Blek-Branç və Diter Flekin fikrincə, beynəlxalq nüvə hüququ beynəlxalq hüquq subyektlərinin atom enerjisindən istifadəsi zamanı realizə etdiyi münasibətlərin hüquq normaları ilə nizamlanması məqsədilə meydana çıxmışdır. Bu sferanın əsas məqsədi atom enerjisindən dinc məqsədlərlə istifadədir (Jonathan & Dieter, 2016).

Beynəlxalq nüvə hüququ üzrə italiyan mütəxəssis Andrea Cioiya hesab edir ki, beynəlxalq nüvə hüququ atom enerjisindən istifadə üzrə dövlətlərin fəaliyyəti ilə bağlı hüquqi baxımdan məcburi hüquq və vəzifələr müəyyən edən norma və qaydaların məcmusudur (Gioia, 2012).

Eyni zamanda atom texnologiyasının inkişafı zamanı belə bir vəziyyətə xüsusi diqqət yönəldilmişdi ki, atom enerjisindən istifadə üzrə ayrıca problemlərin həlli beynəlxalq münasibətlərin inkişafını tələb edir, bu sferada dövlətlərin fəaliyyətini tənzimləyən beynəlxalq razılaşmaların qəbulu gərəkdir.

Xarici hüquq ədəbiyyatlarında, əsasən də Avropa və Amerika hüquq ədəbiyyatlarında "beynəlxalq nüvə hüququ" anlayışı ilə müqayisədə "nüvə hüququ" termininin istifadəsinə üstünlük verilir. Beynəlxalq nüvə hüququnun tədqiqi ilə bağlı 1972-ci ildə yaradılmış Beynəlxalq Nüvə Hüququ Assosiasiyası kifayət qədər əhəmiyyətli işlər görmüşdür.

Fikrimizcə, beynəlxalq nüvə hüququ, beynəlxalq hüququn digər sahələri kimi beynəlxalq əməkdaşlıq kontekstində formalaşmışdır.

XXI əsrin başlanğıcında nüvə enerjisindən istifadə üzrə dövlətlərin və beynəlxalq təşkilatların münasibətlərinin nizama salınması sahəsində çoxtərəfli və ikitərəfli razılaşmaların sayı əhəmiyyətli dərəcədə artmışdır. Həmin razılaşmalar nüvə enerjisindən istifadə üzrə beynəlxalq hüquq subyektlərinin fəaliyyətinin əsas aspektlərinə toxunur və bu istiqamətdə hüquqi nizama salmanın çərçivələrini müəyyənləşdirir.

Xarici ölkələrin elmi tədqiqatlarında nüvə hüququ terminindən daha çox istifadə olunur. AEBA-nın Nüvə hüququ üzrə dövri nəşrlərində nüvə hüququna növbəti anlayış verilir – şüalanmanın təbii mənbələrinin istismarı, ionlaşan radiasiya və bölünən maddələrlə bağlı hüquqi və fiziki şəxslərin fəaliyyətini tənzimləyən hüquq normalarının məcmusudur. Bu anlayış dörd əsas elementdən ibarətdir. Birincisi, xüsusi hüquq normalarının məcmusu kimi, nüvə hüququ ümumi milli qanunvericiliyin tərkib hissəsi kimi qəbul edilir və eyni zamanda texnologiyanın xüsusi xarakteri ilə tələb edilən müxtəlif qaydaları özündə əks etdirir. İkincisi, nizama salmanın elementi riskə və faydaya yanaşmanı əks etdirir, hansı ki, sosial və iqtisadi inkişaf üçün fayda və təhlükə doğuran fəaliyyətin idarə edilməsində mərkəzi rol oynayır. Üçüncüsü, bütün hüquqi rejimlərdə olduğu kimi, xüsusi hüquq normaları hüquqi şəxslərin davranışını tənzimləyir. Dördüncü element, xüsusi hüquqi rejimi əsaslandıran element kimi radioaktivliyə (bölünən material, ionlaşan radiasiya, şüalanan materialdan istifadə) fokuslanır (Milde, 2008).

Nüvə enerjisindən istifadə sahəsində beynəlxalq əməkdaşlıq terrorizmin genişlənməsi, dövlətlərarası siyasi gərginlik və ən əsası da ekoloji təhlükəsizliyin qorunması sahəsində öz aktuallığını daim saxlayan məsələdir. Nüvə təhlükəsi dövlət sərhədləri tanımır. Hansı ölkənin ərazisində yerləşməsindən asılı olmayaraq, nüvə obyektləri və texnologiyaları bəşəriyyət üçün təhlükə mənbəyi olaraq qalır.

Nüvə enerjisindən dinc məqsədlərlə istifadə üzrə dövlətlərarası əməkdaşlığın nəticəsi kimi meydana çıxmış beynəlxalq nüvə hüququ bir sıra rəhbər başlanğıclara əsaslanır ki, onları növbəti şəkildə qruplaşdırmaq olar: sağlamlıq prinsipi; təhlükəsizlik prinsipi; məsuliyyət prinsipi; icazə prinsipi; fasiləsiz nəzarət prinsipi; kompensasiya prinsipi; davamlı inkişaf prinsipi; uyğunluq prinsipi; müstəqillik prinsipi; şəffaflıq prinsipi; beynəlxalq əməkdaşlıq prinsipi (Carlton, 2010).

Nüvə enerjisindən həm hərbi sənaye kompleksində, həmçinin dinc məqsədlərlə istifadə olunur. Bununla əlaqədar olaraq, bu sahədə olan beynəlxalq hüquq normalarına ciddi riayət etmə dünya ictimaiyyəti üçün mühüm əhəmiyyətə malikdir. Nüvə silahının yayılmaması haqqında Müqavilə (1968), Nüvə materialının fiziki müdafiəsi haqqında Konvensiya (1980), Nüvə qəzası haqqında operativ məlumatlandırma haqqında və nüvə qəzası və ya radioaktiv qəza vəziyyəti halında kömək haqqında Konvensiya (1986), Nüvə təhlükəsizliyi haqqında Konvensiya (1994), Nüvə sınaqlarının hərtərəfli qadağası haqqında Müqavilə (1996), İşlənmiş yanacaqla və radioaktiv tullantılarla davranış təhlükəsizliyi haqqında haqqında birləşdirilmiş konvensiya (1997) və s. beynəlxalq nüvə hüququnun mənbələrini təşkil edir.

Beynəlxalq nüvə hüququ nüvə enerjisindən istifadə üzrə beynəlxalq hüququn subyektləri arasında münasibətləri tənzimləyən beynəlxalq ümumi hüququn sahəsidir. Nüvə enerjisindən dinc

məqsədlərlə istifadə bəşəriyyətin rifahı üçün geniş imkanlar açır. Bununla belə, elmi və sənaye nüvə reaktorlarının sayının artması, nüvə materialları ilə ticarət və onların daşınması, işlənmiş nüvə yanacağının utilizasiyası insanlar və ətraf mühit üçün radioaktiv təhlükə yaradır. Bütün bunlar beynəlxalq ictimaiyyətin səylərinin birləşdirilməsini və nüvə enerjisindən dinc məqsədlərlə istifadə üzrə vahid hüquqi standartların genişləndirilməsi zərurətini yaradır.

Beləliklə, nüvə enerjisindən dinc məqsədlərlə istifadə sahəsində beynəlxalq hüquqi tənzimetmə növbəti əsas istiqamətlərdə inkişaf edir: nüvə silahsızlaşdırılması; nüvə təhlükəsizliyinin və radiasiya müdafiəsinin təminatı; nüvə ixracının və nüvə maddələrinin nəql edilməsinin tənzimlənməsi; nüvə materiallarının fiziki müdafiəsi; atom gəmiçiliyi; kosmosda nüvə enerji mənbələrindən istifadə; radioaktiv çirkləndirmədən ətraf mühitin qorunması; nüvə sığortası və nüvə zərəri üçün məsuliyyətin qurulması; nüvə qəzası halında kömək.

Ümumiyyətlə, müasir sivilizasiya üçün əhalinin sayının intensiv şəkildə artımı, sənaye inkişafının yüksək səviyyəsi və bununla obyektiv olaraq şərtlənən energetika sektorunun sürətli artımı, nüvə enerjisinə tələbat xüsusilə xarakterik haldır. Bu səbəbdən yaşadığımız dünyada nüvə enerjisindən təhlükəsiz, qeyri-hərbi, dinc məqsədlər üçün istifadə edilməklə, əhalinin enerjiyə olan tələbatının ödənilməsi istiqamətində elmi araşdırmaların aparılmasına zərurət var.

**Ədəbiyyat**:

1. Беляев, В.П. (2006) Контроль и надзор как формы юридической деятельности. Вопросы теории и практики: / Автореферат дисс. доктора юридических наук / Саратов. 30 с.

2. Jonathan, L. (2016) Black-Branch, Dieter, F. Nuclear Non-Proliferation in International Law Volume III: Legal Aspects of the Use of Nuclear Energy for Peaceful Purposes. Springer. -556 p.

3. Gioia, A. (2012) Nuclear accidents and international law. In Andrea de Guttry, Marco Gestri, Gabriella Venturini. International Disaster Response Law. Springer Science & Business Media. – 740 p.

4. Milde, M. (2008) International Air Law and ICAO. Eleven International Publishing. 351 p.

5. Carlton, S., Alec, B., Norbert, P., Wolfram, T. (2010) Handbook on Nuclear Law: Implementing Legislation. International Atomic Energy Agency. – 174 p.

# I ŞAH İSMAYIL VƏ I ŞAH TƏHMASİB DÖVRÜNDƏ İSPANİYA İLƏ DİPLOMATİK YAZIŞMALAR (İSPAN MƏNBƏLƏRİ ƏSASINDA)

**Nəsirov Alim Xanlar**
**İstanbul Universiteti**
**https://orcid.org/0000-0003-4480-5145**
**alimka.13@gmail.com**

# DIPLOMATIC CORRESPONDENCE WITH SPAIN DURING THE REIGN OF SHAH ISMAIL I AND SHAH TAHMASIB I (BASED ON SPANISH SOURCES)

**Nasirov Alim Khanlar**
**İstanbul University**
**https://orcid.org/0000-0003-4480-5145**
**alimka.13@gmail.com**

## Summary

Since the early years of the Safavid state founded by Shah Ismail in 1501, mutual diplomatic relations were established with the Spaniards, and efforts were made in order to establish an alliance against the Ottomans, the common enemy of both sides, and for this purpose mutual envoys were sent and letters were written. Looking at the sources, it is understood that ambassadors such as Petrus Maronita de Monte Libano and Johann Balbi played an important role in these bilateral relations, while some letters written in Latin were also sent. Shah Ismail's attempt to attack the Ottomans together with Carlos, the most powerful ruler of the west, did not take place due to the difficulty of communication at that time, the long distance, and some other political reasons. Analyzing the letters sent to each other, it is clear that despite Shah Ismayil's desire and attempt to establish an alliance with Carlos against the Ottomans, Shah Tahmasib, who came to the throne after his death, did not give due importance to this issue and was not as willing as his father. In this study, we will make an assessment of the diplomatic correspondence between the Safavids and the Spanish during the periods of Shah Ismail and Shah Tahmasib.

**Keywords:** Shah Ismail I, Shah Tahmasib I, King Carlos, Safavid-Spanish Relations.

# ДИПЛОМАТИЧЕСКАЯ ПЕРЕПИСКА С ИСПАНИЕЙ В ПЕРИОД ПРАВЛЕНИЯ ШАХА ИСМАИЛА I И ШАХА ТАХМАСИБА I (ПО ИСПАНСКИМ ИСТОЧНИКАМ)

**Насиров Алим Ханлар**
**Стамбульский Университет**
**https://orcid.org/0000-0003-4480-5145**
**alimka.13@gmail.com**

## Резюме

С первых дней государства Сефевидов, основанного шахом Исмаилом в 1501 году, были установлены взаимные дипломатические отношения с испанцами, и были предприняты усилия для заключения союза против османов, общего врага обеих сторон и для этой цели были отправлены взаимные посланники и написаны письма. Глядя на источники, становится понятно, что такие послы как Петрус Маронита де Монте

Либано и Иоганн Бальби, играли важную роль в этих двусторонних отношениях, а также были отправлены некоторые письма, написанные на латыни. Попытка шаха Исмаила напасть на османов вместе с Карлосом, самым могущественным правителем запада, не состоялась из-за трудности связи в то время, большого расстояния и некоторых других политических причин. Анализируя пересылаемые друг другу письма, становится ясно, что, несмотря на желание и попытку шаха Исмаила заключить союз с Карлосом против османов, вступивший на престол после его смерти шах Тахмасиб не придавал должного значения этому вопросу и был не так охотно, как его отец. В этом исследовании мы сделаем оценку дипломатической переписки между Сефевидами и испанцами в периоды шаха Исмаила и шаха Тахмасиба.

**Ключевые слова:** Шах Исмаил I, Шах Тахмасиб I, Король Карлос, Сефевидско-Испанские Отношения.

Uzun müddət şərq dünyası ilə sıx münasibətlər qurmuş İspaniya ilə münasibətlər mövzusunda şərq dünyasında aparılan tədqiqatların yetərsizliyi, latın və xüsusilə də ispan dilinin ölkəmizdəki tarixçilər tərəfindən tədqiqatlarda çox az istifadə olunması bu mövzuda aparılacaq yeni tədqiqatların vacib olduğunu aydın şəkildə göstərməkdədir. Xüsusilə də Səfəvilər dövlətinin qurucusu Şah İsmayılın və oğlu Təhmasibin İspaniya kralı Karlos ilə diplomatik yazışmaları mövzusu bir çox tədqiqatçının diqqətini cəlb etməmiş və bu mövzuya lazımi diqqət göstərilməmişdir. Bu səbəblə, bu tədqiqatın əsas məqsədi Şah İsmayıl və oğlu Təhmasibin Karlos ilə yaratdığı diplomatik əlaqələri və hər iki tərəfdən göndərilən məktubları təhlil etməkdir. Bu tədqiqat işi əsli (qualitative) bir araşdırmadır və tədqiqat aparılarkən tədqiq-tərtib metodundan istifadə edilmişdir.

Bilindiyi kimi, 1501-ci ildə Səfəvilər dövləti qurulduqdan sonra dövlətin banisi Şah İsmayıl Osmanlı imperiyasına qarşı Avropanın xristian dövlətləri ilə ittifaq qurmaq niyyətində idi. (Cutillas, 2015). İspaniya kralı Karlos və Macarıstan kralı II Lüdviq də Osmanlılara qarşı ittifaq yaratmaq ümidi ilə Səfəvilərlə əlaqəyə keçmişdi (Lockhart, 1986). Macarıstan kralı Lüdviq bu məqsədilə Petrus de Monte Libano adlı rahibi Şah İsmayıla elçi olaraq göndərmişdi. İspaniya kralı Karlos da hələ Müqəddəs Roma imperatoru seçilməzdən əvvəl ittifaq yaratmaq məqsədilə Şah İsmayıla elçi göndərmişdi (Lockhart, 1986). Şah İsmayılın da bir elçisinin 1522-ci ildə Vyanaya gəlməsi ilə bağlı məlumatlar vardır (Truyol y Serra, 1980). Şah İsmayıl nəhayət 1523-cü ilin avqustunda imperator Karlosa latın dilində yazılmış bir məktub göndərərək Osmanlılara qarşı ittifaq yaratmaq niyyətini bildirdi (Lanz, 1844; Du Mans, 1890; Lockhart, 1986). Şah İsmayıl, Karlosa *"xristian qüvvələrinin türkləri əzmək üçün bir araya gəlmək əvəzinə öz aralarında vuruşmasına təəccübləndiyini bildirdikdən sonra onu qüvvələrini səfərbər etməyə və ümumi düşmənə hücum etməyə"* çağırır (Lockhart, 1986). Şah İsmayıl *"sizdən xahiş edirəm ki, səylərinizdə çox ciddi olasınız və ümumi düşmənə qarşı hərəkətə keçəsiniz, aprel ayında həm siz, həm də biz Osmanlı türklərinin padşahına eyni anda hücum edək"* təklifini edir (Lanz, 1844). Lakin bu məktub Şah İsmayılın ölümündən (1524) sonra ünvanına - imperator Karlosa – çatmışdır (Mehrad, 2012).

İmperator Karlos da öz növbəsində Səfəvilərə cavab məktubu göndərmişdir, lakin Şah İsmayılın ölümündən xəbərsiz olduğundan bu məktubu yeni taxta çıxan Şah Təhmasibə deyil, Şah İsmayıla ünvanlamışdır (Mehrad, 2012). 1525-ci il avqustun 25-də Toledoda qələmə alınan bu məktubda İmperator Karlos Osmanlılara qarşı ortaq ittifaq yaratmağa hazır olduğunu bildirir və bu mövzuda daha ətraflı danışıqlar aparılmasını tələb edir. Məktubda imperator Karlos, Şah İsmayıla müraciətlə *"böyük kral, əziz qardaşım, keçən il Peter Maronita de Monte Libano bizə sizin hüzurunuzdan məktublar gətirdi"* deyir (Lanz, 1844). Buradan da anlaşıldığı kimi, Şah

İsmayıl türklərə qarşı ittifaq yaratmaq üçün 1523-cü ildə Petrus de Monte Libanonu həm Macarıstan kralı Lüdviq, həm də imperator Karlosa göndərmişdi (Slaby, 2005; Palombini, 1968; Babinger, 1932; Schuster-Walser, 1970). Bu məktubdan görünür ki, Karlos da bu təklifi qəbul edib, lakin o, Şah İsmayılın ölümündən o zaman xəbərsiz olub və bu yazışmalardan konkret nəticə əldə olunmayıb (Lanz, 1844).

İmperator Karlos 1529-cu il fevralın 15-də Səfəvilərə növbəti məktub göndərdi. Lakin o, bu məktubu Şah Təhmasibə yox, Şah İsmayıla ünvanlamışdır (Lanz, 1844) Görünür, Şah İsmayılın ölüm xəbəri 1529-cu ilin fevralına qədər hələ də imperator Karlosa çatmamışdır (Mehrad, 2012). Səfəvilərə göndərilən elçi bu məktubda da adı çəkilən İohan Balbi idi. İmperator məktubda İohann Balbinin onun adından söyləyəcəyi sözlərə hörmət edilməsini istəyir. İmperator Karlos 1529-cu il fevralın 18-də isə Şah İsmayıla danışıqlarla bağlı İohann Balbiyə verdiyi göstərişləri özündə əks etdirən məktub da göndərmişdir (Lanz, 1844). İmperator Karlos məktubda növbəti il qardaşı Ferdinandla birlikdə Osmanlı ölkəsinə hücum edəcəyini bildirir, Şahın isə digər cəbhədən onlara hücum etməsini istəyirdi. Beləcə onlar ortaq hücumla Osmanlıları məğlub etmək fürsəti əldə edəcəkdilər. Lakin İohan Balbi bir ildən çox müddətə Səfəvilər ölkəsinə çata bildi və bu müddət ərzində vəziyyət tamamilə dəyişdi. Məhz, *"Özbəklər İranı şərqdən təhdid etdikləri üçün Şah Sultanla barışmalı oldu və Balbinin bütün cəhdləri nəticəsiz qaldı"* (Slaby, 2005).

Səfəvilər dövlətinin ispanlarla qurduğu təmasları çərçivəsində imperator V Karlın Şah İsmayıla, Şahın isə V Karla göndərdiyi məktublardan anlaşılmaqdadır ki, hər iki tərəf Osmanlı İmperatorluğuna qarşı birləşmək və ümumi düşmənə qarşı iki cəbhədən hücum etmək fikrinə müsbət yanaşmış, lakin uzaq məsafə və mövcud siyasi vəziyyət səbəbindən bu cəhdlərdən müsbət nəticə ala bilməmişlər. Bu təmaslar zamanı hər iki tərəfdən qarşılıqlı elçilər gəlib-getmişdir. Mənbələrdə adı çəkilməyən elçilərlə olmaqla yanaşı, adı zikr edilən Petrus de Monte Libano, İohann Balbi kimi elçilərin bu diplomatik münasibətlərdə mühüm rol oynadığı görülməkdədir. Daha əvvəl Avropa və İranda bu mövzuda aparılmış tədqiqatlar olsa da, İspaniya və Habsburqların hökm sürmüş olduğu digər Avropa ölkələri arxivlərinin tədqiqatçılar tərəfindən yenidən araşdırılması və yeni tarixi sənədlərin gün üzünə çıxarılması bu mövzunun daha da işıqlandırılmasına xidmət edəcəkdir.

**Ədəbiyyat:**

1. Cutillas, J. (2015), Did Shah ʿAbbās I have a Mediterranean policy? *Journal of Persianate Studies, 8*(2), 254-275.

2. Lanz, K. (Ed.). (1844). *Correspondenz des Kaisers Karl V (1513-1532).* F. A. Brockhaus.

3. Lockhart, L. (1986). European Contacts with Persia 1350-1736. in P. Jackson & L. Lockhart (Eds.). *The Cambridge History of Iran: The Timurid and Safavid Period.* (Vol. 6, pp. 373-411). Cambridge: Cambridge University Press,

4. Mehrad, N. (2012). Relaciones Diplomáticas entre la Persia Safávida y la España de Felipe III: el caso de la primera embajada. *Libros de la Corte*. *4*(4), 22-47.

5. Truyol y Serra, A. (1980). *Tratados internacionales de España: Carlos V: II-España-Norte de Africa*. Consejo Superior de Investigaciones Cientificas Press.

6. Slaby, H. (2005). Austria i. Relations with Persia. In E. Yarshater (Ed.), *Encyclopædia Iranica*. Encyclopædia Iranica Foundation. https://www.iranicaonline.org/articles/austria-1

7. Du Mans, P. R. (1890). *Estat de la Perse en 1660*, E. Leroux.

8. Babinger, F. (1932). *Sherleiana*, Gedruckt in der Reichsdruckerei.

9. Palombini V. B. (1968). *Bündniswerben abendländischer Mächte um Persien 1453-1600*. F. Steiner.

10. Schuster-Walser, S. (1970). *Das Safawidische Persien im Spiegel europäischer Reisebilder (1502-1722)*. Baden-Baden.

## AVROPA İTTİFAQI XARİCİ SİYASƏTİNİN NEOREALİST PERSPEKTİVDƏN ANALİZİ

**Qədirov Anar Məhəmməd**
**Bakı Dövlət Universiteti**
**anar.qedirov.96@gmail.com**

## ANALYSIS OF THE FOREIGN POLICY OF THE EUROPEAN UNION FROM A NEOREALIST PERSPECTIVE

**Gadirov Anar Mahammad**
**Baku State University**
**anar.qedirov.96@gmail.com**

### Summary

The issue of development of interstate cooperation has long been the main topic of discussion of many theoretical approaches. The idea of creating a model of the European Union and applying it to other regions as a precedent, which is the main criticism of the supporters of the neorealist idea, causes a new wave of debate. In recent times, the existence of the question of the direction in which integration within the Union will move, as well as the growing trends of military-political instability in the region, have again returned realistic ideas to the agenda. Different approaches, such as the collapse of the USSR, the expansionist policy of the Union towards independent states, or, conversely, distanced behavior, on the one hand, accelerated the integration process, and on the other hand, led to a clash of spheres of influence. From this point of view, the analysis of these changes in the balance in the European region from the standpoint of neorealism is the purpose of the study.

**Keywords:** European Union, integration, neorealism, security.

## АНАЛИЗ ВНЕШНЕЙ ПОЛИТИКИ ЕВРОПЕЙСКОГО СОЮЗА С НЕОРЕАЛИСТИЧЕСКОЙ ПЕРСПЕКТИВЫ

**Гадиров Анар Мухаммед**
**Бакинский Государственный Университет**
**anar.qedirov.96@gmail.com**

## Резюме

Вопрос развития межгосударственного сотрудничества долгое время был главной темой обсуждения многих теоретических подходов. Идея создания модели Европейского союза и применения ее к другим регионам в качестве прецедента, являющаяся основной критикой сторонников неореалистической идеи, вызывает новую волну дебатов. В новейшее время наличие вопроса о том, в каком направлении будет продвигаться интеграция внутри Союза, а также нарастание тенденций военно-политической нестабильности в регионе вновь вернули на повестку дня реалистические идеи. Разные подходы, такие как распад СССР, экспансионистская политика Союза в сторону независимых государств или, наоборот, дистанцированное поведение, с одной стороны, ускорили интеграционный процесс, а с другой - привели к столкновению сфер влияние. С этой точки зрения анализ указанных изменений баланса в Европейском регионе с позиций неореализма и является целью исследования.



**Ключевые слова**: Евросоюз, интеграция, неореализм, безопасность.


Tarix boyu nəzəri debatların əsasını təşkil edən dövlət davranışlarının səbəblərinin analizi məsələsi günümüzdə də öz aktuallığını saxlamaqdadır. Bu baxımdan dövlətlərin əməkdaşlığa, yoxsa rəqabətə meylli olması sualının cavablandırılmasında müxtəlif fikirlərə istinad edilməkdədir. Bu baxımdan bütün mühüm debatların bir tərəfini təşkil edən (neo) realistlər zamanla tənqidlərlə üzləşmiş, bəzən öz fikirlərində bir sıra düzəlişlər etməli olmuşlar. Tənqidlərdə ən çox müzakirə edilən mövzu olaraq Avropa inteqrasiyasının, qısaca Avropa İttifaqının seçilməsi də təsadüfi hal deyildir. Tədqiqat işində Aİ modelinin izahında bir sıra fikirlərin müzakirəsində, xüsusilə mövzu üzrə araşdırmalar aparmış şəxslərdən K. Volts, C. Merşaymer kimi mütəfəkkirlərin mülahizələrindən çıxışlar təqdim edilərək sonda ümumi nəticə təqdim edilmişdir.

Avropa İttifaqı kimi bir qurumun həm təşkilati strukturunu, həm də bu struktura yönəlik istiqamətlərini nəzərə alsaq, neorealizmin fərziyyələri baxımından ilk baxışda Aİ-ni tam izah etməkdə problemləri olduğu təəssüratı yaradır. Bu problemlərdən birincisi ondan ibarətdir ki, beynəlxalq sistemin anarxik quruluşuna baxmayaraq, Aİ ölkələri öz aralarında millətlərüstü xüsusiyyətlərə malik inkişaf etmiş inteqrasiya səviyyəsinə nail olublar. Başqa sözlə desək, Aİ özünü millətüstü xüsusiyyətlərinə görə iyerarxik model kimi göstərməsə də, beynəlxalq sistem daxilində qiymətləndirildikdə, anarxik quruluşun zərurətləri ətrafında fəaliyyətini həyata keçirən bir aktor kimi görünür.

İkincisi: neorealistlərin "yüksək siyasət" (high policy) olaraq xarakterizə etdikləri təhlükəsizlik anlayışını və bu anlayışı gücün təyin etməsi fikrinin əksinə olaraq, Aİ "aşağı siyasət" (law policy) adlanan kommersiya-iqtisadi əsaslı bir ideya əsasında formalaşmışdır. Bu səbəbdən də o, hərbi və sərt güc anlayışları ilə deyil, "vətəndaş cəmiyyəti", "normativ güc" kimi anlayışlarla səciyyələndirilmişdir.

Ancaq bu o demək deyildir ki, neorealistlərə görə dövlətlərarası əməkdaşlıq mümkün deyil, əksinə onlara görə bipolyar sistemlərdə əməkdaşlığın daha asan ola biləcəyi ifadə edilməkdədir. Aİ-nin meydana gəlməsini izah edərkən Volts çoxqütblü quruluşdan ikiqütblü quruluşa keçidin İkinci Dünya Müharibəsindən sonra Avropa dövlətlərinin bir araya gəlməsində təsirli olduğunu qeyd edərək, Sovet və Amerika qüvvələrinin yaratdığı təhlükənin dərk edilməsinin bu əməkdaşlığın əsasını qoyduğuna diqqət çəkib. Çünki Valtz iddia edirdi ki, ikiqütblü strukturda Avropa dövlətləri ABŞ və SSRİ kimi fövqəlgüclərin kölgəsində qaldıqları üçün "təhlükəsizlik istehlakçı-

larına” çevriliblər və bütün Avropa təhlükəsizliyi bu iki gücün siyasətindən asılıdır. O, bu yeni şərtlərdə müharibənin faydasız olduğunu və “ümumi maraqlar” ətrafında fəaliyyət göstərməyin onlara fayda verəcəyini görüb əməkdaşlığa üz tutduqları fikrini müdafiə edirdi (Ahmadli və Taşıran, 2020). Eynilə, Merşaymer NATO-nun meydana gəlməsini izah edərkən, NATO-nun “Soyuq Müharibə dövründə Avropada hakimiyyətin ikiqütblü bölüşdürülməsinin təzahürü” olduğunu iddia edərək, bəzi əməkdaşlıq modellərinin məhdud da olsa, bipolyar strukturlarda mümkün ola biləcəyini bildirmişdir (Mearsheimer, 2014).

NATO-nun ikiqütblü quruluşda qurulması nümunəsinə əsaslandıqda görürük ki, xüsusilə təhlükəsizlik yönümlü bir quruluş olduğu üçün Avropa dövlətlərinin təhlükəsizlik narahatlıqlarını xeyli azaldır və bütün Avropada əməkdaşlıq təşəbbüslərini asanlaşdırır. Bu baxımdan ABŞ-ın regional inkişafa yönəlmiş Marşal planı ilə yardımların göndərilməsi Avropa dövlətlərini əməkdaşlığa sövq edən başqa bir hadisə oldu. Bu mühüm hadisələrin təsiri ilə Avropa dövlətləri əməkdaşlığa rasional amil kimi baxdılar və Hayd Praysın təbirincə desək, “müharibədən çox “rifah” üçün daha çox vəsait ayıra bildilər”. Bu məqamda neorealistlər Avropada bu cür əməkdaşlığı izah edərkən ABŞ-ın təsirindən və bu təsir ətrafında formalaşan anlayışlardan, həmçinin bipolyar quruluşdan da bəhs edirlər (Hyde-Price, 2006).

Bu mövzuda Amerika hegemonluğunun xüsusilə Qərbi Avropa dövlətləri üzərində Avropaya verdiyi təhlükəsizlik qalxanı ilə coğrafiyada mümkün təhlükəsizlik dilemması problemini minimuma endirdiyini iddia edən neorealistlər, Amerika hegemonluğunun Avropa ölkələri arasında əməkdaşlığın formalaşmasına təsirlərini müzakirə edərkən maddi təminat və ikiqütblü quruluşun əhəmiyyətini xüsusi qeyd edirlər. Neorealizmin Soyuq Müharibə dövründə AB-nin formalaşma prosesi və beynəlxalq konyukturadakı mövqeyi ilə bağlı müəyyən baxışları olsa da, bu prosesə xas təhlillərin məhdud olduğunu deyə bilərik (Özdal, 2013). Bununla belə, görünür ki, neorealistlərin ən çox diqqət yetirdiyi mövzu OTMS (Ortaq Təhlükəsizlik və Müdafiə Siyasəti) və bu siyasətin təhlükəsizlik və müdafiə uzantısı olan OTMS-nin yaranması və məqsədləridir (Turan, 2010). Xüsusilə Soyuq Müharibədən sonra formalaşan birqütblü beynəlxalq sistemdə OTMS və OTMS-nin təhlükəsizlik və xarici siyasət sahələrində inkişaf etdiriləcək ümumi məqsəd və yanaşmalara uyğun olaraq mühüm prinsiplər qəbul etməyi qarşısına məqsəd qoyması faktını belə neorealizmin fərziyyələri baxımından izah etmək çətindir. Lakin bu siyasətlərin həyata keçirilməsində yaşanan problemlər, əsasən üzv ölkələrin milli maraqlarındakı fərqliliklərdən irəli gələrək zaman keçdikcə bu fərziyyələrin doğruluğunu göstərdi. Bu məsələ ilə bağlı neorealistlərin fikirlərinə keçməzdən əvvəl dövrün beynəlxalq konyukturasının Aİ üçün nə demək olduğuna qısaca toxunmaq mövzunun bütövlüyü baxımından daha faydalı olardı.

Soyuq müharibənin başa çatması ilə beynəlxalq arenada AB üçün üç mühüm problem ortaya çıxdı. Bunlardan birincisi SSRİ-nin dağılması ilə müstəqillik əldə etmiş Şərqi Avropa ölkələrinin “Avropaya qayıtmaq”, Avropa dəyərlərinə inteqrasiya etmək istəyidir. İkincisi, Balkan coğrafiyasında Yuqoslaviyanın parçalanması ilə ortaya çıxan böhranlar və bu böhranlarla şübhə altına alınan AB-nin normativ-mülki güc strukturunun effektivliyidir. Üçüncüsü, neorealist nəzəriyyə üçün önəmli olan ABŞ-ın 11 sentyabrdan sonra qəbul etdiyi hərbi qüdrətlə yeni strukturda digər ölkələr

arasında “çıxması” və beynəlxalq sistemdə təhlükəsizlik narahatlığını artırmasıdır (Mearsheimer, 2013).

Xüsusilə, Soyuq Müharibə dövründə və AB-nin yaranma prosesində üzv dövlətlərin ən böyük dəstəkçisi və müttəfiqi olan ABŞ-ın Soyuq Müharibənin sonunda əldə etdiyi uğur, mövcud gücünün daha da artmasına səbəb olmuşdur (BBC Documentary, 2014). Bu inkişafı neorealist nöqteyi-nəzərdən şərh etdikdə, yüksələn və rəqibsiz bir gücə qarşı beynəlxalq sistemdə yeni balanslaşdırma siyasətini izləmək tamamilə mümkündür. Bu vəziyyət sistemdə yüksələn güc olduqda və aktorlar öz mövqelərini ölçməyə başlayanda bu gücü digər aktorlar tərəfindən “təbii motiv” kimi şərh edən Posenin fikrincə, bir aktorun yüksəlişi digər aktorların bütün qabiliyyətlərini səfərbər etməsi deməkdir. Odur ki, belə bir vəziyyətdə həm qlobal aktor kimi görünmək baxımından, həm də anarxik sistemdə etibarsızlığın artdığı bir dövrdə Aİ-nin özünə məxsus təhlükəsizlik mexanizmi axtarması çox vacibdir (Mearsheimer, 2014).

Həmçinin AB-nin Bosniya və Kosovo böhranları prosesində qeyri-adekvat olması və Avropa coğrafiyasında bu cür böhran və münaqişələrin regional qeyri-sabitliyə səbəb olacağından narahatlıq AB-ni böhranın idarə edilməsi üçün təcili və effektiv hərbi qüvvənin yaradılması kontekstində gündəmə gətirib. Bundan əlavə, böhranların yatırılmasında uğurlu təsiri ilə NATO-nun Avropada mövqelərini gücləndirməsi və ABŞ-ın NATO vasitəsilə Avropa təhlükəsizliyinə təsirini artırması kimi amillər AB-ni bu cür birləşmələrə sövq edən digər səbəb kimi çıxış edə bilər (Mearsheimer, 2015).

ABŞ mərkəzli təhlükəsizlik yanaşmasının AB ölkələri üçün ikiqütblü quruluşda ciddi problem yaratmayan başqa bir ölçüsü, xüsusilə Soyuq Müharibənin sona çatması ilə birlikdə şübhə altına alınmağa başlayan ABŞ-ın laqeyd münasibətdən duyduğu narahatçılıqdır. H. Praysa görə, 1990-cı illərdə AB Balkan coğrafiyasında böhranlara doğru gedərkən ABŞ-ın Yaxın Şərq və Şərqi Asiyaya üz tutması bu vəziyyətin mühüm göstəricisi idi (Turan, 2010). Bundan əlavə, ABŞ-ın laqeyd münasibətinin İttifaqda ABŞ-ın xarici siyasətinin “etibarsız” olması ilə bağlı fikirləri qidalandırması hətta Böyük Britaniya və Hollandiya kimi “atlantikçi” güclərdə belə transatlantik münasibətlərin uzunmüddətli təsirləri ilə bağlı narahatlıqları artırıb (Hyde-Price, 2006).

Bundan əlavə, H. Prays vurğulayır ki, Aİ-nin yeni dövrdə “balanslaşdırılmış çoxqütblülük” ilə səciyyələnməsi, ABŞ-ın bəyan etdiyi mövqe və onun etibarsız olması ilə bağlı fikirlər də Avropa İttifaqının formalaşmasına mühüm təsir göstərir. Avropada balanslaşdırılmış çoxqütblülüyün Almaniya, İngiltərə və Fransanın ABŞ və Rusiya ilə birlikdə yaratdığını iddia edən H. Prays, "Avropanın köhnə böyük gücləri köhnə rollarını yenidən kəşf etməyə başladılar" fikrini qeyd edərək güc bölgüsü səbəbindən əməkdaşlığın asanlaşdığını ifadə etmişdir. Çünki H. Praysa görə, Avropada qeyri-sabit çoxqütblü sistemin mövcudluğu potensial regional hegemon olma ehtimalını və bununla da qorxu və etibarsızlığı artıracaq (Hyde-Price, 2006; Mearsheimer, 2014).

Əslində, bu arqumentlər Merşaymerin balanslaşdırılmış çoxqütblülüyünün balanssız çoxqütblülükdən daha az, ikiqütblülükdən isə daha çox qorxu və narahatlığa səbəb olduğunu, qorxu və narahatlıq artdıqda dövlətlərin bir-birləri haqqında ən pis fərziyyələri ön plana çıxararaq öz aqressiv qabiliyyətlərinə diqqət yetirdiyini iddia edən təhlilinə uyğundur.

Aİ-nin OTMS tipli təşəbbüsləri ilə bağlı neorealistlərin başqa bir baxışı neorealizm üçün çox vacib olan güc və maraq kimi anlayışların "nisbi" qiymətləndirilməsi ilə bağlıdır. Xüsusilə XXI əsrin əvvəlləri ilə Asiya Sakit Okean və Latın Amerikası ölkələrində müşahidə olunan iqtisadi və hərbi yüksəliş və bunun təbii nəticəsi olaraq beynəlxalq sistemin çoxqütblüyə çevrilməsi halının mövcud olması ilə birlikdə Avropa coğrafiyasındakı çöküşün sürətlənməsi kimi fikirləri daha da artırmışdır. Bu baxımdan bir çox neorealist baxışlar Avropanın nisbi tənəzzülünün OTMS kimi ortaq əməkdaşlıq və təhlükəsizlik məsələlərinə sistemli təsir göstərdiyini və bu tənəzzülün birgə əməkdaşlıq təşəbbüsləri ilə aradan qaldırılmasının arzu edildiyini ifadə etmişdir.

Bütün bu inkişaflara və nəzəri yanaşmalara əsaslanaraq, əvvəla, Aİ-nin ümumi xarici siyasət və özünəməxsus təhlükəsizlik siyasəti hazırlamaq cəhdlərinə baxmayaraq, üzv dövlətlərin neorealizmin proqnozlaşdırdığı kimi öz milli maraqlarını və suveren hüquqlarını qorumağa davam etdiyi görünür. Bu vəziyyət Aİ-nin OTMS çərçivəsində fəaliyyət göstərməsini çətinləşdirir və onun hökumətlərarası səviyyədə fəaliyyət göstərməsinə və bu sahədən çıxa bilməməsinə səbəb olur. İkincisi, yenə neorealizmin proqnozlarına uyğun olaraq, Avropa coğrafiyasında bipolyar quruluşda ön plana çıxmayan təhlükəsizlik rəqabəti Soyuq Müharibənin sona çatması ilə birlikdə yüksələn aktorlarla yenidən görünməyə başladı. Məsələn, Ukraynada 2004-cü ildə narıncı inqilabla başlayan və Ukrayna böhranı ilə davam edən Aİ-Rusiya qarşıdurmasının, xüsusilə enerji məsələsi də diqqətə alındıqda, Mərkəzi və Şərqi Avropa oxunda təhlükəsizlik rəqabətini daha da gücləndirə biləcəyini söyləmək mümkündür.

**Ədəbiyyat:**

1. Ahmadli K., və Taşıran, C., (2020), "Ukrayna Krizi Bağlamında Avrupa Birliği Tarafından Rusya'ya Uygulanan Yaptırımlar ve Etkileri", Ekonomi ve Sosyal Araştırmalar Dergisi, s.125-138.
2. BBC Documentary (2014) – Cold War series, Marshal Plan, Source
3. Castellum. Al, (2022), Russia Sanctions Dashboard, https://www.castellum.ai/russia-sanctions-dashboard
4. EU response to Russia's invasion of Ukraine, statistics: https://www.consilium.europa.eu/en/policies/eu-response-ukraine-invasion/
5. Hyde-Price, A., (2006), "Normative Power Europe: A Realist Critique", Journal of European Public Policy, p.217-234.
6. Mearsheimer, J., (2015), "Structural Realism", https://youtu.be/RXllDh6rD18
7. Mearsheimer, J., (2014), "Why the Ukraine Crisis Is the West's Fault", Foreign Affairs, p.1-12.
8. Özdal, H. (2013) "AB ve Rusya Arasında Ukrayna: Hayaller ve Gerçekler", USAK Analiz, s.1-15.
9. Özdal, H., Özertem, H. S., Has, K., və Yegin, M., (2014), "Ukrayna Siyasi Krizinde Rusya ve Batının Tutumu", USAK Analiz, s.1-22.
Furthermore, the research concluded that the label mentioned in this study is a clear Orientalist approach as the appearance of this label is all about managing the integration process of the newly established countries after the USSR collapse. Justifying that without supervision the lack of experience in socio-political affairs will be a problem for those countries.

*Table 1.*

*Breakup of Soviet Union More Harmful Than Good?*

In general, did the breakup of the Soviet Union benefit or harm this country?

| | Benefit | Harm | Neither | Don't know/Refused |
|---|---|---|---|---|
| Total* | 24% | 51% | 15% | 11% |
| Armenia | 12% | 66% | 10% | 12% |
| Kyrgyzstan | 16% | 61% | 8% | 14% |
| Ukraine | 23% | 56% | 10% | 10% |
| Russia | 19% | 55% | 18% | 8% |
| Tajikistan | 27% | 52% | 12% | 10% |
| Moldova | 26% | 42% | 10% | 22% |
| Belarus | 26% | 38% | 15% | 21% |
| Georgia | 37% | 33% | 9% | 21% |
| Azerbaijan | 44% | 31% | 8% | 18% |
| Kazakhstan | 45% | 25% | 12% | 19% |
| Turkmenistan | 62% | 8% | 9% | 22% |

Surveys conducted in 2013.
*This question was not asked in Uzbekistan, Lithuania, Estonia, or Latvia, which were also part of the Soviet Union.

GALLUP

**References**:

1. Ergun, A. (2021). Citizenship, National Identity, and Nation-Building in Azerbaijan: Between the Legacy of the Past and the Spirit. *Nationalities Papers*, 1-18. doi:10.1017/nps. 2020.81

2. Fukuyama, F. (2019). *Identity: Contemporary Identity Politics and the Struggle for Recognition.* London: Profile Books Ltd.

*3. Gasımova, Mehriban. (2006). Azerbaycanda'da Milli Kimliğin Oluşumunda Dinin Rolü. [The Role of Religion in the Formation of National Identity] PhD diss., İlahiyyat Anabilim Dalı*

*Felsefe ve Din Bilimleri Dalı, Marmara Universitesi Sosyal Bilimler Enstitüsü, Istanbul: Marmara Universitesi.* https://tez.yok.gov.tr/UlusalTezMerkezi/tezSorguSonucYeni.jsp

4. Huseynov, E., & Mokhtar, T. M. (2019, 06 24). critique of Tadeusz Swietochowski's works on the Azerbaijan Democratic Republic (1918-1920) under the prism of Edward Said's Orientalism. *IIUM Journal of Religion and Civilisational Studies (IJRCS), 2 (1)*, 24-38. Retrieved from https://journals.iium.edu.my/irkh/index.php/ijrcs/article/view/56

5. Kobrinskaya, I. (2007). The Post-Soviet Space: From the USSR to the Commonwealth of Independent States and Beyond. In K. V. Malfliet, *The CIS, the EU and Russia* (pp. 13-21). London: Palgrave Macmillan. doi:https://doi.org/10.1057/97802302109982

6. Putin, V. (2021, 12 12). *rbc.ru*. Retrieved from rbc.ru: https://www.rbc.ru/politics/ 12/12/2021 /61b5e7b79a7947689a33f5fe

7. Said, E. (1979). *Orientalism.* New York: Vintage Books.

*8.* Swietochowski, Tadeusz*. (1985).* Russian Azerbaijan 1905-1920: The Shaping of National Identity in a Muslim Community. *Cambridge: Cambridge University Press.*

9. The Gallup Organization. (2013). Washington, D.C.: Gallup Organization. Poll: "Former Soviet Countries See More Harm From Breakup" [Web.] Retrieved from the https://news.gallup.com/poll/166538/formersoviet-countries-harm-breakup.aspx

10. Vəliyev, O. (2022, February). www.milliyyet.info. Retrieved from https://milliyyet.info: https://milliyyet.info/mill%c9%99tcilik/n%c9%99-ucun-az%c9%99rbaycan-mill%c9%99tciliyi/
- (2020). Azərbaycan Millətçiliyi. Bakı: Milliyyət Araşdırmalar Mərkəzi.

## BAKI-TBİLİSİ-CEYHAN ƏFSANƏDƏN REALLIĞA ÇEVRİLƏN LAYİHƏ

**Xalıqova Gülşən Kamil**
**Qərbi Kaspi Universiteti**
**https://orcid.org/0000-0002-6017-9247**
**xaliqova.gulshen@mail.ru**

## BAKU-TBILISI-CEYHAN A PROJECT THAT TURNED FROM LEGEND TO REALITY

**Khaligova Gulshan Kamil**
**Western Caspian University**
**https://orcid.org/0000-0002-6017-9247**
**xaliqova.gulshen@mail.ru**

### Summary

In the late 1980 s and early 1990s, the collapse of the USSR accelerated. Azerbaijan got the freedom and independence it longed for a long time. The main issue was to protect and strengthen freedom and independence. The political crisis in the country, the Armenian separatists in Karabakh and the military forces of Armenia carried out

ethnic cleansing against Azerbaijanis, exposing them to the utmost. Nagorno-Karabakh and 7 districts around it were occupied. All Azerbaijanis were also expelled from Western Azerbaijan. Moreover, Turks from Uzbekistan also brought shelter to Azerbaijan. The number of refugees in our country was more than 1 million. In such a situation, saving the young Republic of Azerbaijan from destruction was an urgent issue. In such a situation, National leader Heydar Aliyev saved Azerbaijan from a difficult situation.

In the first years of its independence, the Republic of Azerbaijan faced very difficult problems. Internal political crisis, economic recession, strengthening of Armenian separatism in Karabakh, expansion of Armenia's aggression against our republic, etc. These problems posed a threat to the independence of our Republic.

**Keywords:** Baku-Tbilisi-Ceyhan, Southern Gas Corridor, energy corridor, SOFAZ.

## БАКУ-ТИБИЛИСИ-ДЖЕЙХАН-ПРОЕКТ, ПРЕВРАТИВЩИЙСЯ ИЗ ЛЕГЕНДЫ В РЕАЛЬНОСТЬ

**Халигова Гюльшан Камил**
**Западно-Каспийский Университет**
**https://orcid.org/0000-0002-6017-9247**
**xaliqova.gulshen@mail.ru**

### Резюме

В конце 1980-х – начале 1990-х распад СССР ускорился. Азербайджан получил свободу и независимость, к которым давно стремился. Главным вопросом была защита и укрепление свободы и независимости. Политический кризис в стране, армянские сепаратисты в Карабахе и вооруженные силы Армении провели этническую чистку против азербайджанцев, максимально разоблачив их. Нагорный Карабах и 7 районов вокруг него были оккупированы. Все азербайджанцы также были изгнаны из Западного Азербайджана. Более того, турки- из Узбекистана также нашли в Азербайджане приют. Число беженцев в нашей стране превысило 1 миллион человек. В такой ситуации спасение молодой Азербайджанской Республики от уничтожения было актуальным вопросом. В такой ситуации общенациональный лидер Гейдар Алиев спас Азербайджан от тяжелого положения. В первые годы своей независимости Азербайджанская Республика столкнулась с очень сложными проблемами. Внутриполитический кризис, экономический спад, усиление армянского сепаратизма в Карабахе, расширение агрессии Армении против нашей республики и т.д. Эти проблемы представляли угрозу независимости нашей Республики. Чтобы сохранить молодое государство, необходимо было выявить главное звено. Президент Республики Гейдар Алиев правильно определил это в нужное время. В этой области были разработана и реализована нефтяная стратегия республики, проведены планомерные и неотложные организационные мероприятия, которые довели проект Баку-Тбилиси-Джейхан от легенды к реальности.

**Ключевые слова**: Баку-Тбилиси-Джейхан, Южный газовый коридор, энергетический коридор, ГНФАР.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi altında 1994-cü il sentyabrın 20-də Bakıda bağlanılan "Əsrin müqaviləsi" Müstəqil Azərbaycanın həyatında cahanşümül bir hadisə oldu. Neft strategiyası Azərbaycanın gələcək inkişafının təməlinə çevrildi, Azərbaycanı Cənubi Qafqazda hegimon qüvvəyə çevirdi. Heydər Əliyevin sərf etdiyi nəhəng əməyin nəticəsi olaraq Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) ilə ABŞ, Böyük Britaniya , Norveç Rusiya, Türkiyə Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersium arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq", "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş ("Əsrin müqaviləsi") imzalandı. Razılığa görə investisiyanın 80% ni konsersuma qoyur.

Azərbaycanın ümumi gəliri çıxarılacaq neftin qiymətinin 80% miqdarında müəyyən olunurdu. Azərbaycan xalqının Ümummilli liderinin planlaşdırdığı işlər addım-addım həyata keçirilirdi. Hasil edilən neft Bakı-Novorossiysk (1997), Bakı Supsa (1999), neft kəmərləri istifadəyə verildi. Lakin, neft ixracı üçün daha iri həcmli neft kəmərinə ehtiyac duyulurdu. (Abbasov, Həsənov, 1999). Ona görə də 1999-cu il noyabrın 18-də İstanbulda Azərbaycan, Gürcüstan, Türkiyə dövlətləri arasında Bakı-Tibilisi-Ceyhan əsas boru kəmərinin çəkilməsi barədə saziş imzalandı (Abbasov, 2005). 2002-ci il avqustun 1-də bu kəmərin tikilməsi və idarə edilməsi üçün BTC KO şirkəti təsis olundu. 2002-ci il sentyabrın 18-də kəmərin təməli qoyuldu.(Abdullayev, 2004). Lakin BTC artıq gerçəkləşməkdə ikən kəmərin bədxahları yenə rahatlıq tapa bilmir, hər vasitə ilə layihəyə əngəl törətmək istəyirdilər. Bir sıra qeyri-hökumət təşkilatları tikintiyə mane olmaq üçün yeni-yeni səbəblər uydururdular (Ahmedov, 2006). Bu dəfə kəmərin Gürcüstanın “Borjomi” mineral su mənbəyinə ekoloji cəhətdən guya zərbə vuracağı fikrini ortaya atdılar. Bu isə layihənin Ətraf Mühitə və Sosial Sahəyə Təsirin Qiymətləndirilməsi sənədlərinin imzalanmasını gecikdirdi. Hətta müxtəlif qruplar kəmərin inşasını maliyyələşdirəcək beynəlxalq qrumların ofisləri qarşısına toplaşaraq onun çəkilməsinə maliyyə vəsaiti ayrılmasına etiraz etdilər (Həsənov, 2005). Lakin Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev bu maneəni dəf etdi. 2003-cü ilin fevralında Vaşinqtonda keçirilən “Şərq-Qərb enerji dəhlizi reallıqdır” konfransı öz işini davam etdirdiyi günlərdə Azərbaycan xalqının Ümummilli lider Beynəlxalq Maliyyə Korporasiyasının , BTC-yə kredit verəcək digər qrumların rəhbərləri ilə görüşdü. Bütün bunlar layihənin irəliləməsinə təkan verdi. (Керимов, 1997). 2004-cü ilin fevralında Bakıda Gülüstan sarayında Prezident İlham Əliyevin iştirakı ilə BTC-nin maliyyələşməsinə aid son sənədlər imzalandı və bu problem tamamilə həll olundu. 2005-ci il mayın 25-də kəmərə Səngəçal terminalındakı baş nasos stansiyasından ilk neft vuruldu. 2006-cı ilin mayın 28-də BTC-nin daşıdığı neft Ceyhan terminalına daxil oldu. Həmin il iyulun 13-də kəmərin tam sistem kimi işə düşməsi münasibəti ilə Türkiyədə təntənəli keçirildi (Atakişiyev M.C., 2003). Prezident İlham Əliyev BTC-nin salnaməsini müvəffəqiyyətlə davam etdirir. Öz yaradıcısı Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu kəmər 16 ilə yaxındır Xəzər neftini dünya bazarına təhlükəsiz, etibarlı, ekoloji standartlar baxımından minimum risklə nəql edir. Atakişiyev, 2004). BTC bütün regionun həyatında vacib rol oynayır. Uzunluğu 1768 km olan bu neft kəməri ərazisindən keçdiyi üç ölkənin Azərbaycanın, Gürcüstanın, Türkiyənin sakinlərinin halını xeyli yaxşılaşdırıb. Kəmər Azərbaycana böyük mənfəətlər gətirib və gətirməkdə davam edir. Həmin vəsait Azərbaycan Respublikası Dövlət Neft Fonduna (ARDNF) daxil olur, ölkənin ən zəruri sosial-iqtisadi problemlərinin həllinə yönəldilir. (Aslanlı, 2014) İstifadəyə veriləndən 2022-ci ilin birinci rübünün sonunadək BTC vasitəsi ilə ümumilikdə təqribən 509 milyon tondan çox (3,82 milyard barel) xam neft nəql edilib və Ceyhan limanından 5007 tankerə yüklənərək dünya bazarına göndərilib. Hal-hazırda kəmər ölkəmizdən əsasən “Azəri-Çıraq-Günəşli” nefti və “Şahdəniz” kondensatı daşıyır. Bundan əlavə bu kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləridə nəql olunur. Məhz buna görə də, onun regionunun neft ixracı arteriyası adlandırırlar. (Алиев, 210)

Tezisdə irəli sürülən elmi mülahizələr aşağıdakı nəticələrin əldə olunmasına göstəricidir:

1. Bakı-Tibilisi-Ceyhan kəməri Azərbaycan Respublikasına Avropa ölkələrinin iqtisadiyyatı ilə sıx bağlayan bir “polad kəmər”dir. Çünki, bu kəmər Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynamış və oynamaqdadır.

2. Bakı-Tibilisi-Ceyhan kəmərinin çəkilişi və istifadəsinin müsbət nəticələri , növbəti nəhəng beynəlxalq layihələrin həyata keçirilməsi üçün yol açdı.

3. Bakı-Tibilisi-Ceyhan neft kəməri Azərbaycanın beynəlxalq enerji ailəsinə daxil etdi.

4. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin əsasını qoyduğu neft strategiyası onun varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi. Nəticədə Şahdəniz II mərhələ Cənubi Qafqaz boru kəməri, TANAP, TAP və s. kimi layihələr gerçəkləşdi. Rusiya ilə Ukrayna arasında davam etməkdə hərbi əməliyyatlar Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rolu daha artırdı.

**Ədəbiyyat**:


1. Abbasbəyli A., E.Həsənov Azərbaycan beynəlxalq münasibətlər sistemində / A.Abbasbəyli, E.Həsənov - Bakı: -Azərnəşr 1999. -5 s.
2. Abbasov Ç.M. Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları./ Bakı: -Elm, 2005, - 252 s.
3. Abdullayev V.İ. Sülh və sabitlik prezidenti. / Bakı: - Təhsil, 2004, - 279 s.
4. Axmetov D. Yaxın vaxtlarda Qazaxıstan BTC-yə qoşula bilər. http://az.trend.az/ capital/ energy/823525.html 6 Mayıs 2006, [09.11.2011].
5. Andican A. “Kafkasya ile İlişkiler”, Türk Dış Politikası 1919-2008, Barış Platin Yayınları, Ankara, 2008.
6. Aras O.N., Süleymanov E. Azərbaycan iqtisadiyyatı. II nəşr / O.Aras, E.Süleymanov Bakı: - Şərq-Qərb, 2016, - 426 s.
7. Atakişiyev M.C. Azərbaycan sosial-iqtisadi tərəqqi yolunda. / M.Atakişiyev - Bakı: - Təhsil, - 2003, 264 s.
8. Atakişiyev M.C. Azərbaycanın yeni neft strategiyası və iqtisadi yüksəliş. / M.Atakişiyev - Bakı: - Azərbaycan, - 2004, 264 s.
9. Алиев Н.А. Нефть и нефтяной фактор в экономике Азербайджана в XXI веке / Н .Алиев Баку: Letter press, 2010, - 243 с.
10. Ağacan K. Değişen Dünya Düzeninde Kafkasya: ABD’nin Kafkasya Politikası, Kitabevi Yayınları / K.Ağacan, - İstanbul - 2005.
11. Aslanlı A. Geosiyasi Rəqabət və Geoiqtisadi Maraqlar Zəminində Xəzər Hövzəsinin “Qordi Düyünü”, Xəzərin statusu və Transxəzər əməkdaşlığı kontekstində İran-Azərbaycan münasibətləri. / A.Aslanlı – Bakı:- 2014, - 47 s.
12. Керимов М.З. Нефть и море. / М Керимов Баку:- Элм, 1997, - 73 с.
13. Bayramoğlu B. Kafkasya’da Büyük güçlerin enerji rekabeti: Gürcistan örneği [2002-2016]. Ankara, 2019, - 111 s.
14. Cafersoy N. Elçibey Dönemi Azerbaycan Dış Politikası [Haziran 1992-Haziran 1993], ASAM Yayınları, Ankara, - 2001.

15. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. İkinci kitab. Bakı: -"Azərbaycan" nəşriyyatı, 1997, - 264 s.

## CƏNUBİ QAFQAZ ÖLKƏLƏRİNDƏ XARİCİ SİYASƏTİN AVROPAYA İNTEQRASİYA PROSESİ

**Qasımova Könül Arif**
**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**
**https://orcid.org/0000-0003-2585-454X**
**gasimovakonulz@gmail.com**

## INTEGRATION PROCESS OF FOREIGN POLICY IN THE SOUTH CAUCASUS COUNTRIES TO EUROPE

**Gasimova Konul Arif**
**The Academy of Public Administration under the President of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0003-2585-454X**
**gasimovakonulz@gmail.com**

**Summary**

The article examines the prerequisites and essence of the revision of the Europeanization policy, the features of the development of EU relations with the countries of the South Caucasus. The basis for considering the participation of EU countries in the study is that the EU is the most influential among the leading global actors whose interests are intertwined in the South Caucasus region. The study of the prerequisites for the integration of the countries of this region into Europe makes it possible to understand how the implementation of the EU policy meets the set goals and to what extent it contributes to achieving stability in one of the most unstable regions. The problem is considered on the basis of studying the models of development of relations between the countries of the South Caucasus, i.e. Azerbaijan, Georgia and Armenia. In particular, the documents adopted separately by each of the above countries with the European Union are considered, their weight and significance in the foreign policy pursued by them are determined. It was emphasized that the Republic of Azerbaijan, thanks to numerous initiatives and projects related to the main areas of development of the region, plays the leading role of the leader of the region here. In particular, it should be noted projects on energy resources, which have become even stronger linking the countries of Western and Eastern Europe and Azerbaijan.

**Keywords:** European Union, South Caucasus. Azerbaijan, Georgia, Armenia.

## ПРОЦЕСС ИНТЕГРАЦИИ ВНЕШНЕЙ ПОЛИТИКИ СТРАН ЮЖНОГО КАВКАЗА В ЕВРОПУ

**Гасымова Кёнуль Ариф**
**Академия Государственного Управления При Президенте Азербайджанской Республики**
**https://orcid.org/0000-0003-2585-454X**
**gasimovakonulz@gmail.com**

**Резюме**

В статье изучаются предпосылки и суть пересмотра политики европеизации, особенности развития отношений ЕС со странами Южного Кавказа. Основой рассмотрения участия стран Евросоюза в исследовании является то, что ЕС является наиболее влиятельным среди ведущих глобальных субъектов, чьи интересы переплетены в Южнокавказском регионе. Изучение предпосылок интеграции стран этого региона в Европу позволяет понять, насколько реализация политики ЕС отвечает поставленным целям и в какой степени способствует достижению стабильности в одном из наиболее нестабильных регионов. Проблема рассматривается на основе изучения моделей развития отношений между странами Южного Кавказа, т.е. Азербайджаном, Грузией и Арменией. В частности, рассмотрены документы, принятые в отдельности каждой из вышеуказанных стран с Европейским Союзом, определены их вес и значение во внешней политике, проводимой ими. Подчеркнуто, что Азербайджанская Республика, благодаря многочисленным инициативам и проектам, связанных с основными направлениями развития региона, играет здесь ведущую роль лидера региона. В частности, следует отметить проекты по энергоресурсам, которые еще крепче стали связывать страны Западной и Восточной Европы и Азербайджан.

**Ключевые слова:** Европейский союз, Южный Кавказ. Азербайджан, Грузия, Армения.

Tədqiqatın məqsədi Avropalaşma siyasətinin ilkin şərtləri və mahiyyətini müəyyən etmək, Avropa İttifaqının Cənubi Qafqazla əlaqələrinin inkişaf xüsusiyyətlərini işıqlandırmaqdır. Məlumdur ki, Avropa İttifaqı Cənubi Qafqazın xarici siyasətinə təsir edən ən nüfuzlu təşkilatlardan biridir. Cənubi Qafqaz ölkələri (Azərbaycan, Gürcüstan və Ermənistan) arasında münasibətlərin inkişaf modellərinin tədqiqi Avropa İttifaqı siyasətinin həyata keçirilməsinin qarşıya qoyulan məqsədlərə nə dərəcədə cavab verdiyini və onun Azərbaycanda sabitliyin əldə olunmasına nə dərəcədə töhfə verdiyini müəyyən etməyə imkan verir.

Avropa İttifaqında ənənəvi olaraq Cənubi Qafqaz Şimaldan ayrıca nəzərdən keçirilir. Aİ-da üstünlük təşkil edən təsəvvürlərə görə Cənubi Qafqazın üç dövləti kifayət qədər ümumi maraqlara və problemlərə malikdirlər. Bundan başqa vahid region yaratmaq məqsədilə Cənubi Qafqaz şüurlu surətdə Şimaldan ayırması Rusiya tərəfindən onun daxili siyasətinə qarışmaq ittihamlarından qaçmaq istəyinin nəticəsidir. Buna baxmayaraq bir sıra analitiklərin rəylərinə görə Qafqaz regionunun bir tərəfdən Cənubi Qafqaz dövlətlərinin Rusiya ilə, digər tərəfdən İran və Türkiyə ilə mövcud olan güclü qarşılıqlı əlaqələr kontekstində ayrılması güman edilmir. Bu nöqteyi-nəzərdən Cənubi Qafqazı qarşılıqlı asılılıqdan, dostluq və ya ittifaq əlaqələrindən bəhs etdikdə bu terminin pozitiv mənada ayrıca region kimi baxılması çətinlik törədir. Cənubi Qafqaz daha çox Rusiya, Türkiyə və İranın rəqabət apardıqları və qismən də maraqları üst-üstə düşən ümumi kompleksin bir hissəsini təşkil edir. Bu zona gizli və aşkar ziddiyyətlərlə zəngindir (Xəzər dənizinin statusu barəsində mübahisələr, erməni-Azərbaycan münaqişəsi, Rusiya və Gürcüstan arasındakı ziddiyyətlər) (Хлопов О. А. Прикаспийский регион: транснациональное сотрудничество, Вестник МГУ, 2001, N. 4, c. 121.)

***Azərbaycan və Avropa İttifaqı*** arasında münasibətlərə gəldikdə demək olar ki, Azərbaycan Aİ-nin bir çox proqramlarında iştirak edir. 2014-cü ildə Azərbaycan Respublikası və Avropa İttifaqı arasında *Saziş* imzalanmışdır. Saziş Azərbaycan Respublikası Prezidentinin 30 sentyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş, 2016-cı il iyulun 6-da Avropa Parlamenti tərəfindən ratifikasiya edilmişdir.

Azərbaycan Respublikası ilə Aİ arasında viza rejiminin sadələşdirilməsi və icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında sazişlər müvafiq olaraq 29 noyabr 2013-cü il və 28 fevral 2014-cü il tarixlərində imzalanmışdır. Bu sazişlər Azərbaycan vətəndaşlarına, xüsusən də tez-tez səyahət edənlərə Avropa İttifaqının bir çox ölkələrinə daha asan və daha ucuz vizalarla səyahət etmək imkanı verir. Həmçinin, vizanın sadələşdirilməsi sazişinə əsasən təqaüdçülər, tədqiqatçılar, tələbələr, 12 yaşınadək uşaqlar viza rüsumlarından tamamilə azad hesab olunurlar. Qeyd edək ki, Aİ-nin *Erasmus+* proqramı 2015-2018-ci illər ərzində Azərbaycanda təxminən 1300 tələbə və professor-müəllim heyətinə Aİ ölkələrində təhsil almaq və ya dərs demək imkanı verib (https://stm.az/ru/publications/meqaleler/azerbaycann-xarici-siyasetinin-esas-prioritet-istiqametlerinden-biri-kimi-avropa-ittifaq-ile-munasibetlerin-inkiaf-perspektivleri-sosial aspektleri-i-hisse#_ftn6).

2013-cü il dekabrın 5-də Brüsseldə Azərbaycan Respublikası, Avropa İttifaqı və onun iştirakçı üzv dövlətləri arasında *Yerdəyişmə üzrə Tərəfdaşlıq barədə Birgə Bəyannamə* imzalanıb. Birgə Bəyannamə Azərbaycan Respublikası Prezidentinin 6 mart 2014-cü il tarixli 312 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. Birgə Bəyannamənin əsas məqsədi Azərbaycan Respublikası ilə Aİ arasında insanların gediş-gəlişini asanlaşdırmaq, miqrasiya axınlarını müvafiq beynəlxalq standartlara uyğun daha yaxşı idarə etmək və qeyri-qanuni miqrasiya ilə mübarizə sahəsində əməkdaşlığı genişləndirməkdir. (Qafqazda dövlətlərarası münasibətlər: 100 il əvvəl və müasir dövr / Relations between states in the Caucasus:100 years ago and contemporary period. 23-24 may 2018, Bakı/May 23-24, 2018, Baku. Elmi məruzələr / Scientific papers. 2 kitabda: 2-ci kitab. Bakı: MTM İnnovation, 2019.–464 səh.)

Aİ ölkələri Azərbaycanın əsas ticarət tərəfdaşları olmaqda davam edirlər. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin məlumatına görə 2018-ci ildə Avropa İttifaqı ölkələrinin Azərbaycan Respublikasının xarici ticarət dövriyyəsindəki payı 42 faizə yaxın, o cümlədən idxalda 20 faiz, ixracda isə 54 faiz təşkil edib. 2020-ci ildə ticarət dövriyyəsi 9,33 milyard dollar təşkil edib. Son səkkiz il ərzində Aİ Azərbaycana 20 milyard dollardan çox sərmayə qoyub (https://eeas.europa.eu/sites/default/files/eap_ factsheet_azerbaijan_en.pdf).

Onu da qeyd edək ki, Aİ-nin ölkəmizdəki missiyasının sosial islahatlar və milli prioritetlər üzrə fəaliyyəti ilə əlaqədar İttifaq Azərbaycan üçün 2021-2027-ci illər üçün Multiindikativ Proqramlaşdırma Proqramının icrası üzərində işləyir. Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər” dinamik, inklüziv və sosial ədalətli cəmiyyətin, rəqabətqabiliyyətli insan kapitalının və müasir innovasiya məkanının qurulması üçün həmin prioritetlərdən biridir. Bundan əlavə, 2021-ci ilin fevral ayında Avropa İttifaqı Azərbaycanda 131 layihəni nümayiş etdirən yeni www.eu4azerbaijan.eu internet saytını istifadəyə verib.

Azərbaycan Avropa məkanına sıx inteqrasiyanın zəruriliyi mövqeyindən çıxış edərək, Avropa İttifaqı ilə çoxtərəfli qarşılıqlı əlaqələr yaradıb. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələri TACIS, TRACECA kimi proqramlar çərçivəsində inkişaf edir.

2004-cü ildə Avropa İttifaqının şərqə doğru genişlənməsi ilə Azərbaycan Cənubi Qafqaz ölkəsi kimi "Daha Geniş Avropa" təşəbbüsü çərçivəsində Aİ-nin "Yeni Qonşuluq Siyasəti"nə daxil edilmişdir.

2017-ci ilin fevralında Aİ və Azərbaycan siyasi dialoqa və qarşılıqlı faydalı əməkdaşlığa yeni təkan vermək üçün nəzərdə tutulmuş yeni çərçivə sazişi üzrə danışıqlara başlayıb. Azərbaycan Aİ üçün mühüm enerji tərəfdaşıdır və Xəzər qazının Aİ bazarına çatdırılmasında əsas rol oynayır.

Ölkəmiz ilə Avropa İttifaqı tərəfindən 2006-cı ildə bağlanmış «Enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında» Anlaşma Memorandumu Avropa İttifaqının üzvü olan ölkələrin enerji mənbələri və nəqli yollarının çoxşaxəliliyinin həyata keçirilməsi, AR-da enerji infrastrukturunun tərəqqisinə və modernləşdirilməsinə, enerji sərvətlərindən səmərəli faydalanmasına və tükənməz enerji mənbələrindən yararlanmasına öz töhfəsini verəcəkdir. AR-nın Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı bağlanmış bu müqavilə AR ilə Avropa İttifaqı arasında enerji sahəsində dialoqun böyüdülməsinə və əlverişliliyinin artırılmasına qulluq etməkdən əlavə, Avropanın enerji təhlükəsizliyinin daha etibarlı formada təmin edilməsi üçün imkan yaratmışdır. Nəticədə, qiymətli kağızın əsas müddəalarını Avropa İttifaqının enerji təchizatının diversifikasiyası və təhlükəsizliyi təşkil edir. İndi enerji təchizatının diversifikasiyası Avropanın enerji təhlükəsizliyinin təmin olunmasının mühüm prinsiplərindən sayılır. Bu, bir daha beynəlxalq enerji təhlükəsizliyində Azərbaycanın yerinə və roluna böyük dəyər verilməsinin ifadəsi, həmçinin Azərbaycanın enerji infrastrukturunun inkişafı və modernləşdirilməsi, enerjidən əlverişli şəkildə istifadə, enerjiyə qənaət və bərpa edilən enerji mənbələrinin təzədən istifadəsi deməkdir. (Rzayeva, G. (2015), The Outlook for Azerbaijani Gas Supplies to Europe: Challenges and Perspectives, Oxford Energy Institute, Oxford)

***Avropa İttifaqı ilə Gürcüstan*** arasında 2014-cü ildə *Assosiasiya Sazişi* imzalanmışdır. Bu saziş imzalandıqdan sonra mədəni irsin mühafizəsi siyasətinin və qanunvericiliyin Avropa məkanına yaxınlaşması Gürcüstan üçün çox ümdə məsələyə çevrilmişdir. Bu baxımdan, sazişin təhsil və elm sahəsində hansı perspektivləri nəzərə alması təqdirəlayiqdir (http://www.parliament.ge/ge/ gavigot-meti-evrokavshirtan-asocirebis-shetanxmebis shesaxeb/associationagreement)

Assosiasiya sazişi Gürcüstanın təhsil və elm sahəsində Aİ siyasəti və təcrübəsi ilə yaxınlaşmasını nəzərdə tutur. Ali təhsilin keyfiyyətinin yüksəldilməsi, universitetlərin infrastrukturunun təkmilləşdirilməsi, yeni idarəetmə üsullarının tətbiqi və digər məsələlərdə Avropa təcrübəsinin paylaşılması, habelə mübadilə proqramlarının artırılması əsas diqqət mərkəzindədir. Müvafiq olaraq, gürcü tələbələr üçün Avropa təqaüdü və mübadilə proqramlarında iştirak keyfiyyətli Avropa təhsili üçün imkanlar yaradır ki, bu da öz növbəsində Gürcüstanın Avropa təhsil və elm məkanına inteqrasiyasını dəstəkləyir. Bununla belə, saziş tərəfdaş ölkələrin müvafiq proqramlarını gürcü alimləri üçün əlçatan edir, gürcü tədqiqatçılarının Aİ-nin tədqiqat proqramına cəlb edilməsini, birgə layihələrin həyata keçirilməsini, tədqiqatçıların mübadiləsini artırır.

Sazişin əsas mövzusu iqtisadi əməkdaşlıqdır. Eyni zamanda bəzi ziddiyyətli məqamlar da mövcuddur. Məsələn, Gürcüstan öz bazarını tamamilə Avropa idxalı üçün açıb, Aİ isə gürcü mallarının girişinə görə rüsum tətbiq etmək hüququnu özündə saxlayıb. Sonralar üzüm, tərəvəz,

meyvə, sitrus meyvələri üçün belə əlavə ödənişlər tətbiq olundu. Bundan əlavə, Aİ ölkələri öz mallarını Gürcüstana istənilən həcmdə idxal etmək imkanı əldə ediblər.

***Avropa İttifaqı və Ermənistan*** arasında münasibətlər *Hərtərəfli və Geniş Tərəfdaşlıq haqqında sazişə* əsaslanır.

Saziş 24 noyabr 2017-ci il tarixində Brüsseldə Ermənistanın xarici işlər naziri Edvard Nalbandyanla Avropa İttifaqı Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə ali komissarı Federica Mogherini tərəfindən imzalanıb və 2018-ci il iyunun 1-dən müvəqqəti əsaslarla tətbiq edilir.

Ermənistan 2004-cü ildən Avropa Qonşuluq Siyasətində, 2009-cu ildən isə Şərq Tərəfdaşlığında iştirak edir. Lakin 2013-cü ildə Ermənistan prezidenti Serj Sarkisyan Rusiyanın təşəbbüsü ilə yaradılmış Avrasiya İqtisadi İttifaqına (AİI) qoşulmağa üstünlük verərək Aİ ilə Assosiasiya Sazişi imzalamaqdan imtina edib.

Aİ ilə Ermənistan arasında rəsmi münasibətlər 1991-ci ildə, Ermənistan Sovet İttifaqından çıxaraq müstəqillik qazandıqdan sonra başlayıb. 2002-ci ildə Avropa Parlamenti Ermənistanın gələcəkdə potensial olaraq Aİ-yə üzv ola biləcəyini elan etdi. Aİ ilə Ermənistan arasında Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişi 2017-ci ildə imzalanıb. Ermənistan Avronest Parlament Assambleyasının, Avropa Şurasının, Aİ-nin Şərq Tərəfdaşlığı və Enerji Birliyinin üzvüdür. Avropa İttifaqının Ermənistandakı nümayəndəliyinin ofisi İrəvanda yerləşir. Ermənistanın Aİ ofisindəki nümayəndəliyi Brüsseldə yerləşir. 2013-cü ildən Aİ vətəndaşları Ermənistana vizasız giriş hüququndan istifadə edirlər. 2017-ci ildə Ermənistan Aİ-nin Şengen zonasına gedən Ermənistan vətəndaşları üçün viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqlara başlayıb. Həm Avropa Parlamenti, həm də Avropa Şurası erməni soyqırımını tanıyıb.

2017-ci ildə keçirilən illik ictimai rəy sorğusunun nəticələrinə görə, Azərbaycanda insanların Aİ-yə müsbət münasibəti artıb (2016-cı ildə 26%, 2017-ci ildə 47%). Sorğuda iştirak edən azərbaycanlıların 68%-i hesab edir ki, Aİ ilə Azərbaycan arasında münasibətlər yaxşıdır. Həmçinin azərbaycanlıların 51%-i Aİ-yə inanır. Müqayisə üçün qeyd edək ki, azərbaycanlıların 35 faizi BMT-yə, 26 faizi Avrasiya İqtisadi İttifaqına, 32 faizi isə NATO-ya inanır. Azərbaycanlıların 33%-i Aİ-nin maliyyə dəstəyindən xəbərdardır. Onların 65%-i bu dəstəyin effektiv olduğunu düşünür. Müqayisə üçün qeyd edək ki, bu suala regional cavab nisbəti 53% təşkil edir. 2020-ci ildə keçirilən rəy sorğusuna əsasən, Azərbaycan vətəndaşlarının 44%-i Avropa İttifaqına (Aİ) müsbət baxır. Bu rəqəm 2016-cı illə müqayisədə 17% çoxdur.

Gürcüstanın mədəni irsinin qorunmasında Avropa İttifaqının rolu təkcə nəzəri və hüquqi yardımla və Gürcüstanın Avropa Konvensiyalarına inteqrasiyası ilə məhdudlaşmır. Ölkənin həm maliyyə, həm də maddi-mənəvi irsi qarşısında duran vəzifələrin həllində avropalı ekspertlərin fəal iştirakını və praktiki dəstəyini təmin etmək üçün konkret addımlar atılmışdır. Məhz avropalı ekspertlərin köməyi və cəlb olunması ilə Aİ ölkələrinin (İtaliya, Fransa, İspaniya, Xorvatiya) təcrübəsinə əsaslanaraq, Gürcüstanın Mədəni İrs Abidələrinin və nümunələrinin ilkin qeydiyyatı işlənib hazırlanmışdır (Hillion C. 2013).

Avropa rəsmiləri bildirirlər ki, "məxməri inqilab"dan sonra Ermənistanda baş verən siyasi dəyişikliklər Ermənistan-Aİ münasibətlərinin daha da intensivləşməsinə xidmət edə bilər. Brüssel nümayəndələri həmçinin islahatlarda və hətta viza rejiminin liberallaşdırılmasında Ermənistana

maliyyə və texniki yardım üzrə danışıqların sürətləndirilməsinin mümkünlüyünü qeyd ediblər. Avropa Şurasının prezidenti Donald Tusk Ermənistanın baş naziri ilə birgə keçirdiyi brifinqdə bildirib ki, Aİ “daxili islahatlar üçün” Ermənistana maliyyə yardımını artırmağa hazırdır.

**Ədəbiyyat:**


1. Хлопов О. А. Прикаспийский регион: транснациональное сотрудничество, Вестник МГУ, 2001, N. 4, с. 121.
2. https://stm.az/ru/publications/meqaleler/azerbaycann-xarici-siyasetinin-esas-prioritet-istiqametlerinden-biri-kimi-avropa-ittifaq-ile-munasibetlerin-inkiaf-perspektivleri-sosial-aspektleri-i-hisse#_ftn6
3. Qafqazda dövlətlərarası münasibətlər:100 iləvvəl və müasir dövr/ Relations between states inthe Caucasus:100 years ago and contemporary period. 23-24 may 2018, Bakı/May 23-24, 2018, Baku. Elmi məruzələr / Scientific papers. 2 kitabda: 2-ci kitab. Bakı: MTM İnnovation, 2019. – 464 səh
4. https://eeas.europa.eu/sites/default/files/eap_factsheet_azerbaijan_en.pdf
5. Rzayeva, G. (2015), TheOutlook for Azerbaijani Gas Supplies to Europe: Challenges and Perspectives, Oxford Energy Institute, Oxford
6. http://www.parliament.ge/ge/gavigot-meti-evrokavshirtan-asocirebis-shetanxmebis-shesaxeb/associationagreement
7. Hillion C. (2013) The EU neighborhood competence under article 8 TEU // Policy paper 69, Jacques Delores Institute


## AZƏRBAYCANDA QADIN SİYASƏTİNİN HÜQUQİ-NORMATİV ƏSASLARI (1920-Cİ İLLƏR)


**Hüseynova Ləman Dünyamalı**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**leman_134@mail.ru**


## LEGAL AND NORMATIVE BASIS OF WOMEN'S POLICY IN AZERBAIJAN (1920s)


**Huseynova Laman Dunyamalı**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**leman_134@mail.ru**


### Summary


In the research work, the women's policy implemented by the Bolsheviks in the country after the establishment of the Soviet power in Azerbaijan in the 20s of the 20th century was reflected. The implementation of serious socio-political, educational, legal and normative measures in this field was mentioned as the main tasks of Soviet Russia. Special decisions were made regarding women's struggle for domestic freedom, improvement of women's legal protection. The legal and normative foundations of women in Azerbaijan were implemented according to the decrees

and decisions of Soviet Russia. Since women's understanding of rights in Azerbaijan is weaker than other rights, the pressure exerted on our country by the Bolsheviks was more serious. Decrees and decisions of the Congress of All-Russian Soviets, the decrees of the People's Health Commissariat, the decisions of the meeting of the Presidium of the ZSFSR CEC and the First Congress of Azerbaijan Working Women, as well as the materials of the national press of that time, were investigated based on the important facts. At the same time, documents belonging to the State Archives of Azerbaijan and Russia were used. The research work is important in terms of the study of the women's policy implemented by the Bolsheviks in the country after the establishment of the Soviet power in Azerbaijan in the 20s of the 20th century.

**Keywords:** Azerbaijan SSR, women's policy, freedom, law.

## ПРАВОВАЯ И НОРМАТИВНАЯ ОСНОВА ЖЕНСКОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ (1920-е гг.)

**Гусейнова Ляман Дуньямалы**

**Институт истории имени Аббасгулу Ага Бакиханова**

**leman_134@mail.ru**

### Резюме

В исследовательской работе нашло отражение проводимая большевиками в стране женская политика после установления советской власти в Азербайджане в 20-х годах 20 века. Осуществление серьезных общественно-политических, воспитательных, правовых и нормативных мероприятий в этой области называлось в качестве основных задач Советской России. Особые решения были приняты относительно борьбы женщин за бытовую свободу, улучшения правовой защиты женщин. Правовые и нормативные основы политики в отношении женщин в Азербайджане осуществлялись в соответствии с указами и решениями Советской России. Поскольку понимание прав женщин в Азербайджане было в сравнении с другими правами слабее, давление, оказываемое на нашу страну большевиками, было более серьезным. Постановления и решения Всероссийских съездов Советов, постановления Наркомздрава, постановления заседания Президиума ЦИК ЗСФСР и I съезда трудящихся женщин Азербайджана, а также материалы национальной печати того времени, были исследованы на основании важных фактов. При этом использовались документы из Государственных архивов Азербайджана и России. Исследовательская работа важна с точки зрения изучения женской политики, проводимой большевиками в стране после установления советской власти в Азербайджане в 20-х годах 20-го века.

**Ключевые слова:** Азербайджанская ССР, женская политика, свобода, закон.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci ildə qəbul etdiyi İstiqlal Bəyannaməsi ilə müsəlman Şərqində ilk dəfə olaraq qadınlara seçki hüququnun verilməsindən sonra sovet hakimiyyətinin ilk illərində yeridilən qadın siyasətinin ideoloji, sosial və siyasi məzmununu araşdırmaq maraq dairəmdə olmuşdur. Bəhs olunan dövrdə qadın siyasətinə dair yazılmış əsərlər əsasən sovet dövrünə aiddir və rəsmi siyasət kursuna uyğun yazılmışdır. Müstəqillik dövründə yazılmış əsərlərdə XX əsrin 20-ci illərindən bəhs olunsa da, bu dövrdəki qadın siyasəti konkret elmi tədqiqat mövzusu kimi işlənməmişdir. Qadınların hüququ status məsələsi sovet dövründə olduğu kimi çağdaş dövrümüzdə də aktual məsələlərdəndir. Tezisin tarixi, müqayisəli, struktur-funksional təhlili aparılmış, kompleks yanaşma metodlarından istifadə olunmuşdur.

1920-ci ilin aprel çevrilişindən sonra Azərbaycanda qadın siyasəti Sovet Rusiyasının siyasi planına uyğun həyata keçirilməyə başlandı. SSRİ Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin

Sovet Şərqinin milli respublika və vilayətlərində yaşayan xalqlara müraciətində işçi qadınların hüquqları haqqında qeyd olunan məsələlər Sovet Rusiyasının qadın siyasətini əks etdirirdi. Bu müraciətdə Şərqin qadınına iqtisadi, hüquqi, ailə və məişət həyatında tam azadlıq uğrunda onun azadlıq mübarizəsinə kömək etmək məqsədilə SSRİ Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti sovet qanunvericiliyində öz ifadəsini tapmış qadın hüquqlarınını təqdim etmişdir (Северного Кафказа и Закафказья. 1917-1936 г. (Сборник документов и материалов). Москва 1979).

Qadınların İqtisadi Quruluşa cəlb edilməsi haqqında Ümumrusiya Sovetlərin 8-ci qurultayının qərarında (1920-1921 dekabr-yanvar) qadınların partiya və sovet işlərində iştirakının artırılması məsələsini gündəmə gətirildi. 1920-ci il 28 dekabr tarixli qərarında qadın işçi qüvvələrindən məqsədəuyğun istifadə edilmədən sənayenin, nəqliyyatın və kənd təsərrüfatının yenidən qurulması, planlaşdırılmış vahid ümumi iqtisadi planı həyata keçirmək mümkün olmaması qeyd olunurdu («Российская политическая энциклопедия», Москва, 2004).

Azərbaycanda qadın, uşaq, ana hüquqlarının qorunmasında respublikanın Xalq Səhiyyə Komissarlığında "Analığın və körpəliyin mühafizəsi" xüsusi idarəsinin yaradılmasını nəzərdə tutan "Azərbaycanda analıq və körpəliyin mühafizəsi haqqında" fərman böyük əhəmiyyət kəsb edirdi. Fərmanda deyilir, - ananın sağlamlığının yaxşılaşdırılması, mədəni səviyyəsinin və maddi rifahının yüksəldilməsi, nəhayət, onun işinin tənzimlənməsi məqsədilə praktiki və qanunvericilik xarakteri daşıyan tədbirlər həyata keçirilməlidir (Северного Кафказа и Закафказья. 1917-1936 г. (Сборник документов и материалов). Москва 1979). Xalq Maarif Komissarlığının məktəb və məktəbəqədər yaşlı uşaq evlərinin köçürülməsi haqqında 15 may 1920-ci il fərmanında Sosial Təminat Komissarlığının yenidən təşkili ilə əlaqədar olaraq, məktəb və məktəbəqədər yaşlı uşaq evləri, uşaq bağçaları və oyun meydançaları və uşaqların sosial təminatı Xalq Maarif Komissarlığının tabeliyinə verilməsi qeyd olunur (Azərbaycan Respublikası Dövlət Arxivi, f.410, siy.1, iş.3).

8 fevral 1921-ci ildə keçirilən Azərbaycan zəhmətkeş qadınlarının I Qurultayında "Ana və uşağın mühafizəsi" haqqında bir sıra məsələlər müzakirə olunmuşdur. N.Nərimanov qurultayda salamlama nitqi ilə çıxış etdikdən sonra Quba, Gəncə, Göyçay rayonlarının nümayəndələri olan Zəhrabskova, Adekiyev, Məmmədxanzadə qurultayda çıxış etdilər: "İndiyə qədər müsəlman qadının qonşusunun həyatından belə xəbəri yox idi. İndi isə bütün ölkənin problemlərini və ehtiyaclarını həll edə biləcək. Şərqin bütün qadınları bizdən qurtuluş gözləyirlər" ("Бакинский рабочий" qəzeti, 1921).

Belə ki, Qurultayda Zeytlinin məruzəsi dinlənildikdən sonra qeyd olundu ki, analığın və körpəliyin mühafizəsi ümumi proletar məsələdir, bu məsələnin həlli gələcək sovet və kommunizm siyasətindən asılıdır ("Kommunist" qəzeti,1921). I qurultayda şura hökümətinin işçi qadınlar arasında işləmək işi ilk zamanlarda olduğuna görə onlar ancaq təbliğat mahiyyətli idi. Ona görə də qurultaylara gəlmiş qadınlar hələ az təşkilatlanmışdılar. Çünki Sovet Rusiyasının qadın siyasətinin gələcək planlarından xəbərsiz idilər.

RKP (b) MK Qafqaz Bürosunun iclasının Azərbaycan, Ermənistan, Gürcüstan, Dağıstan, Dağlıq Respublikası, Abxaziya peşəkar təşkilatlarının nümayəndələri və Əlahiddə Qafqaz Ordusu hissələrinin siyasi işçilərinə 12-14 avqust 1921-ci il tarixində verilən qərarda Şərq qadınlarını kommunist ideyalarının təsir dairəsinə cəlb etmək məqsədi ilə işin dirçəldilməsinin təcili aktuallığı

vurğulanırdı (ARDA, f. 379, s. 1, iş. 7486). Oktyabr İnqilabının 10 illiyinə çağırılan Azərbaycan qadınlarının qurultayında isə Şura Hökuməti siyasətinin ən mühüm məsələləri konkret olaraq müzakirəyə qoyulmuşdur ("Şərq qadını" jurnalı,1927).

1920-ci illərin ortalarında Azərbaycan SSR Xalq Ədliyyə Komissarlığı qadınların hüquqlarının müdafiəsi ilə bağlı qanunvericilik aktları hazırlayıb həyata keçirdi. Qadın hüquqlarına dair qanunvericiliyin təbliği məqsədilə mərkəzdə və yerlərdə dini təəssübkeşlikdən irəli gələn və s. işlərə dair məşğələlər keçirilmişdir. 3 min tirajla türk dilində çap olunan "Qadın hüququ" adlı broşürdə hüquqi müddəaların ifadəsi yer alırdı. Qadın azadlığı ilə mübarizə məsələləri əsasən "Şərq qadını" jurnalının səhifələrində mütəmadi olaraq işıqlandırılırdı.

Azərbaycan jurnal və qəzetlərinin səhifələrində Azərbaycan qadınının hüquqi statusu, "keçmişin qalıqlarına" qarşı mübarizə məsələləri geniş işıqlandırılırdı. Belə ki, 1926-cı ilin ikinci yarısında "Şərq qadın" jurnalında, "Bakinskiy raboçiy" qəzetində qadın siyasəti ilə bağlı sistemli şəkildə məqalələr dərc olunurdu: "Nikah yaşına çatmayanlarla nikah haqqında", "Qızların qaçırılması haqqında", "Nikah yaşı haqqında" və s. Bakıda və rayonlarda qadınların yığıncaqları keçirilir, iclaslarda qadınların sovet qanunları ilə bağlı hüquqları, nikah haqqında və s. mövzularda məruzələr dinlənilirdi (ARDA, f.379, s.1, iş.1509). Respublikada nikah yaşının müəyyən edilməsi haqqında qərar 7 mart 1923-cü ildə qadınlar üçün nikah yaşı 16, kişilər üçün isə 18 yaş təsdiq edildi. Nikah yaşının müəyyən edilməsi haqqında AZ MİK Rəyasət Heyətinin 1926-ci il 30 oktyabr tarixli qərarında isə təsdiq olundu (ARDA f.379.s.1.iş.1878.).

Məişət cinayətlərinə qarşı qanunvericilik aktlarının həyata keçirilməsi ilə bağlı müxtəlif formalı metodlardan istifadə edilirdi. Xalq Məhkəmələrində, Əməkçi qadın Bürosunda qadınlara hüquqi kömək göstərilirdi. 1928-ci ilin martın 3-də Azərbaycan SSR MİK Rəyasət Heyəti qadınlara qarşı məişət cinayətlərinə qarşı mübarizə yolunda bir sıra təkliflər irəli sürdü. Sənəddə göstərilirdi ki, Azərbaycanda qadınlara qarşı törədilən cinayətlər, əsasən, ölüm hadisələridir (ARDA f.379.s.1.iş.1878.). ZSFSR MSK Rəyasət Heyətinin iclasında (3 sentyabr 1928) artıq qadın siyasətinin ideoloji prinsipləri daha geniş şəkildə müzakirəyə qoyulmuşdur. ZSFSR MSK Rəyasət Heyətinin iclasında məişət cinayətlərinə dair bır sıra qərarlar qəbul edildi (Госуда́рственный архи́в Росси́йской Федера́ции, ф. 3316, оп.20, д.37).

Bu dövrdə dini təqiblərin bariz nümunəsini "Kommunist" qəzetində dərc edilmiş məqalələrdə görə bilərik. Belə ki, 1929-cu ildə bu qəzetdə "Rədd olsun çadra", "Məhv olsun çadra", "Çadraçılara firqədə yer yoxdur", "Tyatorda çadra olmaz", "Qadın azadlığı düşmənləri", "Şadrasını atmış qadınlar mədəni yaşayış quruluşunda", "Əsarət çuvalı-qara çadranın son günləri", "Çadraçılara qarşı mübarizə güclənməlidir", "Çadra meydandan çəkilir", "500 çadrasız qadın!", "Məhv olsun çadra və məscid!", "Çadra xəstəlik yuvasıdır", "Çadranın zərərləri", "Papağın zərərləri" və s. kimi məqalələr dərc olunmuşdur ("Kommunist" qəzeti, 1929).

Beləliklə, XX əsrin 20-ci illərin sonlarına qədər Cənubi Qafqaz respublikalarında, habelə, Azərbaycan SSR-də həyata keçirilən qurultaylarda, iclaslarda müzakirə olunan məsələlər hələ də tam şəkildə öz həllini tapmamışdır. Buna səbəb ilk öncə Sovet Rusiyasının xalqların adət-ənənələrini, dini bağlılıqlarını nəzərə almadan radikal qərarların verməsi idi. Azərbaycanda təbliğat işləri Zaqafqaziyanın digər respublikalarına nisbətən zəif idi. Bu prosesin müvəffəqiyyətli

prosesinə xalqın öz adət-ənənlərinə, dinə bağımlılığı əngəl törədirdi. Araşdırma XX əsrin 20-ci illərində Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bolşeviklərin ölkədə həyata keçirdiyi qadın siyasətinin tədqiqi baxımından əhəmiyyətlidir.

**Ədəbiyyat**:


1. ARDA f.379.s.1.iş.1878. 13 v. (1 v)
2. ARDA, f. 379, s. 1, iş. 7486, v.248
3. ARDA, f.379, s.1, iş.1509, v.18-25
4. ARDA f.410, siy.1, iş.3. v. 9
5. Çadra xəstəlik yuvasıdır. “Kommunist” qəz., 1929, 21 fevral, № 43 (2549), 3 s.
6. “Kommunist” qəz. Bakı. 19 yanvar 1921.
7. İşçi və kəndli qadınların Azərbaycan qurultayına dair. “Şərq qadını” jurnalı. 1927, avqust-sentyabr.
8. Бакинский рабочий , 10 февраля 1921.
9. Великий Октябрь и раскрепощение женщин. Северного Кафказа и Закафказья. 1917-1936 г. (Сборник документов и материалов). Москва 1979, 350 с.
10. Госуда́рственный архи́в Росси́йской Федера́ции, ф. 3316, оп. 20, д. 37, .л . 58-59. (Rusiya Federasiyası Dövlət Arxivi)
11. Декреты Советской власти. Т. XVI, - М.: «Российская политическая энциклопедия», Москва 2004, 592 с.


## CƏNUBİ QAFQAZ YENİ DÖNƏMDƏ: YENİ PERSPEKTİVLƏR VƏ İNKİŞAF


**Mustafayeva Leyla Mühəddin**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-5228-5202**
**leilamustafayevaaa@gmail.com**


## SOUTH CAUCASUS IN A NEW ERA: NEW PERSPECTIVES AND DEVELOPMENT


**Mustafayeva Leyla Muhaddin**
**Baku State University**
**https://orcid.org/0000-0001-5228-5202**
**leilamustafayevaaa@gmail.com**


### Summary


The dynamics of recent political process show that a new political era is beginning in the South Caucasus region, and Azerbaijan acts directly as guarantor of security in the region. The crimes committed by Armenians against Azerbaijan, put into question the security issues in the region as a whole. With the second Karabakh war, Azerbaijan restored its territorial integrity and restored historical justice. Under the leadership of. President Ilham Aliyev, our army created for conditions the emergence of a new era in the South Caucasus. Ilham Aliyev, Charles Michel and

Nicol Pashinyan discussed the recent events in the South Caucasus and the relations between the European Union and the countries of both regions. The need for the Brussels meeting to take place after the “Revenge” operation was that the Armenian side understood the realities. Although the Brussels meeting was necessitated by new geopolitical processes, it was generally successful for Azerbaijan.

**Keywords:** South Caucasus, Security, Karabakh, Azerbaijan, Perspectives.

## ЮЖНЫЙ КАВКАЗ В НОВУЮ ЭПОХУ: НОВЫЕ ПЕРСПЕКТИВЫ И РАЗВИТИЕ

**Мустафаева Лейла Мухаддин**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0001-5228-5202**
**leilamustafayevaaa@gmail.com**

### Резюме

Динамика последних политических процессов показывает, что в регионе Южного Кавказа начинается новая политическая эра, и Азербайджан выступает непосредственно гарантом безопасности и мира в регионе. Совершенные армянами преступления против нашей страны, их безосновательные претензии, не укладывающиеся ни в какие правовые и моральные устои, фактически ставили под угрозой вопросы безопасности в регионе в целом. Со второй карабахской войной Азербайджан восстановил свою территориальную целостность и вместе с тем историческую справедливость. Очистка нашей армией исторических земель Азербайджана от армянских террористов под руководством господина Президента Ильхама Алиева создала условия для возникновения новой эпохи на Южном Кавказе. Заявление от 10 ноября подтвердило, что наше государство одержало победу не только в политической, но и в дипломатической сфере. Президент Ильхам Алиев, Председатель Совета Европейского союза Шарль Мишель и Премьер-министр Республики Армения Никол Пашинян обсудили последние события на Южном Кавказе, а также отношения между Европейским союзом и обеими странами региона. Необходимость проведения встречи в Брюсселе после операции “Реванш” заключалась в том, что армянская сторона понимала реалии. Хотя брюссельская встреча была вызвана новыми геополитическими процессами, в целом она прошла успешно для Азербайджана.

**Ключевые слова:** Южный Кавказ, безопасность, Карабах, Азербайджан, перспективы.

Mövzunun aktuallığın təkcə Cənubi Qafqaz regionunun geosiyasi və geostrateji baxımdan əhəmiyyətli regionda yerləşməsi ilə ölçülmür eyni zamanda son baş verən hadisələr, regionda Azərbaycanın II Qarabağ savaşında qalibiyyəti regional və beynəlxalq siyasi vəziyyəti dəyişməsi bağlıdır. Azərbaycanın Cənubi Qafqaz regionunda yerləşməsi və siyasi hadisələrin yeni inkişaf dinamikası fikrimcə mövzunun aktuallığını bir daha artırır.

II Qarabağ savaşından sonra Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıqlar meydana gəldi. Azərbaycan beynəlxalq arenada öz nüfuzu nümayiş etdirməkdən əlavə regionda təhlükəsizliyin qarantı kimi çıxış etdi. Ermənistanın Azərbaycana qarşı nümayiş etdirdiyi aqressiv, işğalçı mövqe regionda sülhə və təhlükəsizliyə hədə hesab olunurdu. Yeni reallıqları regionda təşviq edən Azərbaycan Ermənistanla sülh müqaviləsi bağlanmaq təklifi, sərhədlərimizin delimitasiya prosesinə başlamaq məsələləri əslində ölkəmizin region üçün sülhün nə qədər zəruri olduğunu anladığını özündə əks elətdirir. Azərbaycanın əsas niyyəti ərazi bütövlüyünün bərpası, sülh müqaviləsinin əsas prinsiplərinin həyata keçirilməsi ilə Cənubi Qafqazda sülhün və stabilliyin

dayanıqlı olmasıdır. Qarabağ zonasının işğaldan azad olunması orada bərpa-quruculuq işlərinin aparılması ilə bərabər Qafqaz regionunda təhlükəsizlik gündəliyini təşviq olunur. Ümumiyyətlə Azərbaycan tərəfinin əsas təşəbbüsünün kökündə təhlükəsizlik amili durur (Fereydoun Safizadeh, 1998).

Regionu ciddi təhlükə altına qoyan böyük problem illərdir Ermənistan tərəfinin təcavüzü və bunun ağır fəsadlarıdır (Əli Həsənov, 2005). Bəzi beynəlxalq oyunçuların Dağlıq Qarabağ məsələsində ikili mövqelərinin kəsişməsi təkcə ölkəmizin maraqlarını deyil, eyni zamanda regionda əmin-amanlığı sual altına qoyurdu (President criticizes Armenia, 2002). Azərbaycan Prezidentinin, cənab İlham Əliyevin regionun təhlükəsizliyinin təmini üçün dünya arenasında qoyduğu tələblər və bu tələblərin görməzdən gəlinməsi, Minsk qrupunun Dağlıq Qarabağ münaqişəsinə laqeydliyi məsələləri daha çətinləşdirirdi. Geosiyasi tarazlıq pozularkən, ölkəmizə ədalətsiz mövqe sərgilənərkən unutmamaq lazımdır ki, Azərbaycan bir çox transmilli layihələrin birbaşa iştirakçısı və projelərdə əsas rolu oynayır (Əli Həsənov, 2010). Avropanın enerji təhlükəsizliyində önəmli rol oynayan Cənub Qaz Dəhlizi, Trans-Adriatik Boru Kəməri kimi layihələr üzərində nəzarəti ələ keçirmək erməni terrorçu qruplaşmaların əsas hədəflərindən idi. Hadisələrin mahiyyəti onu göstərdi ki, belə özbaşınalığa qarşı heç bir ölkənin münasibətinin olmaması Ermənistanın güddüyü siyasi məqsədə - status-kvonun dəyişməz olaraq qalmasına, bu eskalasiyaya görə günahı Azərbaycanın üstünə atmaq cəhdlərinə, danışıqların tamamilə pozulmasına, üçüncü ölkələrin münaqişəyə cəlb edilməsinə və münaqişəni beynəlmiləlləşdirmək cəhdləri üçün çox münbit şərait yaradıb. Hadisələrin gedişatı onu göstərdi ki, Azərbaycanın hərb yolundan başqa ərazi bütövlüyünü təmin etməkdən başqa çarəsi qalmayıb ki, əslində bu məsələ realizmə görə olduqca ağlabatandır (Ağalar Abbasbəyli, 2007).

Geosiyasət təhlükəsizliyin və xarici siyasət istiqamətlərinin formalaşdırılmasında müxtəlif dərəcədə təsirlərə malikdir (Alexander Rondeli, 2000). Ümumiyyətlə Azərbaycan regional və beynəlxalq aktorlarla balanslaşdırılmış siyasət yürüdür (Zeyno Baran, 2002). Regionda ölkəmizin ən yaxın müttəfiqlərindən biri Gürcüstandır. İki ölkə arasında uğurlu əməkdaşlıq davam edir və bu əməkdaşlıq bütün sahələri əhatə edir. İlham Əliyev bildirib ki, Gürcüstanla Azərbaycan arasında təkcə yükdaşımaların həcmi bu il 75 faiz artıbdır. **Münasibətləri ortaq strateji maraqlara söykənir və hər iki xalqı bir-birinə dostluq, strateji əməkdaşlıq əlaqələri bağlayır.** Tbilisi ilə Bakı regional təhlükəsizliyin təmin olunması, iqtisadi maraqların uzlaşdırılması, siyasi münasibətlər sisteminin daha da təkmilləşdirilməsi kimi istiqamətlərdə sıx təmaslara malikdir. Azərbaycanla Gürcüstan arasında beynəlxalq təşkilatlar çərçivəsində də qarşılıqlı dəstək təcrübəsi mövcuddur. Region dövlətləri bir-birinin siyasətini beynəlxalq arenada dəstəkləyir.

Lakin son nəticədə xarici siyasət istiqamətinə mədəni təsir altında qütbləşmə var (Fereydoun Safizadeh,1998). AXC dövründə belə regionda və ölkə ərazisində kənar təsirlər məhdudlaşdırılmağa çalışıldı (Svante Cornell, 2001). Əsrlər boyu ermənilərin Qarabağ ərazisinə köçürməsi siyasəti bir başa regionda separatizmə dəstək vermə idi (Revaz Gachechiladze, 2002). Qeyd olunmalıdır ki, enerji təhlükəsizliyi təmini bütün xarici təhdidlərin və separatizmin qarşısını alır (Philip Petersen,1994). Azərbaycanın enerji təhlükəsizliyinin əsası əsrin müqaviləsi ilə qoyuldu (Elkhan Polukhov, 1997). Müxtəlif təxribatlar təşkil olunsa belə cəhdlər boşa çıxdı (Thomas Goltz, 1993).

Beləliklə, tarix göstərdi ki, ermənilərin maraqlı qüvvələrin təşkilatçılığı ilə Cənubi Qafqaz regionunda yaratmaq istədikləri təhlükəli siyasi mühit, separatizm cəhdləri boşa çıxdı (Edmund Herzig, 1999). Beynəlxalq təşkilatların regionda rolu o cümlədən ATƏT-in uğursuzluğa düçar oldu (John Maresca, 1996). Cənab Prezidentin dəmir yumruğu ilə nəinki dünya Azərbaycanı tanıdı, eyni zamanda Cənubi Qafqazda təhlükəsizliyin qarantı olduq. Regional təhlükəsizlik beynəlxalq təhlükəsizliyin ayrılmaz tərkib hissəsidir. Cənubi Qafqaz regionunda sabitlik konsepsiyası ilə təhlükəsizliyi təmin etmək mühüm rol oynayır. Yekun olaraq onu da qeyd etmək olar ki, II Qarabağ savaşı regiondakı geosiyasi reallıqları dəyişdi.

**Ədəbiyyat:**


1. Ağalar Abbasbəyli, Etibar Nəcəfov Beynəlxalq Münasibətlər Nəzəriyyəsi, Mürtəcim nəşriyyatı, Bakı 2007, s.19
2. Əli Həsənov Geosiyasət, Aypara nəşriyyatı, Bakı 2010 s.12
3. Əli Həsənov Müasir Beynəlxalq Münasibətlər və Azərbaycanın Xarici Siyasəti, Azərbaycan nəşriyyatı, Bakı 2005 s.20
4. “Azerbaijan losing hope of Karabakh peace settlement: President”, AFP, 28 September 2002; “Azerbaijan President criticises Armenia, Karabakh mediators”, RFE/RL, 19 February
5. Alexander Rondeli, “Regional Security Prospects in the Caucasus” New york-London: Routledge, 2000, p.49
6. Edmund Herzig, “The New Caucasus: Armenia, Azerbaijan and Georgia”, London: RIIA, Pinter, 1999, p.9
7. Elkhan Polukhov, On the ‘Contract of the Century’ and Aliyev’s ‘internationalization’ of Karabakh conflict see, “Contract of the Century”, Caucasian Regional Studies, 2/1, 1997
8. Fereydoun Safizadeh, “On Dilemmas of Identity in the Post-soviet republic of Azerbaijan”, Caucasian Regional Studies, 3/1, 1998
9. Jonathan Aves, “The Caucasus States: the Regional Security Complex”, in Roy Allison and Christoph Bluth (eds.), “Security Dilemmas in Russia and Eurasia”, London: RIIA, 1998, p.178.
10. John Maresca, “Why an OSCE Role in the Caucasus”, Security Dialogue, 27/1, 1996
11. Revaz Gachechiladze (2002), “Geopolitics in the South Caucasus: Local and External Players”, Geopolitics, Vol. 7(1), pp. 114-115
12. Svante Cornell, “Small Nations and Great Powers; A Study of Ethnopolitical Conflict in the Caucasus”, Richmond: RIIA, Curzon Press, 2001, p.89
13. Thomas Goltz, “Letter from Eurasia: The Hidden Russian Hand”, Foreign Policy, fall 1993, p.101.
14. Philip Petersen, “Security in Post-Soviet Transcaucasia”, European Security, 3/1, Spring 1994, pp.1-57
15. Zeyno Baran, “The Caucasus: Ten Years after Independence”, The Washington Quarterly, 25/1, 2002, p.223.

# RƏQƏMSAL MƏKANDA MÜƏLLİF HÜQUQLARI

**Orucova Məryəm Faiq**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-2486-8800**
**mariam.orudzhieva.98@mail.ru**

# COPYRIGHT IN THE DIGITAL SPACE

**Orujova Maryam Faig**
**Baku State University**
**https://orcid.org/0000-0003-2486-8800**
**mariam.orudzhieva.98@mail.ru**

## Summary

To date, it has become obvious that the digital environment is a relevant and, moreover, a progressive means of creating, demonstrating and using products of intellectual activity, moreover, someone else's. Over the past decades of its development, the Internet has turned into a global communication system. It has penetrated into all spheres of social life, largely changing public relations in the field of dissemination of information, commercial activities, provision of public services, etc. However, despite this, there are practically no special legal norms in the field of using the Internet. This study is aimed at considering the specifics of the functioning of copyright in the context of the widespread digitalization of society, in particular, the development of the global Internet. This article points to the fact that the control strategies of the copyright system need to be changed and improved in accordance with the specifics of the development of modern society and technology. The article also focuses on the main problems of creating a system for regulating copyright protection in the context of digitalization, as well as possible options for such a system. In fact, the problem of copyright in the digital environment is one of the main ones, because, given the enormous amount of information and anonymity, authorship can be lost or not be presented at all.

**Keywords**: copyright, digitalization, Internet, information, digital technologies.

# АВТОРСКИЕ ПРАВА В ЦИФРОВОМ ПРОСТРАНСТВЕ

**Оруджева Марьям Фаиг**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-2486-8800**
**mariam.orudzhieva.98@mail.ru**

## Резюме

На сегодняшний день стало очевидным, что цифровая среда – это актуальная и, более того, прогрессивное средство создания, демонстрации и использования продуктов интеллектуальной деятельности, причем, чужой. За последние десятилетия своего развития Интернет перевоплотился в глобальную \ коммуникационную систему. Он внедрился во все сферы социальной жизни, во многом изменив общественные отношения в области распространения информации, коммерческой деятельности, оказания государственных услуг и т.д. Впрочем, несмотря на это, практически отсутсвует специальных правовых норма в области применения Интернета. Данное исследование направлено на рассмотрение специфики функционирования авторского права в условиях повсеместной цифровизации жизни общества – в частности, развития глобальной сети

Интернет. В данной статье указывается на тот факт, что стратегии контроля системы авторского права необходимо изменять и совершенствовать в соответствие со спецификой развития современного общества и технологий. Также в статье уделяется внимание на основные проблемы создания системы регулирования охраны авторского права в условиях цифровизации, а также возможные варианты такой системы.. По сути, проблема авторского права в цифровой среде – одна из основных, поскольку, учитывая колоссальные объемы информации и анонимность, авторство может затеряться или же не быть представленным вообще.

**Ключевые слова**: авторское право, цифровизация, сеть Интернет, информация, цифровые технологии.

Bu gün müəllif hüququ öz inkişafının kritik mərhələsini - müəyyənedici xüsusiyyəti cəmiyyətin müxtəlif aspektlərinə təsir edən rəqəmsallaşmanın geniş yayılması olan mərhələni yaşayır. Sosial, siyasi, iqtisadi və texnoloji xarakterdə daimi dəyişikliklərin baş verdiyi indiki şəraitdə müəllif hüquqlarının müdafiəsi üçün heç olmasa müəyyən qədər səmərəli mexanizmin yaradılması son dərəcə çətin bir vəzifədir. (Иншакова, 2019).

İnternet yaranana qədər insanlara xidmət edən ənənəvi hüquqi mexanizmlər ona münasibətdə səmərəsizdir. Ümumdünya şəbəkəsinin fəaliyyətinin xüsusiyyətləri onun tənzimlənməsinə xüsusi yanaşma tələb edir. Eyni zamanda effektiv tənzimləmə üsulları axtarılarkən nəzərə almaq lazımdır ki, həddindən artıq sərt nəzarət sisteminin yaradılması cəmiyyətdə mənfi reaksiyaya səbəb olacaq və bu da öz növbəsində göstərilənlərin əksinə olan arzu olunmayan nəticələrə səbəb olacaqdır.

Qeyd etmək olar ki, internet daxilində onları maraqlandıran məlumatı ən aşağı qiymətə əldə etməkdə maraqlı olan istifadəçilərlə həm maddi nemətlər əldə etməkdə, həm də əsərlərini yaymaqda maraqlı olan müəllif hüquqları sahiblərinin maraqları arasında bir növ “müxalifət” mövcuddur (Кочубей, 2019). Müəllif hüquqları sahibləri üçün İnternet kommersiya platformasıdır və buna görə də müəllif hüquqlarının qorunması və gəlir əldə edilməsidir. Nəticə bəzən istifadəçilərin informasiyaya çıxışını məhdudlaşdıran ciddi tədbirlərin müəyyən edilməsidir - məsələn, idarəçilər tərəfindən istifadəçilərə ədəbi əsərin yalnız bir neçə səhifəsini oxumaq imkanı vermək kimi yanaşma mövcuddur. Bu cür tədbirlər ictimai mülkiyyətdə olan sənət və elmi əsərlərin əldə edilməsinə gəldikdə xüsusilə şübhəlidir.

Belə tədbirlərdən istifadə etməklə rəqəmsallaşma kontekstində müəllif hüquqlarının müdafiəsini tənzimləyən sistem yaratmaq olarmı? Bu suala müxtəlif cavablar verilə bilər, lakin birmənalı olaraq bir nəticə çıxarmaq olar - belə yanaşma, böyük ehtimalla cəmiyyətdə mənfi qarşılanacaq. İstifadəçilərin müxtəlif məlumatları sərbəst şəkildə bölüşmək istəyinin nəticəsi həm də müəllif hüquqları sahibinin hüquqların bir hissəsindən imtina etməsi olan "copyleft" anlayışının meydana çıxması idi - və beləliklə, "copyleft" anlayışı onlardan şəxsi məqsədlər üçün pulsuz istifadəyə şəraitin yaradılmasıdır. Lakin bu əsərlərdən maddi mənfəət üçün istifadə etmək qadağandır.

Lourens Lessiq kimi tədqiqatçı hesab edir ki, rəqəmsal resursların fəaliyyətinin həddən artıq sərt tənzimlənməsi sisteminin yaradılması əsərlərdən ədalətli istifadə hüquqlarının lazımsız şəkildə məhdudlaşdırılmasına mənfi təsir göstərə bilər. (Лессиг, 2007). Həqiqətən də İnternet insanlara incəsənət və elm sahəsində bəşəriyyətin ən müxtəlif nailiyyətləri ilə tanış olmaq imkanı verdi - və buna görə də yaradılan nəzarət sistemi elə qurulmalıdır ki, cəmiyyət üzvləri İnternet vasitəsilə bəşəriyyətin ən mühüm əsərlərlə tanış ola bilsinlər. Свободный обмен информацией и обеспечение доступа к знаниям представляют собой одни из наиболее важных предпосылок развития человечеств – ограничения, связанные с объектами авторского

права, разумеется, должны иметь место быть– но их применение должно быть разумным, учитывающим особенности функционирования информационной сети и развития социума

Geniş rəqəmsallaşma və internet məkanının işləməsi şəraitində müəllif hüquqlarının müdafiəsi sisteminin inkişafının hansı yollarla gedə biləcəyini nəzərdən keçirək.

Seçimlərdən biri açıq lisenziyaların inkişafına təsir göstərən qeyri-kommersiya təşkilatlarının fəaliyyətinin təşviq edilməsidir. Belə təşkilatlar müəllif hüquqları obyektlərinin "rəqəmsal potensialının" təkmilləşdirilməsini təmin edən hüquqi və texnoloji sistem təşkil edir. Xüsusilə, Norveçdə fəaliyyəti informasiya texnologiyaları sahəsində işlə bağlı olan təşkilatlar qonorarın müəyyən hissəsini ödəməkdən azad edilir, hüquq sahibinin əmlak itkiləri isə Norveç dövlətinin büdcəsi hesabına ödənilir (Братусь 2015). Şəxsi qeyri-əmlak müəllif hüquqlarının yüksək əhəmiyyətini qeyd etmək xüsusilə vacibdir. Əsərdən sərbəst istifadə edən istehlakçı onun müəllifinin kim olduğunu qeyd etməyi öhdəsinə götürür və əgər əsərdə dəyişiklik etmək istəyirsə, müəlliflə də əlaqə saxlamalıdır. Beləliklə, müəllifin maddi mənfəət əldə etmək imkanı yoxdur, lakin şöhrət, populyarlıq qazana bilər. Eyni zamanda onu da qeyd edək ki, əsərinə sərbəst giriş açan müəllif lisenziyanı ləğv edə bilər, lakin əsəri ləğv etmək və internetdə yayılmasını tənzimləmək son dərəcə çətin olacaq.

İnternetdə mədəni irsə pulsuz çıxışı təmin edən açıq saytlar da fəaliyyət göstərə bilər - bu, xüsusən də kitabxanaların internet resurslarıdır. Bu kitabxanalar istifadəçilərə onlarda saxlanılan rəqəmsal materiallara daxil olmaq imkanı verir.

Beləliklə, yekunlaşdıraraq deyə bilərik ki, rəqəmsal texnologiyaların aktiv inkişafı davam edir və bunun arxasında hazırkı şəraitdə müəllif hüquqlarının qorunmasının yeni üsullarının yaradılması dayanır. Ən mühüm problemlərdən biri odur ki, texnoloji tərəqqinin sürəti rəqəmsal mühit daxilində effektiv hüquqi nəzarət sistemi yaratmağa vaxt vermir və buna görə də müəllif hüquqlarının qorunmasına, eləcə də onların insanların həyatının bütün sahələrinin geniş şəkildə rəqəmsallaşması dövründə dəyişikliklərə məruz qala bilən müəllif hüququ anlayışına yeni yanaşmanın formalaşdırılması tamamilə zəruridir.

**Ədəbiyyat:**

1. Иншакова О. И.(2019) Право и информационно-технологические преобразования обще-ственных отношений в условиях индустрии Правовая парадигма. №4. С. 6-17.

2. Кочубей Т.А.(2019) Развитие системы интеллектуальных прав в России: эволюционный аспект и современные тенденции. Правовая парадигма. № 3. С. 101-106.

3. Лессиг Л. (2007) Свободная культура. М.: Прагматика Культуры, 272 с.

4. Братусь Д.В. (2015) Защита авторских прав в цифровую эпоху. Вопросы российской юс-тиции. № 2. С. 23-27

# TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ YARADILMASININ ƏHƏMİYYƏTİ VƏ PERSPEKTİVLƏRİ

**Süleymanov Muraz İsa**
**Bakı Dövlət Universiteti**
**murazsuleymanov01@gmail.com**

# THE SIGNIFICANCE AND PERSPECTIVES OF THE CREATION OF THE ORGANIZATION OF TURKISH STATES

**Suleymanov Muraz Isa**
**Baku State University**
**murazsuleymanov01@gmail.com**

## Summary

In the globalized world, Turkic-speaking countries attach great importance to the unity of the Turkic World, and in the modern era, these countries develop by expanding the opportunities for cooperation in all fields. Today, important factors such as common culture, traditions, national-spiritual and religious values, historical roots, and ethnic relations that unite Turkic-speaking peoples are considered the main principles for mutually efficient activities. Successful cooperation between countries, whether in a multilateral format or within the framework of various organizations, continues at an ever-increasing pace. Of course, mutual support and mutual protection in international organizations both strengthens the ties between countries and makes the organization stronger in the global arena. From a geographical and strategic point of view, Turkic-speaking countries are located in a region of the world with significant and rich resources. Therefore, the union of these states also connects the Far East and Europe. This organization, which has already become a reality with the establishment of the Union of Turkish States, which has great opportunities in its perspective, will undoubtedly become an important factor in the world and, as one of the main driving forces, will be of special importance in the protection of peace in the world and the promotion of human and national-moral values.

**Keywords:** Turkic world, TDT, peace, cooperation.

# ЗНАЧЕНИЕ И ПЕРСПЕКТИВЫ СОЗДАНИЯ ОРГАНИЗАЦИИ ТУРЕЦКИХ ГОСУДАРСТВ

**Мураз Сулейманов Иса**
**Бакинский Государственный Университет**
**murazsuleymanov01@gmail.com**

## Резюме

В глобализированном мире тюркоязычные страны придают большое значение единству тюркского мира, и в современную эпоху эти страны развиваются, расширяя возможности сотрудничества во всех сферах. Сегодня такие важные факторы, как общая культура, традиции, национально-духовные и религиозные ценности, исторические корни, этнические отношения, объединяющие тюркоязычные народы, считаются главными принципами взаимоэффективной деятельности. Успешное сотрудничество между странами, будь то в многостороннем формате или в рамках различных организаций, продолжается все возрастающими темпами. Безусловно, взаимная поддержка и взаимная защита в международных организациях не только укрепляют связи между странами, но и делают организацию сильнее на мировой арене. С географической и

стратегической точки зрения тюркоязычные страны расположены в регионе мира со значительными и богатыми ресурсами. Поэтому союз этих государств также связывает Дальний Восток и Европу. Эта организация, которая уже стала реальностью с созданием Союза Турецких Государств, имеющего большие перспективы в своей перспективе, несомненно, станет важным фактором в мире и, как одна из главных движущих сил, будет иметь особое значение. значение в сохранении мира во всем мире и пропаганде общечеловеческих и национально-нравственных ценностей.

**Ключевые слова:** тюркский мир, ТДТ, мир, сотрудничество.

Hər bir fərd kimi hər bir millətin də tarixi bir missiyası var. Çox zəngin və qədim tarixə malik olan türklərin tarixi missiyası isə dünyaya bir düzən, bir ədalət gətirməkdir. Əsasında türkdilli xalqların birliyi ideyası olan təşkilatın yaradılması mühüm əhəmiyyət daşıyır və müasir dövrdə aktual xarakter kəsb edir. Bu aktuallıq həm dövlətlərarası münasibətlərdə, həm də beynəlxalq arenada xüsusi əhəmiyyətə malikdir. Əsası 3 oktyabr 2009-cu ildə Naxçıvan sazişi ilə qoyulan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası təşkilata üzv dövlətlər arasında əməkdaşlığı inkişaf etdirmək, regionda və bütövlükdə dünyada sülh və sabitliyin qorunması üçün birgə fəaliyyət imkanlarının genişləndirilməsi məqsədilə yaradılmışdır (Türk Dili Konuşan Ülkeler İşbirliği Konseyi Kurulmasına Dair Nahçıvan Anlaşması Azərbaycan, 2009). Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən yaradılan bu təşkilat beynəlxalq hökümətlərarası təşkilat hesab edilir. 12 noyabr 2021-ci ildə İstanbul Sammitində TDƏŞ-nın adının Türk Dövlətləri Təşkilatı (TDT) olaraq dəyişdirilməsi qərara alınmışdır (Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi, 2021). Hazırda təşkilatın əsas üzvləri Türkiyə, Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, müşahidəçi üzvlər isə Türkmənistan və Macarıstandır. Bu gün dünyada müstəqil türk dövlətləri sırasında isə Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan və Şimali Kipr Türk Cumhuriyeti olmaqla yeddi türk dövlətini göstərə bilərik (Girgin, 2021).

Türk Dövlətləri Təşkilatı böyük perspektivə malikdir. Çünki təşkilata üzv dövlətlərin oxşar mədəniyyətə, tarixə, dilə, adət və ənənələrə malik olması təşkilat daxilində birliyi şərtləndirən əsas amillərdən hesab edilir. Eyni zamanda bu təşkilat Uzaq Şərqlə Avropanı birləşdirir ki, türkdilli dövlətlər arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişaf etməsi digər ölkələr üçün də xüsusi imkanlar yaradır. Bir sıra dövlətlər Türk Dövlətləri Təşkilatının inkişaf etməsinə qarşı çıxmağa və müxtəlif maneələr yaratmağa çalışırlar. Onlar bu təşkilatın böyük gücə çevrilib, həmin dövlətlərə təhdid yaratmasından ehtiyat edirlər, lakin Türk Dövlətləri Təşkilatının əsas missiyası əməkdaşlıq münasibətləri əsasında regionda sabitliyin qorunmasını təmin etməkdir (Amiraslanov, 2021).

Türkiyənin dünyada artan rolu və Azərbaycanın ikinci Qarabağ müharibəsində əldə etdiyi qələbə Türk Dövlətləri Təşkilatının nüfuzunu gücləndirdi (Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi, 2021). Təşkilata üzv olan ölkələrlə strateji əməkdaşlığı olan, lakin türkdilli olmayan bəzi digər dövlətlər də bu təşkilata üzv olmaqda maraqlıdır. Bu amil TDT-nın hazırda bir təşkilat kimi xüsusi rola malik olduğunu göstərir. TDT müəyyən ölkələri özündə birləşdirməsi ilə yanaşı beynəlxalq və regional təşkilatlarla da əməkdaşlıq etməkdə maraqlıdır. Bu baxımdan TDT Asiya, Qafqaz və Orta Şərqdə yeni regional vasitə kimi çıxış edir. (https://turk-pa.org/file/ 1793_1545374915_5390.pdf).

Dünyada yüksələn bir güc kimi TDT üzv dövlətlər arasında əməkdaşlığın bütün sahələr üzrə inkişafında xüsusi əhəmiyyətə malikdir. Bununla yanaşı təşkilat nəinki dövlətlər arasında əlaqələrin inkişaf etdirilməsi, eyni zamanda, birgə istehsalın həyata keçirilməsi və ehtiyac duyulan sahələrə investisiyaların yatırılması üçün iş aparmaqla mövcud vəziyyəti təhlil edir. Gələcəkdə bu istiqamətdə təşkilatın xüsusi missiyasının həyata keçirilməsi üzv ölkələrin iqtisadiyyatının böyüməsinə mühüm töhfə verə bilər.

Hazırda Türk Dövlətləri Təşkilatı təşkilata üzv dövlətlər arasında aşağıdakı sahələrdə əlaqələrin davamlı olmasında və inkişafında mühüm rol oynayır:

- nəqliyyat-tranzit əlaqələrinin həyata keçirilməsi;
- mədəni əlaqələrin inkişaf etdirilməsi;
- aqrar sahədə əməkdaşlığın inkişafı;
- beynəlxalq arenalarda türk dövlətlərinin mövqelərinin müdafiə edilməsi;
- türk diasporunun və türk dünyasının daimi birliyi ideologiyasının gücləndirilməsi (Amiraslanov, 2021).

Gələcəkdə isə aşağıdakı sahələrdə əməkdaşlıq əlaqələrinin güclənməsi təşkilata üzv ölkələrin iqtisadiyyatına mühüm töhfə verəcək:

- hərbi sahədə əməkdaşlığın inkişafı və türk dövlətləri arasında birgə təlimlərin həyata keçirilməsi;
- üzv dövlətlərdə potensial resursların araşdırılması və birgə işlənilməsi;
- türk dövlətləri arasında vizasız gediş-gəlişin təmin edilməsi və s.

12 noyabr 2021-ci ildə keçirilmiş İstanbul zirvə görüşü çoxölçülü əməkdaşlıq çərçivəsində həyata keçirilmişdir. Sammitdə əsas məsələlərdən biri "Türk Dünyası – 2040" adlı proqramın qəbul edilməsi idi. Bu çərçivə sənədində 2022-2026-cı illəri əhatə edən yol xəritəsinin hazırlanması da qərara alınmışdır (Türk Dünyası 2040 Vizyonu, 2021). Bundan əlavə Türkmənistan sammitdə rəsmi olaraq təşkilata müşahidəçi ölkə kimi üzv oldu.

Ümumilikdə, 121 bənddən ibarət olan Zirvə Bəyannaməsinin 47 maddəsi "İqtisadi və sektoral əməkdaşlıq", 21 maddəsi "Siyasi, xarici siyasət və təhlükəsizlik məsələləri üzrə əməkdaşlıq", 21 maddəsi isə "Xalqlararası əməkdaşlıq" məsələlərindən ibarət olmuşdur.(Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi, 2021; https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=5414). Eyni zamanda, bəyanatda təşkilat məsələləri və üçüncü tərəflərlə əməkdaşlıq kimi məsələlər də öz əksini tapmışdır (Türk Dünyası 2040 Vizyonu, 2021).

Bəyannaməyə əsasən təşkilata üzv dövlətlər arasında iqtisadi əməkdaşlığa geniş yer verilmişdir (Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi, 2021). İqtisadi əməkdaşlığın inkişafı həm dövlətlərin iqtisadi vəziyyətinin yüksəlməsinə, həm də hər bir təşkilat dövlətinin istehsal etdiyi məhsula tələbat olan dövlətdə istifadəsinə şərait yaradacaqdır. Bu isə digər dövlətlərdən iqtisadi asılılığın azalmasına səbəb olacaq. (https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=5414). Eləcə də, bu dövlətlər arasında iqtisadi və nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafı digər dövlətlər üçün də maraqlı ola bilər və onlar bu layihələrdən yararlana bilərlər. Beləliklə, səmərəli nəqliyyat qovşağı yaranmış olacaq.

Xəzər dənizinin enerji ehtiyatlarının Avropaya nəql edilməsində türk dövlətlərinin birgə əməkdaşlığı mühüm əhəmiyyətə malikdir. Hələ 20 sentyabr 1994-cü ildə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində həyata keçirilən "Əsrin müqaviləsi" və onun əsasında neft-qaz kəmərlərinin tikintisi hazırda Avropaya enerji ehtiyatlarının nəqli istiqamətində türk dövlətləri arasında əməkdaşlığı zəruri etmişdir (https://-medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en).

Zirvə Bəyannaməsinin siyasi və təhlükəsizlik məsələləri üzrə əməkdaşlıq hissəsində isə təşkilata üzv dövlətlərin ərazi bütövlüyünün qorunması və sabit inkişafı , eləcə də, irqi ayrı-seçkiliyə, islamofobiyaya və terrorizmə qarşı birgə mübarizə dəstəklənmişdir (Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi, 2021). Bəzi region və digər böyük dövlətlər Türk Dövlətləri Təşkilatının güclənməsindən narahat olsalar da, bu təşkilatın əsas məqsəd və prinsipləri, eyni zamanda gələcək fəaliyyəti ilə bağlı qəbul edilmiş proqramlar təşkilatın heç bir digər birliklərə və dövlətlərə qarşı olmadığını açıq şəkildə göstərir. Bu təşkilatın əsas qayəsi türk dövlətlərinin birliyi, bu dövlətlərin yerləşdiyi regionda sülh və təhlükəsizliyin təmin edilməsindən ibarətdir (Amiraslanov, 2021). 300 milyona yaxın türkü, Avropa qitəsi qədər ərazini birləşdirən bu təşkilat Türk Dünyası üçün böyük əhəmiyyətə malikdir. Bütün türk dövlətlərinin səylə bu təşkilatın inkişa-

fına töhfə verməsi gələcəkdə Türk Dövlətləri Təşkilatını Avropa İttifaqı qədər əhəmiyyətli birliyə çevirə və yüksək səviyyədə iqtisadi potensiala malik ola bilər.

Dünyada sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin edilməsini dəstəkləyən Türk Dövlətləri Təşkilatının güclənməsi təkcə Türk Dünyası üçün yox, bütün region və digər dost dövlətlər üçün əhəmiyyətlidir. "Türk birliyinin bir gün həqiqət olacağına inanıram, mən görməsəm belə gözlərimi dünyaya onun xəyalları içində yumacağam" deyən türklərin dahi lideri, Türkiyə Cümhuriyyətinin banisi Atatürkün vəsiyyəti artıq bir gerçəklikdir və gələcək nəsillər bu birliyi daha da möhkəmləndirəcək.

Beləliklə, Türk Dövlətləri Təşkilatının yaradılmasının əhəmiyyəti və gələcək imkanları təhlil edilmiş, yekun olaraq aşağıdakı təklif və tövsiyələr qeyd olunmuşdur:

- bu təşkilatın yaradılması ilə beynəlxalq arenada türk dövlətlərinin nüfuzunun gücləndirilməsi;
- gələcəkdə türk dövlətlərinin vahid valyutasının tətbiq olunmasının nəzərdən keçirilməsi və gediş-gəlişin daha səmərəli formada həyata keçirilməsi;
- bütün sahələrdə əməkdaşlıq imkanlarının gücləndirilməsi və texnologiya sənayesində birgə istehsalın təşkili və genişləndirilməsi.

**Ədəbiyyat:**


1. Türk Dili Konuşan Ülkeler İşbirliği Konseyi Kurulmasına Dair Nahçıvan Anlaşması. (2009).
2. Türk Devletleri Teşkilatı Sekizinci Zirve Bildirisi. (2021).
3. Türk Dünyası 2040 Vizyonu. (2021).
4. Turan-Sam, Turan Stratejik Araştırmaları Merkezi Dergisi (2009).
5. Ulfat Amiraslanov. (2021) Bağımsızlık sonrası Azerbaycan-Orta Asya Türk Cumhuriyetleri İlişkileri: Enerji Eksenli, 96-111.
6. Girgin.K. (2021). Akademik Tarih ve Düşünce Dergisi, 871-894.
7. Müasir türkologiya: dünən, bugün və sabah (problemlər və perspektivlər) Respublika elmi konfransı. Bakı-2016.
8. Nizamı Cəfərov. (2016) Türkün dünyasından Türk dünyasına (tıirkoloji etiidlər) Bakı,"AzAtam", "Elm və təhsil", 42-54.
9. https://medeniyyet.az/page/news/19468/Heyder-Eliyev-ve-turk-dunyasi.html?lang=en
10. https://www.turkkon.org/tr
11. https://www.turkyurdu.com.tr/yazar-yazi.php?id=5414
12. https://turk-pa.org/file/1793_1545374915_5390.pdf

# 1921-1922-Cİ İLLƏRDƏ KOOPERATİV TİCARƏTİN AZƏRBAYCAN SSR-NİN XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNDƏ ROLU

**Abbasova Oksana Əbdül**
**Bakı Dövlət Universiteti**
**oksana.abbasova88@gmail.com**

# THE ROLE OF COOPERATIVE TRADE IN THE FOREIGN TRADE RELATIONS OF THE AZERBAIJAN SSR IN 1921-1922

**Abbasova Oksana Abdul**
**Baku State University**
**oksana.abbasova88@gmail.com**

## Summary

Cooperative trade in Azerbaijan was formed as a form of Soviet trade. Under the conditions of the transition to the New Economic Policy, cooperative trade began to expand. In 1920-1922, cooperative trade, that is, cooperative organizations, pursued an independent policy and exchanged goods with foreign countries. Trade transactions in the field of export and import with foreign countries were carried out by specially authorized bodies. Thus, in addition to state enterprises, cooperatives and public organizations were also involved in foreign trade. Therefore, trade transactions with foreign countries were allowed only through these bodies. Cooperative organizations opened their branches in Batumi, Moscow, Rostov, Kharkov, Kyiv, Anzeli for trade with the countries of Europe and the East. At the same time, one of the important events in the development of cooperative trade was the unification of the cooperative organizations of Azerbaijan, Georgia and Armenia into a single union. Thus, the organization of the "Zaksoyuz" was economically useful and expedient for the rise and development of the national economy of all three republics. The article also reflects the success of cooperative trade in the exchange of goods, the expansion of trade and the development of foreign trade relations.

**Keywords:** cooperative trade, new economic policy, commodity exchange, Azerittifaq.

# РОЛЬ КООПЕРАТИВНОЙ ТОРГОВЛИ ВО ВНЕШНЕТОРГОВЫХ СВЯЗЯХ АЗЕРБАЙДЖАНСКОЙ ССР В 1921-1922 ГГ.

**Аббасова Оксана Абдул**
**Бакинский Государственный Университет**
**oksana.abbasova88@gmail.com**

## Резюме

Кооперативная торговля в Азербайджане формировалась как форма советской торговли. В условиях перехода к новой экономической политике стала расширяться кооперативная торговля. В 1920-1922 годах кооперативная торговля, т. е. кооперативные организации, проводила самостоятельную политику и обменивалась товарами с зарубежными странами. Торговые сделки в области экспорта и импорта с зарубежными странами проводились специально уполномоченными органами. Таким образом, кроме государственных предприятий, внешней торговлей занимались также кооперативы и общественные организации. Таким образом, торговые сделки с зарубежными странами разрешались только через эти органы. Кооперативные организации открывали свои филиалы в Батуми, Москве, Ростове, Харькове, Киеве, Энзели для торговли со странами Европы и Востока. В то же время одним из важных событий в развитии

кооперативной торговли стало объединение кооперативных организаций Азербайджана, Грузии и Армении в единый союз. Таким образом, организация «Заксоюза» была экономически полезной и целесообразной для подъема и развития народного хозяйства всех трех республик. В статье также отражены успехи кооперативной торговли в товарообмене, расширение товарооборота и развитие внешнеторговых связей.

**Ключевые слова:** кооперативная торговля, новая экономическая политика, товарная биржа, Азериттифак

1920-ci ilin may ayından başlayaraq Respublikanın xarici ölkələrlə iqtisadi əlaqə orqanları yarandıqdan sonra xarici ölkələrlə iqtisadi-ticarət əlaqələri qaydaya salınmışdı. Yeni iqtisadi siyasətə keçid şəraitində Respublikanın xarici ölkələrlə əmtəə mübadiləsi inkişaf etmişdi. Bazar iqtisadiyyatının mövcud olduğu bir vaxtda, əmtəə mübadiləsinin, mal dövriyyəsinin yüksəlməsi, eləcə də xarici ölkələrlə ticarət əlaqələrinin inkişafında kooperativ təşkilatların əhəmiyyətli rolu olmuşdu. Hal-hazırda Respublikanın bazar iqtisadiyyatına keçid dövründə qarşılaşdığı çətinlikləri kooperativ ticarətin keçmiş təcrübəsindən faydalanaraq həll etmək əlverişlidir. Buna görə kooperativ təşkilatların tarixini öyrənmək bu baxımdan xüsusi aktuallıq təşkil edir.

**Kooperativ ticarətin xarici ticarət əlaqələrində yeri**. Azərbaycanda Sovet ticarətinin yaradılmasının əsası 1921-ci ildə yeni iqtisadi siyasətə keçməklə qoyulmuşdur [Bünyadov, 1971]. Yeni iqtisadi siyasət sənayenin inkişafına, xalq təsərrüfatının bərpasına yönəldilmiş iqtisadi tədbirlər sistemi idi ki, bunun da əsasını əmtəə-pul münasibətlərindən, ticarətdən istifadə etmək təşkil edirdi. Eyni zamanda, Respublikada yeni iqtisadi siyasətə keçid ticarətin inkişafına, bu isə öz növbəsində ölkədə istehsalın dirçəlməsinə səbəb oldu. Həmin dövrdə, dövlət xarici iqtisadi münasibətlər tarixində ilk dəfə olaraq xarici bazara vahid alıcı və satıcı kimi daxil olurdu. İdxal-ixrac əməliyyatlarının qeydiyyatı və bu mallara qiymət qoyulması, yüklərin daşınması, daxil olan valyuta vəsaitlərinin və ixrac mallarının bölüşdürülməsi inhisara alınırdı. Xarici ticarət əməliyyatlarına dövlət müəssisələri ilə yanaşı, bir sıra kooperativ və ictimai təşkilatlar da cəlb edilirdi [Quliyev, 2015].

Yeni iqtisadi siyasətə keçid kooperasiyanın fəaliyyətində əsaslı dəyişikliklərə səbəb oldu. Kooperasiyanın hüququ genişləndirilmişdi. Belə ki, onun məhsul almaq, tədarük etmək və satışı həyata keçirmək hüququ var idi. 1921-ci ildə Azərbaycan şəraitində kooperasiyanın ən sabit növü istehlak kooperativləri birliyi "Azsoyuz" ("Azərittifaq") yaradılır və o, özünü idarə edən müstəqil ictimai təşkilata çevrilir. Azərbaycan istehlak kooperasiyası əsasən, 1921-1922-ci illərdə, yeni iqtisadi siyasət şəraitində öz işlərini yenidən quraraq, bir çox nailiyyətlər qazanmışdı.

Yeni iqtisadi siyasət şəraitində xarici ölkələrlə də müəyyən əmtəə mübadiləsi inkişaf edirdi. Bu məsələ ilə hətta V.İ.Lenin də 1921-ci il iyulun 4-də maraqlanmış və "Bakı üçün və xarici ticarətin inkişafı üçün nə etdiyinizi bildirin" [Lenin, 53-cü cild] tələbini vermişdi. "Azərittifaq" kooperativ dövriyyəsini əmtəə fondları ilə təmin etmək üçün xarici bazardan da istifadə etmişdi. Belə ki, 1921-ci ildə "Azərittifaq" kooperativ dövriyyəsini əmtəə fondları ilə təmin etmək üçün Şimali Qafqaz respublikaları, RSFSR və Ukraynanın daxili bazarlarından istifadə etmişdi, oradan lazım olan sənaye və kənd təsərrüfatı məhsullarının alınıb gətirilməsini təşkil etmək məqsədilə Moskva, Rostov, Xarkov, Armavir şəhərlərində öz kontorlarını açmışdı. 1921-ci ilin yayında bakılılar 11 min pud balığı 31,2 min pud Ukrayna qəndinə dəyişmişdilər ["Бакинский рабочий" qəz., 1921]. "Azərittifaq" RSFSR-ə və Ukraynaya duz, balıq, quru meyvə, şərab, neft məhsulları göndərir, əvəzində isə parça, sap, bitki yağları, kartof, texniki piy, dəmir, qabqacaq və s. mallar alırdı. Əsasən, vətənə Kiyevdən şimiyyat məmulatı, taxıl, yem taxılı, ət, yağ, bitki yağları, qənd, və s. gətirilirdi. O özünün Moskva kontoru vasitəsilə "Sentrosoyuz" ilə də əlaqə saxlayırdı. Zaqafqaziya respublikaları ilə də əlaqə yaratmaq üçün Tbilisidə kontor təsis edilmişdi. Bu zaman "Azərittifaq" Gürcüstana duz, balıq məhsulu, kürü, ağ neft göndərir, əvəzində isə çay, lobya və s. mallar əldə edirdi [Qaravəliyev, 1967].

1921-ci ilin yazında İrana ekspedisiya göndərildi və 1922-ci ilin yanvar ayında Ənzəlidə Azərittifaqın kontoru açıldı. Ənzəli Kontoru vasitəsilə İrandan 12,5 mlrd manatlıq müxtəlif mal alınmışdı. Bu kontor qısa müddətdə 98,5 min pud düyü, 10 min puddan artıq səbzə, düyü unu və s. satın alaraq Bakıya göndərdi ["Azərbaycan tarixi", 6-cı cild, 2008].

Azərittifaq 1921-ci ilin avqust ayında xarici bazarla bilavasitə əlaqə yaratmaq üçün Batumi şəhərində öz şöbəsini açdı. Batumda xariclə ticarət aparmaq üçün 10-dan çox idarə və nümayəndəliyi var idi. O, Batumi kontoru vasitəsilə Türkiyədə olan Qərbi Avropa ölkələrinin firmaları ilə ticarət əlaqəsi saxlayıb, oradan bəzi malları əldə etməyin nəzərdə tuturdu. Lakin valyuta yoxluğu, xarici bazaya bələd olmamaq və s. çətinliklər yaratmışdı. Bütün bunlara baxmayaraq, Azərittifaq xarici bazarlardan bəzi mallar ala bildi. O, Azərbaycan dəmir yolu işçilərinin fəhlə kooperativləri birlikdə Türkiyədə Amerika firmasından 46 min pud un, ayrılıqda özü üçün parça, sabun, çay, ayaqqabı, hazır paltar, qənd, qabqacaq, dəftərxana ləvazimatı və s. Aldı [Qaravəliyev, 1967].

1921-1922-ci illərdə Azərittifaq Moskva, Kiyev, Rostov, Krasnodar və Türküstanda ticarət və əmtəə mübadiləsi əməliyyatları həyata keçirirdi. 1921-ci ildə Ümumtürküstan istehlakçıları cəmiyyətləri ittifaqı ilə "Azərittifaq" arasında müqavilə bağlanmışdı. Türkmənittifaq 1921-1922-ci illərdə 15 min pud ağ neft və başqa mallarla dəyişmək üçün 100 min pud taxıl tədarük etməyi öhdəsinə götürmüşdü. "Azərittifaq" tədarük və mal mübadiləsi əməliyyatlarını özünün yerli şöbələri, satınalma məntəqələri və agentlikləri vasitəsilə həyata keçirirdi ["Azərbaycan tarixi", 6-cı cild, 2008].

1921-ci ilin yayından fəaliyyətə başlayan Zaqafqaziya Xarici Ticarət İdarəsi xarici ölkələrlə mal mübadiləsini öz üzərinə götürmüşdü, lakin bu idarədən başqa respublikalarda fəaliyyət göstərən mərkəzi kooperativlər də xaricə mal ixrac edirdilər [Seyidova, 1998]. Kooperativ təşkilatların xarici ölkələrlə əlaqələri, bazarda ticari üstünlüyü böyük idi. Belə ki, Batumidə kooperativ təşkilatların malı xarici mallardan ucuz satılırdı [Bünyadov, 1971]. Beləliklə, xarici ticarət və eləcədə maliyyə əlaqələrini genişləndirmək üçün vahid ittifaqda birləşmək iqtisadi cəhətdən məqsədəuyğun idi. Bu isə yalnız üç respublika kooperasiyasının birləşməsi sayəsində mümkün, daha ucuz və faydalı olardı. Bu birləşmə təkcə iqtisadi deyil, eyni zamanda təşkilati cəhətdən də vacib idi. Buna görə 1922-ci ilin may 14-də Bakıda Azərbaycanda "Azərittifaq", Gürcüstanda "Tsekavşiri" və Ermənistanda "Aykop" [Seyidova, 1998] kooperativ təşkilatlarının vahid ittifaqda "Zaksoyuz"-da ("Zakittifaq") birləşdi. Qərbi İranda aparılan neft ticarəti də "Zaksoyuz"a verildi [Bünyadov, 1971]. Daha sonra, Batumidə onun kontoru açıldı. 1922-ci ildə "Zakittifaq" bu kooperativlər vasitəsilə Türkiyə və İtaliyaya 3.000 pud frizon ixrac etmişdi. Qeyd edək ki, İtaliyanın iri sənaye sahibkarları Azərbaycanın iqtisadiyyatı ilə yaxından maraqlanırdılar [Seyidova, 1998].

1922-ci ilin birinci yarısında Azərbaycandan 934, 6 min pud müxtəlif adda mallar ixrac edilmişdi. Bunlardan əsas yeri neft və neft məhsulları, müxtəlif xammal növləri, balıq, taxıl məhsulları və şəkər tuturdu. Azərbaycan SSR-də xarici ticarət dövriyyəsinin 70 faizi xüsusi kapitalın, 19 faizi kooperasiya ticarətinin, cəmi 11 faizi dövlət ticarət orqanlarının əlində idi ["Azərbaycan tarixi", 3-cü cild, 1973] 1922-ci ildə Azərbaycanda 146 istehlak kooperasiyası var idi [Səməndərov, 2012]. Həmin illərdə respublikada fəaliyyət göstərən 9216 ticarət müəssisəsinin 112-si dövlətə, 135-i kooperativ ticarət qurumlarına, 8969-u isə xüsusi mülkiyyətçilərə məxsus idi [Zeynalov, 1972].

1920-1922-ci illərdə Kooperativ təşkilatlar ticarət əlaqələrini xarici ölkələrlə, bəzi məhdudiyyətlər olsa da, müstəqil həyata keçirmişdi. Ancaq, Avropa ölkələri ilə Azərbaycanın iqtisadi-ticarət əlaqələrində əldə edə biləcəyi imkanlardan çox az əldə edə bilmişdir. Buna səbəb Azərbaycanın beynəlxalq əlaqələrinə Rusiyanın müdaxiləsi olmuşdur. Buna baxmayaraq, Kooperativ təşkilatlar qısa müddət ərzində bir çox qonşu və Avropa ölkələri ilə iqtisadi-ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynamışdılar. Belə ki, yeni iqtisadi siyasətə keçid ilə kooperasiyanın hüququ genişlənmişdi, alıcı-satıcı kimi xarici bazara daxil

olmuşdu. Kooperativ təşkilatlar əsasən, 1921-1922-ci illərdə, yeni iqtisadi siyasət şəraitində öz işlərini yenidən quraraq, bir çox uğurlar qazanmışdı. Eyni zamanda, yeni dövrün oxucularına Kooperativ təşkilatların 1920-1922-ci illər fəaliyyəti dövrünün öyrənilməsində məqalə faydalı ola bilər.

**Ədəbiyyat:**


1. Azərbaycan tarixi.(2008). 7 cilddə, VI c., Bakı: "Elm", 85, 86
2. Azərbaycan tarixi.(1973). 3 cilddə, III c., Bakı: "Elm", 306, 307
3. Bünyadov Q.H.(1971). Bərpa dövründə Azərbaycanda Sovet ticarətinin yaranması və inkişafı. Bakı: "Elm", 26, 116,
4. "Бакинский рабочий" qəzeti (rus dilində), 14 июля 1921 г.
5. Qaravəliyev Ə. (1967). Azərbaycan istehlak kooperasiyanın tarixi. Bakı: "Azərbaycan Dövlət", 274, 275
6. Quliyev R.Ə.(2015). Azərbaycan dövlətçiliyi tarixində gömrük işi (Azərbaycan SSR sovet gömrük sistemi şəraitində (1920-1991)). Bakı, Turxan NPB, 54
7. Seyidova S. (1998). Azərbaycanın beynəlxalq əlaqələri (1920-1930-cu illər), Bakı: "Diplomat", 84, 85
8. Səməndərov.S. (2012). XX əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda daxili və xarici ticarət, gömrük işinin təşkili ilə əlaqədar dəyərləndirmələr. "Azərbaycanın vergi jurnalı", № 2, 135
9. V.İ.Lenin.(1974). Əsərlərinin tam külliyyatı, 53-cü c, Bakı: "Azərnəşr", 10
10. Zeynalov K.Ş.(1972). Azərbaycan SSR-in ticarət və iqtisadiyyatında xüsusi təsərrüfat kapitalist ukladı və onun sıxışdırılması məsələləri (1921-1928). D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elmi Əsərləri, Bakı. №4, 35


## COMPARATIVE ANALYSIS OF STATE-BUILDING AND NATION-BUILDING FROM THE CEASEFIRE TO THE VICTORY IN AZERBAIJAN


**Valiyev Orkhan Hasan**
**Sakarya University**
**https://orcid.org/0000-0002-6125-9062**
**orkhan.h.veli@gmail.com**


## AZƏRBAYCANDA ATƏŞKƏSDƏN QƏLƏBƏYƏ DÖVLƏT QURUCULUĞUNUN VƏ MİLLƏT QURULUŞUNUN MÜQAYİSƏLİ TƏHLİLİ


**Vəliyev Orxan Həsən**
**Sakarya Universiteti**
**https://orcid.org/0000-0002-6125-9062**
**orkhan.h.veli@gmail.com**


### Xülasə


Bu məruzənin məqsədi zəfər sonrası Azərbaycanda milli kimlik quruculuğuna töhfə verməkdir. Müstəqilliyin bərpasından sonra milli kimliyin inşası ictimai müzakirələrin əsas məsələsinə çevrilmişdi. Müzakirələr türkçülük və

Azərbaycançılıq arasında gedirdi. Türkçülük Sovet müstəmləkəsinə qarşı aparılan milli hərakatın əsas ideologiyası olaraq müstəqilliyin qapısını açmışdır. Azərbaycançılıq isə dövlət inşasının ideologiyasıdır. Müstəqilliyin birinci mərhələsində dövlət inşası Azərbaycançılıq konteksində tamamlanmışdır. Tarixi zəfər milli kimliyin inşasının tamamlanması üçün imkan yaratmışdır. Bu baxımdan, məruzədə ilk olaraq dövlət inşası atəş anlayışı konteksində ələ alınmışdır. İkinci olaraq, zəfər konteksində milli kimliyin inşasının tamamlanmasına fokuslanılmışdır. Araşdırma hər iki anlayışın rolunun fərqliliyini göstərmişdir. Zəfər nəticəsində ərazi bütövlüyünün bərpası milli kimlik diskursunu dəyişəcəkdir. Çünki milli kimliyin tamamlanmasının qarşısındakı əsas maneə işğal idi. Bu çərçivədə multikulturalizm, türkçülük və Azərbaycançılıq milli kimlik inşasının əsas elementləri olacaqdır.

**Açar sözlər:** dövlət inşası, millət inşası, atəşkəs, zəfər, Azərbaycançılıq.

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ГОСУДАРСТВЕННОГО И НАЦИОНАЛЬНОГО СТРОИТЕЛЬСТВА ОТ ПЕРЕМИРИЯ ДО ПОБЕДЫ В АЗЕРБАЙДЖАНЕ

**Валиев Орхан Гасан**

**Университет Сакарья**

**https://orcid.org/0000-0002-6125-9062**

**orkhan.h.veli@gmail.com**

### Резюме

Статья ставит перед собой цель внести свой вклад в процесс национального строительства в постпобедном Азербайджане. После обретения независимости, построение национального самосознания стало главной темой общественных дискуссий. Дебаты велись между понятиями Тюркизм и Азербайджанство. Однако тюркизм был идеологией национального движения против советского колониализма и открыл путь к независимости. Напротив, Азербайджанство [Azərbaycançılıq] было идеологией государственного строительства. Государственное строительство был завершен в первой части независимости посредством Азербайджанство. Историческая победа открыла путь к завершению национального строительства. В этом отношении в исследовании основное внимание уделяется, прежде всего, прекращению огня в контексте государственного строительства. Далее внимание уделяется к процессу завершения национального строительства в контексте победы. Это показывает, как обе концепции играют разные роли. В следствии победы и обеспечения территориальной целостности Азербайджана дискурсы идентичности изменятся. Потому что главным препятствием на пути завершения национального идентичности была оккупация. В этом отношении Мультикультурализм, Тюркизм и Азербайджанство будут основными элементами национального строительства.

**Ключевые слова:** Государственное строительство, национальное строительство, прекращение огня, победа, Азербайджанство

Building of strong national identity is the main instrument of sovereignty. Secularization of the public sphere or daily life in the early modern period necessitated the imagination of the nation for modern sovereignty. In this respect, the study of state and nation-building in the context of ceasefire and victory of the Karabakh conflict will contribute to the respective research. In this paper, state-building, and nation-building are handled with the comparative method. The key terms are ceasefire and victory. There are variety of study related to state and nation-building in Azerbaijan (Valiyev, 2020) (Vəliyev, 2021) (Valiyev, 2022a) (Ergun A., 2010) (Ergun & Çitak, 2020) (Ergun, 2022) (Cornell, 2011) (Ergun & Valiyev, 2020). In this paper, the author focuses on explaining the completion of state and nation-building in the framework of ceasefire and victory.

**Ceasefire: Social Contract, Constitution, and Statehood**

The building of state and national identity is based on human, and it's considered and justified as modern. There is enough literature that supports this view in the context of nationalism (Anderson, 2015) (Gellner, 2018) (Hobsbawm, 2014) (Valiyev, 2020, ss. 28-34). In this respect, the modern state and nation-building of Azerbaijan started in the middle of the nineteenth century. In other words, the modernization of daily life in Muslim society was under the control of the Tsarist colonial system. In this sense, Akhundzadeh could be considered the starting point of modernization that contributed to the nationalization of political discourse in the late nineteenth century (Valiyev & Bezci, 2021). At the end of that modernization of the national movement, the first republic of Azerbaijan (Azerbaijan Democratic Republic (ADR)) was declared. But due to the absence of the constitution, the ADR was an incomplete nation-state (Valiyev, 2020) (Vəliyev, 2021) (Valiyev, 2022a). However, the option of the constitution as an independent state in 1995 started a new phase of state-building. As it's known, to be considered a fully-fledged nation the constitution plays a decisive role. The nation is such a notion that could exist only under the joint law (Sieyès, 2005: 13). After getting independence from the USSR in 1991, the construction of national identity emerged as a critical issue that the government(s) should deal with. However, the First Karabakh War and occupation of the 20 percent of the Azerbaijani territories removed the identity issue from the agenda. The government signed a social contract with the society and accept the first democratic/independent constitution that led to the building of a state in the framework of Azerbaijanism. Due to the conflict completion of nation-building was not finished but would be completed after the victory in the Second Karabakh War (Valiyev, 2022b).

**Victory: Completion of Nation-Building**

Defeated invaders helped Ataturk to build the modern Turkish nation. The nation could be considered the legal basis of sovereignty (Duguit, 2013: 387-95). In this sense, victory was the missing point for Azerbaijan on the way to building a modern nation or to be a fully-fledged sovereign state. To be able to people glorify feelings of the past politics needs history and history emerged thanks to the victory. The invasion was considered an obstacle to the implementation of sovereignty that was built into the constitution. In that respect, the building of the nation was incomplete. Thus, the building of history that is decisive for nation-building needed victory as shown in other nation-building experiences. The historical question that emerged in the late nineteenth century and became an unsolved problem will be answered. And Azerbaijani society will be able to answer the identity question through political institutions. The answer will encompass multiculturalism, Turkism, and Azerbaijanism and will build a strong background / contract for being Azerbaijani. Additionally, historical victory will make strong sovereignty that was weakened due to the occupation, and break the dependency. It could be said that Azerbaijan is already considered a fully-fledged sovereign nation-state.

State and nation-building is a political construction. In its early independence, Azerbaijan could build statehood through the constitution. However, due to the occupation, nation-building or completion of sovereignty was removed from the agenda of politics. With the historical victory in Karabakh new path opened for the completion of nation-building. The victory will make

Azerbaijan a fully-fledged nation-state and future research should focus on this issue to contribute to the study of nation-building.

**References:**

1. Anderson, B. (2015). *Hayali Cemaatler*. (İ. Savaşır, Trans.) İstanbul: Metis Yayınları.

2. Cornell, S. E. (2011). *Azerbaycan Since Independence.* London: M.E.Sharpe.

3. Duguit, Léon. "Egemenlik ve Özgürlük." Akal, Cemal Bali. *Devlet Kuramı*. Ankara: Dost Kitabevi, 2013. 379-403.

4. Ergun, A. (2010). Post-Soviet Political Transformation in Azerbaijan: Political Elite, Civil Society and the Trials of Democratization. *Uluslararası İlişkiler, 7*(26), 67-85.

5. Ergun, A. (2022). Citizenship, National Identity, and Nation-Building in Azerbaijan: Between the Legacy of the Past and the Spirit of Independence. *Nationality Papers, 50*(4), 813-830.

6. Ergun, A., & Çitak, Z. (2020). Secularism and National Identity in Post-Soviet Azerbaijan. *Journal of Chruch and State, 62*(3), 464-485.

7. Ergun, A., & Valiyev, A. (2020). An Accaunt on Karabakh War: Why Now and Then What? *Panaroma*.

8. Gellner, E. (2018). *Uluslar ve Ulusçuluk.* (B. Ersanlı, & G. Özdoğan, Trans.) İstanbul: Hil Yayın.

9. Hobsbawm, E. J. (2014). *Milletler ve Milliyetçilik.* (O. Akınhay, Trans.) İstanbul: Ayrıntı Yayınları.

10. Sieyès, E.-J. (2005). *"Üçüncü Sınıf" Nedir?* (İ. Birkan, Trans.) Ankara: İmge Kitabevi.

11. Valiyev, O. (2020). *Azerbaycan'da Milliyetçilik.* İstanbul: Türkiye Notları Yayınevi.

12. Valiyev, O. (2022a). Sekülerleşme ve Milliyetçilik Teorileri Işığında I. ve II. Azerbaycan Cumhuriyeti'nin Karşılaştırmalı Tahlili. In M. Y. Alptekin, & Z. Çevik, *Türk Dünyasında Ulus İnşası* (pp. 55-71). Ankara: Nobel Akademik Yayıncılık.

13. Vəliyev, O. (2022b, February). *www.milliyyet.info*. "Nə üçün Azərbaycan millətçiliyi?". Retrieved from https://milliyyet.info: https://milliyyet.info/mill%c9%99tcilik/n%c9%99-ucun-az%c9%99rbaycan-mill%c9%99tciliyi/ [accessed Sep 17 2022].

14. Valiyev, O., & Bezci, B. (2021). Ahundzade'de Millet Fikrinin Oluşumunun Miroslav Hroch'un yaklaşımı Çerçevesinde Değerlendirilmesi. Bilig, 98, 49-74.

15. Vəliyev, O. (2021). Azərbaycanda millətləşmə prosesini (1850-1920) modelləşdirmə cəhdi. In Ə. Nəcəf, *Azərbaycan - Milli Kimliyinin Tarixi Məsələləri* (pp. 236-251). Bakı: YEK Production.

16. Ergun, A., & Valiyev, A. *(PDF) An Account of Karabakh War: Why Now and Then What?* Available from: https://www.researchgate.net/publication/345672363_An_Account_on_Karabakh_War_Why_Now_and_Then_What?channel=doi&linkId=5faa75d292851cc286a4fe4b&showFulltext=true [accessed Sep 17 2022].

# SAXURLARDA AİLƏ TƏRBİYƏSİ

**Musayeva Sahibə Xəlil**
**Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu**
**https://orcid.org/0000-0001-8091-925X**
**sahibamusayeva1993@gmail.com**

# FAMILY EDUCATION OF THE TSAKXURS

**Musayeva Sahiba Khalil**
**Institute of Archaeology, Ethnography and Anthropology**
**https://orcid.org/0000-0001-8091-925X**
**sahibamusayeva1993@gmail.com**

## Summary

In the article family upbringing among the Tsakhur people is analyzed from an ethnographic aspect. The history of family upbringing goes back to ancient times. Family upbringing depends on various factors, the social structure of society, the cultural and economic level. Spiritual, physical, aesthetic, reasonable and labor education of children in Tsakhur families organically constitute unity to each other. Islamic values, which are part of the national culture, had a strong decisive influence on the upbringing of Tsakhur children. Children are instilled with a sense of honesty, justice, respect and care for parents and elders. Children's games play a role in their upbringing, making them right and fair. Boys helped their father and older brothers, and girls helped their mothers and older sisters with housework. They worked since childhood. Folk art, folklore samples played an important role of the aesthetic education of children. Along with parents, older generations took part in the upbringing of children. All parents of a generation strive to raise a unique child worthy of the family, generation and society. Parental love is one of the main factors in education. Wise advice from parents who respect each other is consciously perceived by children. In conclusion, thanks to family upbringing in Tsakhur, children grow up as developed, patriotic personalities of the future.

**Keywords:** children, Tsakhur, family education, morality, labor education.

# СЕМЕЙНОЕ ВОСПИТАНИЕ У ЦАХУРОВ

**Мусаева Сахиба Халиль**
**Институт Археологии, Этнографии и Антропологии**
**https://orcid.org/0000-0001-8091-925X**
**sahibamusayeva1993@gmail.com**

## Резюме

В статье семейное воспитание у цахурцев анализируется с этнографического аспекта. История семейного воспитания уходит в глубокую древность. Семейное воспитание зависит от различных факторов, социальной структуры общества, культурно-экономического уровня. Духовное, физическое, эстетическое, разумное и трудовое воспитание детей в цахурских семьях органично друг другу составляют единство. Исламские ценности, являющиеся частью национальной культуры, оказали сильное решающее влияние на воспитание цахурских детей Детям прививается смысл честности, справедливости, халяльности, уважении и заботе о родителях и старших. Детские игры играют роль в их воспитании, делая их правильными и справедливыми. Мальчики помогали отцу и старшим братьям по хозяйству, а девочки – матерям и старшим сестрам по хозяйству. Работали с детства. Народное творчество, фольклорные образцы сыграли важную роль в

эстетическом воспитании детей. Наряду с родителями в воспитании детей принимали участие старшие поколения. Все родители поколения стремятся воспитать уникального ребенка, достойного семьи, поколения и общества. Родительская любовь является одним из главных факторов в воспитании Мудрые советы уважающих друг друга родителей сознательно воспринимаются детьми Одним словом, благодаря семейному воспитанию в Цахуре дети вырастают развитыми, патриотически настроенными личностями будущего.

**Ключевые слова:** дети, цахуры,семейное воспитание, нравственность, трудовое воспитание.

XXI əsrin əvvəllərində ailə tərbiyəsinin etnopedaqoji aspektlərini, ailədə nəsillər arasında qarşılıqlı əlaqə mexanizmlərini, onun pedaqoji potensialını, ən mühüm sosial vəzifələri yerinə yetirməyə hazır olan etnomədəni şəxsiyyətin formalaşmasını müəyyən etmək üçün hərtərəfli və dərin tədqiqatlara xüsusi ehtiyac var. Milli tərbiyə sisteminin forma və metodlarının məzmununun əsas qayəsi, gücü ailədə mərkəzləşmişdir. Ailə cəmiyyətin ən mühüm dəyərinə diqqət yetirən, özündə sosial, pedaqoji, etik, cinsi, hüquqi və konfessional münasibətləri əks etdirən özünəməxsus sosial təsisatdır. Ailə sosial inkişaf proseslərinə təsir etmək üçün güclü potensiala malikdir. Ailə istənilən ölkədə, xalqlar və millətlər arasında kiçik dövlət kimi həlledici mövqe tutur. Mütərəqqi ailə ənənələri xalqın, millətin qorunub saxlanması üçün əlverişli şərait yaradır. Ailə şəxsiyyətin real təcrübəsinin, insanın cəmiyyətdə müəyyən həyat tərzinin, mədəni irsin, etno-mədəni ənənələrin formalaşmasında, onun sosial transferində güclü amildir. Ailədə milli dəyərlər təmsil olunur, dil, mədəniyyət, adət-ənənələr ailədə fəaliyyət göstərir. Ailədə uşaqların tərbiyə olunması Azərbaycan Respublikasının qəbul etdiyi qanunlarla Konstitusiya, Ailə Məcəlləsi Uşaq hüquqları haqqında qanun və s.) tənzimlənir Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanununda uşaqların ailə tərbiyəsi almaq hüququ belə müəyyənləşdirilmişdir "*Hər bir uşağın hərtərəfli inkişaf etmək, milli və ümumbəşəri dəyərlərə uyğun, humanizm və əxlaqi prinsiplər əsasında tərbiyə almaq hüququ vardır. Uşağın tərbiyəsi ailədə və təhsil müəssisələrində aparılır. Dövlət uşaqların yaradıcılıq qabiliyyətinin, estetik tərbiyəsinin inkişafı üçün müxtəlif müəssisələr yaradır, habelə belə müəssisələrin yaradılmasında ictimai təşkilatlara köməklik göstərir"* (Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu).

Ailə cəmiyyətin təsirlərinə məruz qalır, öz funksiyalarını və həyat strategiyalarını reallaşdırır, sosiumun real şəraitinə uyğunlaşır. Ailə nikah, valideynlik, qohumluq, birgə münasibətlərlə bağlı insanların birliyi kimi ev təsərrüfatları cəmiyyətin əsas vahidi kimi ən mühüm sosial funksiyaları yerinə yetirir, insanın həyatında, o cümlədən onun qorunmasında, şəxsiyyətinin formalaşmasında, təmin edilməsində xüsusi rol oynayır, ilkin sosiallaşma, mənəvi və digər həyati ehtiyacların ödənilməsi əsas yer tutur. Bu funksiyalar ailənin sosial institutunun unikallığını, fərd və dövlət arasında müəyyən edir, fundamental dəyərlərin nəsildən-nəslə keçməsini təmin edir. Azərbaycan Respublikasının Konstitusiyasında ailə, uşaq, dövlət münasibətləri, uşaqların ailə tərbiyəvi haqqında deyilir: "*Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir. Valideynləri və ya qəyyumları olmayan, valideyn qayğısından məhrum olan uşaqlar dövlətin himayəsindədirlər. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır. 15 yaşına çatmamış uşaqlar işə götürülə*

*bilməzlər. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir"* (Azərbaycan Respublikasının Konstitusiyası,1998).

***Ailə Tərbiyəsinin Əsas İstiqamətləri***

Ailənin sosial inkişaf proseslərinə, mülki münasibətlərin formalaşmasına təsir etmək üçün güclü potensialı var. Azərbaycan Respublikasının Ailə Məcəlləsində uşaqların ailə tərbiyəsi almaq hüquqları göstərilir: *"18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyəti əldə etməyən şəxslər uşaq hesab olunurlar. Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir. Valideynlər uşaqlarını tərbiyə etmək hüququna malikdirlər və uşaqlarını tərbiyə etməyə borcludurlar. Valideynlər uşaqlarının tərbiyəsinə, sağlamlığına və onların psixi, fiziki, mənəvi inkişafına görə məsuliyyət daşıyırlar."* (Azərbaycan Respublikasının Ailə Məcəlləsi)

Ailənin dövlətdə, cəmiyyətdə, insanlar arasında statusu: valideynlik, qohumluq, sosial, etno-sosial funksiyaları, şəxsiyyətin formalaşması, ilkin sosiallaşma, mənəvi dəyərlərin nəsildən-.nəslə ötürülməsi, fərdlə dövlət arasında vasitəçiliyi özünü göstərir. Beləliklə, bu mövqedə o, *"tam şəkildə müasir dünyada ailənin etnopedaqoji missiyasını təmsil edir"* (Алиева, 2006). Üstəlik, ailə daxildən, ən dərin köklərdən xalqı - etnosu - milləti təşkil edir, millətlərarası münasibətləri tənzimləyir. Hər bir insan üçün ailə müqəddəs bir yerdir, dualar kimi müqəddəs əhdlərin - əcdadların əmrlərinin qorunduğu Allahın məbədidir. Ailə münasibətlərinin mahiyyəti həm islam dünyasında və həm də Qafqaz xalqlarının əksəriyyətində demək olar ki, eynidir (Bünyadova, 2012).

*"İndi cəmiyyətdə sistemli mənəvi, etnomədəni, sosial-iqtisadi və sosial-hüquqi böhran, əsasən bir çox ciddi problemlər, ailədə vahid tərbiyə prosesi və ailənin həyat tərzi etno-pedaqoji əsasda həll edilir"* (Алиева, 2006).

Saxurlarda uşaqlara körpəlikdən verilən ailə tərbiyəsi onun bütün həyatı boyu mühüm izlər buraxır. *"Uşaqlara sadəcə körpə bir varlıq və ya ehtiyacı olan uşaq kimi deyil, xalqın gələcəyinin qurucuları və şəxsiyyəti kimi baxılmalı və diqqət yetirilməlidir. Bu baxımdan da yaxşı yetişdirilən övlad ailənin xoşbəxt gələcəyi və rahat qocalığı, əksinə pis övlad isə onun faciəsi və bədbəxtliyi deməkdir. Körpələrin özlərindən böyüklərin etdiklərini kor-koranə təqlid etmək kimi xüsusiyyətləri olur. Övladın erkən yaşlardan bütün hərəkətlərini izləmək lazımdır. Ailə daxilində hər hansı məsələyə münasibətdə işlə sözün arasında müəyyən bir uçurum varsa, o, uşağa da mütləq təsir göstərəcəkdir. Ümumi məsələlər haqqında ibrətamiz söhbətlər vasitəsilə dünya və həyat haqqında bilgilərə sahib olmaqla tərbiyəyə nail olmaq olar*" (Bünyadova, 2012).

Ailə tərbiyəsinin əsas istiqamətləri uşaqlara fiziki, mənəvi-əxlaqi, estetik tərbiyə verilməsidir.

***Uşaqların fiziki tərbiyəsi***

Saxurlarda da uşaqlıq 10-12 yaş sayılırdı. Onlar sevimli uşaq oyunları daş atma, kirşə, xizək sürmək, dağlara və dərələrə qalxmaq, dağ çaylarında üzmək, döyüş üsulları ilə oynamaq və s. ilə məşğul olurdular. "*Uşaqlara dağlara qalxmaq, dərəyə enmək, dağ çaylarını keçmək, cəsur və çevik olmağı, böyüklərə hörmətlə yanaşmağı, işdə, gəzintidə və rəqsdə çevik olmağı, atları yəhərləməyi, atlara minib ən çətin dağ yollarından, çaylardan keçməyi öyrədirdilər. 11 yaşına*

*qədər oğlanlar və qızlar birlikdə oynayırdılar. Bununla belə, qızlar ev işlərinə erkən öyrəşmişdilər. Onlardan çoxu bu yaşda artıq yun corablar toxumağı, kompleksli xalçaları toxumağı bilirdilər. 11 ildən sonra atalar və böyük qardaşlar oğlanları özləri ilə tarla işlərinə, yay otlaqlarına aparırdılar. Oğlanlar tarlada işləməyi, qoyun qırxmağı, mal-qaranı otarmağı, at sürməyi, silah işlətməyi, öküzləri, arabaları idarə etməyi və s. öyrənirdilər. Onlar kişilərin gördüyü hər cür işi yerinə yetirmək üçün ailə təlimi keçirdilər, 15-16 yaşlarında isə yetkin sayılırdılar*" (Ихилов, 1967). Qədim xalqlar kimi, saxurlarda da bu illərdə gənclər güc, cəsarət, kişilik, müxtəlif sınaqlar keçirdilər. Belə bir gənc cəsarət göstərirdisə, uğurlu ov edirdisə, canavarla təkbətək döyüşürdüsə, heyvan tuturdusa, inanılırdı ki, o kişidir.

***Uşaqlarda əxlaq tərbiyəsi***

Təkcə valideynlər deyil, kəndin bütün yaşlı nəsli gənclərin əxlaqi tərbiyəsində mühüm rol oynayıdı.

*"Uşaqlarda əxlaq tərbiyəsinin normal qurulması isə ailənin yaşlı üzvlərinin qarşılıqlı münasibətindən, uşağı əhatə edən müvafiq mühitin mənəvi sağlamlığından çox asılı idi. Ona görə də valideynlər çalışardı ki, uşağın yanında bir-birinə qarşı dərin hörmət və məhəbbət duyğusu ilə davransınlar, söz, hərəkət və danışıqlarında etik qaydaları pozmasınlar*" (Əliyev, 2012).

Uşaqlıqdan onlar ağsaqqalların təsiri altında idilər. Onların daim böyüklərlə qalması, ağsaqqalların söhbətləri onlar üçün mühüm həyat dərsi idi. Onlar haqqında qocaların söhbətlərini, rəvayətləri dinləmələri onların tərbiyəsinə ciddi təsir göstərirdi.

*"Xüsusilə, oğlan uşaqları bir növ bütün nəslə mənsub uşaqlar sayılırdı və ona görə də nəslin onların tərbiyəsində marağı vardı: ənənəvi adətləri uşaqlara aşılamaq bütün ağsaqqalların borcu idi."* (Qeybullayev,1994).

***Uşaqların estetik tərbiyəsi***

Uşaqlar kiçik yaşlarından xalq yaradıcılığı ilə tanış olurdular. Q.Qeybullayev göstərir ki, *"aşıq və xanəndələrin oxumalarına, folklora uşaqlar çox həssas idilər. El aşıqları uşaqların estetik tərbiyəsində böyük rol oynayırdılar*" (Qeybullayev,1994). Gənc oğlanlar evdə qonaq qəbul edərkən məişət qaydalarını, adət-ənənələri mənimsəyirdilər. Bir gəncin yetkinləşməsi çərkəzi təntənəli şəkildə geyindirməklə və xəncər taxmaqla qeyd olunurdu. Bunun şərəfinə gəncin valideynləri yaxın qohumların iştirakı ilə ziyafət təşkil edirdilər. Oğlanlardan fərqli olaraq, qızların uşaqlığı çoxları tərəfindən qadağalarla məhdudlaşdırılırdı. Qızları ana və bacıları böyüdürdü. Hesab olunurdu ki, 11-12 yaşlarında qızlar uşaqlığını tərk edirlər. Onlar üçün təşkil olunan hörmə mərasimində qızlar yeni paltar geyinir və "çuta" adlanan baş geyimi taxırdılar. Paltarlara zərgərlik əşyaları - sırğalar, bilərziklər əlavə olunması məsləhət bilinirdi. Qızlar kateqoriyasına keçid ailə ziyafəti ilə yadda qalırdı. 15-16 yaşlı qız müstəqil təsərrüfatı idarə etmək üçün olduqca hazır hesab olunurdu. Tərbiyə qız üçün xüsusi əhəmiyyət kəsb edirdi. Saxur qızlarına adət-ənənələrə ciddi riayət etməyi nəzərdə tutan mənəvi keyfiyyətlər aşılanırdı (Musayev, 2009).

Saxurlar nəinki sağlam uşaq böyütməyə çalışırdılar, həm də onların fiziki tərbiyəsinə, əqli kamilliyinə xüsusi diqqət yetirirdilər.

*Saxurlar uşaqlara böyük istəklə yanaşsalar da, onlarla müəyyən işlərdə çox ciddi idilər. Ata heç vaxt öz övladının başını yaşlı valideynlərinin yanında sığallamaz, onu qucağına götürməzdi.*

*Saxurlar dağlarda Spartalı tərbiyə üsulunu tətbiq edirdilər* (Musayev, 2009). Bəzi oyunlara qadağa qoyulurdu.

Məlumatçı Hüseynov Qeybulla Musa oğlunun dediyinə görə uşaqların tərbiyəsi ilə əsasən ata-ana məşğul olardı. Çünki nənə-baba saxlayan uşaqlar ərkəsöyün böyüyürdü (7).

Turac Musa oğlu söyləyir ki, saxurlarda ta qədimdən mövcud olan adətə görə, ata evə gələndə uşaqlar ayağa durar, ya da heç olmasa, özlərini ayağa durmaq istəyən kimi göstərərdilər. İndi isə müasir dövrdə uşaqları bağçada, məktəbəqədər hazırlıq müsəssisələrində tərbiyə edirlər (11).

Şahmaliyeva Xatirə Mollahacı qızı isə deyir: "Bizim dövrdə uşağı elə uşaqlıq dövründən zəhmətə alışdırardılar. Keçirilən iməcliklərdə istər kənd istərsə də məktəbdə iştirak edərdik. Amma indi ərkəsöyün böyüyür uşaqlar. Nəyisə eləməyə məcbur etmək olmur"(10). Rəcəbova Səriyyə Məhəmməd qızı isə söyləyir ki, uşaqlar indi məsuliyyət götürmək istəmirlər (9). Digər məlumatçımız İsaqova Rübabə bununla bağlı əlavə edir ki, uşaqların tərbiyəsi ilə indi gənc valideynlər artıq özləri məşğul olurlar. Şəxsən mənim atam-anam işlədiyindən mənim tərbiyəmlə nənə-baba məşğul olmuşdur (8).

Beləliklə, saxurlarda uşaqlara, qocalara mehribanlıq və qayğı, qeyri-adi dərin sevgi aşılanırdı. Uşaqlar ailədə məxsus olduqları xalqın, millətin ən yaxşı nümayəndələri kimi tərbiyə olunurlar. Saxurlar ailə bağlarını yüksək qiymətləndirir, həmişə bir-birilərinə kömək edir, kədər və sevinclərini qarşılıqlı olaraq paylaşırlar. Saxur uşaqlarında ənənəvi olaraq xalq mədəniyyətinə, xalq adət-ənənələrinə, xalq dilinə, xalq pedaqogikasına, xalq ayinlərinə, xalq sənətkarlığına və s. güclü bağlılıq yaranır.

Bu məqalə keçmiş və indiki dövrdə saxurların ailə tərbiyəsinin öyrənilməsinin ilk təcrübəsidir. Məqalənin materiallarından saxurların etnoqrafiyasına dair yeni əsərlərin nəşrində istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Resrublikasının Ailə Məcəlləsi https://www.e-qanun.az/framework/46946 23/10/2022

2. Azərbaycan Resrublikasının Konstitusiyası// https://www.e-qanun.az/framework/46946 23/10/2022

3. Алиева, Б. (2006). Этнопедагогика дагестанской семьи: дис. д-ра пед. наук: 13.00.01 Пятигорск, 5, 375. РГБ ОД, 71:07-13/19

4. Bünyadova, Ş. (2012). Orta əar Azərbaycan ailəsi.//Ş.Bünyadova.Redaktoru tarix elmləri doktoru, professor Nərgiz Quliyeva. -Bakı: "Elm" nəşriyyatı, 5,172,174, 384.

5. Əliyev, Ə. (2012). XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat).// Ə. Əliyev. -Bakı: "Elm və təhsil", 106, 156s.

6. Qeybullayev,Q. (1994). Azərbaycanlılarda ailə və nigah (XIX əsr və XX əsrin əvvəlləri).Tarixi-etnoqrafik tədqiqat. 2 hissədə. II hissə./Q. Qeybullayev.-Bakı: Elm, 296, 438.

7. Ихилов М.М. (1967) Народности лезгинской группы. – Этнографическое исследование прошлого и настоящего лезгин, табасаранцев, рутулов, цахуров, агулов. Махачкала, 200-201, 262.

8. Мусаев, Г.М. (2009). Цахуры в XVIII–XIX вв.: историко-этнографическое исследование XVIII–XIX вв./ Г.М. Мусаев. Ответственный редактор: С.А. Лугуев, доктор исторических наук, заслуженный деятель PD. /– Махачкала: ИД "Эпоха", 271, 320

9. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunuhttps://www.e-qanun.az /framework/46946 23/10/2022.

**Məlumatçılar:**

10. Hüseynov Qeybulla Musa oğlu-Zaqatala rayonu, Yeni Suvagil kəndi,təvəllüd-1943, milliyyəti-saxur

11. İsaqova Rübabə Qurbanismayıl qızı-Qax rayonu, Qum kəndi, təvəllüd-1964, milliyyəti-saxur

12. Rəcəbova Səriyyə Məhəmməd qızı- Qax rayonu, Qum kəndi, təvəllüd-1974, milliyyəti-saxur

13. Şahmaliyeva Xatirə Mollahacı qızı- Qax rayonu, Qum kəndi, təvəllüd-1965, milliyyəti-saxur.

14. Turacov Turac Musa oğlu-Zaqatala rayonu, Yeni Suvagil kəndi, təvəllüd-1961, milliyyəti-saxur

# AZƏRBAYCANIN BEYNƏLXALQ İNFORMASİYA MÜBADİLƏSİ PROSESİNDƏ İŞTİRAKI DÖVLƏTİN XARİCİ SİYASƏTİNİN ELEMENTİ KİMİ

**Abdullayeva Şahnaz Əli**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-3831-6396**
**shahnazabdullayeva32@gmail.com**

# PARTICIPATION OF AZERBAIJAN IN THE PROCESS OF INTERNATIONAL INFORMATION EXCHANGE AS AN ELEMENT OF THE STATE'S FOREIGN POLICY

**Abdullayeva Shahnaz Ali**
**Baku State University**
**https://orcid.org/0000-0003-3831-6396**
**shahnazabdullayeva32@gmail.com**

**Summary**

The article considers Azerbaijan's participation in the international information process as an element of its foreign policy. In general, the information policy in the society is one of the important elements of the state policy as an instrument that regulates all components of the socio-political system, in particular the government, civil society and the media. The successful implementation of the information policy is conditioned by the level of competence of the political culture and political consciousness of the society.

For this reason, the management of geopolitical processes in the world since the beginning of the 21st century, the regulation of international relations, etc., in addition to problems, the participation of states in the information policy and the international exchange of information is also of great importance.

**Keywords:** information, information exchange, mass media, foreign policy, information society.

## УЧАСТИЕ АЗЕРБАЙДЖАНА В ПРОЦЕССЕ МЕЖДУНАРОДНОГО ОБМЕНА ИНФОРМАЦИЕЙ КАК ЭЛЕМЕНТ ВНЕШНЕЙ ПОЛИТИКИ ГОСУДАРСТВА

**Абдуллаева Шахназ Али**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-3831-6396**
**shahnazabdullayeva32@gmail.com**

### Резюме

Государственная информационная политика - это особая сфера жизнедеятельности людей, связанная с воспроизводством и распространением информации, удовлетворяющей интересы государства и гражданского общества, и направленная на обеспечение творческого, конструктивного диалога между ними и их представителями. Объектами государственной информационной политики являются печатные средства массовой информации (газеты, журналы, книгоиздание), электронные средства массовой информации (телевидение, радио, Интернет), средства связи, информационное право, информационная безопасность. Информационную политику можно рассматривать как инструмент политического воздействия и средство достижения политических целей: субъекты информационной политики способны с помощью информации оказывать воздействие на сознание, психику людей, их поведение и деятельность как в интересах государства и гражданского общества, так и в собственных интересах. В целом информационная политика в обществе является одним из важных элементов государственной политики как инструмента, который регулирует все компоненты общественно-политической системы, в частности правительства, гражданского общества и средств массовой информации. Успешное внедрение информационной политики обусловлено уровнем компетентности политической культуры и политического сознания общества. По этой причине управление геополитическими процессами в мире с начала XXI века, регулирование международных отношений и т. Д. в дополнение к проблемам, участие государств в информационной политике и международном обмене информацией также имеет большое значение.

В статье рассматривается участие Азербайджана в международном информационном процессе как элемент его внешней политики.

**Ключевые слова:** информация, обмен информацией, средства массовой информации, внешняя политика, информационное общество

Sürətlə qloballaşan müasir dünyanın beynəlxalq münasibətlər sistemində informasiya inkişafın hərəkətverici qüvvəsinə çevrilib. Yeni dünya nizamında mass-medianı araşdıran tədqiqatlarda belə bir fikrə tez-tez rast gəlmək olur ki, hazırda dünyanın güc mərkəzlərinin siyasətinin məhz informasiya formalaşdırır. Beynəlxalq arenada dövlətin yeri və nüfuzu, onun siyasi çəkisi yürütdüyü xarici siyasətlə müəyyənləşir. Siyasət anlayışı dövlətin fəaliyyətinin məqsəd və prinsiplərini və onun həyata keçirilməsinin üsul və vasitələrini əhatə edir. Bütövlükdə siyasət dövlətin həyatının ən müxtəlif sferalarına dəlalət edir. Ümumi siyasət anlayışı ilə yanaşı bu və ya digər konkret sahəni əhatə edən iqtisadi siyasət, mədəni siyasət kimi xüsusi anlayışlar da mövcuddur. (Qasımova, 2008) Dövlətin siyasət sahələrindən biri də informasiya siyasətidir.

Məhz bu səbəbdən də XXI əsrin əvvəllərindən dünyada cərəyan edən geosiyasi proseslərin idarə edilməsi, beynəlxalq münasibətlərin tənzimlənməsi və s. problemlərlə yanaşı dövlətlərin informasiya siyasəti və beynəlxalq informasiya mübadiləsi prosesində iştirakı da önəmli əhəmiyyət kəsb edir.

Dövlətin informasiya siyasəti siyasətin xüsusi bir növüdür. Onun başlıca məqsədi vahid informasiya məkanı yaratmaq, informasiya və kommunikasiya texnologiyalarının inkişafına təkan vermək, informasiyalaşmaya, informasiya cəmiyyətinin təşəkkülünə diqqət yetirməkdir. Rus tədqiqatçısı Y.V.Tavokinin fikrincə, "dövlətin informasiya siyasəti dövlət strukturlarının məqsədyönlü fəaliyyətinin işlənib hazırlanması, informasiya siyasətinin səmərəliliyinin qiymətləndirilməsi meyarı, ideoloji doktrinaların qəbul edilməsi, dövlət daxilində və dövlətdən kənarda baş vermiş ictimai əhəmiyyətli hadisələr haqqında məlumatların istehsalı, toplanması, saxlanması, adı çəkilən məlumatların ideoloji qaydalara uyğunlaşdırılması, nizamlanması, şərhi, onların dövlət kütləvi kommunikasiya kanalları vasitəsilə yayılması və tirajlanmasının qaydaya salınması, qeyri-dövlət kütləvi kommunikasiya və dövlət strukturlarının mətbuat xidmətlərinin əlaqələndirilməsinin, informasiya sferasında çalışan kadrların məqsədyönlü hazırlığı və yenidən hazırlanmasının təmin olunmasından ibarət fəaliyyət sahəsidir". XXI əsrdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı ilə əlaqədar olaraq cəmiyyətin informasiyalaşdırılması, beynəlxalq informasiya mübadiləsində iştirakı, informasiya təhlükəsizliyinin təmin olunması da dövlətin vəzifələri sırasına daxil olur və bu da öz növbəsində müasir cəmiyyətdə dövlətin informasiya siyasətinə xüsusi önəm verməsinə gətirib çıxarır.

Azərbaycanda dövlət informasiya siyasəti uzun tarixi təkamül prosesi keçmiş, dövlət müstəqilliyimizin bərpasından sonra bu tarixi təməl üzərində inkişaf edərək yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Müstəqilliyə nail olduqdan sonra Azərbaycanın vahid informasiya siyasətinin formalaşdırılması, milli informasiya mühitinin yaradılması, qorunması və idarə edilməsi qarşıda duran, həllini gözləyən əsas məsələlərdən biri və ən önəmlisi olmuşdur. Çünki müstəqilliyimizin ilk illəri qanlı-qadalı olmuş, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bir milyondan artıq vətandaşımızın öz ata-baba yurdlarından didərgin düşməsinə, iyirmi faizdən artıq torpağımızın işğal altına düşməsi ilə tariximizin qan yaddaşına yazılmışdır. Bunlar azmış kimi bəzi xarici qüvvələrin sistemli şəkildə həyata keçirdikləri informasiya müdaxiləsi, idioloji təbliğat fəaliyyəti antimilli və antidövlət meyli formalaşdırmış, dövlətin əsaslarına, vətəndaş həmrəyliyinə təhlükə yaratmışdır. Həmin dövrdə Azərbaycanın daxili informasiya sistemləri, o cümlədən informasiya yaratma, ötürmə vasitələri ya iflic olmuş ya da bütövlüklə xarici ölkələrin nəzarəti altına keçmişdi. Bir sözlə informasiya siyasətindəki boşluq özünü açıq-aydın biruzə verirdi.

1993-cü il 15 iyun tarixində Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonrakı dövrdə isə Azərbaycan mətbuatında yeni mərhələ başlandı. Dövlətin informasiya siyasətinin əsas vəzifələri, istiqamətləri, prioritetləri və resursları müəyyən edildi, nəzəri və praktiki əsasları yaradıldı, sonrakı dövrdə müxtəlif inkişaf mərhələlərindən keçərək təkmilləşdirildi və dövlət həyatının bütün sahələrində tətbiq olunmağa başlandı. Demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun əsas tələbi kimi söz və məlumat azadlığının təminatı, demokratik və siyasi plüralistik kütləvi informasiya vasitələrinin yaradılması, iqtisadi və siyasi müstəqilliyinin təmin edil-

məsi, beynəlxalq rəqabətədavamlılığının artırılması, informasiya fəaliyyətinin hüquqi-normativ əsaslarının yenidən qurulması və s. bu siyasətin əsas prioritetlərinə çevrildi. Azərbaycan hakimiyyəti bu istiqamətdə bir çox beynəlxalq təşkilatlarla və inkişaf etmiş demokratik ölkələrlə əməkdaşlıq edərək respublikada azad informasiya mühiti formalaşdırdı. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin uğurlarını təmin amillərdən biri də bu siyasətin istər yerli, istərsə də dünya mətbuatında özünə geniş informasiya dəstəyi tapmasıdır. (Aslanov, 2013)

Müstəqilliyə nail olduqdan, xüsusilə də 1993-cü ildən sonra vahid informasiya siyasətinin formalaşması və təhlükəsizliyinin təminatı, informasiya mühitinin yaradılması sahəsində xeyli iş görülmüşdür. KİV-in fəaliyyətini tənzimləyən qanunvericilik bazası yaradılaraq beynəlxalq standartlara uyğunlaşdırılmışdır. Azərbaycan Respublikasının 1995-ci ildə qəbul etdiyi yeni Konstitusiyanın 47-ci maddəsi hər kəsin fikir və söz azadlığı olduğunu, 50-ci maddə isə hər kəsə istədiyi məlumatı qanuni yolla axtarmaq, əldə etmək, ötürmək, hazırlamaq və yaymaq azadlığı verir. 1998-ci il avqustun 6-da Prezidentin fərmanı ilə senzura birdəfəlik ləğv edildi. Fərmanda göstərilirdi ki, KİV-də istənilən fikir demək, dövlət sirri təşkil etməyən faktı açıqlamaq üçün qeyri-məhdud imkanlar vardır. Bu da "Azərbaycan Konstitusiyası ilə təsbit olunmuş söz, məlumat və fikir azadlığını təmin etmiş, ölkənin informasiya siyasətini dolğunlaşdırmışdır. Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından. "KİV haqqında", "Dövlət sirri haqqında", "Rabitə haqqında", "İnformasiya əldə etmək haqqında" Qanunlardan və digər nominativ aktlardan ibarətdir.

Dövlətin, cəmiyyətin və vətəndaşların həyatında informasiyanın, informasiya resurslarının və texnologiyalarının rolunun artması informasiya təhlükəsizliyi məsələlərini ön plana çıxarır. Məsələnin kökündə internetin sürətli inkişafı, yeni veb texnologiyalar əsasında yaradılmış proqram təminatı sistemlərinin mühafizəsi dayanır. Bu məqsədlə 27 aprel 2018-ci il tarixdə Azərbaycanda informasiya təhlükəsizliyi üzrə yeni qurum yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyev "İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının yaradılması haqqında" Sərəncam imzalayıb. Komissiya Azərbaycanın informasiya təhlükəsizliyinə təhdidlərin qiymətləndirilməsini, o cümlədən belə təhdidlərin əsas mənbələri, istiqamətləri, formaları, vura biləcəyi zərər və təsirlər ilə bağlı müntəzəm təhlillər aparılmasını, təkliflərin hazırlanmasını, mümkün təhdidlərin qarşısının alınması sahəsində müvafiq dövlət orqanlarının fəaliyyətlərinin əlaqələndirilməsini, birgə tədbirlərin planlaşdırılmasını və həyata keçirilməsini təmin edir. Bundan başqa, komissiya ictimai əhəmiyyətli infrastruktur obyektlərinin informasiya sistemlərinə və ehtiyatlarına kiberhücumlar və fövqəladə kibertəhlükə hallarında əlaqələndirilmiş işin təşkili və birgə əks tədbirlərin həyata keçirilməsini, internet informasiya ehtiyatlarında Azərbaycan Respublikasının milli maraqları əleyhinə məqsədyönlü şəkildə yayılan saxta məlumatların mənbəyinin təxirə salınmadan müəyyən edilməsini və bu barədə müvafiq orqanların dərhal məlumatlandırılmasını, aidiyyəti dövlət orqanlarının kibertəhlükəsizliyinin təmin edilməsi, o cümlədən kibercinayətlərlə mübarizə sahəsində kadr və texniki potensialın gücləndirilməsi məqsədilə təkliflərin hazırlanmasını və zəruri tədbirlərin görülməsini təşkil edir. Ümiumniyyətlə Azərbaycanda informasiya təhlükəsizliyi ilə bağlı məsələlər ölkə qanunlarında öz əksini tapıb. Bu qanunlar, əsasən, aşağıdakılardır: “Kütləvi informasiya vasitələri haqqında Azərbaycan Respublikasının Qanunu”, “Məlumat azadlığı haqqında Azərbaycan

Respublikasının Qanunu", "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında Azərbaycan Respublikasının Qanunu", "Telekommunikasiya haqqında Azərbaycan Respublikasının Qanunu", "Televizya və radio yayımı haqqında Azərbaycan Respublikasının Qanunu; Dövlət sirri haqqında Azərbaycan Respublikasının Qanunu və s. Qeyd edək ki, informasiya təhlükəsizliyinin təmin olunması ilə bağlı tələblər bir sıra digər qanunlarda, o cümlədən "Milli təhlükəsizlik haqqında", "Azərbaycan Respublikasının Qanununda", eləcə də Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasında göstərilib. Bütün bu sənədlərdə qeyd olunur ki, informasiya təhlükəsizliyinin təmin olunması məsələləri ümumilikdə dövlət, ictimai və fərdi informasiya ehtiyatlarının qorunmasına, eləcə də informasiya sahəsində milli maraqların qorunması və mühafizəsinə əsaslanır.

Bu gün ölkədə informasiya cəmiyyətinə keçid sahəsində kompleks tədbirlər hazırlanıb, informasiya resursları formalaşdırılıb, informasiya-telekommunikasiya infrastrukturu dünya standartları səviyyəsinə qaldırılıb, informasiyanın azad dövriyyəsi, axtarılması, əldə edilməsi təmin edilib, informasiya siyasətinin konseptual və qanunverici əsasları hazırlanıb.

Dövlətin informasiya siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində KİV-in rolu danılmazdır. O təkcə informasiya mübadiləsini deyil, həm də informasiya siyasətini həyata keçirir. KİV özünün təbliğat imkanları və resursları ilə dövlət informasiya siyasətini yaratmaq və formalaşdırmaq gücünə malikdir. İnformasiya və kommunikasiya texnologiyalarının sürətli inkişafı və KİV-in İKT geniş imkanlarından istifadə edərək beynəlxalq arenaya inteqrasiyası dövlətin xarici siyasətinin həyata keçirilməsində informasiya siyasətinin rolunu daha da artırır.

Beynəlxalq informasiya mübadiləsi prosesində Azərbaycanın media qurumları, KİV əməkdaşları hərtərəfli iştirak edirlər. Beynəlxalq informasiya əməkdaşlığı dövlətlərarası təşkilatların rəhbərliyi ilə çoxtərəfli və ikitərəfli beynəlxalq sazişlər, media qurumları arasında bağlanmış müqavilələr, müasir İnternet resursları təqdim etməklə, müvafiq məlumat bazasına yiyələnməklə, söz və ifadə azadlığı əsasında sərbəst informasiya yayımı prosesində iştirak etməklə istənilən kütləvi informasiya vasitəsi, hüquqi və fiziki şəxs həyata keçirir. Beynəlxalq informasiya məkanında Azərbaycanın mövqeyinin möhkəmlənməsi, ölkəmiz haqqında həqiqətlərin dünya media səhnəsinə çıxarılması, xalqımızın üzləşdiyi problemlər haqqında beynəlxalq ictimaiyyətə obyektiv, dolğun və düzgün məlumatların çatdırılması üçün ölkə KİV-nin beynəlxalq informasiya mübadiləsi prosesində iştirakı sistemli şəkildə, dövlətin xarici siyasətinin təzahürü kimi çıxış edir.

**Ədəbiyyat**:

1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi (Dərslik), Bakı, Mütərcim, 2007, 208 s.

2. Aslanov A. Dövlət siyasətinin informasiya təminatı. Bakı, "Şərq-Qərb", 2013, 620 s. 3. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: "Qanun" nəşriyyatı, 1996, 180 s.

4. Babaoğlu Hikmət. Dünya siyasəti və beynəlxalq münasibətlər. Bakı, "Çinar-çap", 2010. 568 s.

5. Qasımova H.A. Xarici əlaqələr hüququ. Dərslik. Bakı: «Bakı Universiteti» nəşriyyatı, 2008, 480 s.

7. Niyazov.X.Q. Dövlət informasiya siyasəti, Bakı, "Elm və təhsil", 2016, 324 s

8. Тавокин Е.П Системные основы государственной информационной политики. Массовые информационные процессы в современной России. Очерки Отв. Ред. А.В.Шевченко М. РАГС, 2002, 301с.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN QARABAĞIN MADDİ-MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN ÖYRƏNİLMƏSİ VƏ TƏBLİĞİNDƏ ROLU (1969-1982-Cİ İLLƏR)

**Hüseynova Səba Ramiz**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**https://orcid.org/0000-0003-2873-8835**
**sabahuseynova08@gmail.com**

# NATIONAL LEADER HAYDER ALIYEV'S ROLE IN STUDYING AND PROMOTING THE MATERIAL AND CULTURAL MONUMENTS OF KARABAKH (1969-1982)

**Huseynova Saba Ramiz**
**Azerbaijan State Pedagogical University**
**https://orcid.org/0000-0003-2873-8835**
**sabahuseynova08@gmail.com**

**Summary**

As during the period of the first leadership of Azerbaijan (1969-1982), in the period of our independence, thanks to the great attention, care and wise decisions of the Great Leader Heydar Aliyev to our cultural heritage, a lot of work was done in the protection of our monuments, and necessary steps were taken to enrich the legal base in the related field. Since the beginning of the 70s, complex archaeological researches have been started in the ancient human camps of Azerbaijan. Complex archaeological research was carried out in the world-famous ancient Azikh and Taglar human camps of Karabakh. Azikh cave is the most spectacular karst cave in the Caucasus due to its size. Therefore, during this period, excavation works in the cave not only maintained its importance, but also became intensive. Among the unique monuments of Karabakh, the Shusha Paleolithic camp and the stone chronicle of Kalbajar occupy a special place. After our victory in the forty-four-day Patriotic War, the material and cultural monuments in Karabakh were freed from occupation.

**Keywords:** Ancient monuments of Karabakh, Azikh and Taglar, archaeological monuments, protection of cultural heritage

# РОЛЬ НАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В ИЗУЧЕНИИ И ПРОПАГАНДИРОВАНИИ МАТЕРИАЛЬНЫХ И КУЛЬТУРНЫХ ПАМЯТНИКОВ КАРАБАХА (1969-1982 ГГ.)

**Гусейнова Саба Рамиз**
**Азербайджанский Государственный Педагогический Университет**
**https://orcid.org/0000-0003-2873-8835**
**sabahuseynova08@gmail.com**

## Резюме

Как и в период первого руководства Азербайджана (1969-1982 гг.), так и в период нашей независимости, благодаря большому вниманию, заботе и мудрым решениям Великого лидера Гейдара Алиева к нашему культурному наследию, была проделана большая работа в области охраны наших памятников, и были предприняты необходимые шаги по обогащению правовой базы в соответствующей сфере. С начала 70-х годов в древних стоянках людей Азербайджана были начаты комплексные археологические исследования. Комплексные археологические исследования были проведены в известных на весь мир древних азыхских и тагларских стоянках Карабаха. Азыхская пещера самая впечатляющая карстовая пещера на Кавказе благодаря своим размерам. Поэтому в этот период раскопки в пещере не только сохранили свое значение, но и приобрели интенсивный характер. Среди уникальных памятников Карабаха особое место занимают Шушинская палеолитическая стоянка и каменная летопись Кельбаджара. После нашей победы в 44-дневной Отечественной войне материальные и культурные памятники Карабаха были освобождены от оккупации.


**Ключевые слова**: древние памятники Карабаха, Азых и Таглар, археологические памятники, охрана культурного наследия


Ümummilli lider Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə xalqımızın tarixinin öyrənilməsi, tarixi və mədəni irsinin qorunub saxlanılması sahəsində mühüm işlər görmüşdür. Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə isə bu sahədə dövlət siyasətini həyata keçirmək üçün zəngin qanunvericilik bazası yaratmışdır. Ümummilli liderin Azərbaycanda siyasi hakimiyyətə qədəm qoyması ilə tarixi, arxeoloji, memarlıq abidələrimizə olan biganə münasibətə son qoyuldu, qədim və zəngin tarixə malik xalqımızın gələcəyə inamı artdı. Tarixi həqiqətlərimizin araşdırılmasına, təbii sərvətlərimizə, maddi-mədəni abidələrimizə olan münasibət dəyişildi. Heydər Əliyevin Azərbaycan tarixinin, arxeologiyasının, etnoqrafiyasının inkişafının ayrı-ayrı məqamları ilə bağlı fəaliyyəti bu gün də alimlər tərəfindən ciddi araşdırılmasına ehtiyac olan tədqiqat mənbəyidir.

Azərbaycanın ərazisi çox qədim tarixə və mədəniyyətə malikdir. Respublikamızın ərazisində aparılan hərtərəfli elmi araşdırmalar zamanı bəşər tarixinin müxtəlif inkişaf mərhələlərinə aid zəngin maddi mədəniyyət nümunələri aşkar edilərək, Azərbaycanın ərazisinin ən qədim sivilizasiya mərkəzlərindən biri olmasını elmi faktlarla sübut etmişdir. Bütün bu araşdırmaların nəticəsində əldə olunan elmi nailiyyətlərdə 1969-u ildə Azərbaycanda rəhbərliyə başlayan H. Əliyevin böyük rolu olmuşdur (Nəcəf Müseyibli "Azərbaycan Arxeologiyası: uğurlar, problemlər, perspektivlər (elmi-publisistik məqalələr toplusu), s.76-85)).

1970-ci illərin əvvəllərindən Qarabağın dünya şöhrətli qədim Azıx və Tağlar insan düşərgələrində kompleks şəkildə arxeoloji tədqiqat işləri həyata keçirilməyə başlanılmışdır. Görkəmli alim Məmmədəli Hüseynovun rəhbərliyi altında paleolit arxeoloji ekspedisiyası Qarabağın Quruçay vadisində apardığı elmi tədqiqat işləri zamanı müəyyən edilmişdir ki, bu ərazidə hələ çox qədim zamanlardan etibarən canlı həyatın inkişafı üçün əlverişli təbii coğrafi şərait mövcud idi.

Azıx mağarası böyüklüyünə görə Qafqazın ən möhtəşəm karst mağarasıdır. Ona görə bu dövrdə də mağarada qazıntı işlərinin aparılması özünün əhəmiyyətini nəinki qoruyurdu, hətta intensiv xarakter aldı. 1960-cı ildən başlayaraq 1987-ci ilə qədər davam edən arxeoloji tədqiqatlar mağaranın çöküntülərində zəngin tarixi geoloji təbəqələrin olmasını müəyyən etmişdir. Burada 1974-1976, 1980-1982 və 1986-cı illərdə M. Hüseynovun rəhbərliyi ilə arxeoloji qazıntılar

aparılmışdır. Azıx mağarasından tapılmış bütün materiallar o dövrün təbii şəraiti, ibtidai insanların həyat tərzi, dünyagörüşü haqqında məlumatlar əldə etmək üçün mühüm əhəmiyyət kəsb edir.

Qarabağın Paleolit abidələri içərisində Azıx və Tağlar mağaraları ilə yanaşı Şuşa Paleolit düşərgəsinin də özünəməxsus yeri vardır. Şuşa mağara düşərgəsi 1971-ci ildə M. Hüseynovun rəhbərlik etdiyi ekspedisiya tərəfindən Daşaltı çayının sol sahilində qeydə alınmışdır (Qafar Cəbiyev "Azərbaycan Arxeologiyasının əsasları". Dərs vəsaiti, s. 102).

Qarabağın misilsiz abidələri sırasında Kəlbəcərin daş salnaməsi xüsusi yer tutur. Azərbaycanda qayaüstü təsvirlərin ilk nümunələri 1939-cu ildə görkəmli arxeoloq İ. Cəfərzadə tərəfindən qeydə alınmasına, Kəlbəcərdəki qayaüstü təsvirlərin ilk elmi qeydiyyatı keçən əsrin 60-cı illərinin ikinci yarısı həyata keçirilməsinə baxmayaraq, əsaslı öyrənilməsi 70-ci illərlə bağlıdır. Aparılan tədqiqatlarla qonşu Laçın bölgəsinin bitişik torpaqlarında, eləcə də Pəriçınqılı, Ayıçınqılı, Yazyurdu, Sarımsaqdağ, Zalxagölün, Qaragölün sahillərində bir sıra qədim qayaüstü təsvirlər aşkar etmişdir.

Azərbaycana birinci rəhbərliyi (1969-1982) dövründə olduğu kimi müstəqillik dövrümüzdə də Ulu Öndər Heydər Əliyevin mədəni irsimizə yüksək diqqəti, qayğısı və müdrik qərarları sayəsində abidələrimizin qorunması işində çox böyük işlər görüldü (Azərbaycan Arxeologiyası. Bakı. 2008, s.9-15).

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli, 132 nömrəli qərarı ilə təsdiq edilmiş və Azərbaycanda qeydiyyata alınması göstərilmiş dünya əhəmiyyətli arxeoloji abidələrin siyahısı tərtib olunmuşdur (Novruzlu Ə. İ., Nuriyev A. B. Azərbaycanın yeni tikinti sahələrdə arxeoloji tədqiqatlar, s 325).

Bildiyimiz kimi, Heydər Əliyev xalqımızın tarixinin qədimliyini sübut edən tədqiqat işlərinin aparılması, maddi-mədəniyyət abidələrinin aşkar edilərək təbliğ edilməsi üçün aparılan genişmiq-yaslı işlərin qanun çərçivəsində yerinə yetirilməsini təmin etmək məqsədilə Azərbaycan SSR Ali Sovetinin 21iyul 1978-ci il tarixli sessiyasında "Tarix və mədəniyyət abidələrinin mühafizəsi və onlardan istifadə haqqında Azərbaycan SSR Qanunu"nun qəbul edilməsinə olunmasına nail oldu. Bu Qanunnamənin V fəslinin 51-ci maddəsində də göstərildiyi kimi Heydər Əliyev Azərbaycan xalqına məxsus maddi-mədəni irsin beynəlxalq aləmdə tanınmasına çalışırdı. 1972-ci ilin 5 dekabrında Azərbaycan KP MK-nın birinci katibi olduğu vaxt Heydər Əliyev XX elmi konfransda iştirak etmək üçün Bakıya gəlmiş ADR və SSR tarixçiləri ilə görüşmüşdü. Hələ o dövrdə Ulu öndər öz çıxışında Azərbaycan xalqının qədim tarixinin öyrənilməsinin, araşdırılmasının, nəinki respublikada, eləcə də bütün dünyada təbliğ edilməsini tarixçilərin qarşısında duran əsas məsələ olduğunu onların nəzərinə çatdırmışdı (Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi "Azərbaycan Respublikası Dövlət Arxivləri", s 155).

1981-ci il dekabrın 8-də Fransanın paytaxtı Paris şəhərində olan İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgi təşkil edilmişdir. Sərgidə dünyanın ən qədim insan düşərgələrindən aşkar olunmuş arxeoloji və paleoanropolji tapıntılar nümayiş etdirilmişdir. Sərgidə keçmiş SSRİ-dən ancaq Azıx və Tağlar paleolit düşərgələrindən aşkar olunmuş maddi mədəniyyət qalıqları üçün ayrıca guşə ayrılmışdır. Arxeoloji materiallar içərisində Quruçay, Aşel, Mustye mədəniyyətlərinin

və həmçinin azıxantropun alt çənəsi xüsusi marağa səbəb olmuşdur (Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu “Azərbaycanın maddi-mədəniyyəti”, s 74-82).

Qırx dörd günlük Vətən müharibəsindəki qələbəmizdən sonra digər arxeoloji abidələrlə yanaşı, Azıx mağarası da əsarətdən azad oldu. Təsadüfi deyil ki, 2020-ci ilin 17 oktyabrında Azərbaycan ordusu tərəfindən işğaldan azad olunmuş Füzuli rayonuna səfər edərkən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ilk baş çəkdiyi yerlərdən birincisi də məhz Azıx mağarasına baş çəkərək ermənilərin burada törətdikləri vəhşiliklə bağlı geniş çıxış etmişdir (https://science.gov.az.news open).

Tədqiqat işinin yazıldığı dövrlə bağlı xatırlatma etsək, nəinki Sovet hakimiyyət orqanları tərəfindən tariximizin, xalqımıza məxsus maddi-mədəni irsin öyrənilməsinə imkan yaradılırdı, hətta bir fənn olaraq Azərbaycan tarixinin tədrisinə belə imkan yaradılmırdı. Heydər Əliyev məhz bu dövrdə, bütün bu çətinliklərə baxmayaraq, tariximizin dərindən araşdırılması, tədqiqi, təbliği üçün çox böyük işlər görmüşdür. Məlum olduğu kimi, Ulu öndər bu illərdə Azərbaycan xalqına məxsus maddi- mədəniyyət abidələrinin beynəlxalq aləmdə tanıdılması üçün də əlindən gələni etmişdir.

**Ədəbiyyat:**

1. Azərbaycan Arxeologiyası. Şərq-Qərb nəşriyyatı, Bakı 2008, s. 9-15.
2. Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu “Azərbaycanın maddi-mədəniyyəti”. Bakı 1993. s. 74-82.
3. Azərbaycan Respublikasının Milli Arxiv İdarəsi “Azərbaycan Respublikası Dövlət Arxivləri”. Bakı 2003, -309 s.
4. Qafar Cəbiyev “Azərbaycan Arxeologiyasının əsasları”. Dərs vəsaiti. Elm və təhsil nəşriyyatı, Bakı 2018. -303 s.
5. Nəcəf Müseyibli “Azərbaycan Arxeologiyası: uğurlar, problemlər, perspektivlər (elmi-publisistik məqalələr toplusu). Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutu. Milli Rəqəmsal Yaddaş. Bakı 2017. -208 s.
6. Novruzlu Ə. İ., Nuriyev A. B. Azərbaycanın yeni tikinti sahələrdə arxeoloji tədqiqatlar. I cild. Bakı: Nurlan 2003. -479 s.
7. https://science.gov.az.news open.

## QEYRİ-KOMMERSİYA HÜQUQİ ŞƏXSİ KİMİ DİNİ QURUMLARIN STATUSU

**Həbibova Səmayə Məhərrəm**
**Bakı Dövlət Universiteti**
shebibova@yahoo.com

## STATUS OF RELIGIOUS INSTITUTIONS AS NON-COMMERCIAL LEGAL PERSONS

**Habibova Samaya Muharram**
**Baku State University**
shebibova@yahoo.com

### Summary

The thesis analyzes the status of religious associations as non-profit legal entities. The author, analyzing the peculiarities of non-profit persons enshrined in the legislation of the Republic of Azerbaijan, comes to the opinion that, without any exceptions, he refers religious associations to this particular type of legal entities. In connection with this author, a proposal is put forward to improve Art. 2.4. Decree of the President of the Republic of Azerbaijan "On the application of the Law of the Republic of Azerbaijan on state registration and the state register of legal entities."

Based on the study, the author comes to the opinion that when distinguishing non-profit and commercial organizations, it is not the fact of profit that matters, but the purpose of this profit. In non-profit organizations, the arrival should be aimed at the implementation of the original goal enshrined in the charter. With regard to religious organizations, this goal is to jointly confess and spread the faith.

**Keywords:** religious associations, legal entities, non-profit, entrepreneurial activities.

## СТАТУС РЕЛИГИОЗНЫХ УЧРЕЖДЕНИЙ КАК НЕКОММЕРЧЕСКИХ ЮРИДИЧЕСКИХ ЛИЦ

**Хабибова Самая Магеррам**
**Бакинский Государственный Университет**
shebibova@yahoo.com

### Резюме

В тезисе анализируется статус религиозных обьединений как некоммерческие юридические лица. Автор, анализируя особенности некоммерческих лиц, закрепленных на законодательстве Азербайджанской Республики, приходит к мнению что, без всяких исключений относить религиозные обьединения именно к этому виду юридических лиц. В связи с этим автором выдвигаетпредложение по усовершенствованию ст. 2.4. Указа Президента Азербайджанской Республики «О применении Закона Азербайджанской Республики О государственной регистрации и государственном реестре юридических лиц».

На основе исследования автор приходит к мнению что, при разграничении некоммерческих и коммерческих организаций значение имеет не факт получения прибыли, а цель данной прибыли. В некоммерческих организациях прибыль должна быть направлена на реализацию первоначальной цели, закрепленной в уставе. В отношении религиозных организаций, данной целью является совместное исповедование и распространение веры.

**Ключевые слова:** религиозные обьединения, юридические лица, некоммерческие, предпринимательская деятельность

Dini qurumların xarakterik xüsusiyyətlərini müəyyən etmək üçün ilk növbədə onun hüquqi şəxsin hansı növü olması aspektindən nəzərdən keçirmək lazımdır. "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanununa əsasən bu Qanun Azərbaycan Respublikasının ərazisində hüquqi şəxslərin dövlət qeydiyyatının və dövlət reyestrinin aparılmasının hüquqi və təşkilati əsaslarını müəyyən edir ("Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 1). Həmin Qanunun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 12 aprel 2004-cü il tarixli (№ 48) Fərmanında hüquqi şəxslərin dövlət qeydiyyatını həyata keçirilməli olan dövlət qurumları 3 qrupda fərqləndirilir: qeyri-kommersiya hüquqi şəxslərinə və xarici qeyri-kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə münasibətdə, kommersiya hüquqi şəxslərinə, xarici kommersiya hüquqi şəxslərinin filial və nümayəndəliklərinə, publik hüquqi şəxslərə münasibətdə və dini qurumlara münasibətdə (Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı (Maddə 2.4.). Göründüyü kimi, Fərman dini qurumlara münasibətdə qeydiyyat orqanını ayrıca fərqləndirir və bu orqan qismində Dini qurumlarla iş üzrə dövlət Komitəsi çıxış edir.

Fərmanın qeyd edilən bəndinin hərfi təhlilindən dini qurumların hüquqi şəxslərin xüsusi növü kimi fərqləndirilməsi təəssüratı yaranır. Bu isə hüquqi şəxslərin Azərbaycan Respublikasının Mülki Məcəlləsində təsbit edilmiş təsnifatından fərqlənir. Belə ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsi hüquqi şəxslərin təsnifatını aşağıdakı meyarlar əsasında müəyyən edir:

- kommersiya hüquqi şəxsləri - əsas məqsədi mənfəət götürməkdən ibarət olan;
- qeyri-kommersiya hüquqi şəxsləri - əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən;
- ümumdövlət və (və ya) ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olan (publik hüquqi şəxslər) (Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Maddə 43).

Göründüyü kimi Məcəllə kommersiya və qeyri-kommersiya hüquqi şəxslər arasında yeganə meyar kimi məhz əsas məqsədinin mənfəət əldə edilib edilməməsini göstərir. Məcəllədə qeyri-kommersiya qurumları olan hüquqi şəxslərin növləri kimi ictimai birlikləri, fondları, hüquqi şəxslərin ittifaqlarını aid edir, ancaq qeyd edilir ki, o qanunvericilikdə nəzərdə tutulan digər formalarda da yaradıla bilər. Göründüyü kimi, Məcəllədə qeyri-kommersiya hüquqi şəxslərinin siyahısında dini qurumların adı birbaşa çəkilməsə də maddənin məzmunu bunu istisna etmir.

"Dini etiqad azadlığı" haqqında Qanunda da dini qurumların hüquqi şəxslərin hansı növünə aid edilməsinə birbaşa toxunulmur. Lakin, Qanunda qeyd edilir ki, dini qurumlar bu Qanuna və təsdiq olunmuş nizamnamələrinə müvafiq surətdə fəaliyyət göstərirlər ("Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 7) Ölkəmizdə fəaliyyət göstərən ən böyük dini qurum olan Qafqaz müsəlmanları idarəsinin nizamnaməsində də qeyd edilir ki, idarə dövlət qeydiyyatına alındığı vaxtdan qeyri-kommersiya hüquqi şəxs statusuna malikdir (Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsi, 1.9-cu bənd).

"Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən isə bu qanun siyasi partiyalara, həmkarlar ittifaqlarına, dini birliklərə, yerli

özünüidarə orqanlarına, habelə bu təsisatlara məxsus olan funksiyaların həyata keçirilməsi məqsədi ilə yaradılan qurumlara və başqa qanunlarla tənzimlənən digər qeyri-kommersiya təşkilatlarına şamil edilmir ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanun, maddə 1.1.). Buna baxmayaraq bəzən ədəbiyyatlarda dini qurumlar (birliklər) ictimai birliklərin bir növü kimi də nəzərdən keçirilir (Qəniyev, s. 545). "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu ictimai birliyi təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar əsasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilat kimi müəyyən edir ("Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanun, maddə 2.1.). İctimai birlikdən fərqli olaraq, dini qrup müvafiq dini etiqad daşıyıcılarının (nümayəndələrinin) nisbətən kiçik birliyidir. Dini qrupun dini etiqad fəaliyyətini müəyyən edən, digər daxili məsələlərini həll edən sənədlər dövlət orqanlarında qeydiyyatdan keçirilmir.

Qeyd edilən müddəaların təhlili dini qurumların məhz qeyri-kommersiya hüquqi şəxsi olmasını təsdiq edir.

Bu baxımdan hesab edirik ki, anlaşılmazlığın aradan qaldırılması üçün "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanın mətnində texniki düzəliş edilməsinə zərurət vardır. Bu baxımdan Fərmanın 2.4.3-ci bəndinin 2.4.1-ci bənd kimi təsbit edilməsini, hazırkı versiyada 2.4.1-ci maddənin 2.4.2-ci bənd kimi təsbit edilməsini və cümlənin əvvəlinə "digər" sözünün əlavə edilməsini və hazırkı versiyada 2.4.2-ci maddənin 2.4.3-ci bənd kimi təsbit edilməsini təklif edirik.

Ümumi qaydaya görə qeyri – kommersiya hüquqi şəxsləri sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədi ilə yaradılmır. Eyni zamanda qeyri – kommersiya hüquqi şəxslərin sahibkarlıq fəaliyyətini həyata keçirməsi əslində qanunla qadağan edilmir. Əksinə, onlar sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilərlər, bu şərtlə ki, sahibkarlıq fəaliyyəti onların yaradılması zamanı qarşıya qoyulmuş məqsədlərə nail olmağa xidmət etsin və bu məqsədlərə uyğun gəlsin (Mülki Məcəllə, 43 – cü maddəsinin 6 – cı bəndi). Sahibkarlıq fəaliyyətini həyata keçirmək üçün qeyri-kommersiya hüquqi şəxsləri təsərrüfat cəmiyyətləri yarada bilər və ya onlarda iştirak edə bilərlər.

Eyni sözləri dini qurumlar haqqında da demək olar. "Dini etiqad azadlığı" haqqında Qanun dini qurumların istehsal və təsərrüfat fəaliyyətini nəzərdə tutsa da, bunun təsis etdiyi hüquqi şəxslər vasitəsilə aparılmasını tənzimləyir. Dini qurumlar qanunvericiliyə və öz nizamnamələrinə müvafiq surətdə hüquqi şəxs statuslu nəşriyyat, poliqrafiya, istehsal, bərpa-tikinti müəssisələri, yetimxanalar, internatlar, xəstəxanalar və sair təsis edə bilərlər ("Dini etiqad azadlığı" haqqında Qanun, maddə 19).

Bu halda belə bir sual yaranır ki, qeyri – kommersiya hüquqi şəxslərinin sahibkarlıq fəaliyyəti kommersiya təşkilatlarının həyata keçirdikləri sahibkarlıq fəaliyyətindən nə ilə fərqlənir? Hüquq ədəbiyyatının və mülki qanunvericiliyin təhlili əsasında iki vacib fərqi müəyyən etmək olar.

Birinci fərq ondan ibarətdir ki, qeyri – kommersiya hüquqi şəxslərinin sahibkarlıq hüququ onların əsas fəaliyyətlərinin məqsəd və istiqamətlərinə uyğun olmalıdır. Məsələn, ictimai birlik və ya fond (onlar qeyri – kommersiya hüquqi şəxslərinin növləridir) kitablar nəşr etdirir, kitab ticarəti (biznesi) ilə məşğul olur və bu məqsədlə kitab köşkləri yaradır. Söz yox ki, bədən tərbiyəsi və idmana kömək etmək üzrə yaradılmış fondun alkoqollu içkilərin və tütün məmulatlarının ticarəti ilə məşğul olması qanunsuz fəaliyyət hesab ediləcəkdir.

İkinci fərqə görə isə, qeyri – kommersiya hüquqi şəxslərinin sahibkarlıq fəaliyyəti əsas fəaliyyətinə münasibətdə yaradıcı xarakterdə olmalıdır. Buna görə də, onlar kommersiya təşkilatlarından fərqli olaraq sahibkarlıq fəaliyyətini sözün əsl mənasında peşəkarcasına həyata keçirə bilmir və kommersiya (sahibkarlıq) dövriyyəsinin peşəkar iştirakçısı hesab edilmir (Qauxman, s. 28).

Əgər qeyri – kommersiya hüquqi şəxsləri fəaliyyət məqsədlərinə və istiqamətlərinə uyğun gələn sahibkarlıq fəaliyyətini həyata keçirərlərsə, bu zaman onlar kommersiya təşkilatları kimi azad sahibkarlıq hüququnun daşıyıcısı olaraq tanınır və sahibkarlıq fəaliyyətinin subyekti hesab edilirlər (Voljenkin, s. 31).

Qeyd edilənlər əsasında belə nəticəyə gəlmək olar ki, kommersiya və qeyri – kommersiya hüquqi şəxsləri fərqləndirən əsas xüsusiyyət kimi mənfəət əldə edilməsi faktının özü deyil, bu mənfəətin məqsədi çıxış edir. Kommersiya təşkilatlarının əldə etdikləri mənfəət sonradan onların təsisçilərinə ötürülür və onun məqsəd və tələbatlarına xidmət edir. Qeyri-kommersiya qurumları da mənfəət əldə etməyə ehtiyacı olsa da, bu məqsəd ikinci dərəcəli əhəmiyyət kəsb edir. Bu mənfəət onun nizamnaməsində əks olunmuş məqsədlərin həyata keçirilməsinə yönəlməlidir. Dini qurumlara münasibətdə isə belə məqsəd kimi, birlikdə ibadət etmək və dini əqidənin yayılması çıxış edir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsi. Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://www.e-qanun.az/framework/46944

2. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikasının Qanunu. Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://e-qanun.az/framework/7649

3. “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında Azərbaycan Respublikasının Qanunu. Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://e-qanun.az/ framework /5403

4. Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin Fərmanı Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://e-qanun.az/framework/6011

5. Qafqaz Müsəlmanları İdarəsinin Nizamnaməsi. [Elektron resurs]. Keçid: https:// https://www.qafqazislam.com/userfiles/files/QM%C4%B0N%C4%B0ZAMNAM%C6%8FS%C4%B0%281%29.pdf

6. “Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında” Azərbaycan Respublikasının Qanunu. Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://e-qanun.az/framework/511

7. Qəniyev F. Dini ayinlərin icrası adı altında vətəndaşların hüquqlarına qəsd etmə cinayətlərinin hüquqi təhlili / Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problemləri. Elmi məqalələr məcmuəsi. Bakı: Adiloğlu, 2006, 16-cı buraxılış, s. 545

8. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikasının Qanunu // 13 iyun 2000-ci ildə (№ 894-IQ) qəbul edilmişdir (30 iyun 2020-cı il tarixdə olan dəyişiklik və əlavələrlə) / e-qanun.az. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi. Hüquqi aktların vahid elektron bazası [Elektron resurs]. Keçid: https://e-qanun.az/framework/511

9. Волженкин Б.В. Экономические преступления. Санкт – Петербург, 1999, с. 31

10. Гаухман Л.Д. Хозяйственные преступления. Москва, 1995, с. 38

## AZƏRBAYCANIN AVROPA İTTİFAQINA İNTEQRASİYASININ GEOSİYASİ MƏHDUDİYYƏTLƏRİ

**Əhmədli Ülvi Mənsur**
**Bakı Dövlət Universiteti**
**ulviehmedli@gmail.com**

## GEOGEOGRAPHICAL LIMITATIONS OF AZERBAIJAN'S INTEGRATION INTO THE EUROPEAN UNION

**Ahmedli Ulvi Mansur**
**Baku State University**
**ulviehmedli@gmail.com**

**Summary**

Being located in a complex geopolitical geography has a serious impact on the direction of Azerbaijan's foreign policy. The thesis reflects the geopolitical obstacles that Azerbaijan faces on the way of integration to European Union. Here, the brief history of European integration, the main goals of Azerbaijan in this direction and the geopolitical obstacles it faces are mentioned.

European integration emerged by the devastating consequences of the Second World War. Later, it enlarged to the other states of the continent. Azerbaijan, which has just gained its independence, tried to raise its relations to a higher level in order to benefit from the development achieved by Europe. However, the genetic political reality of the geography makes official Baku take a special measure in its steps. It is the main factor hindering the integration of Russia into the Euro-Atlantic space in the post-Soviet space. The uncompromising position of the Kremlin in this power struggle was manifested in the Georgian and Ukrainian wars.

The thesis examines the struggle between Russia and the West as a geopolitical constraint and how Azerbaijan is affected by such a situation. Although Baku participated in a number of initiatives put forward by the EU, it decided to develop relations in a cooperative format, keeping the integration within a certain framework. Based on its security, Azerbaijan took a pragmatic direction in this way, and no special changes are expected in the coming years.

**Keywords:** Azerbaijan, European Union, Russia, South Caucasus, geopolitics, integration.

**ГЕОПОЛИТИЧЕСКИЕ ОГРАНИЧЕНИЯ ИНТЕГРАЦИИ АЗЕРБАЙДЖАНА В ЕВРОПЕЙСКИЙ СОЮЗ**

**Ахмедли Ульви Мансур**
**Бакинский Государственный Университет**
**ulviehmedli@gmail.com**

**Резюме**

Нахождение в сложной геополитической географии оказывает серьезное влияние на направление внешней политики Азербайджана. В тезисе отражены геополитические препятствия, стоящие перед Азербайджаном на пути интеграции в Евросоюз. Здесь упоминается краткая история европейской интеграции, основные цели Азербайджана в этом направлении и геополитические препятствия, с которыми он сталкивается.

Европейская интеграция возникла под разрушительными последствиями Второй мировой войны. Позже он распространился на другие государства континента. Азербайджан, только что получивший независимость, пытался поднять свои отношения на более высокий уровень, чтобы извлечь выгоду из развития, достигнутого Европой. Однако генетическая политическая реальность географии заставляет официальный Баку проявлять особую меру в своих шагах. Это главный фактор, тормозящий интеграцию России в евроатлантическое пространство на постсоветском пространстве. Неуступчивость Кремля в этой борьбе за власть проявилась в грузинской и украинской войнах.

В тезисе рассматривается борьба между Россией и Западом как геополитическое ограничение и то, как такая ситуация влияет на Азербайджан. Хотя Баку участвовал в ряде инициатив, выдвинутых ЕС, он решил развивать отношения в формате сотрудничества, удерживая интеграцию в определенных рамках. Исходя из своей безопасности, Азербайджан взял прагматичный курс в этом направлении, и особых изменений в ближайшие годы не предвидится.

**Ключевые слова:** Азербайджан, Европейский Союз, Россия, Южный Кавказ, геополитика, интеграция

Azərbaycan keçmiş SSRİ məkanının ən mürəkkəb və qeyri-stabil regionunda yerləşir. Avropa, Asiya və Orta Şərqin kəsişməsində yerləşən Cənubi Qafqaz böyük tarixi travmalara sahibdir. (Nixey, 2010) Lakin rəsmi Bakı xarici siyasətdə bu amili nəzərə alaraq münasibətlərdə müvazinəti qorumağa çalışır.

Müstəqilliyi əldə etdiyi zaman Azərbaycan xarici əlaqələrdə Avropa dövlətləri ilə sıx münasibətlər qurmağa başladı. Belə ki, 1999-cu ildə Avropa İttifaqı ilə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı, daha sonra 2001-ci ildə Avropa Şurasına üzv qəbul edildi. Lakin 2000-ci illərin ortalarından etibarən Azərbaycan daha çox balanslaşdırılmış xarici siyasət yürütməyə başladı.

Azərbaycan Avropa İttifaqı ilə əlaqələrdə enerji sahəsində əməkdaşlığa üstünlük verdi. Lakin bu əməkdaşlıq geosiyasi arenada məhdudiyyətlərlə üzləşdi. Bakının Brüssel ilə məsafə saxlamağında əsas səbəblərdən biri isə Rusiya hesab edilir. (Huseynov, 2019) Bu inteqrasiya yolunda əsas geosiyasi maneə sayıla bilər. 2000-ci illərin ortalarında Rusiyanın yenidən güclənməsi Azərbaycanın Avroatlantik məkanı ilə münasibətlərinə ciddi məhdudiyyətlər yaratdı. (Abilov, Hajiyev, 2019)

Mövcud geosiyasi vəziyyət isə həm Aİ-nin, həm də Azərbaycanın inteqrasiyaya baxışlarına təsir edir. Bu isə inteqrasiyanın dərəcəsində müəyyən çərçivələr yarada bilər. Tezisdə

Azərbaycanın Aİ-yə inteqrasiya yolunda yaranmış geosiyasi məhdudiyyətləri araşdırılarkən geosiyasi çərçivələrə səbəb olan Avropa İttifaqının genişlənməsi və inteqrasiya yolu da əks olunub.

**Avropa İttifaqının inteqrasiya yolu**

İnteqrasiya bir neçə siyasi aktorun (əsasən dövlətlərin) vahid bir institut ətrafında birləşməsini ehtiva edir. Bu proses əsasən neofunksionalizm nəzəriyyəsi əsasında izah edilir. Belə ki, nəzəri olaraq, üzv dövlətlər öz milli maraqlarını hökumətləri çərçivəsində deyil, fövqəlmilli institutların çərçivəsində qurduğu zaman inteqrasiya baş verməyə başlayır. Neofunksionalizm nəzəriyyəsinin banisi olan Ernst Haasa görə siyasi aktorların fəaliyyətini vahid mərkəzə doğru yönəldildiyi zaman inteqrasiya yaranır. Bu mərkəz isə hökumətlər üzərində yuridiksiyaya sahib olmalıdır. (Niemann, Lefkofridi, Schmitter, 2019)

İnteqrasiyaya gedən yol isə konkret səbəblər tələb edir. Avropa İttifaqında isə dağıdıcı müharibələr əsas səbəb rolunda çıxış edir. Avropa dövlətləri təhlükəsizliyin təminatını yalnız vahid bir institutun yaradılmasında gördü. İkinci Dünya müharibəsindən dərs alan Avropa öz zəifliyini başa düşdü. Daha sonra qitə ABŞ və SSRİ-nin güc mübarizəsinin mərkəzi oldu. Hadisələrin zənciri isə Avropa inteqrasiyasını dərinləşdirdi. (Borchardt, 1995)

Aİ-yə inteqrasiyanın son nəticəsi üzvlüyü ehtiva edir. Lakin bu proses bir sıra amillərə bağlıdır. Burada sadəcə iqtisadi deyil, geosiyasi faktorların da böyük rolu var. Misal üçün, 1981-ci ildə Yunanıstanın üzvlüyü geosiyasi amillə bağlıdır. SSRİ dağıldıqdan sonra Sovetin keçmiş peyk dövlətləri və üzvləri 94-96-cı illərdə Aİ-yə üzvlük üçün müraciət ünvanladılar. Bunun nəticəsi kimi 2004-cü ildə 10 dövlət İttifaqa qoşuldu. (Staab, 2011) Təşkilat yarananda sadəcə 6 üzvdən ibarət idisə, indi onun 27 üzvü var. Böyümə özü ilə birgə müəyyən riskləri və problemləri də əhatə edir.

**Azərbaycanın Avropa İttifaqına inteqrasiyasının baxışları**

Azərbaycan Avropa İttifaqının təşəbbüs göstərdiyi bir sıra mexanizmlərə qoşulub. Belə ki, 1996-cı ildə Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi imzalandı. 2006-cı ildə Avropa Qonşuluq Siyasəti və 2009-cu ildə Şərq Tərəfdaşlığına qoşulmaq kimi addımlar ilkin bazanı formalaşdırırdı. Qarşılıqlı əlaqələr daha sonra viza asanlaşdırılması, readmissiya və enerji sahəsində sazişlərin imzalanmasına gətirib çıxardı (İqtisadiyyat Nazirliyi).

Bütün bunlara baxmayaraq, Azərbaycanın inteqrasiyaya baxışları məhdud çərçivə daşıyır. Bunun əsas səbəbi isə regionun geosiyasi reallığıdır. Azərbaycan inteqrasiyada irəli addımlar atan Gürcüstan və Ukraynada baş verən hadisələrdən təsirlənərək daha ehtiyatlı davranmaq yolunu seçdi. Bundan başqa, Qarabağ məsələsində Aİ-nin də mövqeyi bu prosesə soyuq yanaşılmasına səbəb yaratdı. Aİ-nin passiv mövqeyi, ATƏT-in Minsk Qrupunun uğursuzluğu və Fransanın Azərbaycana əks mövqe sərgiləməsi Azərbaycanın inteqrasiya baxışlarına da təsir edir. İkinci Qarabağ müharibəsindən sonra öz sülhməramlı kontingentini regionda yerləşdirən Rusiyanın artan siyasi gücünün fonunda Azərbaycan gələcək illərdə Avropa İttifaqı ilə münasibətlərdə xüsusi dönüş göstərməyəcək. (Əhmədli, 2021)

Rəsmi Brüssel də genişlənmə zamanı Moskva amilini hər zaman nəzərə alır. 2014-cü il Ukrayna-Rusiya müharibəsi zamanı ŞT geosiyasiləşdirilməyə başlandı. Burada Polşa və Baltikyanı dövlətlər Rusiyanı hədə kimi qəbul edərək proqrama daxil olan ölkələri bufer zona kimi

görməyə başladı. Lakin Almaniya və Fransa isə bu dövlətləri Rusiya ilə körpü kimi qəbul edirdi. (Crombois, 2019) 2014-cü ildən başlayan və 2022-ci il 24 fevralda yenidən şiddətlənən Rusiya-Ukrayna müharibəsi Moskvanın qırmızı xətlərində nə qədər barışmaz və qəti qaldığının sübutudur. Gələcək perspektivdə Azərbaycan Aİ ilə mövcud mexanzimlər çərçivəsində əməkdaşlıq aparmağa davam edəcək. Lakin yaxın zamanlarda inteqrasiya mərhələlərində ciddi dəyişikliklər gözlənilmir.

**Aİ-yə inteqrasiyanın geosiyasi sərhədləri**

Azərbaycanın Aİ-yə inteqrasiya yolunda geosiyasi sərhədlər dedikdə onun yerləşdiyi coğrafiyaya nəzər yetirmək lazımdır. Müstəqilliyinin ilk illərindən rəsmi Bakı Rusiyanın regionda dominant rolunu hesaba alıb. Qeyd edək ki, bu rol postsovet məkanında Qərbə inteqrasiyaya mane olur. Hərhansı əks addım isə Moskvanın maraqlarına qarşı ciddi təhdid sayılır. (Valiyev, Mamishova, 2019)

SSRİ dağıldıqdan sonra yaranmış geosiyasi boşluq Qərbi hərəkət etməyə sövq etdi. Moskvanın nəzarətində olan bölgələr Avropa İttifaqı və NATO-nun sərhədlərinə daxil oldu. Belə bir vəziyyətdə tarixi boyu heç bir sərhəd duyğusuna malik olmayan Rusiya onun irəliləməsinin qarşısının alındığını gördü. Keçmiş ABŞ dövlət katibi Henri Kissencer belə bir məqamda Moskvanın aqressivləşə bildiyini vurğulayıb. Onun fikrincə, Kremlin bu aqressiyası digər güclərə olan inamsızlığa dayanır və Moskva düşünür ki, genişlənməyə getməzsə, Rusiya dağılacaq. (Kissenger, 1994)

Rusiyanın geostrategiyasında mərkəzi ideologiyanı Avrasiyaçılıq baxışları tutur. Bu nəzəriyyə Qərb və kapitalizmdən uzaqlaşmaq və Atlantik dominantlığına qarşı çıxmaq ideyalarını özündə ehtiva edir. Bu idealogiyanın hüdudları Rusiya və qeyri-rus olan keçmiş sovet dövlətlərini əhatə edir. Qeyd edilən yanaşma region dövlətlərinə vahid siyasi quruma birləşməkdən başqa seçim qoymur. (Bazavluk, Kurylev, Savin, 2022) Bu idealogiyanın genişlənməsində və inkişafında Aleksandr Duqinin xüsusi rolu var. O, dünya siyasi arenasını çoxqütblü görərək, Avrasiya məkanında əsas mərkəzi Rusiya kimi nəzərdən keçirir. Duqinə görə liberal tək qütblü dünya və Qərbin mədəni monopoliyası digər sivilizasiyaların baş qaldırmasına sövq edir. (Khan, Saeed, 2021)

Bu məqamda İkinci Qarabağ və Ukrayna müharibələrinə toxunmaq lazımdır. Moskva regionda əsas nüfuza malik dövlət sayılır. Xüsusilə İkinci Qarabağ müharibəsindən sonra sülhməramlı kontingentini regionda yerləşdirən Rusiya daha böyük nəzarət əldə etdi. Lakin Ukrayna müharibəsi həm Azərbaycan, həm də Ermənistan xalqı arasında Rusiyaya olan münasibəti dəyişdi. Bu vəziyyətdə inteqrasiyada olan sərhədlərin zəifləyəcəyi müşahidə olunsa da, bu, onun yoxluğu mənasına gəlmir. (Fults, Stronski, 2022)

Regionun mürəkkəb geosiyasi mənzərəsi Azərbaycanın xarici siyasət istiqamətlərinə ciddi təsir edir. Müstəqillik illərində Cənubi Qafqaz dövlətləri sağ qalmaq uğrunda mübarizə aparırdılar. Regionun əsas təhlükəsizlik problemi isə ərazi münaqişələri hesab edilirdi. (Pashaieva, 2020)

Müstəqilliyinin ilk illərində yaranmış iqtisadi və dövlət idarəçiliyində problemlərin qarşısını almq üçün rəsmi Bakı Brüsselin bu sahələrdəki təcrübələrindən faydalanmağa çalışdı. Avropa institutları ilə sıx əlaqələr quran Azərbaycan Kremlin cızdığı geosiyasi sərhədlərlə üzləşdi. Qərb ilə Rusiya arasında geosiyasi rəqabət regionunda yerləşən Azərbaycan hər hansı bir tərəfi seçməməklə öz maraqlarını müdafiə etməyə çalışdı. 2008-ci ildə baş verən Gürcüstan və 2014-cü

ildən başlayan Ukrayna müharibələri Moskvanın xarici siyasətdə qırmızı xətlərini heç kimə güzəştə getmədiyini və bu yolda hərbi müdaxilədən boyun qaçırmadığını göstərdi. Azərbaycan üzləşdiyi məhdudiyyətlərə qarşı isə inteqrasiya amilini əməkdaşlıqla əvəz etməyə başladı.

**Ədəbiyyat**:


1. Nixey J. (2010). The South Caucasus: Drama on Three Stages. In R. Niblett (Ed.), America and a Changed World. Wiley-Blackwell, 125–142. DOI:https://doi.org/10.1002/9781444391565.ch7.
2. Huseynov R. (2019, July 25) Azerbaijan and the European Union, New Eastern Europe. Azerbaijan and the European Union - New Eastern Europe - A bimonthly news magazine dedicated to Central and Eastern European affairs.
3. Abilov S., Hajıyev B. (2019) Why the Neutrality of Azerbaijan Is Important for the European Union. Insight Turkey, 21(3), 53-66.
4. Niemann A., Lefkofridi Z., Schmitter C. P. (2019) Neofunctionalism. European Integration Theory, Oxford University Press, 3rd ed, 3-35.
5. Borchardt K. (1995) EUROPEAN INTEGRATION The origins and growth of the European Union. European Commission, 4th ed.
6. Staab A. (2011) The European Union explained. Indiana University Press, 2nd ed.
7. Azerbaijan Republic Ministry of Economy. European Union and Azerbaijan, https://www.economy.gov.az/en/page/beynelxalq-elaqeler/avropa-ittifaqi-eu-ve-azerbaycan
8. Əhmədli Ü. (2021) Azərbaycanın Avropaya inteqrasiya baxışının formalaşması. THE SUSTAINABLE DEVELOPMENT OF ECONOMY AND ADMINISTRATION: PROBLEMS AND PERSPECTIVES, Bakı Mühəndislik Universiteti, 290-293.
9. Crombois J. (2019) The Eastern Partnership: Geopolitics and policy inertia. European View, 18(1), 89-96.
10. Valiyev A., Mamishova N. (2019) Azerbaijan’s foreign policy towards Russia since independence: compromise achieved. Southeast European and Black Sea Studies, 19:2, 269-291.
11. Kissenger H., (1994) Diplomasi. Türkiye İş Bankası Kültür Yayınları, çeviren İbrahim H. Kurt, 872.
12. Bazavluk S.,Kurylev K., Savin L. (2022) Eurasianism, Eurasian Economic Union and Multipolarity: Assessments of Foreign Experts. Vestnik RUDN. International Relations, 22(1), 30-42.
13. Khan F., Saeed K. (2021) Russian Geopolitics in the Twenty First Century: Foreign Policy, Nationalism, and the Role of Neo-Eurasianism in the Emerging World Order, Journal of European Studies, 31(2), 92-116.
14. Fults A., Stronski P., (2022, April 25) The Ukraine War Is Reshaping the Armenia-Azerbaijan Conflict. Carnegie Endowment for International Peacehttps://carnegieendowment.org/2022/04/25/ukraine -war-is-reshaping-armenia-azerbaijan-conflict-pub-86994.
15. Pashaieva K. (2020) Azerbaijan and the Security Complex of The South Caucasus. Reality of Politics, 11(1) 13-29.

# İKİNCİ DÜNYA MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBAYCAN LEGİONUNUN FORMALAŞMASI MƏSƏLƏSİNƏ DAİR

**Şabanova Xəyalə Fəxri**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-0534-3662**
**shabanovakhayala98@gmail.com**

# ON THE ISSUE OF THE FORMATION OF THE AZERBAIJAN LEGION DURING THE SECOND WORLD WAR

**Shabanova Khayala Fakhri**
**Baku State University**
**https://orcid.org/0000-0003-0534-3662**
**shabanovakhayala98@gmail.com**

## Summary

One of the most catastrophic pages in the history of mankind is the Second World War, which claimed a huge number of lives and led to global changes in the world. The paper deals with one of the little-studied issues of the history of the Second World War, the problem of the formation of the Azerbaijani legion on the side of the Third Reich. This problem was given, a negative assessment in Soviet historiography, but in modern historiography, this issue has been studied more objectively. The article considers the relevance, the degree of study of this problem. As a result of the attack of Hitler's Germany on the USSR, 700 thousand representatives of the Azerbaijani people went to the front. In 1941, as a result of the military successes of the Soviet army over the Germans, the government of the Third Reich, for political and military purposes, decided to form military units that were supposed to serve as power structures of the Third Reich. The paper also analyzes the historical background and reasons for the formation of the Azerbaijani legion. In 1942, the Azerbaijani legion began its activity, which, cooperating with Hitler's Germany, sought to free itself from the shackles of Stalinism. The formation and activity of the Azerbaijani legion is an integral part of the history of the Azerbaijani emigration. The activities of the legion were carried out in very difficult historical and political conditions.

**Keywords:** Azerbaijani legion, anti-communism, Third Reich.

# ПО ВОПРОСУ О ФОРМИРОВАНИИ АЗЕРБАЙДЖАНСКОГО ЛЕГИОНА В ГОДЫ ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ

**Шабанова Хаяла Фахри**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-0534-3662**
**shabanovakhayala98@gmail.com**

## Резюме

Одной из самых катастрофических страниц в истории человечества, является Вторая мировая война, которая унесла огромное количество жизней и привела к глобальным изменениям в мире. В работе рассматривается один из малоизученных вопросов истории Второй мировой войны, проблема формирования азербайджанского легиона на стороне Третьего Рейха. Данной проблеме была дана отрицательная оценка в

советской историографии, в современной историографии же, данный вопрос изучен более объективно.В статье рассмотрены актуальность, степень изученности данной проблемы. В результате нападения Гитлеровской Германии на СССР на фронт отправились 700 тысяч представителей азербайджанского народа. В 1941 году в результате военных успехов советской армии над немцами, правительство Третьего Рейха в политических и военных целях решило сформировать воинские подразделения, которые должны были служить силовых структурах Третьего Рейха. Также в работе проанализированы исторические предпосылки и причины формирования азербайджанского легиона. В 1942 году начал свою деятельность азербайджанский легион, который сотрудничая с Гитлеровской Германией, стремился освободиться от оков сталинизма. Формирование и деятельность азербайджанского легиона является неотъемлемой частью истории азербайджанской эмиграции. Деятельность легиона осуществлялась в очень сложных исторических и политических условиях.

**Ключевые слова**: Азербайджанский легион, антикоммунизм, Третий Рейх

İkinci Dünya müharibəsi tarixinin müxtəlif aspektlərinin öyrənilməsi bu gün də tarix və siyasət elminin aktual problemlərindən biridir. Bu tarixi dövrün az öyrənilmiş problemlərindən biri də Üçüncü Reyx tərəfindən formalaşan legionların fəaliyyəti məsələsidir. İstənilən tarixi dövrün, o cümlədən belə dağıdıcı müharibə dövrünün "ağ ləkələr"-nin öyrənilməsi, həmişə tədqiqat dairələrində aktual və əhəmiyyətli məsələ olaraq qalır. Tədqiqatın əsas məqsədi sovet ideologiyanın təsiri olmadan bu problemin obyektiv və dəqiq öyrənilməsidir. Müharibə dövründə formalaşan legionlardan biri də Azərbaycan legionu olmuşdur. Tədqiqatın vəzifəsi-Azərbaycan legionunun formalaşması məsələsini təhlil etməkdir. Bu problemin geniş təhlil olunması üçün müqayisəli, tarixi- genetik metodlardan istifadə olunmuşdur.

Azərbaycan xalqının İkinci Dünya müharibəsi dövründə rolu müəyyən qədər tədqiq edilsə də, Üçüncü Reyxin tərəfində Azərbaycan legionunun formalaşması və fəaliyyəti məsələsi, kifayət qədər geniş öyrənilməmişdir. Müharibə dövründə düşmənlə hər cür əməkdaşlıq xəyanət kimi qəbul edilirdi. Müasir tarixşünaslıqda bu problemə fərqli yanaşma mövcuddur. Tarixçilər stalinizmin repressiv siyasəti ilə daha da kəskinləşən gərgin siyasi mühiti öyrənərək bu məsələni araşdırırlar. Azərbaycan tarixçisi N.Yaqublu “Azərbaycan legionerləri” əsərində Azərbaycan legionunun formalaşması məsələsini obyektiv şəkildə araşdırmışdır. (Yaqublu,2005) Azərbaycan legionunun fəaliyyəti, yerli tarixşünaslıqda Azərbaycanın mühacirət tarixi çərçivəsində tədqiq edilmişdir. Azərbaycan diplomatı R.Abutalıbovun və gürcü tarixçisi Q.Mamulianın ortaq əsərində legionerlərin fəaliyyəti mühacirət tarixinin tərkib hissəsi kimi öyrənilmişdir. (Абуталыбов, Р., Мамулия, Г 2014) H.İbrahimli öz əsərində bu problemin bəzi məqamları tədqiq etmişdir (İbrahimli, 2012). Xarici tarixşünaslıqda bu problem, təəssüf ki, digər xalqların nümayəndələrinin legionları ilə birlikdə qismən tədqiq edilmişdir. Rus tarixçiləri O.Romanko, S.Drobyazko, həmçinin alman tarixçiləri J,Hoffman, öz D. Motadel, əsərlərində Azərbaycan legionunu Şərq legionlarının tərkib hissəsi kimi öyrənmişdilər (Дробязко, Каращук, 2000; Hoffman, 1976 Motadel, 2014).

**Azərbaycan legionunun formalaşması prosesi.** İkinci Dünya müharibəsi illərində Azərbaycan xalqının minlərlə nümayəndəsinin SSRİ-nin tərəfində vuruşmasına baxmayaraq, bəzi nümayəndələr Hitler Almaniyası ilə əməkdaşlıqda olub. Azərbaycan legionunun yaranmasının səbəbi nə idi? Bu prosesin çox dərin tarixi və siyasi kökləri var idi. Amansız “Böyük terror” siyasəti Azərbaycan ziyalılarının bir çox nümayəndələrinin həyatına son qoydu. Kollektivləşmə siyasəti və mürəkkəb kommunist ideologiyası  sovet rejiminə qarşı əməkdaşlıq qüvvələrinin

yaranmasına səbəb oldu. Azərbaycan legionunun əsas məqsədi bolşevizmə qarşı mübarizə idi. Hitler Almaniyası tərəfində vuruşaraq, onunla əməkdaşlıq edən legionerlərimiz kommunizm zəncirlərindən qurtulmağa ümid edirdilər. Müharibənin ilk mərhələsində almanlar tərəfindən çoxlu əsir götürülmüşdür. Eləcə də Hitler Almaniyası tərəfinə çox sayda əsir və zabitlər könüllü keçmişdi. Rozenberqin verdiyi məlumata əsasən Sovet ordusu əsirləri və könüllüləri 3,6 milyon təşkil edirdi. Türk xalqlarının nümayəndələrindən tərkibli legionunun təşkil olunması təklifi ilk dəfə Nuru paşa tərəfindən irəli sürüldü. (Yaqublu, 2005) 1941-ci ilin noyabrında Azərbaycan legioneri F.Düdənginski Hitlerə məktub yazaraq, alman ordusunda Sovet İttifaqına və Böyük Britaniyaya qarşı döyüşmək fikrində olduğunu bildirmiş, eyni zamanda Almaniya Xarici İşlər Nazirliyinə Azərbaycan legionlarının formalaşdırılması ilə bağlı müraciət etmişdi. 1941-ci ilin qışına qədər müharibəni qurtarmaq fikrində olan Hitler, hələ ki, heç bir legion yaratmağa hazırlaşmırdı. Lakin, Xarici İşlər nazirliyi əsirlərin çoxluğunu, onların xeyli hissəsinin doğrudan-doğruya bolşevizmə qarşı döyüşmək fikrində olduğunu əsas tutaraq Hitleri milli legionlar formalaşdırılmasının vacibliyinə inandırmağa çalışırdı. (İbrahimli, 2012) Sovet Ordusunun Moskva və Stalinqrad döyüşlərində hərbi uğurları, Hitler Almaniyasının hərbi qüvvələrinin azalmasına gətirib çıxardı. Məhz elə bu hərbi və siyasi amillər könüllü dəstələrin istifadəsinə gətirib çıxardı.

1942-ci il 13 yanvar tarixində Türküstan və Qafqaz legionları öz fəaliyyətinə başladılar. Daha sonra təkmillətli legionların formalaşma prosesi başladı və Qafqaz legionundan Azərbaycan legionu yarandı. Legionlara daxil olan şəxsi heyətin sayı, statistik məlumatlarda fərqli olaraq göstərilmişdir. S.Drobyazko və A.Karaşyukun "Vermaxtda Şərq legionları və kazak birlikləri" əsərində könüllü ordu dəstələrinin sayı 215 min, onların tərkibində azərbaycanlıların sayı 40 min göstərilmişdir (Дробязко и Каращук, 2000).

İlk Azərbaycan legionu Polşa Yedlin (Jedlin) stansiyası yaxınlığında yaranmışdır. Azərbaycan legionu hərbi əməliyyatda aktiv iştirak edirdi. Azərbaycan legionuda ruh yüksəkliyini gücləndirmək üçün batalyonlara milli adlar verilmişdir: 804 batalyon "Aslan", "İgid" 806, "Cavad xan" 819, "Dönməz"-1-111, Qorxmaz-2. (Абуталыбов, 2007). Qeyd etmək lazımdır ki, Azərbaycan legionunun öz mətbuatında var idi. Çap edilən qəzet və dərgilərdə bolşevizmə qarşı yazılan məqalələr dərc olunur, tariximiz haqqında obyektiv məlumatlar verilirdi.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycan legionunun formalaşması və fəaliyyəti çox çətin siyasi və tarixi şəraitdə baş vermişdir. İki ideologiya: kommunizm və nasizm arasında qalan Azərbaycan legionerləri, çətin tarixi şəraitdə fəaliyyət göstərmişdilər. Sovet tarixşünaslığında legionların fəaliyyətinə mənfi qiymət verilib. Müasir tarixşünaslıqda isə bu məsələ obyektiv təhlil olunub. Bu tədqiqat problemini əks etdirən elmi əsərlərin sayı çox azdır. Daha geniş tədqiqat işlərin ərsəyə gəlməsi üçün daha çox arxiv materiallardan istifadə edilməli, bu problemin tarixi kökləri araşdırılmalı və təhlil olunmalıdır. Tarixin bu çətin mərhələsinin öyrənilməsi prosesində mürəkkəb siyasi və tarixi şəraitdə legionların fəaliyyəti obyektiv və düzgün təhlil olunmalıdır.

**Ədəbiyyat:**

1. İbrahimli, X.C. (2012). Azərbaycan mühacirəti tarixi. ADPU nəşriyyatı.
2. Yaqublu, N. (2005).Azərbaycan legionerləri. Çıraq.
3. Абуталыбов, Р. (2007). Свои среди чужих, чужие среди своих. IRS, 25(1), 36-39.

4. Абуталыбов, Р., Мамулия, Г.(2014) Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. 1920-1945 гг. CBS
5. Гасанлы, Дж. (2017). Советская политика по расширению южных границ:Сталин и азербайджанская карта в борьбе за нефть (1939-1945). Политическая энциклопедия.
6. Дробязко, С.И. (2004). Под знаменами врага. Антисоветские формирования в составе германских вооруженныхсил. 1941–1945. Эксмо.
7. Дробязко, С., Каращук, А. (2004)Восточные легионы и казачьи части в вермахте. АСТ.
8. Романько, О.В. (2004). Мусульманские легионы во Второй мировой войне. АСТ
9. Hoffman, J. (1976). Die Ostlegionen 1941-1943. Turkotartaren, Kaukasier, Wolgafinnen im deutschen Heer. Freiburg-Rombach.
10. Motadel,D. (2014). Islam and Nazi Germany’s War. Harvard University Press.

## QARABAĞIN TƏHSİL TARİXİ VƏ İNKİŞAF İMKANLARI

**Quluyeva Aynur Allahqulu**
**Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu**
**https://orcid.org/0000-0002-8540-4885**
**quluyevaaynur93@gmail.com**

## EDUCATIONAL HISTORY AND DEVELOPMENT OPPORTUNITIES OF KARABAKH

**Guluyeva Aynur Allahgulu**
**Institute of Geography named after Academician Hasan Aliyev**
**https://orcid.org/0000-0002-8540-4885**
**quluyevaaynur93@gmail.com**

### Summary

Establishment of educational centers in the Karabakh region, especially in the city of Shusha since the time of the khanates is a clear evidence of the attention Azerbaijanis had been paying to education. In particular, the steps taken by the intelligent people of Azerbaijan for the development of education, the role played by them in creation of public schools, literacy schools (e.g. Gargabazar literacy school, Tug literacy school), gymnasiums, courses aimed at preventing of ignorance and involving of children and the young to education, and also opening of private schools by some individuals greatly fostered the enlightenment. After the occupation of Azerbaijan by Soviet Russia, in accordance with the policy of Armenization in the region, Armenians were involved in education much broadly, and although all conditions were created for this purpose, they were Azerbaijanis who were more interested in innovation and development. The thesis deals with the exploration and analysis of historical facts about the development of education in Karabakh during in the 18th-19th centuries with giving the chronology of relevant processes. Statistical data about the damage posed to the development of education in Karabakh during the Armenian occupation, as well as the level of admission of internally displaced population settling in various regions to higher schools, are

comparatively anlaysed. The importance of pre-school- and vocational educational facilities was emphasized. Recommendations on the development of education in the period after liberation of Karabakh are proposed.
**Keywords:** Karabakh, education, development, vocational school.

## ИСТОРИЯ ПРОСВЕЩЕНИЯ КАРАБАХА И ВОЗМОЖНОСТИ РАЗВИТИЯ

**Гулуева Айнур Аллахгулу**
**Институт Географии имени Академика Гасана Алиева**
**https://orcid.org/0000-0002-8540-4885**
**quluyevaaynur93@gmail.com**

### Резюме

Создание образовательных центров в Карабахском регионе, особенно в городе Шуша со времен ханств, является ярким свидетельством того внимания, которое азербайджанцы уделяли образованию. В частности, шаги, предпринятые интеллигенцией Азербайджана для развития образования, роль, которую они сыграли в создании народных школ, школ грамоты (например, Гаргабазарской грамоты, Тугской грамоты), гимназий, курсов, направленных на предотвращение невежества. и привлечение детей и молодежи к образованию, а также открытие отдельными лицами частных школ очень способствовали просвещению. После оккупации Азербайджана Советской Россией, в соответствии с политикой арменизации региона, армяне были вовлечены в образование гораздо шире, и хотя для этого были созданы все условия, именно азербайджанцы были более заинтересованы в инновациях и развитии. Диссертация посвящена исследованию и анализу исторических фактов о развитии образования в Карабахе в 18 и 19 веках с указанием хронологии соответствующих процессов. Сравнительно проанализированы статистические данные об ущербе, нанесенном развитию образования в Карабахе в период армянской оккупации, а также уровне поступления в высшие учебные заведения вынужденных переселенцев, проживающих в различных регионах. Была подчеркнута важность дошкольных и профессионально-технических учебных заведений. Предложены рекомендации по развитию образования в период после освобождения Карабаха.
**Ключевые слова:** Карабах, образование, развитие, профессионально-техническое училище.

Azərbaycan Respublikasının təhsil sistemi milli və ümumbəşəri dəyərlərə əsaslanır və demokratik xarakter daşıyır (World Data on Education, 2011). Bu dəyərləri əsas tutaraq rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması, XXI əsrin tələblərinə uyğun təhsil sisteminin qurulması (Azərbaycan-2026, 2022) dövlətin qarşısında dayanan əsas prioritetlərdəndir. Tezisin mövzusu da bununla əlaqədar olaraq öz aktuallığı ilə seçilir. İnkişafa doğru addımlayarkən tarixi keçmişi və vəziyyəti unutmaq olmaz. Bu baxımdan tədqiqatın əsas məqsədi yeni reallıqlar şəraitində mövcud vəziyyəti tarixi keçmişlə müqayisə etmək və təkliflər verməkdir. Qarşıya qoyulan vəzifə əldə edilən nəticələrin praktiki tətbiq imkanlarını üzə çıxarmaqdır. Tədqiqat zamanı nəzəri və tarixi metodlardan, həmçinin empirik tədqiqat metodunun müqayisə növündən istifadə edilmişdir. Qarabağda təhsilin inkişaf tarixi ilə bağlı materiallara, Dövlət Statistika Komitəsinin məcmuələrinə və bir sıra müəlliflərin əsərlərinə istinad edilmişdir.

Təhsil ənənələri Qarabağda orta əsrlərdən başlayır (Mikayılova, 2021). XVIII əsrin II yarısından XX əsrin 20-ci illərinə qədər maarifçilik Qarabağda yüksək inkişaf səviyyəsinə malik idi (Fərəcov, 2013). Ermənilərin yaratdığı münaqişələr, azərbaycanlılara qarşı etdikləri hücumlar nəticəsində Qarabağda təhsil çətinliklə davam etdirilə bilirdi. Hətta buna görə 5 sentyabr 1919-cu

ildə Şuşada Ümumqarabağ müəllimlərinin qurultayı keçirildi. Qurultayın toplanmasında əsas məqsəd Qarabağda məktəb işinin nizama salınması idi (Fərəcov, 2013). Sovet Rusiyasının işğalından sonra regionu ermənilərin təhsil alması üçün daha yaxşı şərait yaradılırdı və onlar təhsilə daha çox cəlb edilirdi. Bununla belə, yeniliyə, inkişafa daha çox maraq və istək göstərən azərbaycanlılar idi (Hacıyev, 2021). Azərbaycan SSR Xalq Maarif Komissarlığının 1920-ci il 10 may tarixli qərarına əsasən, respublikada ödənişli təhsil sistemi ləğv edildi (Səməndərov, 2012). 1920-ci il mayın 15-də Azərbaycan İnqilabi Komitəsinin qərarına əsasən təhsil məsciddən, dini qurumlar isə dövlət müəssisələrindən ayrılırdı (Səməndərov, 2012).

Dünya Bankının 192 ölkə üzrə tədqiqatlarının nəticələrinə görə, dünya iqtisadiyyatında baş verən artımın 16%-nin fiziki kapital, 20%-nin təbii resurslar, 64%-nin isə insan kapitalı hesabına baş vermişdir (Muradov, 2006). Bu nöqteyi-nəzərdən, işğaldan azad olunan ərazilərimizdə məktəbəqədər təhsil müəssisələrindən tutmuş ali təhsil müəssisələrinə qədər təhsilə, elmə xüsusi diqqət yetirilməli və kapital qoyulmalıdır. XIX əsrin 20-ci illərində təhsil sahəsində olan problemləri tədqiq edən S.G.Strumilinə görə, əmək məhsuldarlığının artırılmasından gələn gəlir dövlətin məktəbəqədər təhsilə ayırdığı xərcləri 27,6 dəfə üstələyir, dövlətin kapital xərcləri 1,5 il ərzində ödənilir və növbəti 35,5 il təmiz gəlir götürülür (Струмилин, 1982)

1990-cı illərdə ermənilərin Qarabağdan əhalini qovması ilə 1 milyondan artıq vətəndaşımızın köçkün düşməsi onların təhsilində də ciddi problemlər yaratdı. Bərdə, İmişli, Saatlı, Sabirabad, Mingəçevir və s. kimi şəhər və rayonların 850 ümumtəhsil məktəbində məcburi köçkünlər məskunlaşmışdı. Ölkənin 9 ali məktəbinin yataqxanalarında, 17 orta ixtisas və 48 texniki peşə məktəbinin binasında məcburi köçkünlər məskunlaşdırıldı (Mikayılova, 2021).

***Cədvəl 1. 1992-1993-cü və 2020-2021-ci tədris ili üzrə bəzi göstəricilərin müqayisəsi***

| Rayon | 1992-1993-cü tədris ili | | | 2020-2021-ci tədris ili | | |
|---|---|---|---|---|---|---|
| | Məktəb sayı | Müəllim sayı | Şagird sayı | Məktəb sayı | Müəllim sayı | Şagird sayı |
| Ağdam | 99 | 2966 | 29478 | 135 | 2997 | 24608 |
| Cəbrayıl | 72 | 1582 | 11020 | 41 | 1055 | 9045 |
| Füzuli | 87 | 2261 | 21192 | 79 | 1649 | 13023 |
| Xocavənd | 12 | 260 | 1839 | 16 | 261 | 2051 |
| Kəlbəcər | 96 | 1113 | 9747 | 109 | 1952 | 15666 |
| Qubadlı | 62 | 1193 | 5414 | 32 | 747 | 6320 |
| Laçın | 106 | 1390 | 8877 | 104 | 1808 | 13615 |
| Şuşa | 23 | 582 | 2836 | 21 | 457 | 5380 |
| Zəngilan | 67 | 946 | 5948 | 33 | 609 | 5741 |

Mənbə: Cədvəl Elm və Təhsil Nazirliyinin məlumatları əsasında tərtib edilmişdir.

2020-ci ildə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə əyani tam orta ümumi təhsil müəssisələrini bitirmiş və tam orta təhsil haqqında attestat alaraq həmin il ali təhsil müəssisələrinə qəbul olmuş tələbələrin sayı müvafiq olaraq 2116 nəfər və 1295 nəfər olmuşdur (Azərbaycanda Elm, Təhsil və Mədəniyyət, 2021).

Eyni zamanda, peşə məktəbləri açmaq və peşəyönümlü siniflərin sayını artırmaq ali təhsil alma imkanı olmayan şəxslərin təhsil almasına və yaşadıqları ərazilərdə işlə təmin olunma imkanının

artmasına səbəb olacaq. Hələ XVIII əsrə aid tarixi sənədlərdə Qarabağda sənətkarlıq emalatxanalarının mövcudluğundan bəhs edilir (Nəcəf, 2021).

Qarabağda təhsili inkişaf etdirmək üçün ilk növbədə ümumtəhsil müəssisələrinin fəaliyyətini bərpa etmək və həmin müəssisələri lazımi maddi-texniki baza ilə təmin etmək lazımdır (Hacıyev, 2021). Şagirdlərin tədqiqat əsaslı öyrənməsini təmin etmək üçün ümumtəhsil müəssisələrinin lazımi avadanlıqlarla təmin olunması vacibdir. Bu məktəblərdə fəaliyyət göstərəcək müəllimlərin peşə bilikləri ilə yanaşı, sosial-psixoloji vəziyyətləri də xüsusilə yoxlanılmalıdır. Burada təhsil alacaq şagirdlər Birinci Qarabağ müharibəsinin canlı şahidi olmasalar da, onlar ailələri ilə birlikdə uzun müddət köçkünlük həyatı yaşamağa məcbur olmuşlar. Onlar arasında bu proseslərin yaratdığı müəyyən travmaları olan şagirdlərin də ola biləcəyini nəzərə alaraq, həmin ərazilərdə tədris aparacaq müəllimlər üçün bu səpkidə xüsusi kurs və seminarların keçirilməsi yaxşı olardı.

Həmçinin azad edilən ərazilərimizdə kolleclərin və ali məktəblər bərpa edilməsi və yaradılması təhsilin inkişafı üçün çox önəmlidir (Azərbaycan-2026, 2022). Fikrimizcə, burada tikilməli ali və orta ixtisas təhsili müəssisələrində xüsusən tarix, coğrafiya, hüquq, iqtisadiyyat kimi ixtisaslara daha geniş yer verilməsi məqsədəuyğundur.

**Ədəbiyyat:**

1. Azərbaycanda Təhsil, Elm və Mədəniyyət (2021). Statistik məcmuə. ARDSK.

2. Azərbaycan–2026 (2022). Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası. Bakı.

3. Fərəcov Ə.Ç. (2013) Qarabağda maarif (1750-1950). Bakı: Zərdabi, səh.-287.

4. Hacıyev Q. (2021). Qarabağ regionunda təhsilin inkişafı tarixindən. Azərbaycan məktəbi. №1(694), 101-112.

5. Nəcəf Ə. (2021). XVI-XIX əsrlərdə Qarabağın ənənəvi təhsil ocaqları. Azərbaycan məktəbi. №2(695), 89-95.

6. Mikayılova K.V. (2021), Qarabağın təhsil tarixi. Bakı: Orxan NPM, səh. 135.

7. Muradov A.N. (2006), Həyat səviyyəsinin yaxşılaşdırılmasında təhsilin rolu. AMEA-nın Xəbərləri. Humanitar və ictimai elmlər seriyası (iqtisadiyyat). №1, 117-129.

8. Səməndərov S.S. (2012), XX əsrin 20-30-cu illərində Azərbaycanda elmi-tədqiqat, təhsil, təlim və informasiya mərkəzlərinin təşəkkülü. Bakı: Avropa, səh. 223.

9. UNESCO. World Data on Education. VII Ed. 2010-11

10. Струмилин С.Г. Проблемы экономики труда. М.; Наука, 1982.

# HÜQUQİ DÖVLƏT QURUCULUĞU PROSESİNDƏ ƏDLİYYƏ ORQANLARINDA APARILAN İSLAHATLARIN ROLU

**Şamilova Aysel Məhəmməd**
**Sumqayıt Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-7531-9081**
**aysel.yaqubova5@mail.ru**

# THE ROLE OF JUDICIAL BODIES REFORMS IN THE RULE OF RULE-BUILDING PROCESS

**Shamilova Aysel Mohammad**
**Sumgait State University**
**https://orcid.org/0000-0001-7531-9081**
**aysel.yaqubova5@mail.ru**

## Summary

In the thesis, the implementation of legal democratic reforms founded by our great leader and continued by our head of state, taking important steps in the direction of the development of justice by ensuring the rule of law in our republic, creating favorable conditions for the further strengthening of social and political stability, ensuring civil solidarity, and the normative framework of the Republic of Azerbaijan full compliance of legal acts with international standards on human rights, ensuring the effective functioning of mechanisms for the protection of human rights, modernization of the judicial system in the Republic of Azerbaijan and making changes and additions to some legislative acts of the Republic of Azerbaijan, adapting the duration of cases considered in judicial bodies to new normative acts, state management mechanisms in the field of justice modernization, implementation of qualitatively new changes, transparency of the activities of judicial bodies, etc It is said that it will be established on the basis of the principle of transparency, the work and structure of the Ministry of Justice will be organized more optimally, and as a result of these reforms, citizen solidarity will be ensured and social and political stability will be further strengthened. At the same time, it is noted that the effective results of these reforms, which were implemented under the initiative and leadership of our President, have shown themselves in all areas of society.

**Keywords:** Azerbaijan, reform, court, law, society.

# РОЛЬ РЕФОРМ СУДЕБНЫХ ОРГАНОВ В ПРОЦЕССЕ ФОРМИРОВАНИЯ ПРАВОВОГО ГОСУДАРСТВА

**Шамилова Айсель Мухаммед**
**Сумгаитский Государственный Университет**
**https://orcid.org/0000-0001-7531-9081**
**aysel.yaqubova5@mail.ru**

## Резюме

В тезисе повествуется о реализации заложенных нашим великим лидером и продолженных главой нашего государства правовых демократических реформ, о принятии важных шагов в направлении развития правосудия путем обеспечения законности в нашей республике, создании благоприятных условий для

дальнейшего укрепление социальной и политической стабильности, обеспечение гражданской солидарности и нормативно-правовой базы Азербайджанской Республики, о полном соответствии правовых актов международным стандартам в области прав человека, об обеспечении эффективного функционирования механизмов защиты прав человека, о модернизации судебной системы в Азербайджанской Республике и внесении изменений и дополнений в некоторые законодательные акты Азербайджанской Республики, об адаптации сроков рассмотрения дел в судебных органах к новым нормативным актам, модернизации механизмов государственного управления в сфере юстиции, осуществлении качественно новых изменений, о прозрачности деятельности судебных органов и др. Говорится, что оно будет создано на основе принципа прозрачности, работа и структура Министерства юстиции будут организованы более оптимально, а в результате этих реформ будет обеспечена гражданская солидарность и общественно-политическая стабильность. В то же время отмечается, что эффективные результаты этих реформ, которые были реализованы по инициативе и под руководством нашего Президента, проявили себя во всех сферах жизни общества.

**Ключевые слова:** Азербайджан, реформа, суд, закон, общество.

Müstəqillik tariximizə nəzər salsaq görərik ki, həyata keçirilən hüquqi islahatlar hər bir mərhələdə dövrün tələbini nəzərə almaqla həyata keçirilir. Hüquqi islahatların keçirilməsinin vacibliyi 1991-ci il oktyabrın 18-də qəbul edilən "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nda öz əksini tapmışdır. Lakin müstəqilliyimizin ilk illərində praktiki olaraq bu istiqamətdə görülən işlərin bünövrəsini 1993-cü ildə Ulu Öndər Heydər Əliyev qoydu. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan ölkə başçısının tələbi ilə hüquq sisteminin müasirləşməsində həyata keçirilmiş uğurlu islahatlar nəticəsində respublikamızda qanunun aliliyi təmin edilməklə, ədalət mühakiməsinin inkişafı istiqamətində əhəmiyyətli tədbirlər görülmüşdür. Belə ki, 2003-cü ildən bu günümüzədək demək olar ki, hər il aparılmış hüquqi-demokratik islahatlar cəmiyyətin hər bir sahəsində istər ayrılıqda, istərsə də tam halda müxtəlif problemlərin həllinə yönəlmişdi. İslahatlar əsas insan hüquqları və azadlıqlarının qorunmasında yeni keyfiyyət mərhələsinin başlanmasına təkan vermiş, vətəndaş özünüidarəsi cəmiyyətinin qurulması sahəsində səmərəli nəticələr əldə edilməsinə geniş imkanlar yaratmış, eyni zamanda vətəndaşların dövlət idarəçiliyində iştirakını yüksəltməyə xidmət etmişdir. Bu baxımdan təqdim edilən mövzu aktualdır.

**Demokratik islahatlar.** Dövlət başçımızın hüquqi demokratik islahatlarının keçirilməsilə bərabər, ölkədə istər siyasi, istərsə də iqtisadi sahədə islahatların aparılması ilə bağlı məqamı xüsusi vurğulamışdır. İlham Əliyev qeyd etmişdir ki, "iqtisadi yüksəliş və demokratikləşmə prosesləri bir-birini tamamlayaraq paralel şəkildə həyata keçirilmişdir. Əks təqdirdə, iqtisadi durum yaxşılaşmasa, bizim iqtisadi planlarımız həyata keçməsə, təbii ki, Azərbaycanda tam şəkildə demokratik cəmiyyətin qurulmasından söhbət gedə bilməz" (Həsənov, 2018).

Dövlət başçısının rəhbərliyi ilə həyata keçirilən hüquqi demokratik islahatlar cəmiyyətdə eyni zamanda dünyanın aparıcı dövlətlərinin siyasi xadimləri tərəfindən etiraf edilən vətəndaş həmrəyliyinin təmin edilməsində, ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə əlverişli şərait yaradaraq, dövlətimizin adının dünyanın dövlət quruculuğu sahəsində yüksək nüfuza malik dövlətlərin adı ilə bir sırada çəkilməsi ilə nəticələnmişdir. Hüquqi-demokratik islahatlarının əhatə dairəsinin genişliyi, mərhələli şəkildə aparılması, məzmun və nəticələrinin mahiyyəti baxımından beynəlxalq səviyyə və standartlara daha uyğun gəlməsinə görə Azərbaycan Respublikasının məhkəmə sistemi hüquq orqanları arasında daha fərqli olmuşdur. Bu sahədə islahatların bünövrəsi Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qoyulmuşdur. İslahatların aparılması 2004-cü ildən bəri daha da intensiv şəkildə davam etdirilmişdir. Ədliyyə sahəsində aparılan islahatlar və həyatın bütün sahələrində yaşanan intibah prosesinin yaratdığı yeni sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi ölkəmizin Avropanın hüquq məkanının bir üzvünə çevrilməsində xüsusi rol oynamışdır.

Bütün məhkəmə-hüquq sistemində aparılmış islahatlar, işlərin yenidən qurulmasının zəruriliyi məhkəmə islahatının bu mərhələsinin gedişində keçirilmiş yeniliklərin əsasını təşkil edirdi.

**Məhkəmə islahatları.** Onu da qeyd etmək lazımdır ki, islahatların gedişində Azərbaycan məhkəmə orqanlarının beynəlxalq məhkəmə strukturu ilə əməkdaşlığı olduqca artmışdır. İlham Əliyevin 2006-cı ilin “Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qanunun tətbiq edilməsi barədə” (Azərbaycan Respublikası Prezidentinin fərmanı, 2006) fərmanı məhkəmə işi ilə əlaqədar vaxtı çatmış bir sıra problemlərin həllində fəaliyyətlərin sürətlənməsinə təkan verən dövlət sənədi oldu.

Məhkəmədə sistemdəki hakimlərin sayında dəyişikliklər edilmiş, belə ki hakimlərin sayı artırılmış, yerli iqtisadi məhkəmələrinin adı dəyişilərək inzibati-iqtisadi məhkəmələr və onların yerlərdə müvafiq şöbələri yaradılmış, fəaliyyət sistemi köklü dəyişdirilmişdir. Bütün bunların həyata keçirilməsində məqsəd məhkəmə orqanlarında baxılan işlərin müddətinin yeni normativ aktlara uyğunlaşdırılması idi. Hüquqi məhkəmə islahatları tək məhkəmə orqanlarını əhatə etməklə kifayətlənmir. Prezidentimizin 2006-cı il avqust ayının 17-də imzaladığı “Ədliyyə orqanlarının inkişafı haqqında” (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2006) fərmanı Ədliyyə Nazirliyi sisteminə daxil olan bütün strukturların fəaliyyət mexanizminin təkmilləşdirilməsi sahəsində mühüm istiqamətlər müəyyən etmişdir. Fərmanın tələblərindən irəli gələn vacib və məsuliyyətli vəzifələri ötən illər ərzində həyata keçirilmiş və bunun nəticəsində vətəndaşların ədliyyə orqanlarına müraciət formaları olduqca sadələşdirilmiş, hüquqi şəxslərin dövlət qeydiyyat, fiziki şəxslərin vətəndaşlıq vəziyyəti aktlarının tərtibi qaydaları və digər strukturlarda əhalidə hüquqi yardım alma formalarının, demək olar ki, olduqca yüksək səviyyəyə çatdırılmasına kömək etmişdir.

Ölkə Prezidenti İlham Əliyevin 03.04.2019-cu il tarixində “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” fərmanını 2006-cı ildən bu sahədə aparılan islahatların davamı hesab etmək olar. Azərbaycan Respublikasının məhkəmə sisteminin təkmilləşdirilməsi, edilmiş şikayətlərin ədalətlə həll olunması işinin sürətləndirilməsi üçün fərmanda qeyd olunur ki, “hakimlərinin ümumi sayı 200 nəfər artırılsın” (Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 2019). Bu fərmanda Ədliyyə Nazirliyinin vacib funksiyalarından olan məhkəmə qərarlarının icrası məsələsinə xüsusi diqqət verilir.

Ədliyyə Nazirliyi görülən işlər nəticəsində hazırda dövlət orqanları sistemində nüfuzlu bir quruma çevrilib və səlahiyyət dairəsi genişlənib (Əsgərova T. Ölkəmizin ədliyyə sistemi beynəlxalq standartlara uyğun qurulur).

Bu fərmanda Ədliyyə Nazirliyinin vacib funksiyalarından olan məhkəmə qərarlarının icrası məsələsinə xüsusi diqqət verilir. Məhkəmə hüquq sistemində, bütövlükdə Ədliyyə Nazirliyinin bütün strukturlarında bu illər ərzində aparılmış islahatlarının səmərəli nəticələri cəmiyyət həyatının bütün sahələrini əhatə etmişdir. Həyata keçirilən islahatlar hüquqi dövlət quruculuğunda mühüm rol oynamışdır.

**Ədəbiyyat:**

1. Həsənov, Ə.M. (2018). Möhtəşəm zəfər salnaməsi: Prezident İlham Əliyev hələ uzun illər xalqı öz arxasınca daha yüksək zirvələrə və böyük qələbələrə doğru aparacaq. Azərbaycan, 13 oktyabr, s. 1-2

2. Müstəqil Azərbaycan. Hüquqi dövlət quruculuğu. https://republic.preslib.az/az_a6.html

3. Abdullayeva A. (2019). Milli ədliyyə sistemində islahatlar hüquq və azadlıqların təminatına daha geniş imkan yaradır. Xalq qəzeti, 22 noyabr, s.11

4. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Qa-

nununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin fərmanı. (2006). Azərbaycan, 20 yanvar, s.1.

5. "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2006). Azərbaycan,18 avqust, s.1.

6. Mirzəyev H. Ədliyyə və məhkəmə orqanlarında islahatlar uğurlu nəticələr verirhttps://www. azerbaijan-news.az/posts/detail/edliyye-ve-mehkeme-orqanlarinda-islahatlar-ugurlu-neticeler-verir-3915

7. Musayev T. Hüquqi dövlətin qurulması möhkəm ədliyyə sisteminin formalaşdırılması ilə sıx bağlıdırhttps://justice.gov.az/articles/16

8. Hüseynov M.Ədliyyə və məhkəmə orqanlarında islahatların əsasında insan amili dayanır https://www.azerbaijan-news.az/posts/detail/edliyye-ve-mehkeme-orqanlarinda-islahatlarin-esasinda-insan-amili-dayanir-83683

9. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında." Azərbaycan Respublikası Prezidentinin Fərmanı. (2019). Xalq, 3 aprel, s.1

10. Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar çərçivəsində ədliyyə orqanlarının fəaliyyəti müasirləşdirilir http://www.penitensiar.justice.gov.az/news/1440-prezident-lham-aliyevin-hyata-keirdiyi-islahatlar-rivsind-dliyy-orqanlarnn-faliyyti-masirldirilir.html

11. Əsgərova T. Ölkəmizin ədliyyə sistemi beynəlxalq standartlara uyğun qurulur https://xalqqazeti.com/mobile/az/news/34954

## THE CRUSADE OF MONARCHS

**Aliyeva Elmira Firdovsi**
**Ganja State University**
**https://orcid.org/0000-0001-8324-9968**
**elka.emma@mail.ru**

## MONARXLARIN SƏLİB YÜRÜŞÜ

**Əliyeva Elmira Firdovsi**
**Gəncə Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-8324-9968**
**elka.emma@mail.ru**

### Xülasə

XI əsrdən başlayaraq İslam dünyası və Avropa arasında Orta Şərq torpaqlarınında üstünlüyü əldə etmək uğrunda mübarizələr başlamışdı. "Müqəddəs torpaqlar"-ı müsəlmanların əlindən almaq məqsədilə xristianların Orta Şərqə qarətverici yürüşləri sonradan Xaçlı və ya Səlib yürüşləri olaraq adlandırıldı. Səlahəddin Əyyubinin xaçlıları Xəttin döyüşündə məğlub etməsi və Qüdsü ələ keçirməsi Üçüncü Xaçlı Səfəri üçün bəhanə oldu. Bu xaçlı yürüşü sonradan tarixi ədəbiyyatda kralların xaçlı yürüşü olaraq xatırlandı. İngiltərə, Fransa və Almaniya kralları Şərqə doğru yürüşü yönləndirdilər. Alman imperatoru Fridrix Barbarossa yürüşü tamamlaya bilmədi, Fransa kralı II Filipp Avqust isə yürüşü yarımçıq qoyaraq Fransaya qayıtdı, artıq xaçlıların yeganə xilaskarı kimi İngiltərə kralı I Riçard görünürdü. Lakin, Riçard Yaffa döyüşündə Səlahəddinə qarşı müvəffəqiyyət əldə etsə, əslində, iki tərəfində müharibəni davam etdirməmək istəyi açıq-aşkar görünməkdədir. Üçüncü xaç yürüşü 1192-ci il Səlahəddin və Riçard arasında imzalanan Ramla müqaviləsi ilə sonlanmış oldu. Nəticədə, İngiltərə kralı "Müqəddəs torpaqlar"-ı heç vaxt qazana bilmədi və beləliklə, Qüds artıq xaçlı krallıqlarının mərkəzi olmayacaqdı.

**Açar sözlər:** Qüds, Ramla, Xəttin, Yaffa, Xaçlılar.

## КРЕСТОВЫЙ ПОХОД МОНАРХОВ

**Эльмира Алиева Фирдовси**
**Гянджинский Государственный Университет**
**https://orcid.org/0000-0001-8324-9968**
**elka.emma@mail.ru**

### Резюме

Начиная с XI века началась борьба между исламским миром и Европой за господство на землях Ближнего Востока. Христианские набеги на Ближний Восток с целью отвоевать «Святые земли» у мусульман позже были названы крестовыми походами. Поражение Саладином крестоносцев в битве при Хаттине и взятие Иерусалима стали предлогом для Третьего крестового похода. Позже этот крестовый поход был назван в исторической литературе Крестовым походом королей. Короли Англии, Франции и Германии направили поход на Восток. Германский император Фридрих Барбаросса не смог завершить поход, а французский король Филипп Август II прервал поход и вернулся во Францию, теперь уже английский король Ричард I виделся единственным спасителем крестоносцев. Однако если Ричард добился успеха против Саладина в битве при Яффо, то на самом деле желание обеих сторон не продолжать войну было очевидным. Третий крестовый поход завершился Рамльским мирным договором, подписанным между Саладином и Ричардом в 1192 году. В результате король Англии так и не смог завоевать «Святую землю», и, таким образом, Иерусалим больше не был центром королевства крестоносцев.

**Ключевые слова:** Иерусалим, Рамла, Хаттин, Яффе, крестоносцы.

Learning myriad aspects of the history of the crusades is proceeding to be one of actual problems of history science. One of mysterious aspects of that period is the crusades of the kings concluded with one monarch. Studying any dark issues of any historical period, including such an interesting medieval period, always remains a relevant and crucial issue for researchers. However, much of the academic research on the Crusades is Europe-centric and was written by medieval Western researchers. Altering this perspective, which has incomplete and distorted impressions of the Muslim viewpoint, is possible by reconsidering the History of the Crusades from an Eastern-Muslim perspective. The main goal of the research is the objective and accurate study of this period, which is one of fascinating issues of the medieval history. The task of the research is to analyze the formation of the crusades of the kings. Comparative, historical-genetic approaches were utilized for extensive research of this problem.

The Crusades were a series of religious collides. The meaning of the crusade is related to the Latin word which is called "Crucesignati" (people marked with the cross). In the end of the XI century, Europe's attempts to save the sacred lands, however in reality to drive the Turks out of Anatolia and take over the whole Near East. Christians and Muslims commenced securing the control of sacred lands which had a crucial role for each group. Eight main crusades occurred. Depicting the third Crusade and also some major facts according to my investigations has to be the ambition of my article. In the middle of the XI century, myriad attempts by crusaders for fighting against the governor of Mosul (general Zangi) concluded with utter defeat in the Second

Crusade. His successor Nur ad-Din utterly proceeded to seize crusaders in the main area. In 1174 after the death of the Nur ad-Din, one of his men indicated the grandeur courage name was Yusuf bin Ayyub. After Saladin abolished the Fatimid Dynasty, he established his state in Egypt. The main support of the state was the struggle against the Crusaders. Then his name was remembered as Saladin mostly which means "truth of the belief". (Jones, 2019) Not long after Nur ad-Din death in 1174, Saladin launched his conquest of Syria, conveniently entering Damascus at the request of its governor. In 1175, Saladin conquered Hama and Homs, 1175 and was thereafter proclaimed the "Sultan of Egypt and Syria". (Richards, 2002) By 1182, Saladin had completed the conquest of Muslim Syria after capturing Aleppo. In 1187, Renaud de Chatillon who was the prince of the Antiokheia ransacked the Saladin's caravan. (Richards, 2002) That circumstance orientated the excuse for Saladin's actions. Saladin commenced the grandeur campaign against the crusader kingdom of Jerusalem. The Jerusalem Christian army was utterly wrecked by Saladin's troops at the battle of Hattin. (Asbridge, 2011)

**The Tragedy of the Christian World.** The fall of Jerusalem created tragedy in the Christian world. According to rumors, the death of pope III Urban was related to that occasion. (Jones, 2019) New pope VIII Gregory declared "Audita Tremendi"(letter of the papacy) which was calling all the Christian men of Europe for preserving the East. (Nicholson, 1997) German emperor Frederick Barbarossa who had already quite old for his condition renovated his oath and accepted the calling of the pope. (Nicholson, 1997) Actually, in that period, France and England were fighting each other, however, that fight concluded with an agreement in 1188. King of England Henry II died in 1189, thus, the new king of England Richard I had to accept the cross. Richard I was remembered with the title "Lionheart" by history. Preparing for the crusade could be expensive for monarchs' budget. Therefore, Richard gathered an enormous amount of money with aid of the "Tax of Saladin". (Bauer, 2010) In France, King Louis VII's successor was Philip II Augustus who had already accepted the pope's calling after the treatment with England. (Nicholson, 1997) It appears that King Philip II of France could never be a real alliance with England. During King Henry II's reign, the King of France tried to separate England by supporting myriad riots, thus, we do not have to astonish about those two kingdoms' rivalry. For Frederick Barbarossa, his way to Jerusalem never occurred. His adventure concluded with an unexpected death in Anatolia. According to our knowledge, he drowned while he was crossing the river. (Bauer, 2010) Separated troops could not reach their destination. Most of them came back to Germany. Richard decided to travel by sea. The fleet was to assemble at Sicily before heading further east. After wintering on the island, in 1191, Richard and his fleet were off to the Acre. However, a strong storm drove his fleet apart, wrecking numerous vessels along the shore of Cyprus. After accidentally conquering half of Cyprus, Richard reached Acre. His twenty-five vessels and crew was seen as "Savior of the Crusade" by the crusaders, except one person, King of France. The siege of Acre was concluded with occupying city also consenting. (Gillingham, 1999) According to the agreement, Saladin soldiers had to deliver the city to crusaders, Saladin had to release the Christian captures, and also sultan had to pay a certain payment to them, nevertheless, that compromise was broken. Undoubtedly, Richard was leading the crusade troops and then Philip decided to turn back France

due to his health and also political reasons. By the way, on 20 august 1191, Richard had the 3000 Muslim captives beheaded. (Asbridge, 2011) In September, Richard's troops proceeded to move south for taking Jaffa. Saladin troops were defeated by Richard in the battle of Arsuf. Probably, that was the true mere battle for the Third Crusade. Nevertheless, both sides had no enthusiasm for proceeding to war. Initially, in England, Richard's brother John was preparing to capture the throne with the assistance of the king of France. (Asbridge, 2011) Thus, negotiations had commenced for both sides, Saladin's brother Adil was managing the negotiations with Richard. Richard had plans about marriage between his sister Joanna and Adil. (Jones, 2019) However, that marriage would never occur. Regardless of the various problems, the treaty was signed on 3 September 1192 between Saladin and Richard. Due to the conditions of the treaty, the peace had to preserve for three years, moreover, lands occupied by Richard had to return to Saladin and furthermore, Saladin had to preserve the Christians' privileges in sacred places. (Bauer, 2010) Jerusalem could not be the center of Crusade kingdoms anymore, thus, a new one would have to be Acre till 1291. Richard's decision about Jerusalem would conclude with a call for a Fourth Crusade, however, that crusade would never obtain. Richard would never gain the sacred lands. Nevertheless, his courage and manners created and orientated the Third Crusade.

The Third Crusade indicated to us remarkable leaders and also charming stories about that time. As a result, The Third crusade was helped to recognize the identity of Muslim as “devastating conquerors” by the world of West. In Soviet historiography, the study of European history was carried out without objectivity. The study and analysis of the crusader period, which is one of the fascinating and crucial issues of medieval history, should be objective and accurate. This issue is objectively analyzed in modern historiography. However, more research should be done, and the historical roots of this problem should be investigated and analyzed to produce more extensive research.

**References**:


1. Jones, D. (2019). An Epic History of the Wars for the Holy Lands. Kuzey yayınları.
2. Bauer, W.S. (2010). The History of the Medieval World. WW. Norton Press.
3. Runciman, S. (1987). A History of Crusades. Cambridge University Press.
4. Richards, S.D. (2002). Baha al-Din Ibn Shaddad-The Rare and Excellent History of Saladin. Farnham. UK: Ashgate Press.
5. Roberts, M.J. (2019). The new penguin History of the World. Inkilap Kitabevi.
6. Bennet, S. (2021). Elite Participation in the Third Crusade. Boydell Press.
7. Gillingham, J. (1999). Richard I. New Haven and London. Yale University Press.
8. Nicholson, J.H. (1997). The Chronicle of the Third Crusade. Farnham. UK:Ashgate Press.
9. Asbridge, T. (2011). The Crusades:The Authoritative History of the War for the Holy Land. Ecco: Reprint edition.
10. Shaddad, B.I. (2002). The Rare and Excellent History of Saladin. Routledge edition.
11. Reston, J.J. (2002). Warriors of God: Richard the Lionheart and Saladin in the Third Crusade. Anchor: Reprint edition.

# AZƏRBAYCAN SSR-DƏ ZƏHMƏTKEŞLƏRİN MADDİ RİFAHININ YAXŞILAŞDIRILMASINA DAİR TƏDBİRLƏR (1946-1950-Cİ İLLƏR)

**Dadaşova Əzət Nazim**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-6531-8170**
**ezet_000@mail.ru**

# MEASURES TO IMPROVE THE MATERIAL WELFARE OF WORKERS IN THE AZERBAIJAN SSR (1946-1950s)

**Dadashova Azat Nazim**
**Baku State University**
**https://orcid.org/0000-0002-6531-8170**
**ezet_000@mail.ru**

## Summary

In the years after the war, the financial situation of workers in the republic became increasingly difficult. To overcome these difficulties, the plan adopted in August 1946 for the restoration and development of the national economy of the Azerbaijan SSR in 1946-1950 was successfully implemented.

The government implemented a number of measures. Overtime working hours were canceled in all enterprises of the country. At the end of 1947, monetary reform was carried out, the card system was abolished. The price of mass consumer goods was lowered in 1947-1950. State expenses for cultural and household services of workers have increased significantly. The population was provided with material assistance and other means for social insurance of workers and employees, social security for pensions, free and preferential visits to sanatoriums, rest homes and children's institutions, and free medical care for everyone. Workers were trained free of charge at the expense of the state and improved their skills. The value of pensions in the material provision of the population was great. An increase in agricultural production, a decrease in the absolute norms for the supply of livestock products, an increase in purchase prices for agricultural products contributed to an improvement in the material situation of workers.

**Keywords:** workers, action, Soviet, government, financial situation.

# МЕРЫ ПОВЫШЕНИЯ МАТЕРИАЛЬНОГО БЛАГОПОЛУЧИЯ РАБОЧИХ В АЗЕРБАЙДЖАНСКОЙ ССР (1946-1950-е гг.)

**Дадашова Азат Назим**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-6531-8170**
**ezet_000@mail.ru**

## Резюме

В послевоенные годы материальное положение рабочих в республике становилось все более тяжелым. Для преодоления этих трудностей был успешно реализован принятый в августе 1946 года план восстановления и развития народного хозяйства Азербайджанской ССР на 1946-1950 годы.Правительство осуществило ряд мер. На всех предприятиях страны отменены сверхурочные часы работы. В конце 1947 года была проведена денежная реформа, карточная система была упразднена. Цены на товары массового

потребления были снижены в 1947-1950 гг. Государственные расходы на культурно-бытовое обслуживание трудящихся значительно увеличились. Населению оказывалась материальная помощь и другие средства по социальному страхованию рабочих и служащих, социальному обеспечению пенсии, бесплатному и льготному посещению санаториев, домов отдыха и детских учреждений, бесплатному медицинскому обслуживанию для всех. Рабочие бесплатно обучались за счет государства и повышали квалификацию. Значение пенсий в материальном обеспечении населения было велико. Увеличение производства сельскохозяйственной продукции, снижение абсолютных норм поставки продуктов животноводства, повышение закупочных цен на сельскохозяйственную продукцию способствовали улучшению материального положения рабочих.

**Ключевые слова:** рабочие, акция, Совет, правительство, материальное положение

Həyat səviyyəsi dedikdə insanların maddi və mənəvi tələbatlarının faktiki ödənilməsi səviyyəsi başa düşülür. İnsanların həyat səviyyəsi əsasən mövcud quruluşun xarakterindən, məhsuldar qüvvələrin inkişaf səviyyəsindən asılı olmaqla bərabər həyat səviyyəsinə təsir göstərən bir sıra amillərlə əlaqədardır.

Dördüncü beşillik plan üzrə nəzərdə tutulan əsas məsələlərdən biri zəhmətkeşlərin maddi-məişət şəraitinin sistemli şəkildə yaxşılaşdırılması, xalqın gəlirinin və istehlak səviyyəsinin müharibədən əvvəlki dövrə nisbətən yüksəldilməsi idi. Əhalinin azalması, əmək qabiliyyəti olan fəhlələrin yaşlı və yeniyetmələrlə, kişilərin qadınlarla, ixtisaslı işçilərin iş təcrübəsi olmayanlarla əvəz olunması, mal-qaranın azalması sayəsində əmək qabiliyyəti olan insanların pis qidalanması, mənzil şəraitinin yetərsizliyi, texniki avadanlığın sıradan çıxması və ya köhnəlməsi, kapital qoyuluşunun aşağı düşməsi və s. əmək məhsuldarlığının müharibədən əvvəlki səviyyə ilə müqayisədə kəskin aşağı düşməsinə səbəb olmuşdur.

Sovet İttifaqı üzrə xalqın gəlirləri müharibədən əvvəlki səviyyədən 38%, fəhlə və qulluqçuların illik əmək haqqı isə 48% artmalı idi. Zəhmətkeşlərin maddi-məişət ehtiyaclarına olan sərfiyyat 1940-cı ildəkinə nisbətən 2,6 dəfə artmalı idi (Kommunist qəz., 1951). 1950-ci ilin axırlarında respublikanın xalq təsərrüfatında fəhlə və qulluqçuların sayı 567 min nəfərə çatmış və 1940-cı ilin sonuna nisbətən 11 min nəfər artmışdı (Kommunist qəz., 1951).

***Zəhmətkeşlərin həyat səviyyəsinin yüksəldilməsi.*** Sovet hökuməti bir sıra tədbirlər həyata keçirdi. Ölkənin bütün müəssisələrində işdən əlavə saatlarda iş rejimi ləğv edildi. 1947-ci ilin sonlarında pul islahatı keçirildi. Bunun sayəsində müharibə vaxtı işğal edilmiş ərazilərdə yayılan saxta pulları dövriyyədən çıxarmaq nəzərdə tutulurdu. Pul islahatı eyni zamanda əhalinin müxtəlif vasitələrlə əldə etdiyi pul kütləsini dövriyyədən çıxarmaq və ölkənin maliyyə vəziyyətini stabilləşdirmək məqsədi güdürdü (https://kayzen.az/blog). Kartoçka sistemi ləğv edildi. Kütləvi istehlak mallarının qiyməti 1947-1950-ci illərdə aşağı salındı. 1947-1954-cü illərdə dövlət pərakəndə satış qiymətlərinin aşağı salınmasının belə bir xüsusiyyətini də göstərmək lazımdır ki, həmin illərdə qiymətlərin aşağı salınmasında əsas yeri ərzaq təşkil etmişdir (Qasımov,1967). Azərbaycan zəhmətkeşlərinin maddi rifah halının yaxşılaşması öz əksini fəhlə və qulluqçularının əmək haqqının artırılmasında, kolxozçu, kəndlilərin gəlirlərinin yüksəlməsində tapırdı. Fəhlə və qulluqçuların fərdi əməkhaqlarına, habelə kolxozçu kəndlilərin gəlirlərinə mühüm əlavə sosial-mədəni tədbirlərə sərf edilən dövlət xərcləri idi. Fəhlə və qulluqçuların əmək şəraitinin yaxşılaşdırılmasına böyük qayğı göstərilirdi.

Real əməkhaqqının səviyyəsi və onun artırılması məhsuldar qüvvələr və ümumi iqtisadi inkişafla yanaşı, həm də ölkənin keçirdiyi iqtisadi və siyasi şəraitlə sıx əlaqədardır (Qasımov, 1967). “Pensiya təminatı üzrə imtiyazlar və uzun müddət xidmətə görə illik mükafat hüququ verən idarə, müəssisə və təşkilatların, habelə neft sənayesində fəhlə, mühəndis-texniki və rəhbər işçilərin çalışdıqları peşə və vəzifələrin vahid siyahısının təsdiq edilməsi haqqında” SSRİ Nazirlər Sovetinin 1951-ci il 3 noyabr tarixli, 4168 nömrəli qərarının realizə edilməsi barəsində Azərbaycan SSR Nazirlər Sovetinin 1951-ci il 12 noyabr tarixli, 1535 nömrəli qərarı böyük əhəmiyyət kəsb edirdi (https://e-qanun.az/). Xalq təsərrüfatı mütəmadi olaraq yeni texnika ilə təchiz edilir, mexanikləşmənin və elmin nailiyyətlərinin istehsalata tətbiqi, ağır, çox zəhmət tələb edən işlərin avtomatlaşdırılmasından qismən istifadə işçilərin əmək şəraitinin yaxşılaşdırılmasına səbəb olmuşdu (Az. Tarix 2008). Kənd təsərrüfatı istehsalının artması, heyvandarlıq məhsulları tədarükünün mütləq normalarının azaldılması, kənd təsərrüfatı məhsullarının tədarük və satınalma qiymətlərinin artırılması kolxozçuların maddi vəziyyətinin yaxşılaşmasına kömək edirdi (Azərbaycan tarixi, 2008). 1946-cı il 5 yanvar tarixli qərarlar respublika paytaxtının təsərrüfatını yaxşılaşdırmaq üçün geniş imkanlar yaratdı (Бакинский рабочий qəzeti, 1955). 1949-cu ildə Azərbaycan kolxozçularının pul gəliri 1940-cı ildəkindən 1,5 dəfə çox idi (Народное хоз, Аз, ССР. 1967). Əhalinin maddi təminatında təqaüdlərin əhəmiyyəti böyük idi. 1946-cı ilin iyununda qazma, neft və qaz hasilatında işləyən neft emalı və maşınqayırma zavodlarının fəhlələrinin əməkhaqlarının yeni artırılmış tarifləri, həmçinin neft sənayesinin mühəndis-texniki işçilərinin vəzifə maaşlarının yeni sistemi tətbiq olunmağa başlandı. 1945-ci ildən 1947-ci ilədək fəhlə və qulluqçuların orta aylıq əməkhaqqı 32,5% artmışdı (Qasımov, 1967). 1950-ci illərdə isə 80,7%-i ötüb keçmişdi (Azərbaycan tarixi, 2008). Lakin ticarət idarələri əhalinin artan tələbatını lazımınca ödəmir, məhsulların vaxtında zəhmətkeşlərə çatdırılmasına çalışmırdılar, əsl mədəni Sovet ticarətinin təşkili uğrunda mübarizə aparmırdılar. Kommunist partiyası və Sovet hökumətinin qayğısı nəticəsində respublikada ildən-ilə zəhmətkeşlərin mədəni-məişət ehtiyaclarına olan məsrəflər artırdı. Zəhmətkeşlərin mədəni-məişət xidməti üçün dövlət xərcləri xeyli artmışdı. Əhaliyə dövlət hesabına fəhlə və qulluqçuların ictimai sığortası üzrə maddi yardım və başqa pullar, ictimai təminat üzrə təqaüd, sanatoriyalara, istirahət evlərinə və uşaq müəssisələrinə pulsuz və ucuz qiymətlə putyovka verilmiş, hamıya pulsuz tibbi kömək edilmişdi. Zəhmətkeşlər dövlət hesabına pulsuz oxumuş və öz ixtisaslarını artırmışdı. Həmin illərdə zəhmətkeşlərə ən böyük hədiyyələrdən biri “Respublika stadionu” və “Lökbatandakı mədəniyyət sarayı oldu”. Klubların sayı 42 faiz, kitabxanaların sayı 3 dəfə, nəşr edilən kitabların sayı 2,6 dəfə artmışdı (“Kommunist” qəzeti, 1951). Zəhmətkeşlərin rifah halının yaxşılaşması üçün səhiyyə sistemində inkişaf etdirildi. Azərbaycanın səhiyyəsi iri poliklinika və xəstəxanalarla zənginləşdi.

Sovetlər tərəfindən, habelə dövlət kreditinin köməyi ilə şəhərlərin və fəhlə qəsəbələrinin əhalisi tərəfindən ümumiyyətlə 968 min kvadrat metr mənzil sahəsi olan yaşayış evləri tikilmişdi (“Kommunist” qəzeti, 1951). Bundan əlavə kənd evlərində 29 min yaşayış evi tikilmişdi (“Kommunist” qəzeti, 1951). Tikinti işlərinin geniş vüsət alması ilə əlaqədar bir çox müəssisələrdə yaşayış evlərinin tikintisində fəhlə və qulluqçuların şəxsi əməyindən istifadə olunurdu ki, bu da onlara həmin evlərdə mənzil sahəsi almaq hüququ verirdi. Göstərilən işdə bir sıra sənaye müəssisələrinin

və tikinti təşkilatlarının fəhlə və qulluqçularının evləri öz qüvvələri ilə "xalq tikintisi üsulu" ilə tikmək təşəbbüsü mühüm əhəmiyyət kəsb edirdi (HİMA).

Beləliklə, müharibədən sonrakı illərdə həyata keçirilmiş bir sıra tədbirlər nəticəsində Azərbaycanda əhalinin maddi rifahının yüksəlməsi təmin olunmuş, zəhmət adamlarının əmək və məişət şəraiti yaxşılaşmışdı. Kurort tikintisi inkişaf edirdi. Abşeron sahili sanator müalicə istirahət evlərinin mərkəzi oldu. Təbii mineral sular geniş istifadə olunurdu. Naftalan kurortu şöhrət qazanmışdı. SSRİ Nazirlər Soveti əhalinin su təchizatının yaxşılaşdırılması üçün 1951-ci ildə Bakı su kəmərinin ikinci növbəsinin tikilməsi barədə qərar qəbul etmişdi (ARSPİHDA). Ana və uşaqların müdafiəsinə dövlət xüsusi qayğı göstərirdi. Çoxuşaqlı və tənha analar müəyyən müavinətlər almışdılar. Zəhmətkeşlərin müharibədən sonrakı dövrdə maddi rifah halının yüksəlməsi Kommunist partiyasının və Sovet hökumətinin xalqa göstərdiyi qayğının parlaq təcəssümü idi.

**Ədəbiyyat**:

1. A.Qasımov Sosializmdə maddi rifah səviyyəsi. Bakı, 1967 ,151 s.
2. ARSPİHDA f.1,s.23,i.8,v.172
3. Azərbaycan tarixi VII cilddən,VII cild Bakı 2008, s.693.
4. K.Marks "Kapital", I cild, Bakı, Azərnəşr 1949, 677 s.
5. "Kommunist" qəzeti, 14 iyun 1951-ci il
6. Həmkərlar İttifaqının Mərkəzi Arxivi, f.1.s.32, i.1, v.39
7. Бакинский рабочий qəzeti, 20 fevral 1955-ci il
8. Народное хозяйство Азербайджанской ССР к 70-летию Великого Октября, 1967, 313 стр.
9. https://kayzen.az/blog/politologiya
10. https://e-qanun.az/framework/593

## AZƏRBAYCAN VƏ BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATININ ƏRZAQ VƏ KƏND TƏSƏRRÜFATI TƏŞKİLATI (FAO) ƏLAQƏLƏRİ

**Rzayeva Gülnar Şəmsəddin**
**Sumqayıt Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-3804-846X**
**gulnarzayeva@mail.ru**

## AZERBAIJAN AND THE UNITED NATIONS FOOD AND AGRICULTURE ORGANIZATION (FAO) CONTACTS

**Rzayeva Gulnar Shamseddin**
**Sumgait State University**
**https://orcid.org/0000-0002-3804-846X**
**gulnarzayeva@mail.ru**

## Summary

Agriculture is the traditional field of production of Azerbaijan. Historically, viticulture, sericulture and fruit growing fields were widespread here. Today, thanks to continuous and comprehensive state support, a significant increase in agriculture has been achieved in our country. President Ilham Aliyev always focuses on reforms in the agricultural sector and ensuring the country's food security. The development of agriculture is the result of the state's attention and support to this field, and the ongoing reforms. The development of the non-oil sector, especially the agricultural sector is great importence along with the oil sector in Azerbaijan. İnternational organizations operate for food safety, production of quality products, sustainable development of agriculture and other purposes in the world. Azerbaijan pays special attention to relations with these organizations, especially the United Nations Food and Agriculture Organization (FAO) and these relations occupy an important place for the development of the agricultural sector. The article deals Azerbaijan's cooperation with the United Nations Food and Agriculture Organization (FAO) and results achieved in the agriculturam field.

**Keywords:** Azerbaijan, organization, agriculture, cooperation.

## СВЯЗИ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ПРОДОВОЛЬСТВЕННОЙ И СЕЛЬСКОХОЗЯЙСТВЕННОЙ ОРГАНИЗАЦИЕЙ ОБЪЕДИНЕННЫХ НАЦИЙ (ФАО)

**Рзаева Гюльнар Шамседдин**

**Сумгаитский Государственный Университет**

**https://orcid.org/0000-0002-3804-846X**

**gulnarzayeva@mail.ru**

## Резюме

Сельское хозяйство является традиционной сферой производства Азербайджана. Исторически здесь были широко распространены виноградарство, шелководство и садоводство. Сегодня благодаря постоянной и всесторонней государственной поддержке в нашей стране достигнут значительный рост сельского хозяйства. Президент Ильхам Алиев всегда уделяет особое внимание реформам в сельскохозяйственном секторе и обеспечению продовольственной безопасности страны. Развитие сельского хозяйства – это результат внимания и поддержки государства к этой сфере, проводимых реформ. Наряду с нефтяной промышленностью в Азербайджане большое значение имеет развитие ненефтяной отрасли, особенно аграрного сектора. Международные организации действуют по всему миру для обеспечения безопасности пищевых продуктов, производства качественной продукции, устойчивого развития сельского хозяйства и других целей. В Азербайджане особое внимание уделяется отношениям с этими организациями, особенно с Продовольственная и сельскохозяйственная организация Объединенных Наций (ФАО), и эти отношения занимают важное место для развития аграрного сектора. В статье рассказывается о сотрудничестве Азербайджана с Продовольственная и сельскохозяйственная организация Объединенных Наций (ФАО) и результатах, достигнутых в сельскохозяйственной сфере.

**Ключевые слова:** Азербайджан, организация, сельское хозяйство, кооперация.

Müasir dövrümüzün ən ciddi problemləri sırasına yoxsulluq, dünya əhalisinin qida təhlükəsizliyi, insanların sağlam həyat sürmələri və daim keyfiyyətli məhsullarla təmin edilmələri kimi məsələlər daxildir. Bu gün dünya qarşısında duran ən vacib məsələlər bu problemlərin qarşısını almaq, insanların həyat şəraitini yaxşılaşdırmaq, bir sıra sahələrin, xüsusilə də kənd təsərrüfatının davamlı inkişafını təmin etməkdən ibarətdir. Bütün bu sadalanan məsələlərlə bağlı bir sıra təşki-

latlar vardır ki, problemlərin həlli və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün beynəlxalq səviyyədə işlər həyata keçirirlər. Bu təşkilatlara Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (Food and Agriculture Organization-FAO), Avropa Qida Təhlükəsizliyi Təşkilatı (European Food Safety Authority-EFSA), Beynəlxalq Kənd Təsərrüfatı İnkişafı Fondu (International Fund for Acricultural Development-İFAD), Ümumdünya Ərzaq Proqramı (World Food Program-WFP), Beynəlxalq Ekoloji Kənd Təsərrüfatı Hərəkatı Federasiyası (İnternational Federation of Organic Agriculture Movement-IFOAM) kimi təşkilatları misal göstərə bilərik.

Azərbaycanda da aqrar sahənin inkişafına dövlətin daim xüsusi diqqət və qayğısı müşahidə olunur. Bu gün dövlət qarşısında duran əsas məqsədlərdən biri iqtisadiyyatın neftdən asılılığını azaltmaq və iqtisadi inkişafın kəndlərə genişlənməsini təmin etməkdən ibarətdir. Hökumət iqtisadiyyatın şaxələndirilməsi məqsədilə kənd təsərrüfatı sektorunun inkişaf etdirilməsini prioritet sahələrdən biri kimi müəyyən etmişdir. Azərbaycan iqtisadiyyatında neftdən sonra ən böyük sahələrdən biri olan kənd təsərrüfatı məşğulluqda ən yüksək paya malikdir. Bu sektorun kənd yerlərində yoxsulluğun azaldılmasına da böyük təsiri var.

Azərbaycanda 25 avqust 2008-ci il tarixində "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilmişdir (http://www.e-qanun.az/framework/15320). Hazırda hökumət regionlarda sosial-iqtisadi infrastrukturun inkişafı, aqrar sektorda islahatların aparılması və biznes mühitinin yaxşılaşdırılmasına dəstək məqsədilə müxtəlif proqram və layihələrin həyata keçirilməsi yolu ilə kənd təsərrüfatı və kənd ərazilərinə dəstək verir. Eyni zamanda aqrar sahənin inkişafında dünya təcrübəsindən yararlanır, kənd təsərrüfatının dayanıqlı inkişafı sahəsində qlobal çağırışlara uyğun olaraq beynəlxalq qurumlarla, xüsusən də Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) ilə uğurlu və səmərəli əməkdaşlıq həyata keçirir.

FAO BMT-nin ixtisaslaşmış qurumudur və baş ofisi Roma şəhərində olmaqla 1945-ci ildə yaradılmışdır. Qurumun əsas məqsədi əhalinin yüksək keyfiyyətli məhsullar ilə təminatını yaxşılaşdırmaq, fərdi və kollektiv fəaliyyətlər aparmaq, beynəlxalq təşkilatların fəaliyyətlərini əlaqələndirməkdən ibarətdir. (Bağırzadə. 2014)

Azərbaycan FAO-ya 1995-ci il 20 oktyabr tarixində üzv olmuşdur və Təşkilat Azərbaycanda kənd təsərrüfatının inkişafı, islahatların həyata keçirilməsi, yeni texnologiyaların tətbiqi, ərzaq təhlükəsizliyinin gücləndirilməsi, potensialın artırılması, resursların idarə edilməsi, heyvan və bitki xəstəliklərinə qarşı mübarizə, təchizat və digər müvafiq sahələr üzrə inkişaf proqramlarının və layihələrin həyata keçirilməsində texniki dəstək göstərir.

2007-ci ilin avqust ayında FAO-nun Azərbaycan, Türkiyə və Orta Asiya ölkələrini əhatə edən Subregioan Ofisinin Azərbaycan üzrə Nümayəndəlik Ofisi açılmışdır. Azərbaycan hökuməti və FAO arasında Azərbaycanın aqrar sektorunda FAO-nun fəaliyyətlərini genişləndirmək məqsədilə 19-20 aprel 2012-ci il tarixlərində FAO-nun Avropa üzrə Regional Konfransında "Milli Ortamüddətli Prioritetlər Çərçivə Sənədi" imzalanmışdır (Abasov. 2013).

2015-ci il 15 may tarixində "Tərəfdaşlıq Çərçivə Sazişi" adlandırılan FAO-Azərbaycan Tərəfdaşlıq Proqramı haqqında Saziş imzalanmışdır. Saziş 30 sentyabr 2015-ci il tarixində Azərbaycan Respublikasının qanunu ilə təsdiq olunmuşdur. (http://www.e-qanun.az/framework /30920)

25 may 2015-ci il tarixində “Azərbaycan hökuməti və FAO arasında Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin yaradılması və texniki yardımın göstərilməsi haqqında Saziş” imzalanmışdır. Saziş 12 oktyabr 2015-ci il tarixli Azərbaycan Respublikası Prezident Fərmanı ilə təsdiq edilmiş və 2015-ci ildə FAO-nun Azərbaycandakı ofisi qurulmuşdur. (https://mfa.gov.az/az/category/ beynelxalq-teskilatlar/azerbaycan-bmt-nin-erzaq-e-kend-teserrufati-teskilati-fao-munasibetleri)

FAO-nun Azərbaycana dəstəyi üçün aşağıdakı altı prioritet sahə müəyyən edilmişdir:

1. Transsərhəd heyvan və bitki xəstəlikləri və zərərvericilərə qarşı mübarizə də daxil olmaqla heyvanların sağlamlığı və bitkilərin mühafizəsi;

2. Kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi və kənd yerlərinin inkişafına investisiyaların dəstəklənməsi;

3. Kənd təsərrüfatı üzrə təhsil, tədqiqat və genişləndirmə də daxil olmaqla potensialın inkişafı;

4. Kənd təsərrüfatı və kənd yerlərinin inkişafı üçün siyasətin və institusional bazanın gücləndirilməsi;

5. Bitkiçilik, balıqçılıq və heyvandarlıq məhsulları istehsalının təkmilləşdirilməsi;

6. Davamlı, ədalətli və səmərəli meşə təsərrüfatı, torpaq və su ehtiyatlarının idarə edilməsi. (Food and Acriculture Organization of the United Nation. Country Programming Framework for Azerbaijan 2016-2020. 2016)

Aqrar siyasətin nəticələrinin və kənd təsərrüfatı istehsalı ilə məşğul olan sahibkarların fəaliyyətinin effektivliyinin mütəmadi olaraq qiymətləndirilməsi üçün FAO-nun metodiki dəstəyi ilə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Avropa Birliyinin Farm Accountancy Data Network (FADN) təcrübəsinə əsaslanan “Fermer Təsərrüfatları Məlumatlarının Monitorinqi Sistemi” (FTMS) formalaşdırılmışdır və 2015-ci ildən sistem tətbiq edilmişdir. (Azərbaycan - 2030: Minilliyin inkişaf məqsədlərindən dayanıqlı inkişaf məqsədlərinə doğru Azərbaycan Respublikasının “Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”nin icrası ilə əlaqədar ilkin addımları haqqında Könüllü Hesabat. 2017)

Bunlardan əlavə FAO bir sıra tədbirlər, o cümlədən kənd təsərrüfatı, ərzaq, balıqçılıq və meşəçilik sahələrində fəaliyyətlərin qiymətləndirilməsi, dövlət və özəl sektor üçün maarifləndirmə və potensialın gücləndirilməsi tədbirləri həyata keçirmişdir. Ərzaq və kənd təsərrüfatı sahəsində, FAO hökumətin islahat gündəliyinin icrasına dəstəyin göstərilməsi, təşkilati və texniki potensialların gücləndirilməsi, toxumçuluq və sertifikatlaşdırma, torpaqların konsolidasiyası və mikrob əleyhinə mübarizə sahələrində siyasətlərin, strategiyaların və qanun layihələrinin hazırlanması vasitəsilə ərzaq təhlükəsizliyinin gücləndirilməsinə kömək etmişdir. Qeyd edilməlidir ki, orqanik kənd təsərrüfatının qəbulu və təbliğinə dair yeni milli strategiyanın hazırlanmasında, eləcə də orqanik kənd təsərrüfatı üzrə sertifikatlaşdırma sisteminin hazırlanmasında və tətbiqində FAO tərəfindən köməklik göstərilmişdir. Bütün bunlar ölkədəki fermerlər üçün yeni imkanlar açmış, fəaliyyətlərinin genişləndirilməsi üçün şərait yaratmışdır. (Privat və Saatov. 2019)

Azərbaycan ilə FAO arasında əməkdaşlıq daha da inkişaf edir. FAO-nun yardımı ilə kənd təsərrüfatı məhsuldarlığının artırılmasına və Azərbaycanın aqrar islahatlarının uğurla həyata keçirilməsinə yönəlmiş tədbirlər davam edir.

Kənd təsərrüfatı Azərbaycanın qeyri-neft iqtisadiyyatında mühüm sahə olaraq qalır, çünki o, böyük potensiala malikdir və məşğullun ən yüksək payını mənimsəyir, bütün əhalinin güzəranına və rifahına töhfə verir. Kənd yerlərində yoxsulluğun azaldılması və həssas qruplar üçün məşğulluq imkanlarının yaradılması, kənd təsərrüfatı istehsalı sektorunda qabaqcıl və yüksək texnologiyaların tətbiqi və təşviqi, elmi-tədqiqat, texniki və məsləhət xidmətlərinin inkişafı, bütün sahənin müasirləşdirilməsi və kənd təsərrüfatı sektorunun rəqabət qabiliyyətinin artırılması qarşıda duran əsas prioritet və hədəflər kimi müəyyən edilmişdir.

**Ədəbiyyat:**


1. Abasov İ. (2013) Azərbaycan və dünya ölkələrinin kənd təsərrüfatı. 712. 248.
2. Azərbaycan - 2030: Minilliyin inkişaf məqsədlərindən dayanıqlı inkişaf məqsədlərinə doğru Azərbaycan Respublikasının "Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"nin icrası ilə əlaqədar ilkin addımları haqqında Könüllü Hesabat. Bakı 2017. 86. 50.
3. Bağırzadə E. (2014). Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası. 4. 41, 8.
4. Food and Acriculture Organization of the United Nation. Country Programming Framework for Azerbaijan 2016-2020. 2016. 29.6
5. Privat K. və Saatov R. 2016-2020-ci illər üçün Birləşmiş Millətlət Təşkilatı-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) sənədi Qiymətləndirmə Hesabatı. 2019. 169. 51.
6. http://www.e-qanun.az/framework/15320
7. http://www.e-qanun.az/framework/30920
8. https://mfa.gov.az/az/category/beynelxalq-teskilatlar/azerbaycan-bmt-nin-erzaq-ve-kend-teserrufati-teskilati-fao-munasibetleri


## LƏNKƏRAN ŞƏHƏRİNİN MƏDƏNİ HƏYATI (1993-2003-CÜ İLLƏR)


**Hüseynova Günel Ənvər**
**Sumqayıt Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-7659-6304**
**gunelenver1987@gmail.com**


## CULTURAL LIFE OF LANKARAN CITY (1993-2003)


**Huseynova Gunel Anwar**
**Sumgait State University**
**https://orcid.org/0000-0001-7659-6304**
**gunelenver1987@gmail.com**



### Summary

The great leader noted that each nation is known by its own characteristics.The most important of these characteristics is cultural.For this reason, the policy carried out in the field of culture should always be highlighted. Because all cultural innovations must be engraved in the memory of our history.Lankaran region is among our regions with a colorful cultural life.Notable works have alwaysbeen done here,both from the architectural,social and economi

point of view.We must do our best to protect our cultural heritage in this area as well.Cultural heritage is our inheritance from our ancestors,it is a valuableasset passed down to usfrom previous generations.It reflects the history of our cultural life.It also representsour connectionto the past and the future.Although years and centuries have passed,our culture stillretains its attractiveness.Mehriban Aliyeva,head of theHeydar AliyevFoundation,emphasized that our culture has both national and human essence.It should be the dutyof the young generation to investigate the cuktural life in the center and in the regions and protect the pearlsof our material and cultural heritage.

**Keywords:** nation, culture, history.

## КУЛЬТУРНАЯ ЖИЗНЬ ГОРОДА ЛЕНКОРАНЬ (1993-2003 ГГ.)

**Гусейнова Гюнель Анвар**
**Сумгаитский Государственный Университет**
**https://orcid.org/0000-0001-7659-6304**
**gunelenver1987@gmail.com**

### Резюме

Если наши кулътурные ценности будут сохранены, наше националъно- кулътурное сознание будет продолжать развиваться. Нация с развивающимся культурным сознанием будет постоянно делать шаги вперед в научной, духовной и политической областях. На сегодняшний молодые исследователи стремятся изучить наши культурные и духовные ценности. Ленкораньский район входит в число наших регионов с яркой кулътурной жизнью. Здесь всегда проводилисъ заметные работы, как с архитектурной, так и с социальной и экономической точек зрения. Мы должны сделать все возможное, чтобы защитить наше культурное наследие и в этой области. Культурное наследие-это наше наследство от предков, это ценное достояние, переданное нам от предыдущих поколений.Оно отражает историю нашей культурной жизни. Хотя прошли годы и века, наша культура по-прежнему сохраняет свою привлекательность. Мехрибан Алиева, глава Фонда Гейдара Алиева, подчеркнула, что наша культура имеет как национальную, так и человеческую сущность. Обязанностью молодого поколения должно бытъ изучение культурной жизни в центре и в регионах и защита жемчужин нашего материального и культурного наследия.

**Ключевые слова:** культура, нация, духовное сознание.

Tədqiqatın əsas məqsədi mədəniyyət tariximizin qısa bir dönəminə nəzər yetirməkdir. Mövzu öz aktuallığına görə olduqca diqqətəlayiqdir. Çünki günümüzdə də tarixin əsas vəzifələrindən biri mədəni həyatımızı araşdırıb, gənc nəslə töhfə vermək olmalıdır. Tezisdə müxtəlif mənbələr araşdırılmışdır. Elmi ədəbiyyatlar sırasında Abadov M. ”Azərbaycan turizmi və onun inkişaf problemləri”, ”Heydər Əliyev və mədəni irs”, Abbasov N. ”Mədəniyyət siyasəti və mədəni irs”, Əhmədli R. “Azərbaycanda dövlətçilik fəlsəfəsinə dair” əsas yer tutur.

**Ulu Öndərin Hakimiyyətə Qayıdışı və Mədəni Həyatda Dirçəliş**. 1993-cü il oktyabr ayında Ulu öndər Heydər Əliyev xalqın istəyi ilə ölkə prezidenti seçildi. Onun hakimiyyətə qayıdışı sosial-iqtisadi böhran dövrünə təsadüf edirdi. Müstəqillik tariximizə ən böhranlı dövr kimi daxil olan 1993-cü ilin iyun – oktyabr ayları, 15 iyun “Qayıdış günü”ndən başlayaraq, Azərbaycanda dövlət və cəmiyyət böhranından xilas olmaq istiqamətində ciddi addımların atıldığı bir dövr idi [Əhmədli. R s. 294.].

Məhz Ulu öndər Heydər Əliyev öz dərin zəkası və diplomatik manevrləri sayəsində dövləti-mizi və xalqımızı bu böhrandan alnıaçıq şəkildə çıxardıb, xalqın həyatını yeni, düzənli və rifah

istiqamətə yönəldə bildi. 90-cı illərdə o, dövlət siyasətinin əsas prioritet istiqamətlərini müəyyənləşdirdi.

Dövlət siyasətinin həyata keçirilməsinin əsas istiqamətlərindən biri də milli-mənəvi, mədəni dəyərlərimizi araşdırmaq, inkişaf etdirmək və qoruyub saxlamaq idi. Çünki Ulu öndər çox yaxşı anlayırdı ki, əgər bir xalq mədəni və mənəvi irsini qoruya bilməzsə, həmin xalq öz dövlətçilik tarixini də qoruya bilməz.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev milli mədəniyyətimizin inkişafının başlıca əlamətinin doğma dilimizin qorunub-saxlanılması olduğunu daima vurğulayırdı. Bu amili bir daha aşkar nümayiş etdirmək üçün, 1995-ci il 12 noyabr konstitusiyası ilə təsbit etdi. Konstitusiyamızın 21-ci maddəsində belə vurğulanır: "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir".

Mədəni dəyərimiz olan ana dilimizin inkişafı istiqamətində görünən tədbirlər nəticəsində istər mərkəzdə, istərsə də regionlarımızda ana dilində təhsil verən ali məktəblər, kolleclər, incəsənət, rəssamlıq, musiqi məktəbləri fəaliyyət göstərməkdədir. Belə tədris ocaqlarında minlərlə şagirdlər, yeniyetmə və gənclər təhsil almaqdadırlar.

**Lənkəran şəhərinin mədəni həyatı.** Lənkəran şəhəri ulu öndərin daim diqqət mərkəzində olan bölgələr siyahısında olmuşdur. 1993-2003-cü illərdə Heydər Əliyev prezidentliyi dövrlərində bu bölgəyə səfərlər etmiş, yerli əhalinin güzəranı ilə daim maraqlanmışdır. Bölgənin mədəniyyət xadimləri yüksək dəyər görmüş, rifahlarının yaxşılaşdırılması istiqamətində addımlar atmışlar.

Mədəni-mənəvi dəyərlərimiz sırasına daxil olan dinimizin inkişafına və qorunmasına önəm verilmişdir. 1990- cı illərdə erməni təcavüzkarları tərəfindən başlanan savaş ölkəmizə, o cümlədən Azərbaycanın milli-mədəni və mənəvi irsinə ağır zərbə vurdu. Bəlkə də bu səbəbdən onun müdrik qərarlarından biri dini, mənəvi dəyərlərin və abidələrin bərpası olmuşdur. Heydər Əliyevin qarşısında mürəkkəb bir problem dayanırdı-insanları öz inamlarına qaytarmaq, dini abidələri bərpa etmək, ən əsası isə fərqli inancların nümayəndələri arasında hörmət və normal münasibətləri bərpa etmək" [Heydər Əliyev və mədəni irs. s.11].

İslam dininin bəşəriyyətə bəxş etdiyi mənəvi dəyərlərin əhəmiyyətindən və onların öyrənilməsinin vacibliyindən bəhs edən Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin hələ 1996–cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda söylədiyi fikirlər bu gün üçün də çox aktual səslənir: "Bizim konstitusiyamıza görə ölkəmizdə dünyəvi dövlət qurulur. Din dövlətdən ayrıdır. Təbiidir ki, bütün dünyəvi ölkələrdə bu belədir. Bu heç kəsdə təəccüb doğurmasın. Bu bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin islam dininin mənimsənilməsi üçün lazımi tədbirlər görülməlidir". [Abbasov. s.182]

1991-ci ildə Lənkəranda Tarixi-Diyarşünaslıq muzeyi açılıb. Muzeydə xalqın tarixini, mədəniyyətini özündə əks etdirən əşyalar, dəyərli eksponatlar saxlanılır.

Lənkəran şəhərinin memarlıq abidələri sırasında Şeyx Zahid türbəsini, Kiçik Qala məscidini, Güldəstə türbəsini, Hacı Mirzə hamamını, Əbirlər qülləsini nümunə göstərə bilərik.

Lənkəran ətrafındakı Boladi, Vilvan və Veravul kəndlərində ənənəvi xalq sənət növləri-zərgərlik, xalçaçılıq, həsir toxuma sənətləri geniş inkişaf etmişdir. [Abadov. s.88.]

Ulu öndərin layiqli davamçısı İlham Əliyev 2003-cü ildə prezident seçildikdən sonra, eyni mədəni siyasəti nəinki davam etdirmiş, hətta daha geniş spektrli siyasət həyata keçirmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Lənkəran şəhərinin mədəni həyatının inkişafına xüsusi səy sərf etmişdir. Bu günümüzdə də, Ulu Öndərin və cənab prezidentimiz İlham Əliyevin bu şəhərin mədəni inkişafı üçün sərf etdiyi cəhdlərin bəhrəsini görürük. Nəticə etibarı ilə, biz gənclər də bu siyasətin həyata keçirilməsinə öz töhfəmizi verməliyik. Lənkəran şəhərinin mədəni həyatı gənc alimlər tərəfindən dərin araşdırılmalıdır.

**Ədəbiyyat:**


1. Abadov M.2014. Bakı .“Azərbaycan turizmi və onun inkişaf problemləri” s.88.
2. Abbasov N. 2011. Bakı .“Mədəniyyət siyasəti və mədəni irs “ s.182.
3. Heydər Əliyev və mədəni irs. 2014. Bakı. s 11.
4. Əhmədli R. 2009. Bakı. “Azərbaycan dövlətçilik fəlsəfəsinə dair” s.294.


## SİYASİ İNSTİTUTLARIN HESABATLILIQ YOLUYLA DEMOKRATİYA VƏ İNKİŞAFDA ROLU


**Yusif Mikayıl Elçin**

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**

**https://orcid.org/0000-0002-7732-8261**

**mikayil.yusif1@gmail.com**


## THE ROLE OF POLITICAL INSTITUTIONS IN DEMOCRACY AND DEVELOPMENT THROUGH ACCOUNTABILITY


**Yusif Mikayil Elchin**

**Academy of Public Administration under the President of the Republic of Azerbaijan**

**https://orcid.org/0000-0002-7732-8261**

**mikayil.yusif1@gmail.com**



### Summary

Accountability is one of the main determinants of democracy and development, which is known as the by-product of democracy. Accountability is defined as the responsiveness and accountability of those in power to those they serve. Strengthening domestic accountability has been a growing component of development assistance in recent decades. This is consistent with the growing interest in improving governance, which is increasingly seen as a cornerstone of successful development. The existing scientific literature in this field has already revealed that accountability, together with transparency, plays an indispensable role in determining the quality of the complex of activities carried out by political institutions. However, there is a definite gap in the existing scholarly literature when it comes to explaining the links between accountability and democracy and development from an institutional perspective. Therefore, this article asks, "What roles do political institutions play in ensuring democracy and development through accountability?" aims to fill this gap by exploring the research question. To answer the research question, the method of comparative and systematic analysis of scientific materials was used. Scientific materials written in Azerbaijani, English and Turkish languages were used for the study of the topic.



**Keywords:** political institutions, accountability, democracy, development.

# РОЛЬ ПОЛИТИЧЕСКИХ ИНСТИТУТОВ В ДЕМОКРАТИИ И РАЗВИТИИ ПОСРЕДСТВОМ ПОДОТЧЕТНОСТИ

**Юсиф Микаил Эльчин**

**Академия Государственного Управления При Президенте Азербайджанской Республики**

**https://orcid.org/0000-0002-7732-8261**

**mikayil.yusif1@gmail.com**

**Резюме**

Подотчетность является одним из основных определяющих факторов демократии и развития, который известен как побочный продукт демократии. Подотчетность определяется как отзывчивость и подотчетность тех, кто находится у власти, перед теми, кому они служат. В последние десятилетия усиление внутренней подотчетности стало растущим компонентом помощи в целях развития. Это согласуется с растущим интересом к совершенствованию управления, которое все чаще рассматривается как краеугольный камень успешного развития. Имеющаяся научная литература в этой области уже выявила, что подотчетность, наряду с прозрачностью, играет незаменимую роль в определении качества комплекса деятельности, осуществляемой политическими институтами. Однако в существующей научной литературе существует определенный пробел, когда речь идет об объяснении связей между подотчетностью, демократией и развитием с институциональной точки зрения. Поэтому в этой статье задается вопрос: «Какую роль играют политические институты в обеспечении демократии и развития посредством подотчетности?» стремится восполнить этот пробел, исследуя исследовательский вопрос. Для ответа на исследовательский вопрос был использован метод сравнительно-систематического анализа научных материалов. Для изучения темы использовались научные материалы, написанные на азербайджанском, английском и турецком языках.

**Ключевые слова:** политические институты, подотчетность, демократия, развитие

İdarəetmədə hesabatlılıq "hərəkətlərinə görə cavabdeh olmaq" kimi qəbul olunan ümumi tərifdən kənara çıxmışdır. O, tez-tez fərdlər arasında hesabvermə əlaqəsi kimi təsvir edilir. Siyasi hesabatlılıq isə (fiziki və ya institusional) siyasi fiqurun xalq adından hərəkət etməsi, onu mükafatlandırması və ya ona zərər vurması hallarında xalqın bu fiquru mükafatlandırmaq və ya ona sanksiya tətbiq etmək imkanına malik olmasıdır. 2003-cü ilə qədər beynəlxalq inkişaf cəmiyyətinin dövlət sektorunun hesabatlılığına marağı Dünya Bankı üçün əhəmiyyət kəsb etməyə başladı (Romzek & Dubnick, 1987). Bunun məntiqi davamı olaraq, qurum öz Dünya İnkişaf Hesabatını dövlətin hesabatlılığının artırılması yolu ilə yoxsul insanlar üçün dövlət xidmətlərinin yaxşılaşdırılmasına həsr etdi (Blair, 2018).

Demokratik keçid nəzəriyyəsinin fərziyyəsi ondan ibarətdir ki, hesabatlılıq və demokratik təsisatlar bir-biri ilə sıx əlaqəlidir (Booth, 2011; Demirkıran, Eser & Keklik, 2011; Abbasbəyli, 2011). Mövcud elmi ədəbiyyata nəzər saldığımızda mövzunun aktuallığı və əhəmiyyəti şəffaflığın və hesabatlılığın demokratiyaya və ictimai nəzarət yolu ilə inkişafa təsir etməsində çox aydın şəkildə əks olunur. Halbuki, qeyd edilməlidir ki, mövcud elmi resurslar siyasi institutların demokratiya və inkişafa nail olunmasındakı ümumi rolunu araşdırsa da, bu vaxta qədər heç bir tədqiqat nümunəsi bu nailiyyətdə spesifik olaraq hesabatlılığın rolunu və onun institusional nöqteyi-nəzərdən yerini qeyd etməmişdir. Siyasi institutların hesabatlılıq yolu ilə demokratiya və inkişafa nail olunmasında müstəsna əhəmiyyətini inkişaf etmiş ölkələr timsalında daha aydın şəkildə görə bilərik. ABŞ, Kanada, Birləşmiş Krallıq, Avropa İttifaqı, Yaponiya və İsrail kimi dünyanın qabaqcıl ölkərində korrupsiyanın yox səviyyəsində azlığı, vətəndaş cəmiyyətində atılan uğurlu addımlar, yüksək

insan inkişafı indeksi və innovasiya fəaliyyəti və s. bilavasitə və ya dolayı olaraq siyasi institutlar və onların şəffaf fəaliyyətlərinin nəticəsidir. Göründüyü kimi siyasi institutların hesabatlılıq yolu ilə idarə olunması sosial vəziyyətdən tutmuş ölkənin iqtisadi reallığına qədər öz təsirini göstərir.

Bu səbəbdən dolayı mövzunun aktuallığını nəzərə alaraq bu tədqiqatın məqsədi və vəzifəsi siyasi institutların hesabatlılıq yolu ilə demokratiya və ümumi inkişafa nail olunmasındakı yerini və rolunu araşdırmaqdır. Bunun üçün – Siyasi institutlar hesabatlılıq yolu ilə demokratiyanın və inkişafın təmin edilməsində hansı rolları oynayır? – mərkəzi tədqiqat sualı müəyyən edilmişdir.

Yuxarıda qeyd olunan sualı tədqiq etmək üçün sahə üzrə elmi ədəbiyyatın müqayisəli və sistemli təhlili metodundan istifadə edilmişdir. Elmi tədqiqatın ən böyük məhdudiyyəti hesabatlılığı ümumi prizmadan dəyərləndirərək, onun tərkib hissəsi olan şəffaflığı xüsusi olaraq vurğulamamasıdır. Bundan ziyadə, tədqiqat Azərbaycan, ingilis və türk mənbələrindən yararlanmışdır. Bu sahədə digər dillərdə aparılan araşdırmalar və elmi məqalələr nəzərə alınmamışdır.

**Siyasi institutlar və hesabatlılıq**

Dövlət idarəçiliyi nəzəriyyəsində demokratiya və şəffaflıq adətən güclü və etibarlı idarəçiliyin bir-birini dəstəkləyən keyfiyyətləri kimi qəbul edilir (Hood & Heald, 2006; Kosack & Fung, 2014; McDermott, 2010). Müasir şəffaf hökumətlərin müəyyənedici siyasətlərinin məqsədi olan “məlumat əldə etmək” qanunlarının qəbulu qabaqcıl demokratiyalarda olan institusional öncüllərə əsaslanır ki (Charron, 2009; Moon, 2003), bu da bu qəbildən olan dövlətlərdəki şəffaflıq və hesabatvermə qabiliyyətlərinin davamlılığında mühüm rol oynayır (Forrer, Kee, Newcomer & Boyer, 2010). Bununla belə, bir çox inkişaf etmiş dövlətlər "məlumat əldə etmək" qanununu qəbul etməmişdən xeyli əvvəl ümumi seçki hüququna, azad mətbuata və siyasi plüralizmə malik idilər (Ingrams, 2018). Ölkədaxili hesabatlılığın rolu inkişaf əməkdaşlığının effektivliyi işində etiraf edilmiş və Paris, Akkra və Busan görüşlərində razılaşdırılmış müvafiq öhdəliklərə daxil edilmişdir (Organisation for Economic Co-operation and Development, 2013). Bu tendensiyalar, yoxsulluğun aradan qaldırılması və inkişafı təşviq etmək səylərinin həyata keçirildiyi sosial, siyasi və idarəetmə kontekstini yaxşı başa düşmək və məhsuldar vətəndaş-dövlət münasibətlərini dəstəkləmək barədə məlumat əldə etdikdə daha effektiv olduğuna dair geniş yayılmış rəyi vurğulayır. Onlar inkişaf etməkdə olan ölkələrdə vətəndaşların, yerli təşkilatların və hesabatlılıq institutlarının inkişafla bağlı qərarların qəbulu və müzakirələrində daha çox səs və təmsil olunmaq çağırışlarına əsaslanır (Abbasbəyli, 2011; Ələkbərova, 2013). Siyasi institutlar hökumətin hesabatlılığının artırılmasına kömək edə bilər. Ayrı-ayrı siyasətçilərlə müqayisədə siyasi institutlar daha uzun zaman üfüqlərinə və uzunmüddətli reputasiyanın qorunmasında paya malik olurlar (İbadov, 2010). Siyasi institutları demokratik siyasətdəki rolu baxımından düşünmək daha çox yayılmış olsa da, onlar davamlı inkişafın təşviqində də əsas oyunçu ola bilərlər. Tərəflər əsas sosial sektorların maraqlarını əks etdirən inkişaf siyasətinə təşəbbüs göstərə bilərlər (Cheng & Mittelhammer, 2008). Tərəflər daha sonra bu siyasətləri həyata keçirmək üçün hökumət daxilində lazımi koordinasiyanı təmin edə bilərlər. Tərəflərin uzunmüddətli marağı xalq dəstəyini qazanmağa davam etmək üçün davamlı inkişafı təşviq etməkdən ibarətdir.

Ölkəmizdə də həmçinin demokratiya və inkişafa nail olunmasını, idarəetmənin təkmilləşdirilməsini özündə əks etdirən siyasi islahatlar aparılır. Respublikamızda həyata keçirilən bu institusio-

nal islahatlar milli idarəetmə sisteminin dövrün dəyişən tələblərinə uyğun qurulmasını nəzərdə tutur. İnkişafda olan ölkə olmasına rəğmən Azərbaycanda siyasi institutların fəaliyyəti bu qəbildən olan bir sıra dövlətlərdən fərqli olaraq arzuolunan səviyyədədir. Ümumilikdə effektiv idarəetmə sisteminin qurulması öz növbəsində ölkənin müəyyən olunan yeni məqsədlərə doğru inamla irəliləməsini və yeni nailiyyətlər əldə etməsini şərtləndirir. Ölkə rəhbərinin nəzarəti ilə aparılan islahatlar həm institusional təsissatların, dövlət qurumlarının daim dəyişən çağırışlara adekvat addımlar atma qabiliyyətlərini, həm də bu qurumlardakı hesabatlılıq və şəffaf idarəetmə prinsiplərini gücləndirir.

Nəticə olaraq qeyd edə bilərik ki, siyasi institutlar ölkə miqyasında demokratiya və inkişafa hesabatlılıq yolu ilə birbaşa təsir göstərə bilərlər. Belə ki, hesabatlılıq məlumat azadlığına yol açacaqdır. Məlumat azadlığı ilə vətəndaşlar dövlət instansiyaları üzərindəki təzyiqlərini artıracaq, onlardan daha şəffaf idarəetmə tələb edəcəkdir. İkincisi, hesabatlılığın artırılması, institusional səviyyədə aparıldıqda daha uzun müddətdə hökumətin reputasiyanın qorunmasına gətirib çıxaracaqdır ki, bu da müasir dinamizmlər keşiyində fəaliyyət göstərən dövlət və hökumət orqanlarına olan inamı artıracaqdır. Bundan əlavə hesabatlılığın institusional yollarla nail olunması inkişaf göstəricilərində də müsbət dəyişikliklər yaradacaqdır. Hesabatlılıq siyasi aktyorların vətəndaşlar qarşısında davamlı inkişaf cavabdehliyi yaradacaqdır ki, bunun da bilavasitə həm siyasi tərəflərin işinin keyfiyyətinin yüksəlməsində, həm də vətəndaşlar arasında ümumi razılığın artması ilə siyasi inamın gücləndirilməsində mühüm rolu vardır.

**Ədəbiyyat:**

1. Abbasbəyli, A.N. (2011). Dünya Siyasəti (XX əsrin ikinci yarısı-XXI əsrin əvvəlləri), “NURLAR” Nəşriyyat-Poliqrafiya Mərkəzi, 583.

2. Blair, H. (2018). Citizen Participation and Political Accountability for Public Service Delivery in India: Remapping the World Bank’s Routes. *Journal of South Asian Development,* 13(1) 54–81.

3. Booth, D. (2011), “Governance for Development in Africa: Building on What Works”, Policy Brief 1, Africa Power and Politics Programme.

4. Charron, N. (2009). The impact of socio-political integration and press freedom on corruption. *The Journal of Development Studies,* 45, 1472-1493.

5. Cheng, M. Y., & Mittelhammer, R. (2008). Globalization and economic development: Impact of social capital and institutional building. *American Journal of Economics and Sociology,* 67, 859-888.

6. Demirkıran, Ö., Eser, H.B. & Keklik, B. (2011). Demokrasinin Tabana Yayılması, Yönetimde Şeffaflık ve Hesap Verebilirlik Bağlamında Bilgi Edinme Hakkı Kanunu. *International Journal of Alanya Faculty of Business,* 3(2), 169-192.

7. Ələkbərova, N. (2013). Siyasi Elmin Müasir Problemləri, Dərslik, Elm və Təhsil, Bakı, 372.

8. Forrer, J., Kee, E. J., Newcomer, E. K. & Boyer, E. (2010). Public-Private Partnerships and the Public Accountability Question. *Public Administration Review,* 70(3), 475-484.

9. Hood, C. & Heald, D. (2006). Transparency: The key to better governance? Oxford, UK: Oxford University Press for The British Academy.

10. Ingrams, A. (2018). Democratic transition and transparency reform: An fsQCA analysis of access to information laws in twenty-three countries. *Government Information Quarterly,* 35(3), 428-436.

11. İbadov, N. (2010). Müqayisəli Politologiya, Dərs vəsaiti, AzTU-nun mətbəəsi, Bakı, 221.

12. Kosack, S. & Fung, A. (2014). Does transparency improve governance? *Annual Review of Political Science*, 17, 65-87.

*13.* McDermott, P. (2010). Building open government. *Government Information Quarterly,* 27(4), 401-413.

14. Moon, M.J. (2003). Juggling and Serving Accountably: Panorama and Normative Synthesis on Public Service. *Public Administration Review*, 63(6), 734-737.

15. Romzek, B. S. & Dubnick, M. J. (1987). Accountability in the public sector: Lessons from the challenger tragedy. *Public Administration Review*, 47, 227-238.

16. Organisation for Economic Co-operation and Development. (2013). Accountability and democratic governance: Orientations and principles for development. DAC Guidelines and Reference Series.

## AVROPA ÖLKƏLƏRİNDƏ İDARƏETMƏ MƏDƏNİYYƏTİ

**Nəsirova Nərgiz Məhəmməd**
**Sumqayıt Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-5022-0592**
**nargiz917@gmail.com**

## MANAGEMENT CULTURE IN EUROPEAN COUNTRIES

**Nasirova Nargiz Mohammad**
**Sumgait State University**
**https://orcid.org/0000-0002-5022-0592**
**nargiz917@gmail.com**

### Summary

The research work is about the management system of Europe. It is noted that after the formation and development of the European Union, a joint market arose, which led to the need for a special management system. It is brought to attention that in European countries there was a culture of management. Therefore, the article refers to the identical and distinctive features of governance between these states. It is noted that the transition to a market economy has increased the interest of foreign companies in Europe, which has led to the involvement of managers in this area also noted that the management system in Europe, the legal framework of different European states, their experience in corporate governance, culture and management methods in these regions. The term "culture" in different works was

repeatedly discussed by researchers. There are a large number of studies on ways to find criteria for classifying states according to their cultural factor.

Further, the article notes that the managerial culture of Europe is divided into four types according to the parameters: this is a power distance, personality, courage, and a departure from uncertainty.

**Keywords*:*** Europe, management, culture, corporate governance, leadership.

## КУЛЬТУРА УПРАВЛЕНИЯ В ЕВРОПЕЙСКИХ СТРАНАХ

**Насирова Наргиз Мухаммед**

**Сумгаитский Государственный Университет**

**https://orcid.org/0000-0002-5022-0592**

**nargiz917@gmail.com**

### Резюме

В тезисе рассматривается управленческая система Европы. Отмечается, что после образования и развития Евросоюза, возник совместный рынок, что привело к необходимости применения особой управленческой системы. Доводится до внимания то, что в европейских странах существовала кульутра управления. Поэтому в статье говорится о идентичных и различительных чертах управления между этими государствами. Отмечается, что переход на рыночную экономику, повысил интерес иностранных компаний к Европе, что привело к привлечению менеджеров в эту область. Так же отмечается система управления в Европе, правовая база разных европейских государств, их опыт в корпоративном управлении, культура и методы управления в этих регионах. Отмечается, что термин «культура» в разных трудах многократно обсуждался исследователями. Существуют большое количество исследований о путях поиска критереев для классификации государств по их культурному фактору.

Отмечается, что для определения причин возникновения существующих различий в управленческой системе европейских государств, необходимо изучать различительные черты правовых ограничений в Европе. Существуют четыре различных правовых корня: французкого, немецкого, скандинавского происхождения и общее правовое отношение.

Далее в статье отмечается, что управленческая культура Европы по параметрам делится на четыре вида: это силовое расстояние, персональность, мужество, отход от неопределенности.

В статье говорится о заслуживающих внимание англо-саксонских, скандинавских, немецких, франкофилских, итальянских управленческих способах. Таким образом, в итоге делается вывод, что в Европе нет единой системы управления. Еропейская система управления состоит из различительных культур управления, объединяющих в себе как положительные, так и отрицательные черты.

**Ключевые слова:** Европа, управление, культура, корпоративное управление, лидерство.

**Tədqiqat apararkən belə bir sual ortaya çıxır:** ümumiyyətlə, Avropa Birliyinə xas olan bir idarəetmə sistemi mövcuddurmu? Avropa idarəçiliyi çox fərqli idarəetmə mədəniyyətlərindən ibarətdir. Hamısının öz müsbət və mənfi cəhətləri var. Avropada uğurlu bir iş qurmaq üçün dünyanın bu bölgəsindəki fərqləri dərindən dərk etmək lazımdır. Avropa Birliyinin yaranması və inkişafı ilə yanaşı Avropada ortaq bazar da yaranmışdır. Avropadan kənarda olan ölkələrin bir çoxu Avropanı vahid qərargah olaraq seçmişdir. Ancaq İkinci Dünya müharibəsindən sonra Avropa idarəetmə modeli adlanan bir şey olmamışdır. Avropa ölkələrinin idarəçiliyində mövcud olan fərqliliyin səbəbini müəyyən etmək üçün əvvəlcə Avropadakı hüquqi çərçivələrin fərqli cəhətlərini öyrənmək lazımdır. Mənşə etibarilə dörd fərqli hüquqi kök vardır: **Fransız, Alman, Skandinaviya mənşəli** vətəndaş qanunları və ümumi hüquqi yanaşma. İdarəetmədə "mədəniyyət" termini ədə-

biyyatda çox müzakirə edilmişdir və ölkələri mədəni faktorlara görə təsnif etmək üçün meyarlar tapmaqla bağlı bir çox araşdırmalar vardır [4. s.518]. Bununla birlikdə, ölkələr arasındakı tipik mədəni fərqlərdən danışırıqsa, əlbəttə ki, üst-üstə düşən mədəni aspektlərdən də danışmalıyıq. Beləliklə başa düşmək lazımdır ki, idarəetmə mədəniyyətləri və insanların davranışları arasında daim fərqliliklər mövcuddur.

Hofstedeyə görə, Avropada idarəetmə mədəniyyəti aşağıdakı dörd meyara görə bölünür: **Güc məsafəsi; Fərdilik; Kişilik; Qeyri-müəyyənlikdən qaçmaq** [1.s.68]. Güc məsafəsi bir ölkə daxilində olan təşkilat və ya təşkilatların üzvlərinin gücünün ölçüsü olaraq təyin olunur. Bu indeks ölkədəki asılılıq münasibətləri haqqında məlumat verir [1.s.69-70]. Fərdiyyətçilik kollektivizmlə ziddiyyət təşkil edir, cəmiyyətdə fərdlə kollektiv arasındakı əlaqələri müəyyən edir. Kişilik meyarı kişilik və qadınlıq arasındakı fərqdir və kişilik daha çox üstün tutulur. Dördüncü meyar qeyri-müəyyənliyin qarşısını almaqdır və insanların qeyri-müəyyənliyi nə dərəcədə qəbul etdiyini əks etdirir.

**Anglo-Sakson** sistemi hələ də rəhbərliklə işçilər arasındakı münasibətlərlə və işçilərin fərqli peşə təhsilləri ilə xarakterizə edilir [2. s. 266]. Şirkətlərdəki fərqli funksiyalar arasında, məsələn, istehsal, texniki xidmət və daha yüksək idarəetmədə ixtisaslı və ixtisaslı olmayan işçilər ola bilər. Müxtəlif bacarıqlı işçi qrupları arasında xeyli fərq vardır. Mühəndisliyə və istehsalata nə qədər çox yaxınlaşırsınızsa, şirkətdəki statusunuz bir o qədər aşağı olacaqdır. Anglo-Sakson ölkələrində mahiyyətcə iki sosial sinif mövcuddur: orta siniflər və işçi siniflər. Üst orta təbəqə daha yüksək idarəçi və peşəkar şəxslərdən, ardınca isə aşağı idarəçi və inzibati qruplardan ibarətdir. Aşağı orta sinif bacarıqlı və ya nəzarətçi olmayan işçilərdən ibarətdir [3.s.78-86].

Anglo-Sakson mədəniyyəti qeyri-müəyyənlikdən qaçınmaqla xarakterizə olunur. Buna görə də gələcəyə hər zaman nikbinlik əhval-ruhiyyəsi vardır. Beləliklə, Anglo-Sakson menecerlərinin təhlükəsizlik və sosial ehtiyac baxımından işlərindən digər mədəniyyətlərin idarəçilərindən daha çox məmnun olmaları təəccüblü deyil [5].

**Skandinaviya** mədəniyyətlərində son dərəcə aşağı Güc məsafəsi və çox aşağı Kişilik meyarları mövcuddur. Skandinav idarəetmə tərzi çox mərkəzləşdirilməmiş və demokratikdir. Ümumiyyətlə, Skandinaviya idarəetmə tərzi çox balanslı, peşəkar, çevik və ağlabatan olaraq qəbul edilir. Skandinaviya ölkələrində həyat tərzi olduqca oxşar olsa da, idarəçilik mədəniyyətinin xüsusiyyətləri hələ də fərqlidir. Almaniya, İsveçrə və Avstriya münasibətlərində olduğu kimi, Skandinaviya ölkələri arasında da davamlı dostluq münasibətləri mövcuddur. Buna misal olaraq göstərə bilərik ki, finlilər İsveç ya da Danimarkada biznes sahəsində və ya xarici investisiya məsələlərində problemlə qarşılaşmırlar.

**Alman** mədəniyyətində oxşarlıq artıq şirkətlərin quruluşundan başlayır. İdarə heyəti və müşahidə şurası olan iki pilləli sistem mövcuddur. Müşahidə şurasının tərkibinin sayında fərqlər ola bilər. Almaniyada qanuna əsasən səhmdar cəmiyyətlərdə çalışan işçilərdən müşahidə şurasının üzvləri seçilir. Böyük şirkətlərdə, Almaniyada müşahidə şurası üzvlərinin yüzdə 50-si işçilər tərəfindən seçilir. Avstriya və İsveçrədə müşahidə şurası ilə bağlı buna bənzər bir tənzimləmə mexanizmi yoxdur. Bununla bərabər, Avstriyada, İsveçrə və Belçikadan fərqli olaraq, müşahidə şurasında işçilərin nümayəndələri var. Müşahidə şurası idarə heyətinin üzvlərini təyin edir. İşçilərin

nümayəndələri seçicilərin bir hissəsi olduğu üçün yuxarı rəhbərlik eyni zamanda səhmdarların və işçilərin maraqlarını nəzərə almalı olur. Alman sinif sistemi əsasən təhsilə əsaslanır. Nə qədər ali təhsilli olsanız, sosial standartınız da bir o qədər yüksək olar. Beləliklə, Alman şirkətləri işçilərin təhsili üçün çox səy göstərirlər. Şagirdlərin iş yerində öyrəndiklərini, eyni zamanda məktəbə getmələrini və təhsillərini imtahanla bitirmələrinin lazım olduğunu ifadə edən ikili təhsil sistemi dünyada bənzərsizdir. İdarəçiliyə bir peşə olaraq deyil, daha çox funksiya kimi baxılır. Hətta üst menecerlər də özlərini menecer olmaqdan daha çox mühəndis, kimyaçı və ya iş idarəçisi hesab edirlər.

**Fransayönümlü** (frankofil) idarəetmə mədəniyyəti yüksək ierarxik, bürokratik təşkilati strukturlarla nəticələnir. Fransada ali təhsil sistemi ənənəvi olaraq dövlətin inhisarında olmuşdur. Bilik sorğu-sual və araşdırma yönümlü universitetlər və daha praktiki yönümlü bir təhsilə yönəlmiş "ekollar" arasında bölünür. “Ekollar” inqilabdan və Napoleon dövründən əvvəl Fransanın hökumətləri tərəfindən yaradılmışdır. Üst rəhbərlik, ümumiyyətlə, elit məktəblərdə və universitetlərdə təhsil alır. Ən yaxşı məktəblərə və universitetlərə getməyin əhəmiyyəti digər frankofil ölkələrdə də yüksəkdir. Fransanın ən yaxşı 200 şirkətinin dörddə üçü varlı ailələrdən qaynaqlanır. Fransız idarəetməsinin üst təbəqəsi eyni böyük məktəblərdə təhsil alan və ailələri, yəqin ki, nəsillər boyu bir-birini tanıyan sıx bir elita olduğu üçün yaxın bir şəbəkə quruluşu meydana gətirir. Bütün bunlar şəxsiyyətin peşəyə deyil, sosial mövqeyinə əsaslandığı yüksək təbəqələşmiş bir sinif sisteminə gətirib çıxarır. İspaniyada da bu tendensiya həm də özünü vahid idarə heyətinin qurulmasında göstərir: müstəqil direktorlar yoxdur, üzvlərin sayı çoxdur və bəzi direktorlar peşəkarlığa görə seçilir. Bununla birlikdə, İspaniya və Fransada ierarxik səviyyələrdə ünsiyyət və ya fikir mübadiləsi yoxdur [5]. Frankofil ölkələrdə səhmlər normal olaraq banklara və ailə sərvətlərinə aiddir [6.s.10].

**İtaliya** iqtisadiyyatı ənənəvi olaraq təşkil edilmiş kiçik və orta ölçülü ailə şirkətlərinə və əsasən İtaliyanın şimalında yerləşən çox müasir böyük şirkətlərə bölünür. Xüsusilə, İtaliyanın orta hissəsində kiçik və orta ölçülü şirkətlər regional şəbəkə quruluşunu inkişaf etdirmişlər. Əslində, üç fərqli Italiya var: yüksək sənayeləşmiş və inkişaf etmiş İtaliyanın şimal bölgəsi, kiçik və orta ölçülü şirkət yönümlü orta İtaliya və hələ də inkişaf etməyən cənubi İtaliya. Şimali İtaliya, ümumiyyətlə, iş görməkdə çox diqqətli və sürətlidir, halbuki, Mezzogiorno adlanan ölkənin cənub bölgələrində işgüzar münasibətlər daha rahat ola bilər [7.s.3].

Nəticə olaraq qeyd olunmalıdır ki, Avropa idarəetməsində vahid yanaşma yoxdur. Avropa idarəçiliyi çox fərqli idarəetmə mədəniyyətlərindən ibarətdir. Hamısının öz müsbət və mənfi cəhətləri var. Bu müxtəliflik, yalnız ağ-qara kimi bir şeyin olmadığı bir dünyada güclü bir nöqtədir. Bəlkə də "Avropa"nın səbəbi budur: fərqli mədəniyyətlərin qarışığını tapdığı şirkətlər çox vaxt yaxşı işlər görürlər. Avropada uğurlu bir iş qurmaq üçün dünyanın bu bölgəsindəki fərqləri dərindən dərk etmək lazımdır. Hər bir ölkəyə xas idarəetmə yanaşmasına ehtiyac var və bu fərqlərlə mübarizə aparmaq üçün ağlabatan bir yol rəqabət üstünlüyünə səbəb ola bilər.

**Ədəbiyyat:**

1. Hofstede G. Cultures and organization Software of the mind. 2016
2. Heidenreich. Technological change and regional development.2017
3. Halsey. Management Science: A Complement of Information Services 2016

4. Hampden-Turner və Trompenaars. Building Cross-cultural Competence: How to Create Wealth from Conflicting Valuesb. 2000

5. Haire et al. Cultural Patterns in the Role of the Manager. 2017

6. Rapoport's Rule is a Local Phenomenon and Cannot Explain Latitudinal Gradients in Species Diversity. 2018

7. Berry. Article on Acculturation in the discourse of immigrants and receiving community members results from across –national study. 2010.

## HACI ZEYNALABDİN TAĞIYEVİN SAHİBKARLIQ FƏALİYYƏTİNİN İLKİN DÖVRÜNƏ DAİR

**Hacıyeva Nərgiz Maarif**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**https://orcid.org/0000-0003-2360-4547**
**nargizhac4@gmail.com**

## ON THE INITIAL PERIOD OF HAJI ZEYNALABDIN TAGHIYEV'S ENTREPRENEURIAL ACTIVITY

**Hajiyeva Nargiz Maarif**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**https://orcid.org/0000-0003-2360-4547**
**nargizhac4@gmail.com**

### Summary

One of the most important events in the history of Azerbaijan at the end of the 19th century and the beginning of the 20th century was the formation of the national bourgeoisie. Haji Zeynalabdin Taghiyev stands out among the bright personalities who stood at the beginning of this historical process. This great personality, who challenged the colonial content of the Azerbaijani economy, turned it from a supplier of raw materials into a productive force, worked in many areas of the economy and played a major role in their development. The article entitled "About the initial period of the entrepreneurial activity of Haji Zeynalabdin Taghiyev" talks about the initial period of the great entrepreneur's activity against the background of changes in the economic life of Azerbaijan at the end of the 19th century. The opinions of famous people of that time about his entrepreneurial ability are also included here. The relevance of the study of the first period of entrepreneurial activity of Haji Zeynalabdin Taghiyev is substantiated in the article. His activity in the oil industry was widely covered, his participation in the events taking place in the country, and it was noted that he was one of the founders of national industrial entrepreneurship.

**Keywords:** bourgeois reforms, entrepreneurs, oil industry, H.Z. Taghiyev, D.I. Mendeleev.

## О НАЧАЛЬНОМ ПЕРИОДЕ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ ГАДЖИ ЗЕЙНАЛАБДИНА ТАГИЕВА

**Гаджиева Наргиз Маариф**
**Институт истории имени Аббасгулу Аги Бакиханова**
**https://orcid.org/0000-0003-2360-4547**
**nargizhac4@gmail.com**

## Резюме

Одним из важнейших событий в истории Азербайджана конца 19-го и начала 20-го века было формирование национальной буржуазии. Среди ярких личностей, стоявших у истоков этого исторического процесса, выделяется Гаджи Зейналабдин Тагиев. Эта великая личность, бросившая вызов колониальному содержанию азербайджанской экономики и превратившая ее из поставщика сырья в производительную силу, работала во многих сферах экономики и сыграла большую роль в их развитии. Этот великий предприниматель, предвидевший события и правильно их оценивавший, добился больших успехов благодаря своему высокому интеллекту, аналитическому мышлению, трудолюбию, терпению и воле. В статье под названием «О начальном периоде предпринимательской деятельности Гаджи Зейналабдина Тагиева» рассказывается о начальном периоде деятельности великого предпринимателя на фоне изменений в экономической жизни Азербайджана в конце XIX века. Сюда же включены мнения известных людей того времени о его предпринимательских способностях. В статье обоснована актуальность изучения начального периода предпринимательской деятельности Гаджи Зейналабдина Тагиева. Широко освещалась его деятельность в нефтяной отрасли, упоминалось его участие в событиях, происходящих в стране, как одного из основоположников национального промышленного предпринимательства.

**Ключевые слова:** буржуазные реформы, предприниматели, нефтяная промышленность, Г.З. Тагиев, Д.И. Менделеев

XIX əsrin 60-70-ci illərində çar hökuməti ölkənin sosial-iqtisadi inkişafının tələblərini nəzərə alaraq, bir sıra dəyişikliklər həyata keçirdi ki, bu da öz növbəsində məhsuldar qüvvələrin inkişafına əlverişli şərait yaratdı və yeni istehsal münasibətlərinin inkişafına yol açdı, ictimai-iqtisadi həyat səhnəsinə sahibkarlar və muzdlu işçilər kimi yeni zümrələr çıxdı. Əlbəttə ki, bu zümrələrin lazımi təhsili, sənaye vərdişləri və kapitalı yox idi. Hətta onların sərbəst inkişafı yolunda süni maneələr belə yaradılırdı. Bu cür hallar xüsusən də azərbaycanlı sahibkarlara qarşı daha çox təzahür edirdi. Belə bir çətin şəraitdə yaranmış sahibkarlığın inkişafında bir sıra istedadlı iş adamlarının xüsusi rolu olmuşdur. Bunlardan biri və bizim fikrimizcə ən önəmlisi Hacı Zeynalabdin Tağıyev olmuşdu.

Azərbaycanda sahibkarlığın inkişafında Hacı Zeynalabdin Tağıyevin rolunu tədqiq edərkən onun bu sahədəki fəaliyyətinin ilkin dövrünün araşdırılması da xüsusilə önəm daşıyır. Çünki sadə zəhmətkeş ailədə anadan olan bir şəxsin öz sahibkarlıq fəaliyyətinə xırda manufaktura məhsulları alveri ilə başlayıb, qısa müddətdən sonra böyük uğurlar qazanaraq dövrünün ən iri sahibkarına çevrilməsinin öyrənilməsində məhz onun sahibkarlıq fəaliyyətinin ilkin dövrünün araşdırılması olduqca böyük önəmə malikdir.

1916-cı ilə aid arxiv sənədlərinin birində rast gəlinən H.Z.Tağıyevin xidmət siyahısına nəzər saldıqda da heç bir təhsil almamış, lakin dərin zəkaya, fitri istedada malik bu şəxsin nə qədər geniş sahibkarlıq qabiliyyətləri ilə seçildiyi aydın şəkildə görünür (Azərbaycan Respublikası Dövlət Tarix Arxivi). Məhz bu səbəbdən mövzunun öyrənilməsi bir tərəfdən Azərbaycanda sahibkarlıq ənənələrinin təşəkkül tapıb inkişaf etməsini, digər tərəfdən isə kapitalist sənayesinin genişlənməsini öyrənmək baxımından da böyük əhəmiyyətə malikdir. Eyni zamanda 1991-ci ildə müstəqilliyini bərpa etmiş Azərbaycandakı iqtisadi münasibətlərdə baş verən dəyişikliklər ilə XIX əsrin sonlarında yaranmaqda olan yeni iqtisadi münasibətlər arasındakı oxşarlıqlar da problemin araşdırılmasını zəruri edir. Çünki indiki dövrdə Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsində hansı

üsul və yollardan istifadə edilməsinin daha məqsədəuyğun olmasını dahi şəxsiyyət Hacı Zeynalabdin Tağıyevdən də öyrənmək daha münasib olardı.

Mövzunun öyrənilməsi üçün H.Z.Tağıyevin həyat və fəaliyyətindən bəhs edən əsərlərə xüsusi diqqət yetirmək lazımdır. Bu cəhətdən M.Ə.İsmaylovun 1994-cü ildə nəşr edilmiş "El atası" əsəri, M.C. İbrahimovun isə 1990-cı ildə dərc edilmiş "H.Z. Tağıyevin sahibkarlıq fəaliyyəti" adlı əsəri qeyd edilməlidir. Bu əsərlərdə dahi şəxsiyyətin Azərbaycanda iqtisadiyyatın inkişafındakı rolundan geniş şəkildə bəhs olunur. Həmçinin Ə.Mehdiyevin 2000-ci ildə nəşr edilmiş "Azərbaycan neft sənayesi XIX yüz ilin son rübündə" əsərində və D.Seyidzadənin 1998-ci ildə çapdan çıxmış "Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar" adlı əsərində sahibkarın fəaliyyətinin ilkin dövrünə dair məlumatlara rast gəlinir.

XIX əsrin 60-cı illərində H.Z.Tağıyev neft məhsulları ticarəti ilə məşğul olan tacirlər arasında çox mühüm yer tutan şəxslərdən biri idi. Bunu o dövrdə Bakıda olmuş D.İ.Mendeleyevin 1863-cü ildəki qeydlərindən də görmək olur. O, yerli sahibkarlar haqqında danışarkən yazırdı ki, yerli ticarət və sənayenin həyatında birinci yeri Kokorevdən sonra dövlət tədbirləri və Bakıda Burmeyster, Hacı Tağıyev, Lens və L.E.Nobel kimi xadimlərin səyləri tutur (Süleymanov M, 1996).

D.İ.Mendeleyev daha sonra yazırdı: "Bakı neft işinin mühüm yerli hərəkətvericisi.. Hacı Tağıyev sayılmalıdır. O, həmişə bütün işlərini elə ehtiyatla aparmışdır ki, Bakıda olmuş bir çox böhranlara sakitcə davam gətirmiş və cüzi vəsaitlə, lakin bütün əməliyyatlara ağıllı münasibət bəsləməklə, neft işinin sürətlə vəsait yığımına necə xidmət etməsinə aydın nümunə olmaqdan qalmamışdır" (İsmayılov, 1994).

1907-ci ildə isə müfəttiş N.Boyanovski öz hesabatında yazırdı: "...keçmiş fəhlə, hazırda isə həqiqi mülki müşavir H.Z.Tağıyev indi birinci kapitalistdir və onun mülkiyyətinin dəyəri 16 mln. rubla bərabərdi" (Mehdiyev, 2000).

H.Z.Tağıyevin sahibkarlıq fəaliyyətinin genişlənməsində 60-70-ci illərin burjua islahatlarının, xüsusən də neft sənayesindəki iltizam sisteminin ləğv edilməsinin rolu olmuşdu. Belə ki, o, 1872-ci ildə keçirilmiş ilk hərracda neftli torpaq sahəsi əldə edərək quyu qazdırmış və "H.Z.Tağıyev" adlı neftçıxarma müəssisəsini yaratmışdı (İsmayılov və İbrahimov, 1991). 70-ci illərin sonunda H.Z.Tağıyev artıq 3 neftayırma zavodunun sahibi idi (Musayev, 1972). 1877-ci ildə o, ikinci gildiya taciri rütbəsi, 1882-ci ildə isə birinci gildiya taciri rütbəsi almışdı (AXC Ensiklopediyası, 2005).

1886-ci ildə "H.Z.Tağıyev" şəxsi ticarət evini təşkil etmişdi. Bu şirkətin Bibi-Heybət və Balaxanıda 30 hektar neftli torpaq sahəsi, neft məhsullarının daşınması üçün iki şkanası, Tsaritsın, Nijni Novqorod və Moskvada anbarları, ağ neft və sürtkü yağları istehsal edən zavodları var idi. 1885-ci ildə müəssisə 7 milyon pud neft, 2 milyon pud ağ neft istehsal etmişdi (Нардова, 1964). H.Z.Tağıyevin zavodları avadanlıqlarla da yaxşı təchiz olunmuşdu. Bu cəhətdən aşağıdakı nümunəni vermək kifayətdir. Neft emalı müəssisələrinin üzləşdiyi kəskin problemlərdən biri zavodlarda soyuducuların quraşdırılması idi. O zaman mövcud olan serpantin tipli soyuducularda qaz sürtünməsi və qatılaşmış qalıqlarla tıxanma meydana gəlirdi. Bakıda ilk dəfə olaraq H.Z.Tağıyevin zavodunda qutu tipli soyuducudan istifadə olunurdu. Sadə qurğu olduğuna görə bu soyuduculardan tezliklə digər Bakı zavodlarında da geniş istifadə edilməyə başlandı (Ибрагимов,

1990). Artıq 1887-ci ildə 10 milyondan çox pud neft əldə edən ticarət evinin ümumi hasilatdakı çəkisi 6,4% idi (Гулишамбаров, 1890). 1896-c ildə H.Z.Tağıyevin firmasının neft hasilatı ən yüksək göstərici ilə (32 milyon pud) "Nobel qardaşları" şirkətini belə (28 milyon pud) geridə qoymuşdu (Nuriyeva, 1999).

H.Z.Tağıyevin zavodları istehsal etdiyi neft məhsullarının keyfiyyətinə görə də digərlərindən üstün idi. Belə ki, 1882-ci ildə Moskvada keçirilən sənaye sərgisində onun şirkəti ağ neftin keyfiyyət göstəricisinə görə bürünc medalla təltif olunmuşdu (Сумбатзаде, 1964).

H.Z.Tağıyevin öz fəaliyyətinin ilkin dövrlərində həm də ölkənin müxtəlif sənaye sahələrində baş verən çətinliklərdən çıxış yolları axtarmış, hətta bu barədə hökumətə təkliflərini də vermişdi. Bu cəhətdən onun 1886-cı ildə "Rus Texniki Cəmiyyəti"nin Bakı şöbəsinin iclasında "Neft sənayesindəki böhrandan necə çıxmaq olar" adlı məruzəsini qeyd etmək olar (Həsənov, 2018). O, həmçinin həmin dövrdə yaradılan "Bakı Standartı", "Bakı Ağ Neft Zavod Sahibləri İttifaqı" kimi bir çox təşkilat və birliklərin fəaliyyətində də yaxından iştirak etmişdi (Seyidzadə, 1998). Belə ki, XIX əsrin 80-ci illərinin sonu 90-cı illərinin əvvəllərində Azərbaycan neft sənayesində "Nobel qardaşları" şirkətinin və Rotşildin "Xəzər-Qara dəniz cəmiyyəti"nin ətrafında cəmləşmiş əsas kapital qrupları formalaşmışdı və H.Z.Tağıyev yerli sahibkarların təşkilatlarını onlara qarşı qoymağa cəhd göstərirdi. Məhz bu məqsədlə də o, yerli neft sahibkarlarının təşkilatlanmasına çalışırdı (Пажитнов, 1940).

Şimali Azərbaycanda milli sənaye sahibkarlığının təməlini qoyanlardan biri kimi H.Z.Tağıyev o dövrdə ölkədə baş verən bütün mühüm hadisə və proseslərdə yaxından iştirak etmiş, gələcək sahibkarlara örnək olan bir həyat yolu keçmişdir. Onun sahibkarlıq fəaliyyətini xarekterizə edərkən xüsusilə qeyd etmək lazımdır ki, bu fəaliyyət Azərbaycan iqtisadiyyatının bütün sahələrinə müsbət təsir göstərmiş, onun inkişafında müstəsna rol oynamışdır. Mövzunun praktiki əhəmiyyəti isə ondan ibarətdir ki, hələ sağlığında "millətin atası" adını almış, xeyriyyə işləri Azərbaycanın hüdudlarından kənarda belə şöhrət qazanmış bu insanın iqtisadi fəaliyyətinin öyrənilməsi indiki dövrdə azərbaycanlı sahibkarlara öz fəaliyyətlərini düzgün istiqamətə yönəltməyə kömək edə, onlara gözəl nümunə ola bilərdi. Məhz bu səbəbdən də mövzunun nəinki tarix dərsliklərinə, eləcə də iqtisadiyyata dair ədəbiyyat və dərsliklərə də daxil edilməsi məqsədəuyğun olardı.

**Ədəbiyyat:**


1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: [2 clddə]. Bakı: Lider Nəşriyyat, c. 2. - 2005. – 472 s.
2. Həsənov, M.Q. Nobellər neft, milyonçular və qoçular şəhərində / M.Q.Həsənov. - Bakı: Teas Press Nəşriyyat evi, - 2018. – 168 s.
3. İsmayılov, M.Ə. El atası / M.Ə.İsmayılov. - Bakı: Azərnəşr, -1994. – 124 s.
4. İsmayılov, M.Ə. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi / M.Ə.İsmayılov, M.C.İbrahimov. - Bakı: Elm, - 1991. – 282 s.
5. Lifli maddələr emalı üzrə Qafqaz səhmdar cəmiyyəti idarəsinin sənaye müəssisələri kontoru və H.Z.Tağıyevin sənaye müəssisələri // Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, Fond № 372, siyahı № 1, iş № 166, vərəq – 30.

6. Mehdiyev, Ə.B. Azərbaycan neft sənayesi XIX yüz ilin son rübündə / Ə.B.Mehdiyev. - Bakı: Altay, - 2000. – 128 s.
7. Musayev, M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti / M.Ə.Musayev. – Bakı: Elm, - 1972. – 195 s.
8. Nuriyeva, Z.N. Azərbaycan sənayesində milli burjuaziya / Z.N.Nuriyeva. – Bakı: Altay, - 1999. – 108s.
9. Seyidzadə D.B. Azərbaycan XX əsrin əvvəllərində: müstəqilliyə aparan yollar / D.B.Seyid-zadə. - Bakı: Ulduz, - 1998. – 348 s.
10. Süleymanov, M. Azərbaycan milyonçuları: Hacı Zeynalabdin Tağıyev / M.Süleymanov. – Bakı: Gənclik, - 1996. – 96 s.
11. Гулишамбаров, С. Обзор фабрик и заводов Бакинской губернии / С. Гулишамбаров. – Тифлис: Типография канцелярия Главноначальствующего гражданскою частью на Кавказе, - 1890. – 278 с.
12. Ибрагимов, М. Дж. Предпринимательская деятельность Г.З. Тагиева / М.Дж. Ибрагимов. - Баку: Элм, - 1990. – 109 с.
13. Нардова, В.А. Начало монополизации бакинской нефтяной промышленности в России / В.А.Нардова. - Ленинград: Наука, - 1964. – 150 с.
14. Пажитнов, К.А. Очерки по истории Бакинской нефтедобывающей промышленности / К.А. Пажитнов. – Москва: Государственное научно-техническое изд-во, - 1940. – 191 с.
15. Сумбатзаде, А.С. Промышленность Азербайджана в XIX в. / А.С. Сумбатзаде. - Баку: Изд.-во Академии Наук АзССР, - 1964. – 500 с.

## KİTABXANA-İNFORMASİYA TEXNOLOGİYALARININ LAYİHƏLƏNDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Ağayeva Nurlana Canpolad**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-4596-9248**
**nurlana.agayeva86@gmail.com**

## SOME ISSUES OF LIBRARY-INFORMATION TECHNOLOGY DESIGN

**Aghayeva Nurlana Janpolad**
**Baku State University**
**https://orcid.org/0000-0003-4596-9248**
**nurlana.agayeva86@gmail.com**

**Summary**

Theoretical issues of designing library-information technologies are of great importance in library work. In the world and in our country, the works carried out in the direction of designing library-information technologies are an important factor in the optimization of library-information activities.

In the 21st century, the trends and dynamics of the development of information technologies and digital content information were discussed, and the role of libraries in this process was explained. In the modern era, the role of

libraries in the formation of a single information platform of education and scientific research was analyzed based on the experiences of the countries of the world. In particular, it was noted that the National Library of Azerbaijan plays a leading role in these processes. In the report, it was particularly emphasized that the Decree of the President of Azerbaijan Ilham Aliyev dated April 20, 2007 "On improving the activities of libraries in Azerbaijan" and the "State Program" approved by the Decree of the head of the country dated October 6, 2008 are of great importance in the report.

Information and communication technologies are widely used in library work as well as in a number of areas of human activity.

**Keywords:** library-information technologies, design, optimization.

## НЕКОТОРЫЕ ВОПРОСЫ ПРОЕКТИРОВАНИЯ БИБЛИОТЕЧНО-ИНФОРМАЦИОННЫХ ТЕХНОЛОГИЙ

**Агаева Нурлана Джанполад**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-4596-9248**
**nurlana.agayeva86@gmail.com**

### Резюме

Теоретические вопросы проектирования библиотечно-информационных технологий имеют большое значение в библиотечной работе. В мире и в нашей стране работы, проводимые в направлении проектирования библиотечно-информационных технологий, являются важным фактором оптимизации библиотечно-информационной деятельности.

В 21 веке были обсуждены тенденции и динамика развития информационных технологий и цифрового контента информации, а также разъяснена роль библиотек в этом процессе. В современную эпоху проанализирована роль библиотек в формировании единой информационной платформы образования и научных исследований на основе опыта стран мира. В частности, было отмечено, что ведущую роль в этих процессах играет Национальная библиотека Азербайджана. В докладе особо подчеркивалось, что Указ Президента Азербайджана Ильхама Алиева от 20 апреля 2007 года «О совершенствовании деятельности библиотек в Азербайджане» и «Государственная программа», утвержденная Указом главы страны от 6 октября 2008 г. имеют большое значение в отчете.

Сегодня большинство библиотек, работающих в нашей стране, используют современные информационные технологии. Информационно-коммуникационные технологии широко используются в библиотечной работе, а также в ряде областей человеческой деятельности.

**Ключевые слова**: библиотечно-информационные технологии, проектирование, оптимизация

İnformasiyalaşmış cəmiyyətdə Azərbaycan kitabxanalarında informasiya xidmətinin texnoloji modelinin tətbiqi son zamanlar geniş vüsət almışdır. (İsmayılov, 2009) Lakin qeyd etmək lazımdır ki, kitabxana-informasiya xidmətinin texnoloji modelinin yaradılması onun layihələşdirilməsi mərhələsindən keçir. (Пилко, 2006). Azərbaycan dövləti kitabxana siyasətinin həyata keçirilməsi üçün kitabxana-informasiya fəaliyyətinin modernləşdirilməsinə lazımi səviyyədə maliyyə vəsaiti ayırır. (Əhmədov, 2022). Hazırda respublikamızda kitabxana-informasiya fəaliyyətinin optimallaşdırılması məqsədilə peşəkar proqramlar, layihələr həyata keçirilməkdədir.

Tədqiqatın obyekti kitabxana-informasiya texnologiyaların layihələndirilməsidir. Müasir kitabxana işini yeni informasiya və kommunikasiya texnologiyaları olmadan təsəvvür etmək bir qədər çətindir. (Xələfov, 2011). İnformasiya və kommunikasiya texnologiyalarının insan fəaliyyətinin bir sıra sahələrində olduğu kimi kitabxana işində də tətbiqi ənənəvi kitabxana proseslərinin

sürətlənməsinə və optimallaşmasına gətirib çıxarır. (Saffady,1999). Kitabxana-informasiya texnologiyalarının layihələndirilməsinin təkamülünə nəzər saldıqda, elektron kitabxanaların əsasən keçən əsrin 70-90-cı illərindən başlayaraq cəmiyyətin sosial sifarişi əsasında yaranmış və cəmiyyətin inkişafına uyğun təkamül yolu keçmişdir. (İsmayılov, 2009). Bu işlər içərisində gələcək tədqiqatlara təkan verən iki tədqiqat işini xüsusi qeyd etmək lazımdır. (Saffady, 1999). Birinci iş Amerika Tədqiqatlar və Layihələr İnstitutunun (U.S, Office of Scientific Research and Development) direktoru olmuş V. Buşun 1945-ci ildə "Atlantic Monthly" jurnalında nəşr etdirdiyi "Biz necə düşünürük" məqaləsidir. (Qurbanov, Kazımi, Quliyev, 2018). Bu məqalədə o, ilk dəfə olaraq elektron kitabxanaların yaradılması ideyasını irəli sürmüş, onun funksiya və vəzifələrini müəyyən etmişdir. İkinci tədqiqat işi isə digər Amerikan alimi, dünyada ilk dəfə açıq şəbəkə konsepsiyasının müəllifi olan Y. Liklayderin "Gələcəkdə kitabxanalar" kitabıdır. (Lerner, 1998)

İlk elektron kitabxana 1971-ci ildə İllinoys Universitetinin hesablama mərkəzində professor Maykl Stern Hartın rəhbərliyi altında yaradılmış "Quttenberq" layihəsi hesab olunur. (Qurbanov və başq., 2018). Cəmiyyətin informasiyalaşdırılmasında mühüm rol oynayan bu kitabxanalar müasir informasiya texnologiyalarına əsaslanaraq yeni-yeni xidmət sahələri təqdim edir. (Xələfov, 2011). Kitabxana fəaliyyətinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidenti tərəfindən 20 aprel 2007-ci il tarixli "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" sərəncamı və 6 oktyabr 2008-ci il tarixli "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" qəbul olunmuşdur. (Əhmədov, 2012). Öz fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının layihələndirilməsi və tətbiqinə ötən əsrin son illərindən başlayan Milli Kitabxana bu gün bu sahədə bir çox nailiyyətlər əldə etmişdir. (İsmayılov, 2009). 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə E-kitabxana layihəsi realizə olundu. (İsmayılova, 2017). ULTRA şirkətinin təşkilatçılığı ilə həyata keçirilən bu layihə -ALİSA (Automated Library System of Azerbaijan) sistemi ən son texnologiyalarının tətbiqi ilə işlənib hazırlanmış veb əsaslı sistemdir. (İsmayılova, 2017).

Bu gün Azərbaycan dövlətinin və Azərbaycan Prezidenti cənab İlham Əliyevin milli-mənəvi sərvətlərimizin mühafizəsinə və təbliğinə, bu missiyanın fəal iştirakçısına çevrilən kitabxanalara diqqəti və qayğısı sahəsində layihələndirmə, modernləşmə işləri uğurla davam etdirilir. (Əhmədov, 2022).

**Ədəbiyyat:**

1. Azərbaycan kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 20 aprel, 2007 // Azərbaycan, 21 aprel

2. Xələfov, Abuzər. (2011) Kitabxana və cəmiyyət. -Bakı: Azərnəşr, 348 s.

3. İsmayılov, Xəlil.(2009) Kitabxana-informasiya texnologiyaları: Dərs vəsaiti. -Bakı: Bakı Dövlət Universiteti, 319 s.

4. Əhmədov, Elçin. (2012) Azərbaycanda kitabxana-informasiya işinin hüquqi bazası: dərs vəsaiti. / Elmi red. A. A. Xələfov; rəy. K. Aslan, N. N. İsmayılova, Bakı: Bakı Universiteti, 215 s.

5. Əhmədov, Elçin. (2022) Dövlətin kitabxana siyasəti. // Respublika,10 mart, s. 5

6. Qurbanov, Azad. (2018) Elektron kitabxanalar: dərs vəsaiti. / P. Kazımi, O. Quliyev; elmi red. A. M. Babayev, Bakı: MTM-İnnovation, 297, [2] s.

7. M. F. Axundov adına Azərbaycan Milli Kitabxanasının "Elektron resursların yaradılması" şöbəsinin 2012-2018-ci illər üzrə hesabatları

8.İsmayılova, Ədibə. (2017) Oxuculara xidmətin əsas istiqamətləri, innovativ yeniliklərin tətbiqi təcrübəsi (Azərbaycan Milli Kitabxanasının təcrübəsi əsasında). / Red. K. Tahirov; rəy. G. Səfərəliyeva, Bakı, 56 s.

9. Пилко, И. С. (2006) Информационные и библиотечные технологии: учебное пособие, СПБ: Профессия, 342 с.

10. Saffady, William. (1999) Introduction to automation for librarians,Chicago: American Library Association, VI, 339 p.

11. Creating a virtual library: a how-to-do-it manual for librarians. (1999). / Edt. F. Stielow, New York: Neal-Schuman, 184 p.

12. Lerner, Frederick. (1998) The story of libraries, New York: Continuum, 246 p.

13. Europe's national libraries: 15 years of joint programmes. (2001). / Edt. W. Drimmelen, Hague: Conference of European National Libraries, 99 p.

# MOBİL JURNALİSTİKANIN TELEVİZİYADA ROLU

**İbrahimov Ramal Ariz**
**Naxçıvan Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-2140-1607**
**ibrahimovramal.rm@gmail.com**

# THE ROLE OF MOBILE JOURNALISM IN TELEVISION

**Ibrahimov Ramal Ariz**
**Nakhchivan State University**
**https://orcid.org/0000-0003-2140-1607**
**ibrahimovramal.rm@gmail.com**

**Summary**

The emergence of mobile devices and the rapid development of the 4th generation has created conditions for further expansion of their sphere of influence. Thanks to these capabilities, smartphones have pushed the process of data acquisition, processing and transmission to become more intensive. It no longer takes hours to send the images taken at the time of the incident, the audio or video report received from the witnesses to the editorial office. It is possible to provide the media with the latest information from the scene within minutes. In addition, the small size of mobile devices saves people from the worry of speaking for television. As a result, journalists are able to communicate better with interviewees who express their opinions without excitement and with ease. There are also unique opportunities for viewers. A viewer can easily send any newsworthy event he witnessed to the editorial office. This also encourages the improvement of audience-based content and, consequently, the development of citizen journalism. In general, mobile journalism has become the future of media, focusing on solving issues such as time wastage, expensive equipment, more staff capacity and media development. It is the responsibility of every country to be ready for the changing media of the changing world.

**Keywords:** mobile journalism, media, television, teleradio, mobile devices.

## РОЛЬ МОБИЛЬНОЙ ЖУРНАЛИСТИКИ НА ТЕЛЕВИДЕНИИ

**Ибрагимов Рамал Ариз**
**Нахчыванский Государственный Университет**
**https://orcid.org/0000-0003-2140-1607**
**ibrahimovramal.rm@gmail.com**

### Резюме

Появление мобильных устройств и бурное развитие 4-го поколения создали условия для дальнейшего расширения сферы их влияния. Благодаря этим возможностям смартфоны сделали процесс сбора, обработки и передачи данных более интенсивным. Теперь не нужно часами отправлять в редакцию снимки, сделанные в момент происшествия, аудио- или видеоотчет, полученный от свидетелей. В течение нескольких минут можно предоставить средствам массовой информации самую свежую информацию с места происшествия. Кроме того, небольшой размер мобильных устройств избавляет людей от беспокойства по поводу выступлений по телевидению. В результате журналисты могут лучше общаться с интервьюируемыми, которые без волнения и с легкостью выражают свое мнение. Есть и уникальные возможности для зрителей. Зритель может легко отправить в редакцию любое значимое событие, свидетелем которого он был. Это также способствует улучшению контента для аудитории и, следовательно, развитию гражданской журналистики. В целом мобильная журналистика стала будущим СМИ, сосредоточив внимание на решении таких проблем, как трата времени, дорогое оборудование, увеличение штата сотрудников и развитие СМИ. Ответственность каждой страны заключается в том, чтобы быть готовым к меняющимся средствам массовой информации меняющегося мира.

**Ключевые слова:** мобильная журналистика, СМИ, телевидение, телерадио, мобильные устройства.

Naqilsiz kommunikasiyanın inkişafı qlobal səviyyədə informasiya mübadiləsinin sürətlənməsinə təkan verdi. Radionun yaradıcısı hesab olunan Qulyermo Markoni 1895-ci ildə radio dalğasını 2.5 km, 5 il sonra, yəni 1900-cü ildə isə 300 km məsafəyə ötürə bilmişdi (Gruber, 2005). İkinci Dünya müharibəsindən sonra bu istiqamətdə araşdırmaların artırılması nəticəsində radio yayımının mənzili və ötürülmə keyfiyyəti inkişaf etdirilmiş və bunun da fonunda mobil cihazlar, informasiya mübadilə şəbəkələri meydana çıxaraq yeni xidmət sahəsini ortaya çıxarmışdı (Freeman & Soete, 2003). Ötən əsrdən başlayaraq sürətlə təkmilləşən mobil qurğular 4G texnologiyasının da sayəsində sürətlə müxtəlif sektorlara inteqrasiya edərək, informasiya mübadiləsi prosesinin sürətləndirilməsində iştirak etməyə başladı. Nəticədə, mobil medianı formalaşdıran və vizuallığın əhəmiyyətini daha da qabardan mobil jurnalistika meydana çıxaraq izləyicilərə unikal imkanlar yaratmaq şansı əldə etdi. Bu imkanlar barədə mütəxəssislər müxtəlif yanaşmalar müəyyənləşdirsə də, Aguado və Martinez 5 əsas xarakteristik xüsusiyyəti sıralayırlar: Görüntü əsaslılıq, zaman itkisini azaltmağa meyillilik, bölgüləndirmə prinsipi, vizual sadəlik, istifadəçi rahatlığı (Aguado & Martinez, 2008). Bununla yanaşı, mobil jurnalistikanın əhatə dairəsi həlledici faktor kimi çıxış edir. İnsanlara hər yerdə informasiya əldə etmək imkanı verən mobil jurnalistika onlara məlumat mübadiləsində sərhədləri aşmağa, yeni çərçivələr müəyyənləşdirməyə və formalaşdırmağa təkan verib. “Newsweek” və “Washington Post”un multimedia redaktoru Çet Rodesin dediyi kimi, insanların daima onlarla birlikdə olacaq hər hansı məlumatı istədikləri vaxt açıb yenidən oxuya və ya izləyə bilmələri dövrümüzün ən böyük azadlığı mənasına gəlir (Wenger & Potter, 2008). Məhz

bu azadlıq teleradionun da mobil jurnalistikaya inteqrasiya etməsinə təkan verir. Bu mənada, Röyters İnformasiya Agentliyi və Nokia şirkəti arasındakı əməkdaşlıq buna əyani nümunədir. İşbirliyi nəticəsində, media qurumunun əməkdaşlarına Nokia N95 ağıllı telefonu, tripod, kompakt naqilsiz klaviatura, günəş enerjisi ilə enerji toplaya bilən adapter və bir mikrofon olan çanta verilmişdi. Təlimlərdən sonra müxbirlərdən reportajlarını bu üsulla hazırlamaları istənilmişdi (Kiss J, 2007). Məhz dünyanın yeni media texnologiyasına inteqrasiya nəticəsində mobil jurnalistika və mobil jurnalist anlayışı ortaya çıxdı. Bu sözlər ingiliscə "mobile journalism" və "mobile journalist" mənalarını ehtiva etdiyindən hər iki söz üçün qısa abrivatura müəyyənləşdirildi: MOJO. Buna uyğun ən unikal tərifi isə Stefen Kuin (Stephen Quinn) verib: *"Əksərən, Mojo olaraq qısaldılan mobil jurnalist xəbəri toplayarkən və göndərərkən sadəcə mobil telefondan istifadə edir. Bu xəbər yazı, səs, foto-şəkil, video və ya bunların birləşməsindən də ibarət ola bilər"* (Quinn, 2009). Mobil jurnalistikanın televiziya sistemində sürətlə yayılması və əhatə dairəsinin genişlənməsi təsadüfi deyil. Bunun üçün bir sıra faktorlar təkanverici rol oynayıb. İlk növbədə vurğulamaq lazımdır ki, mobil cihazlar ani baş verən hadisələr zamanı informasiyaların sürətlə ötürülməsində effektiv istirak edir. 2011-ci ilin 12 martında Yaponiyada baş vermiş zəlzələni işıqlandıran NTV kanalının təcrübəsi bu mənada xüsusilə diqqətəlayiqdir. Kanalın müxbiri Hüseyn Yılmaz həmin anları belə xatırlayırdı: *"Zəlzələ əsnasında internetlə bağlı çox ciddi problemlərimiz var idi, amma mobil telefon və 3G sistemi işlək vəziyyətdə idi. Dolayısilə, təqribən 2-3 saatlıq bir işi 10 dəqiqədə həll etdik, həm də xəbər mərkəzinə zəlzələdən 10-15 dəqiqə sonra görüntülər göndərə bildik. Qısa kliplər halında olsa da, oradan mobil telefonla reportaj və görüntülər çəkib mərkəzə göndərə bilirdik"* (Ünal, 2012). İkinci faktor xəbərin birbaşa və anlıq ötürülməsidir. Yəni, hadisə yerindən məlumatları əldə etməklə yanaşı, canlı yayım imkanları da mobil cihazlar üçün əlverişlidir. Amerikalı televiziya müxbiri Ceremi Jojola 2009-cu ilin 20 avqustunda ayfon (iPhone) və Oik proqramından istifadə etməklə, canlı xəbər yayımına nail olmuşdu (Quinn, 2009). Hazırda, proqramlarla yanaşı, teleyayım cihazı olan və kameralara qoşulan "Live-U" aparatını da mobil qurğulara qoşmaq mümkündür. Üçüncüsü, mobil cihazları teleradio üçün faydalı hala gətirən bir amil də sərfəlilikdir. Elə buna görə də, Harqrivs yeni kommunikasiya texnologiyalarının xəbər istehsalı və yayımını daha da ucuzlaşdığını, sadələşdirildiyini vurğulayaraq hər kəsin jurnalist fəaliyyətinə ortaq ola biləcəyini deyirdi (Hargreaves, 2006). Dördüncü faktor mobil jurnalistikanın hamı üçün olmaq, hamıya aid və hamıya bağlı olmaq məsələsidir. Mobil jurnalistika teleradio üçün ancaq jurnalistlərin və media qurumunun fəaliyyəti baxımından deyil, həm də izləyici və dinləyicinin diqqətini cəlb etmək baxımından xüsusi əhəmiyyət kəsb edir. Mobilliyə meyl edən media qurumları izləyici sayını ciddi dərəcədə yüksəltməyə nail olur. Təkcə Körfəz müharibəsində Səddam Hüseynin Küveyti işğal etdiyi (1990) ərəfədə CNN media qurumunun izləyici sayı bir milyondan aşağı idi. Bir il sonra Bağdadın hava hücumlarına məruz qaldığı zamanlarda yayımlar edən kanal izləyici sayını 7 dəfədən də çox artırmağa müvəffəq olaraq, 7 milyona çatdırmışdı (Briggs & Burke, 2004). Beşinci faktor da elə burdan doğur. İzləyiciyə hesablanan mobil jurnalistika izləyicini də jurnalist kimi düşünməyə və davranmağa vadar edərək vətəndaş jurnalistikasını inkişaf etdirir. Yəni, jurnalistlərin hər an hadisə yerində ola bilməsi baxımından, mobil cihazlar izləyici əsaslı kontentin də mediada ortaya çıxmasına şərait yaradır (Quinn, 2009). Hətta CNN-in 2006-cı ildə istifadəyə

buraxdığı “iReport” xidməti də izləyicilərin əldə etdiyi xəbər dəyəri olan məlumatları göndərməsi üçün müstəsna rola malik idi (Stewart, 2009). Vurğulanan imkanları nəzərə alsaq, media fəaliyyətinin optimallaşdırılmasında mobil jurnalistikanın əhəmiyyətini aydın sezə bilərik. Bu ardıcıl inkişaf sayəsində medianın bütün qollarına sızan və informasiya mübadiləsi prosesində həlledici rol oynayan mobil jurnalistikanın rolunun qarşıdakı illərdə daha da artacağı gözlənilir. Artıq kasetlərə və ya yaddaş kartlarına videoları yazmaq və onu redaksiyaya gətirib sonra məhsulu hazırlamaq köhnəlmiş metod sayılır. Mobil cihazlar məlumatın anındaca ötürülməsinə şərait yaradır. Potter bu mənada mobil telefonların xəbərçilikdə kompüterlərin 20-30 il əvvəl səbəb olduğundan daha böyük və köklü dəyişikliyə səbəb olacağını vurğulayır (Ünal, 2012). Artıq xüsusi əhəmiyyət kəsb edən siyasi-iqtisadi məsələlərin, görüşlərin (Davos 2008) işıqlandirilməsında da istifadə olunan mobil jurnalistika dünya ölkələrini də yeni tendensiyaya meyl etməyə sövq edir. Bu baxımdan yeni kommunikasiya texnologiyalarının siyasi həyata da ciddi təsirinin yüksək olduğunu nəzərə alsaq, ölkələr yeni dövrün yeni tələbləri ilə hesablaşmağa məcburdur. Bunu hələ 1994-cü ildə Walter B. Wriston bildirmişdi: *“Müasir xəbər texnologiyası siyasi sahədə o qədər güclüdür ki, onu mənimsəyən seçilmişlər tanınmayacaq qədər dəyişəcəklər. Amma onu kəskin şəkildə rədd edənlər ölkələrini ikinci sinif statusuna, hətta daha da pis vəziyyətə sürükləyə bilər”* (Walter B. Wriston, 1994). Bu da medianın gələcəyinin mobilliyə bağlı olduğunu və mobillikdən kənar inkişaf xəttinin olmadığını bir daha sübut edir.

Sürətli texnoloji inkişaf dövrün simasını dəyişməklə, onun tələbatlarının da yenidən formalaşmasına təsir edir. Hazırkı dünya tamaşaçısı ötən əsrin tamaşaçısından çox fərqlənir. Mobil qurğuların da təkmilləşdiyi bu dövrdə artıq sürətli və canlı görüntü əldə etmək əsas prioritet hesab olunur. İzləyicinin də bu tələbatını ödəmək mobil xəbərin üstünlüyü sayılır. Şəhərlərarası səyahət edən və televiziya xəbərlərini izləməyən biri informasiya aclığının qarşısını necə ala bilər? Bu əsnada mobil telefon SMS və ya görüntü xidməti ilə unikal həll rolunu oynayır (Ünal, 2012). Yeni dövrün tələbləri və mobil cihazların artan funksionallığı çərçivəsində, kütləvi informasiya vasitələrinin, xüsusilə də, televiziya və radionun fəaliyyətini davam etdirməsi üçün mobilliyə müraciət etməsi zəruridir. Telekanalların sosial şəbəkə kanalları və oradakı aktiv fəaliyyəti, bununla yanaşı, izləyicilərin həmin məlumatlara telefonla daha çox əldə etməsi buna əyani sübutdur. “Digital new report – 2022”yə nəzər salsaq görərik ki, dünya ölkələrində xəbəri smartfonlardan əldə edənlərin sayı 55-80% aralığında dəyişir, sosial medianı xəbər mənbəyi kimi görənlərin sayı isə 30-70% intervalında dövr edir (Digital news report – 2022). Ona görə də, teleradionun yeni çağırışlara cavab verərək inkişaf etməsi bütün media qolları üçün örnək olmalıdır.

**Ədəbiyyat**:

1. Gruber H. (2005). The economics of mobile telecommunications. New York. Cambridge University Press. p. 10.

2. Freeman C. & Soete L. (2004) Yenilik iktisadı. (çeviri: Ergun Türkcan) Ankara. Tubitak yayınları. s. 195

3. Aguado J.M. & Martinez I.J. (2008). Massmediatizing mobile phones: content development, professional convergence and consumption practices (D. Caspi & T. Azran, New media and innovative technologies: industry and society. (p. 220-221)). Israel. Ben Gurion University.

4. Wenger D.H. & Potter D. (2008). Advancing the story, broadcast journalism in a multimedia world. Washington: CQ Press. p. 305

5. Kiss J. (2007) Reuters' 'mojo' experiments with Nokia. https://www.theguardian.com/media/pda/2007/oct/23/reutersmojoexperimentswith, Guardian. 23.10.2007

6. Quinn S. (2009). Mojo – mobile journalism in asian region. Singapur: Konrad Adenauer Stiftung. p. 10

7. Ünal R. (2012). Mobil video haber servisleri. İzmir: Anahtar kitap yayınları. s. 69

8. Quinn S. (2009). Mojo – mobile journalism in asian region. Singapur: Konrad Adenauer Stiftung. p. 7-17

9. Hargreaves I. (2006). "Gazetecilik" (çeviri: Yeliz Özkan). Ankara. Dost Kitabevi Yayınları. s. 170

10. Briggs A. & Burke P. (2004). Medyanın toplumsal tarihi. (Çeviri: İbrahim Şener). İstanbul: İzdüşüm Yayınları. s. 339

11. Quinn S. (2009). Mojo – mobile journalism in asian region. Singapur: Konrad Adenauer Stiftung. p. 9

12. Stewart D. (2009). Case study: making television news in the digital age. (G. Creeber & R. Martin. Digital cultures understanding new media (p. 59)) Berkshire: McGraw-Hill.

13. Ünal R. (2012). Mobil video haber servisleri. İzmir: Anahtar kitap yayınları. s. 68

14. Wriston W. B. (1994). Ulusal egemenliğin sonu, teknoloji devrimi nasıl bir dünya düzeni yaratıyor? (Çeviri: Mehmet Harmancı). İstanbul: Cep Kitapları. s. 113

15. Ünal R. (2012). Mobil video haber servisleri. (TRT mobil haber muhabiri Mehmet Sezenle konuşmasından) İzmir: Anahtar kitap yayınları. s. 88

16. Oxford: Reuters Institute For The Study Of Journalism, Digital news report, link: https://reutersinstitute.politics.ox.ac.uk/search-content

## AXC-NİN MALİYYƏ SAHƏSİNDƏ İLK ADDIMLARI

**Seyidov Rəşad Fikrət**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**https://orcid.org/0000-0002-5922-6173**
**resadseyidov007@gmail.com**

## AKP'S FIRST STEPS IN THE FINANCIAL AREA

**Seyidov Rashad Fikret**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**https://orcid.org/0000-0002-5922-6173**
**resadseyidov007@gmail.com**

## Summary

After declaring its independence, the Azerbaijan Democratic Republic took a number of steps to put its financial situation in order. When the Azerbaijan Democratic Republic was established, economic relations were broken, and the financial system was in a state of disrepair. The government of the Republic started working from the first day to circulate the national currency, which is the most important issue for regulating the financial system. For this purpose, the Ottoman state was appealed for help. A delegation was sent to the Ottoman state and a large amount of lira was borrowed from the Ottoman state until the local currency was put into circulation. At the same time, the Ottoman state helped the brother Republic of Azerbaijan in the direction of issuing local money and securities and sent experts to regulate financial issues.


**Keywords:** Finance, money, credit, bon.

## ПЕРВЫЕ ШАГИ АНР В ФИНАНСОВОЙ ОБЛАСТИ


**Сеидов Рашад Фикрет**

**Институт истории имени Аббасгулу Аги Бакиханова**

**https://orcid.org/0000-0002-5922-6173**

**resadseyidov007@gmail.com**



## Резюме

После провозглашения независимости Азербайджанская Демократическая Республика предприняла ряд шагов для приведения в порядок своего финансового положения. Когда была создана Азербайджанская Демократическая Республика, экономические отношения были нарушены, а финансовая система находилась в аварийном состоянии. Правительство республики с первого дня приступило к работе по обращению национальной валюты, что является важнейшим вопросом регулирования финансовой системы. В Османское государство была отправлена делегация, и у Османского государства было взято взаймы большое количество лир, пока местная валюта не была введена в обращение. В то же время Османское государство помогало братской Азербайджанской Республике в деле выпуска местных денег и ценных бумаг и присылало специалистов для регулирования финансовых вопросов.


**Ключевые слова:** Финансы, деньги, кредит, бон.

Azərbaycan Xalq Cümhuriyyəti elan olunduqdan sonra qarşıda duran ən önəmli məsələlərdən biri də maliyyə, pul-kredit sistemini nizama salmaq idi. Həmin illərdə birinci dünya müharibəsinin təsirindən dünyanın bir çox yerlərində olduğu kimi Azərbaycanda da iqtisadiyyat dağılmış maliyyə, pul-kredit sistemi iflasa uğramışdı. Yeni yaranmış bir dövlət üçün bu sistemi tənzimləmək hər nə qədər çətin olsa da AXC qurucuları başa düşürdülər ki,” milli və siyasi istiqlalın kökü iqtisadi istiqlaldı” (1, səh. 53. Paytaxtın düşmən qüvvələrinin əlində olması vəziyyəti bir qədər də qəlizləşdirsə də ümumilikdə AXC hökumətinin bu istiqamətdə fəaliyyətini müsbət dəyərləndirmək olar. AXC-nin maliyyə, pul-kredit sisteminin əsas mahiyyəti dövlət gəlirlərinin artırılmasını təmin etməklə bərabər xərclərin azaldılması və dövlətin maliyyə sistemini qaydaya salmaqdan ibarət olmuşdu. Qeyd olunan dövrdə Cənubi Qafqazın maliyyə vəziyyəti olduqca ağır idi. İnfilyasiyanın qarşısını almaq üçün heç bir tədbir görülmürdü. Xüsusilə bölgədə pul qıtlığı yaşanırdı. Azərbaycan Xalq Cümhuriyyəti elan olunanda Azərbaycanda aşağıdakı pul vahidlərindən istifadə edilirdi:

1. Çar hökuməti tərəfindən buraxılan rubllar. Bunlar “Nikalayevski” adlanırdı. Bu pulların alıcılıq qabiliyyəti və dövriyyəsi digər pullara nəzərən yüksək idi.

2. Müvəqqəti hökumət tərəfindən buraxılan pullar. Bunlar “Kerenka” adlanırdı. Bu pullar 1917-ci ildə 20 və 40 rubl dəyərində buraxılmış kağız pullar idi. Bu pullar “Nikalayevski” pullarını əvəz etmək üçün buraxılmışdı. Lakin “Nikolayevski” rublları hələ uzun müddət dövriyyədə qaldı.

3. Tiflisdə buraxılmış Zaqafqaziya bonları. Bu pullar Azərbaycan, Gürcüstan və Ermənistan arasında razılıq nəticəsində buraxılmışdı.

Müstəqil valyuta yaradılana qədər maliyyə məsələsini sabit saxlamaq üçün Cümhuriyyətin əsas ümidi Osmanlı dövləti idi. Hökumətin əlində müstəqil valyuta buraxmaq üçün demək olar ki heç bir imkan yox idi. Əvvəla ona görə ki paytaxt hələ düşmən qüvvələrinin əlində idi, İkincisi hökumətin əlində pul istehsal etmək üçün kağız, rəng, avadanlıq, ümumiyyətlə, pul istehsalı texnikası və təcrübəsi yox idi. Ona görə də hələ ki Osmanlı dövlətindən borc lirə almaqla öz pullarını buraxana qədər pul qıtlığının müvəqqəti aradan qaldırılması ən yaxşı variant kimi görünürdü. İlk iş kimi Osmanlı dövlətindən maliyyə müşavirlərinin dəvət olunması nəzərdə tutulurdu. Bu məqsədlə Osmanlı dövlətinin Ədliyyə naziri Xəlil paşaya müraciət olundu. Osmanlı tərəfi də öz növbəsində maliyyə müşaviri kimi Xalid bəyi Azərbaycana göndərməyi öz öhdəsinə götürdü. Lakin Xalid bəy həm müharibə səbəbindən dolayı həm də hökumətin paytaxtdan qıraqda fəaliyyət göstərməsi səbəbi ilə gəlməyin qeyri-effektiv olacağını bildirdi və məsləhətlərini İstanbuldan verməyi öz üzərinə götürdü.(2, səh. 38). F.X.Xoyskinin 1918 ci il 11 iyun tarixində İstanbulda olan Azərbaycan hökumətinin başçısı M.Ə.Rəsulzadəyə göndərdiyi məktubdan aydın olur ki hökumət ciddi şəkildə maliyyə sıxıntısı yaşayır. Xoyski məktubunda qeyd edirdi ki, pul məsələsi ilə bağlı hələ ki Ermənistan və Gürcüstan hökuməti ilə danışıqlar nəticəsiz qalmışdı. Buna görə də hələ ki Osmanlı dövlətindən borc lira götürmək məqsədəuyğundur. Osmanlı dövlətindən aldığı pulu isə 1-1,5 ilə qaytarmağı öhdəyə götürməyi xahiş edirdi. Eyni zamanda çatışmayan bon ehtiyatını ödəmək üçün F.X.Xoyski Azərbaycan hökumətinin başçısına yazırdı ki İstanbulda 100 milyon manat miqdarında Azərbaycan bonu buraxılmasını təmin etsin. Bu bonlar 500, 100, 50, 25, 10, 5, 3, 1 manatlıqlar şəklində buraxılmalı idi. Bonların ölçüsü, forması, dizaynı işini görmək üçün Səlim bəy Behbudov və Əsəd bəy Rüstəmov İstanbula ezam olunurdu (2, səh. 25).

F.X.Xoyskinin M.Ə.Rəsulzadəyə göndərdiyi 31 iyun 1918 cil tarixli məktubunda da maliyyə vəziyyəti ilə bağlı problemlərin olduğu qeyd olunurdu. F.X.Xoyski yazırdı “əgər belə getsə iki həftə içərisində bir qəpik belə pulumuz qalmayacaq” (2, səh. 34).O qeyd edirdi ki, əgər maliyyə işi ilə bağlı çox ciddi addımlar atılmasa vəziyyət təhlükəli həddə çatacaq (3,səh 33,34). Hökumətin əlində pul çap etmək üçün heç bir vasitə olmadığına görə məcbur idi ki, qıraqdan gələcək pullara ümidini bağlasın. Bakının düşmən qüvvələrindən azad edilməsi ilə xərclərin artacağı aydın məsələ idi. Ona görə də hökumət çalışırdı ki hansı üsulla olur olsun paytaxt azad olunana qədər maliyyə durumunu qismən yaxşılaşdırsın. X.B.Məlikaslanovun 31 iyul 1918-ci ildə İstanbula göndərdiyi məktubunda maliyyə işi ilə bağlı problemlər və bu problemlərin mümkün qədər tez aradan qaldırılması haqqında məlumat vermişdi (5, səh. 150). O M.Ə.Rəsulzadəyə məktubunda qeyd edirdi ki, erməni və gürcü nümayəndələri ilə məsələni yoluna qoymaq haqqında danışıqlar hələki bir nəticə vermir. Qonşularımızın pozuculuq fəaliyyəti ortaq qərar qəbul olunmasına maneəçilik göstərirdi. AXC-nin Gürcüstandakı diplomatik nümayəndəsi M.Y.Cəfərovun 17 iyulda İstanbula M.Ə.Rəsulzadəyə göndərdiyi gizli məktubundan aydın olur ki, erməni və gürcü nümayəndələri

Cənubi Qafqaz Komissarlığı dövründən çap olunan bonların nümunəsində yeni bonlar çap etmək haqqında razılıq əldə etmişlər (7). Sonradan aydın oldu ki, erməni və gürcü hökumətləri 1918-ci ilin iyulun 20 -də 200 milyon Cənubi Qafqaz Komissarlığı bonunun buraxılması haqqında razılıq əldə etdilər və bu pulu öz aralarında böldülər (4, səh. 155). AXC isə bu məsələdə kənarda qaldı. Azərbaycan tərəfi məsələ ilə bağlı İstanbulda keçirilən konfransda öz haqlı etirazını bildirdi. Beləliklə erməni və gürcü tərəfi maliyyə problemini qismən həll etmiş oldu. Lakin AXC bu problemdən hələ ki ciddi əziyyət çəkirdi və ümidini Osmanlıdan gələcək yardımlara bağlayırdı.

1918-ci il üçün AXC-nin maliyyə siyasətini strateji maliyyə siyasəti adlandırmaq olmaz. Bu dövr üçün daha çox mövcud maliyyə resurslarından tam və düzgün istifadə siyasəti xarakterikdir. Osmanlı dövləti də öz növbəsində gənc yenicə qurulmuş Azərbaycan Cümhuriyyətinin maliyyə durumunu yaxşılaşdırmaq üçün səy göstərirdi. M.Ə.Rəsulzadənin Azərbaycan xarici işlər naziri M.H.Hacınskiyə 2 sentyabr 1918-ci il məktubunda maliyyə sahəsində Osmanlı dövləti ilə bağlanmış 2 müqavilədən xəbər verilirdi. Müqavilələrdən birincisi Semendrof və əsgəri limanları idarəsi ilə Səlim bəy və Əsəd bəyin imzaları ilə bağlanmışdı. Müqavilənin əsas məzmunu Azərbaycan hökuməti Osmanlı dövlətinə ərzaq, yük, pambıq, petrol, biyan kökü və satması müqabilində ondan alınacaq lirədən ibarət idi. AXC təxminən iki milyon lirə əldə etməli idi. Əgər razılaşmada hər hansı tərslik baş verərsə, qarşılıqlı anlaşma əsasında müqavilə ləğv oluna bilərdi. Eyni zamanda M.Ə.Rəsulzadə ikinci bir müqavilə haqqında da məlumat verirdi. Bu müqaviləyə əsasən Osmanlı dövləti Azərbaycan Cümhuriyyətinə 500 min lirə borc verirdi. Həmçinin məktubda bon məsələsinə də toxunulurdu. Məmməd Əmin bəy qeyd edirdi ki, bon və qaimənin rəsimləri artıq rəssama verilmişdi. Azərbaycanın iki cür pulu olacaq: "Azəri" və "Akça".Vahid pulumuz Azəri olacaq və 100-500 lük Azərilər şəklində olacaq. Sonra 1-3-5-10-15-20-25-50 akçalıqlar kəsiləcək ki, bunlar xırda təşkil edəcəklər. Bundan başqa poçta və marka çapı barəsində də razılıq əldə olunmuşdu. Həmçinin, Məmməd Əmin bəy məktubunda pulların dizaynı haqqında da müəyyən məlumatlar verirdi. O qeyd edirdi ki, pulun üstündə 8 güşəli ulduz və aypara qoymağı düşünürük (2 səh. 35, 25-50).

1918-ci ilin payızına doğru AXC maliyyə durumunu qismən yaxşılaşdırmışdı. Bakının işğaldan azad olunması ərəfəsində maliyyə durumu sabitləşməyə doğru gedirdi. Maliyyə sahəsindəki mövcud qanunvericilik bazasında müəyyən dəyişikliklər olunmuşdu. Pul dövriyyəsi üçün iqtisadi əlaqələrin tənzimlənməsi istiqamətində müəyyən addımlar atılmışdı. Lakin əsas iqtisadi tərəfdaş olan Rusiya ilə əlaqələr pozulmuşdu. Rusiya bazarı müharibə nəticəsində dağılmış və bölgələr arasında olan əlaqələr kəsilmişdi. Eyni zamanda əsas iqtisadi güc olan neft sənayesi də dağılmış və neft və neft məhsullarını xaricə daşıyan əsas nəqliyyat yolları ya dağılmış, yada fəaliyyətini qeyri-müəyyən müddətliyinə təxirə salmışdı. İqtisadi vəziyyətin ağırlığına baxmayaraq AXC infilyasiya şəraitində olsa belə maliyyə durumunu yaxşılaşdırmaq üçün müxtəlif tədbirlər görürdü. M.Ə.Rəsulzadənin F.X.Xəyskiyə göndərdiyi 15 sentyabr 1918-ci il tarixli məktubda Tükiyədən alınacaq borclar haqqında ətraflı məlumat verilirdi. M.Ə.Rəsulzadə Xoyskiyə bildirirdi ki, maliyyə məsələləri üzrə Osmanlı dövlətinin mütəxəssisi Həmid bəy məsləhət görür ki, hələ ki müvəqqəti bir qanun qəbul olunsun ki əsas istehsal sahələri xüsusi ilə balıq sənayesi xaricilərə satılması və yaxud icarəyə verilməsi qadağan olunsun. Eyni zamanda Həmid bəyin özünün də bu yaxınlarda

Bakıya gəlməsi nəzərdə tutulur. Həmid bəy qorxurdu ki, xaricilər müəyyən vasitələrlə xalqı şirnikləşdirib əsas istehsal sahələrini ələ keçirəcəklər. Həmçinin məktubda bir öncə Osmanlı dövləti ilə razılaşdırılmış olan 2 milyon lirənin alqı-satqısı barəsində məlumat verilirdi. M.Ə.Rəsulzadə qeyd edirdi ki, 500 min lirə avansın 225 mini gəmi ilə göndərilir 25 min lirə isə Ə.B.Topçubaşovun ixtiyarında qalır və o burada qaimə çap edəcək. Yerdə qalan digər 250 min lirə isə bir həftə ərzində paraxodla yola salınacaq. Gəmidə Əsəd bəy və Səlim bəy də olacaq. Onlar vasitəsi ilə müqavilənin surəti də göndərilmişdi. Qaimə çapına 2 nəfər lazım olacaq. Qaimələr təxminən 20 gün ərzində çap olunacaq bu işdə Əhməd bəyin köməyindən istifadə edərsiz (2, səh. 80).

Beləliklə, qeyd olunan dövr ərzində Azərbaycan Xalq Cümhuriyyəti hökuməti əlində olan kasad imkanlarla müstəqil maliyyə siyasətinin formalaşdırılması üçün müəyyən addımlar atdı. Bu istiqamətdə işlər sistemli şəkildə olmasa belə müəyyən irəliləyiş əldə olundu. Qonşu ölkələrlə pul çapı ilə bağlı danışıqlar aparıldı. Cümhuriyyət hökuməti üçün bu dövrdə maliyyə məsələsini qaydasına qoymaq həyatı əhəmiyyət kəsb edirdi. Çünki Cümhuriyyət qurucuları da başa düşürdülər ki, yeni yaranmış bir dövləti güclü iqtisadiyyat və maliyyə faktoru olmadan ayaq üstə tutmaq çətin məsələdir. Əldə olan kasad maliyyə resurslarından düzgün istifadə edərək yeni resursların axtarışlarını davam etdirən AXC hökuməti ən böyük yardımı qardaş Osmanlı dövlətindən aldı. Osmanlı dövləti ilə pul kəsimi və lirənin borc alınması haqqında razılıq əldə olundu. Bununla bərabər digər maliyyə məsələlərində də Osmanlı dövləti öz köməyini əsirgəmədi. Beləliklə, AXC hökuməti paytaxt Bakıya köçürülənə qədər maliyyə sahəsində qarşıya qoyulan minimum tələbi yerinə yetirə bilir və bu sahədə olan problemləri qismən aradan qaldıra bilir.

**Ədəbiyyat:**

1. M.Ə.Rəsulzadə.(1990) Azərbaycan Cümhuriyyəti. Bakı: “Elm”, 116 s.

2.Азербайджанская Демократическая Республика(1918-1920).Внешняя политика.(1998) Баку: Азербайджан, 632 s.

3. Азербайджанская Демократическая Республика (1918-1920). Законодательные акты. (1998)Баку: Азербайджан, 560 s.

4. Дипломатические беседы А.А.Топчубашева в Стамбуле. 1918-1919 гг. Баку: Эргюн, 1994, 164 s.

5. Hüseyn Baykara. Azərbaycan istiqlal mübarizəsi tarixi. (1992) Bakı: Azərnəşr, 276 s.

6. Азербайджанская Демократическая Республика (1918-1920). Парламент (1998) (стенографические отчеты) Баку, 992 s.

7. Azərbaycan Respublikası Dövlət Arxivinin 970 saylı – AXC Xarici İşlər Nazirliyinin fondu.

# NADİR ŞAH VƏ ƏFŞARLARIN MƏNŞƏYİ TARİXİ TƏDQİQATLARDA

**Alıyeva Səbinə Səbuhi**
**Bakı Dövlət Universiteti**
**sabinalyeva@mail.ru**

# NADER SHAH AND THE ORIGIN OF THE AFSHARS IN HISTORICAL RESEARCH

**Aliyeva Sabina Sabuhi**
**Baku State University**
**sabinalyeva@mail.ru**

## Summary

Nadirgulu, from Kirkhli village of the Afshar tribe, one of the 24 clans of Oghuz, is one of the personalities who played an important role in the history of Azerbaijan and the world. The question of the origin of him and the Afshar tribes to which he belonged has always been controversial and in the center of attention. Rashidaddin mentioned the Afshars as the tribe that raised the ruler. It is also clear from his words that the Afshars played an important role in the pre-Islamic period of the Oghuz clans. Only the Afshar tribe have been able to preserve their names since the 11th century. The most powerful representative of the Afshar tribes, the founder of the Afshar empire was Nadir Afshar. After starting his military career, Nadir met Tahmasib Mirza, fought in his army. At that time, he expelled the Afghans who ruled the country from the country, ended 7 years of enemy slavery, Tahmasib returned the throne of the Safavid state of Azerbaijan to Mirza. After this event, Nadirgulu was already called Tahmasibgulu. In 1736, Nadir Afshar dethroned Shah Abbas III, the last king of the Safavid state, he founded the Afshar empire with the name of the tribe he belonged to and became Nadir Shah Afshar.

**Keywords:** Nadir Shah, Afshar, Oghuz tribes, turkish, tribe.

# НАДИР-ШАХ И ПРОИСХОЖДЕНИЕ АФШАРОВ В ИСТОРИЧЕСКИХ ИССЛЕДОВАНИЯХ

**Алиева Сабина Сабухи**
**Бакинский Государственный Университет**
**sabinalyeva@mail.ru**

## Резюме

Надиргулу, выходец из села Кырхли племени афшар, одного из 24 родов огузов, является одной из личностей, сыгравших важную роль в истории Азербайджана и мира. Вопрос о происхождении его и афшарских племен, к которым он принадлежал, всегда был спорным и находился в центре внимания. Фазулла Рашидуддин упомянул афшаров из племени огузов как племя, воспитавшее правителя. Из его слов также видно, что афшары играли важную роль в доисламский период существования огузских родов. Среди огузских родов только племена афшар смогли сохранить свои имена с XI века. Надир Шах Афшар был самым могущественным представителем афшарских племен, основателем Афшарской империи. Начав военную карьеру, Надир встретил Тахмасиба Мирзу и сражался в его армии. В то время он изгнал из страны правивших страной афганцев, покончил с 7-летним рабством врага и вернул трон Сефевидского государства Азербайджана Тахмасибу мирзе. После этого события Надиргулу уже называли Тахмасибгулу или Надир-Шахом Афшаром. В 1736 году Надир-Шах Афшар сверг шаха Аббаса III, последнего шаха государства

Сефевидов в Азербайджане, основал империю Афшар от имени племени, к которому он принадлежал, и стал Надир-Шахом Афшаром.
**Ключевые слова**: Надир-Шах, Афшар, огузские племена, тюрки, племя.

Nadir Əfşar həm xan kimi, həm də şah kimi nəinki Azərbaycanın, bütün türk dünyasının tarix səhifələrinə öz adını qızıl hərflərlə yazdırmışdı. Onun şəxsiyyəti, hərbi fəaliyyəti, şahlıq dövrü istər sovet dövründə - qeyri-obyektiv araşdırılsa belə, istərsə də çağdaş dövrdə hər zaman aktual olmuşdur. Bəzən tədqiqatçılar Nadir Əfşarı türk hökmdarı kimi, əsasını qoyduğu imperiyanı türk imperiyası kimi deyil, özünü iranlı, imperiyasını isə kimi göstərirlər. Bu yanlışın səbəbi isə Əfşar dövlətinin coğrafi məkanı ilə əlaqədardır.

*Əfşarların mənşəyi.* Nadirin Əfşar boyundan olması hər kəs tərəfindən qəbul edilsə də, əfşarların türk, iran yoxsa monqol mənşəli olmaları hər zaman mübahisəli məsələlərdən olmuşdur.

Türk tarixçisi Faruk Sümer "Oğuzlar" əsərində qeyd edir ki, "XI əsrdə Sırdərya Oğuzları 24 boydan ibadət olmuşlar" (Sümer,1972). Müəllif əsərdə Mahmud Kaşğarlının və Fəzlullah Rəşid-dəddinin Oğuz boyları haqqında tərtib etdiyi cədvəllərə əsasən Əfşarların türk olduğunu göstər-mişdi. Əsərdə göstərilir ki, Mahmud Kaşğarlı 24 boydan 22-sinin daxil olduğu siyahı tərtib etmiş və Oğuz boylarından altıncısının əfşarlar olduğunu göstərmiş, lakin Fəzlullah Rəşiddəddin isə tərtib etdiyi siyahıda əfşarların Oğuz boyları içərisində doqquzuncu olduğunu qeyd etmişdir (Sümer,1972). Fahruddin Mübarək Şahın Oğuz boyları ilə bağlı hazırladığı siyahısı eyni ilə Mahmud Kaşğarlının (Sümer, 1972), Yazıçıoğlunun hazırladığı siyahısı isə Fəzlullah Rəşiddəddin tərtib etdiyi siyahı ilə üst üstə düşür (Sümer, 1972). "XVIII-XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri" əsərinin müəllifi Tahirə Həsənzadə də, Nadirin Oğuzun 24 boyla-rından biri olan Əfşar tayfalarının Qırxlı oymağından olduğunu sübut etmişdir (Həsənzadə, 2013).

Türk tarixçisi Abdurrahman Ateş "Afşarlı Nadir Şah ve döneminde Osmanlı–İran mücadele-leri" tədqiqat işində Nadirin və Əfşar tayfalarının mənşəyi ilə bağlı geniş araşdırmalar aparmış, əfşar tayfalarının XI əsrdən başlayaraq tarix səhnəsində önəmli rol oynadıqlarını və bu gündə tayfa adı kimi mövcud olduqlarını göstərmişdi. "Əfşarlar XVIII əsrin birinci yarısında Nadir şah Əfşar kimi türk cahangirini Türk tarixinə qazandırmışdı" (Ateş, 2001). Digər türk tarixçisi Yılmaz Karadeniz "İran Tarixi (1700-1925)" kitabında əfşarların döyüşkən, cəsur Türk tayfaları olduğunu göstərmişdi (Karadeniz, 2012).

Mehman Süleymanov "Nadir şah" əsərində İran tarixçisi, milliyətcə azərbaycanlı olan Əhməd Kəsrəviyə istinadən əfşarların qədim türk boylarından biri olduğunu, səlcuqlar zamanı İrana gəl-diklərini, Səfəvilər dövründə isə dövlət quran tayfalardan biri olduğunu göstərmişdir (Süley-manov, 2010).

*Nadir Əfşarın mənşəyi.* İlk dəfə Cahangir Hüseyn Əfşar "Azərbaycan Nadir Əfşar dövləti" əsərində Nadir Əfşarı obyektiv, türk hökmdarı kimi araşdırılmışdı. O, bəzi müəlliflərin Nadirin və əfşarların mənşəyini düzgün araşdırılmamasının səbəbini tarixi mənbələrdən istifadə zamanı ob-yektiv istinadların verilməməsin də görmüşdü (Əfşar, 2014). Elnur Hüseynov "Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə" namizədlik işində Nadir Əfşarın Türkmən tayfasından, Əfşar-ların Qırxqulu obasından olduğunu göstərmişdi (Hüseynov, 2006).

Türk tarixçisi Ali Kafkasyalı "İran Coğrafiyasında Türkler" kitabında 1736-cı ildə Səfəvi xanədanını ləğv edib, Əfşar imperatorluğunun əsası qoyan türk cahangiri Nadir şahın türk soyundan gəldiyini qeyd edir (Kafkasyalı, 2011).

Lawrence Lockhart "Nadir Şah" əsərində göstərmişdir ki, Nadir özünün türk və yaxud da türkmən mənşəli olması ilə hər zaman fəxr etmişdi (Lockhart, 2018).

Müxtəlif tarixi araşdırmalarda Nadirin türkmən tayfalarından olduğunu göstərilir. Buna səbəbi Nadir şahın saray tarixçisi olmuş Mirzə Mehdi xan Astrabadinin əfşarlar ilə türkmən tayfalarını eyniləşdirməsidir (Süleymanov, 2010). Mehman Süleymanov göstərilən əsərində qeyd edir ki, Mirzə Mehdi xan Astrabadi "Tarix-e Cahanqoşaye Naderi" əsərində məlumat verir ki, Oğuzun əfşar boyu türkmən tayfalarındandır (Süleymanov, 2010).

Nəticədə qeyd edə bilərik ki, istifadə etdiyimiz ədəbiyyatlarla Nadirin türk soyundan gəldiyini, Əfşarların türk olması faktlarını sübut edə bildik. Bütün bunlara əsasən, Nadir şah Əfşarın 1736-cı ildə Səfəvi dövlətinə son qoyaraq yaratdığı, Əfşar imperiyasının da türk imperiyası olduğunu deyə bilərik. Çünki qurucusu türk soyundan olan, həmçinin türk olmağı ilə hər zaman fəxr edən hökmdar heç bir zaman İran dövləti yarada bilməz. Araşdırmamızda Nadirin türk mənşəli olduğunu göstərən müəlliflərin əsərlərindən istifadə etsək də, əslində bu fikri inkar edənlərdə az deyildir. Lakin biz həmin əsərlərdən istifadə etməyi məsləhət bilmədik. Çünki həmin əsərlərin əksəriyyəti sovet dövründə yazıldığına görə, sovet ideologiyası ilə araşdırılma aparılmışdır. Bu səbəbdən onların fikirləri tamamilə əsassız və yanlışdır.

**Ədəbiyyat:**


1. Dadaşova R. (2003). Səfəvilərin son dövrü (ingilisdilli tarixşünaslıqda). Nurlan nəşriyyat, 259–264.
2. Əfşar C. H. (2014). Azərbaycan Nadir Əfşar dövləti. NY nəşriyyat, 55 – 64.
3. Həsənzadə T. (2013). XVIII – XIX əsr Əfşarlar və Qacarlar dövrünün görkəmli Azərbaycan türkləri. Elm və Təhsil nəşriyyatı, 28, 33.
4. Hüseynov E. (2006). Azərbaycan Nadir şah Əfşarın hakimiyyəti dövründə. Namizədlik dissertasiyası, 20.
5. Kafkazyalı A. (2011). İran Coğrafiyasında Türkler. Bilgeoğuz, 85 – 86.
6. Quddusi M. H (2017). Nadir – Namə (Nadir şah Əfşarın həyatı). Qanun nəşriyyatı, 20, 58.
7. Lawrence L. (2018). Nadir Şah. Qanun nəşriyyatı, 31 – 37, 57.
8. Sarıçiçek S. (2016). Safaviler döneminde İranda Avşarlar. Yüksek lisans tezi, 137.
9. Süleymanov M. (2010). Nadir Şah. Neqare Endişe nəşriyyatı, 11, 19, 127 – 129, 147.
10. Sümer F. (1972). Oğuzlar. Ankara Universitesi Basım evi, 203 – 214.
11. Tahirzadə Ə. (2005). Nadir şah Əfşar (tərcümeyi - hal oçerki). Çıraq nəşriyyatı, 4 – 7.
12. Ateş A. (2001). Afşarlı Nadir Şah ve döneminde Osmanlı – İran mücadeleleri. Doktora tezi, 34 – 36.
13. Karadeniz Y. (2012). İran Tarixi (1700-1925). Selenge yayınları, 114-123.

# BİRİNCİ VƏ İKİNCİ QARABAĞ MÜHARİBƏLƏRİNDƏ TÜRKİYƏNİN MÖVQEYİ

**Hüseynli Sərxan Məzahir**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-4625-9144**
**serxan_service87@mail.ru**

# TURKEY'S POSITION IN THE FIRST AND SECOND KARABAKH WARS

**Huseynli Sarkhan Mazahir**
**Baku State University**
**https://orcid.org/0000-0002-4625-9144**
**serxan_service87@mail.ru**

## Summary

During the first Karabakh war, happened between 1988-1994 Azerbaijan got the massive support from Turkey, as a foreign country, but even this support was not enough to enable Azerbaijan's victory. In that period, both international conditions and Turkey's internal political condition hindered its support to Azerbaijan. However, Turkey supported Azerbaijan morally and also in the activities of international organizations. Turkey's utmost support during the first Karabakh war was closing its borders with Armenia after the occupation of Kelbajar. During the second Karabakh war, which began in 27 September 2020 and continued 44 days, Turkey's support to Azerbaijan was more comprehensive. Turkey's officials' statements that states their support to Azerbaijan deterred some regional states which intend to interfere. Turkey's support to Azerbaijan about the preparation of military officers and implementation of joint military trainings became the basis for the victory of Azerbaijani army. Turkey's military support contains weaponry, especially Bayraktar TB2 played a great role as well. In this thesis Turkey's role during first and second Karabakh wars was comparatively analyzed.

**Keywords:** first Karabakh war, second Karabakh war, rational relations, Bayraktar TB 2.

# ПОЗИЦИЯ ТУРЦИИ В ПЕРВОЙ И ВТОРОЙ КАРАБАХСКИХ ВОЙНАХ

**Гусейнли Сархан Мазахир**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-4625-9144**
**serxan_service87@mail.ru**

## Резюме

Во время Карабахской войны, имевшей место в 1988-1994 годах, наибольшая внешняя военная поддержка Азербайджану оказывалась со стороны Турции, но масштабы этой поддержки не могли обеспечить победу Азербайджана. Этот период как международные условия, так и внутриполитическое положение Турции не позволяли ей оказывать достаточную поддержку Азербайджану. В этот период Турция в основном оказывала Азербайджану моральную поддержку и защищала законную позицию Азербайджана в международных организациях. Самой большой политической поддержкой, оказанной Турцией Азербайджану во время первой карабахской войны, было закрытие ею границы с Арменией после оккупации Кельбаджарского района в 1993 году. Во время второй Карабахской войны, начавшейся 27 сентября 2020 года и продолжавшейся 44 дня, поддержка Турции Азербайджану была более всесторонней. С первых часов Отечественной войны турецкие официальные лица выступили с заявлениями о том, что они на стороне Азербайджана, и положили конец

намерениям иностранных государств вмешаться. Вклад Турции в подготовку азербайджанских офицеров в довоенный период, а также совместные военные учения с азербайджанской армией заложили основу для победы азербайджанской армии. Оружие, предоставленное Турцией, особенно беспилотный Байрактар ТБ 2 сыграло решающую роль в этой войне. В данном тезисе был проведен сравнительный анализ позиции Турции в первой и второй Карабахской войне.

**Ключевые слова:** первая Карабахская война, вторая Карабахская война, рациональные отношения, Байрактар ТБ 2.

Beynəlxalq arenada Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanınan, etnik ermənilərin də azərbaycanlılarla bir yerdə yaşadığı Dağlıq Qarabağ ərazisi (ətrafındakı 7 rayonla birlikdə) 1992-1993-cü illərdə Ermənistan tərəfindən işğala məruz qalmışdır. Həmin dövrdə beynəlxalq vəziyyət, eləcə də Türkiyənin daxili siyasi problemləri onun Azərbaycana yetərli dəstək verməsinə mane olmuşdur. Regionda Rusiya ilə qarşı-qarşıya gəlmək riski də Türkiyənin Azərbaycana açıq dəstək göstərməsini məhdudlaşdırmışdır. Bununla belə, birinci Qarabağ müharibəsindən ikinci Qarabağ müharibəsi-Vətən müharibəsinədək keçən dövr ərzində Türkiyənin Azərbaycana hərbi dəstəyi artaraq davam etmişdir. Birinci Qarabağ müharibəsində Azərbaycana mənəvi-siyasi, qismən də media dəstəyi verən Türkiyə ikinci Qarabağ müharibəsində isə Azərbaycana hərtərəfli və geniş çaplı dəstəyi ilə yadda qalmışdır. Bu dəstək siyasi dəstək sərhədlərini də aşaraq, hərbi və hərbi-texniki cəhətləri ilə də seçilmişdir. 30 ilə yaxın bir müddətdə işğal altında qalmış torpaqların azad edilməsi ilə nəticələnən ikinci Qarabağ müharibəsi (44 günlük müharibə) 10 Noyabr 2020-ci ildə Ermənistan tərəfinin kapitulyasiya aktına imza atması ilə Azərbaycanın şəksiz zəfəri ilə nəticələnmişdir. Bu ərazilərin azad olunmasında Azərbaycana ən böyük xarici dəstəyi Türkiyə vermişdir. Müharibədə qələbəmizin əsas təminatçısı Azərbaycan Respublikasının Ali baş komandanının rəhbərliyi altındakı ordumuz və xalqımızın arxa cəbhədə göstərdiyi maddi-mənəvi dəstək olmuşdur. Azərbaycan Respublikasının Türkiyə ilə imzalanmış hərbi əməkdaşlıq sahəsindəki müqavilələrə əsasən, Türkiyədən alınmış dronlar, eləcə də türk zabitlərinin hərbi əməliyyatların təşkil və idarə olunmasındakı məsləhətçi rolu qələbədə həlledici əhəmiyyətə malik olmuşdur.

Bu tezisdə birinci və ikinci Qarabağ müharibələrində Türkiyənin mövqeyi və rolu analiz edilmiş və bu zaman tarixi və müqayisəli təhlil metodlarından istifadə edilmişdir. İkinci Qarabağ müharibəsindən sonra Türkiyənin cənubi Qafqazda artan nüfuzu onun Qarabağ savaşındakı rolunu aktual mövzuya çevirmişdir. Tezisin məqsədi birinci və ikinci Qarabağ müharibələrində Türkiyənin rolunu müqayisə edərək Azərbaycan-Türkiyə münasibətlərinin 30 illik dövr ərzindəki inkişaf dinamikasını ortaya qoymaqdır.

### 1.Birinci Qarabağ müharibəsi dövründə (1988-1994) Türkiyənin mövqeyi

1991-ci ildə SSRİ dağıldıqdan sonra müstəqilliyini əldə edən Azərbaycanın geostrateji əhəmiyyəti bütün qonşu dövlətlərin eləcə də Qərb dünyasının diqqətini çəkmişdir. Azərbaycan ilə eyni etnik, dini və milli-mədəni dəyərlərə malik olan Türkiyə dövləti də, Azərbaycanın coğrafi mövqeyini yüksək qiymətləndirmiş, onun Orta Asiya-Türk dünyasına açılan qapı olmasının əhəmiyyətini duymuşdur. Məhşur amerikalı strateq Z.Bzejinskinin qeyd etdiyi kimi “Azərbaycan özünün yerləşdiyi məkan etibarı ilə geosiyasi dayaq nöqtəsidir. Azərbaycanı Xəzər dənizi hövzəsi və Orta Asiyanın zəngin sərvətlərinin yerləşdiyi “butulkaya” çıxışa nəzarət edən əhəmiyyətli “tıxac” adlandırmaq olar. Ərazisindən keçən neft kəmərlərinin etnik cəhətdən ona qohum olan və ona

siyasi köməklik göstərən Türkiyənin torpaqlarına uzanan müstəqil türkdilli Azərbaycan Rusiya üçün maneəyə çevrilə bilər"[1].

1988-ci illərdə qığılcımlanan və 1992-ci ildən başlayaraq qaynar fazaya keçən birinci Qarabağ müharibəsi zamanı Türkiyə Azərbaycana yetərli dəstək göstərə bilməmişdir. Münaqişənin ilk illərindən başlayaraq Türkiyə daha çox beynəlxalq təşkilatlarda aktivlik göstərərək Azərbaycanın haqlı mövqeyini müdafiə etmişdir. Türkiyənin Xarici İşlər nazirliyi dəfələrlə ATƏT-in Minsk qrupunu Dağlıq Qarabağ konfliktinin həlli ilə bağlı daha aktiv çalışmalara səsləmiş və konfliktin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulamışdır [2].

Həmin dövrdə Türkiyə müxalifəti hökümətdən Azərbaycana hərbi yardım göstərilməsini tələb etsə də, baş nazir Süleyman Dəmirəl məsələnin sülh yolu ilə həllinin vacibliyini vurğulayaraq hərbi dəstəyin verilməməsinin səbəbini aydınlaşdırmışdır. Bu səbəblərdən biri və ən vacibi Türkiyənin Ermənistanı dəstəkləyən Rusiya ilə açıq qarşıdurmaya getmək istəməməsi olmuşdur. Belə ki, MDB birləşmiş silahlı qüvvələrinin komandanı Marşal Yevgeni Şapoşnikovun "Hər hansı bir üçüncü tərəfin bölgəyə müdaxiləsi üçüncü dünya müharibəsinə səbəb olar" bəyanatı Türkiyə üçün çəkindirici amil olmuş və onun Azərbaycana hərbi dəstək niyyətlərini məhdudlaşdırmışdır [3].

Türkiyənin Xarici işlər naziri Hikmet Çetin isə Azərbaycana silah tədarükünün 3-cü ölkənin Ermənistana açıq və geniş miqyaslı silah göndərməsi üçün bəhanə ola biləcəyini qeyd etmişdir.[4] Türkiyənin Kipr məsələsi ilə bağlı dünya ictimai rəyində üzləşdiyi tənqidlər də onun Azərbaycana hərbi yardım göndərməsini əngəlləmiş, Türkiyə təcavüzkar dövlət kimi tanınmaqdan ehtiyatlanmışdır. Nəticədə Azərbaycan torpaqlarının 20 faizi işğal olunmuş və bu Türkiyənin soyuq müharibə dövündən bəri qarşılaşdığı ən böyük strateji itki olmuşdur [5]. Türkiyənin 1-ci Qarabağ müharibəsi ərzində Azərbaycana ən böyük dəstəklərindən biri onun 1993-cü ildə Kəlbəcərin işğalından sonra Ermənistanla sərhədlərini bağlaması olmuşdur [6].

**2. İkinci Qarabağ müharibəsi dövründə (27 Sentyabr-10 Noyabr 2020) Türkiyənin mövqeyi**

İkinci Qarabağ müharibəsinin (44 günlük müharibə) ilk günlərindən son günlərinədək Türkiyə dövləti Azərbaycanın yanında olmuşdur. Azərbaycan Respublikasının Prezidenti bir çox çıxış və bəyanatlarında Türkiyə prezidentinin müharibənin ilk saatlarından Azərbaycana dəstək ifadə edən sözlərini yüksək qiymətləndirmiş və bu sözlərin müharibəyə müdaxilə edəbiləcək kənar qüvvələrə çəkindirici təsirinin altını cızmışdır [7]. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan "Biz Türkiyə olaraq bütün qəlbimizlə və imkanlarımızla dost və qardaş Azərbaycanın yanındayıq və yanında olmağa da davam edəcəyik" deyə dəstəyini bəyan etmişdir [8]. Ankaranın bu cür açıq dəstəyi Qərb ölkələri tərəfindən qıcıqla qarşılanmış və onlar Türkiyəni yanğına körüklə getməkdə günahlandırmışlar.

Türkiyənin Azərbaycana hərbi dəstəyi yalnızca 44 günlük müharibə dövrünü əhatə etməmişdir. Birinci Qarabağ müharibəsindən başlayaraq Türkiyə Respublikası Azərbaycana hərbçi kadrların yetişdirilməsi məsələsində, müasir ordu modelinin formalaşdırılmasında ciddi və ardıcıl dəstək göstərmişdir. Beləliklə, köhnə hərbi təfəkkürə və Sovet dövrü müdafiə taktikasına arxalanan Ermənistan yeni dövr müharibə strategiyası və taktikasına yiyələnmiş Azərbaycan ordusu qarşısında aciz qalmışdır.

Azərbaycan hərbi sənayesinin əsas təchizatçıları sırasında (Rusiya, İsrail, Ukrayna, Belarus) Türkiyə ən böyük paya malik olmasa da, ordumuzun fiziki və taktiki hazırlığında Türkiyə ən böyük paya sahibdir. Bəllidir ki, müharibə zamanı hərbi təchizatdan daha da əhəmiyyətlisi ordunun ruhu və təşkilatçılıq qabiliyyətidir. Məhşur hərbi strateq Karl fon Klauzevitsin Müharibə haqqında adlı kitabında qeyd etdiyi kimi, yüksək hazırıqlı hərbi heyət və güclü komanda-idarə heyətinə malik ordu, yaxşı silahlanmış lakin bu cür heyətə malik olmayan orduya asanlıqla qalib gələ bilir [9].

1992-ci ildə Türkiyə və Azərbaycan arasında imzalanmış Hərbi hazırlıq əməkdaşlığı müqaviləsi Türkiyə Azərbaycan arasındakı hərbi əlaqələri ilk dəfə rəsmi müstəviyə gətirmişdir. Bununla da Azərbaycan Türkiyə Hərbi Akademiyalarında öz zabit heyətini yetişdirməyə başlamışdır. Bu əməkdaşlıq 2010-cu ildə imzalanmış Strateji Əməkdaşlıq və Qarşılıqlı Dəstək Müqaviləsi ilə ən yüksək səviyyəyə çatmış və Azərbaycan hərbi heyəti türk hərbçiləri ilə birlikdə hərbi təlimlərdə iştirak imkanı qazanmışdır. Nəticədə Azərbaycan ordusu zabit hazırlığı baxımından erməni rəqiblərindən qat-qat üstün vəziyyətə gəlmişdir.

2008-ci ildə qərb dövlətlərinin dəstəyi ilə Türkiyə Ermənistan münasibətlərinin normallaşdırılması istiqamətində gedən danışıqlar zamanı qərbin danışıqları Dağlıq Qarabağ münaqişəsindən kənarda tutma cəhdləri fiaskoya uğramış, nəticədə bu Türkiyə Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsi üçün dönüm nöqtəsi olmuşdur. Beləliklə, Azərbaycana silah tədarükündə Türkiyə 3-cü sıraya yüksəlmişdir.

2015-ci ildən başlayaraq Türkiyə hakimiyyətində AK Partiyanın milliyyətçi partiya olan MHP ilə müttəfiqliyi Türkiyənin xarici siyasətində Qafqaz və Balkan bölgələrinin önəminin artmasına gətirib çıxarmışdır. Türkiyə “qonşularla sıfır problem” siyasətinə düzəliş edərək daha inamlı xarici siyasət yeritməyə başlamışdır. Azərbaycan Türkiyə münasibətləri 2010-ci ildən başlayaraq artıq mənəvi qardaşlıq münasibətlərindən xeyli yüksəklərə qalxmış, münasibətlər böyük miqdarda qarşılıqlı investisiya yatırılması ilə iqtisadi cəhətdən də pik nöqtəyə çatmışdır. Nəticədə Azərbaycan Türkiyəyə ən çox sərmayə qoyan xarici ölkəyə çevrilmişdir [10].

2018-ci ildə Ermənistanda hakimiyyətə gəlmiş Nikol Paşinyan öz milliyətçi və təxribatçı çıxışları ilə Türkiyə və Azərbaycan üçün sələflərindən daha təhlükəli olmağa başlamışdır. Ermənistanın yeni hakimiyyətinin təxribat əməlləri nəticəsində 2020-ci ilin İyul ayında Ermənistan Azərbaycan sərhədlərində toqquşmalar baş vermiş, Sentyabr ayında isə iki dövlət arasında yeni müharibə alovlanmışdır.2020-ci ilin iyulunda Ermənistanın Azərbaycanla Tovuz rayonu sərhədində törətdiyi təxribatlar BTC neft kəməri üçün də təhlükə yaratmış və Türkiyənin regiondakı strateji maraqlarını təhdid etmişdir. Bu insidentdən dərhal sonra Türkiyə Azərbaycana hər vəziyyətdə şərtsiz və tam dəstək sözünü vermişdir. Nəticədə Türkiyə və Azərbaycan arasında həmin ilin iyul və avqust aylarında ortaq hərbi təlimlər keçirilmiş və Türkiyənin Azərbaycana hərbi silah-sursat təchizatı 6 dəfə artmışdır. Xüsusən də, yüksək texnoloji keyfiyyətə malik Bayraktar TB2 dronlarının Azərbaycana təchizatı, eləcə də Gəncə şəhərində Türkiyənin 2 ədəd F-16 qırıcılarının saxlanılması Azərbaycana dəstəyin ən parlaq nümunələrindən hesab edilə bilər [11].

ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi fonunda Türkiyə Dağlıq Qarabağ münaqişəsinə daha güclü təsir etmək imkanını qazanmışdır. Rusiya və Türkiyənin ABŞ və AB ölkələrini regiondan kənarlaşdırmaq cəhdləri onların regionda maraqlarını yaxınlaşdırması və nəticədə

xüsusən Türkiyənin regiondakı nüfuzu ciddi ölçüdə artmışdır. Rusiyanın Türkiyə ilə maraqlarının regionda qismən üst-üstə düşməsi Cənubi Qafqaza öz müstəsna nüfuz dairəsi kimi yanaşan Rusiyanı, Türkiyəni regionda gücünün artırmasına mane olmamağa sövq etmişdir.

Türkiyənin ikinci Qarabağ müharibəsində Azərbaycana göstərdiyi hərtərəfli yardım, xüsusən də Türkiyə dövlət rəsmilərinin ən yüksək səviyyələrdə səsləndirdikləri dəstək bəyanatları, Türkiyə dövlətinin Qarabağ məsələsindəki qəti mövqeyini ortaya qoymuş, eləcə də regionda digər güclərin Azərbaycana təzyiq və təsir imkanlarını heçə endirmişdir.

Azərbaycan xalqı əzəli və əbədi torpağı olan Qarabağı erməni təcavüzündən qorumaq uğrunda illərlə mübarizə aparmalı olmuş və bu mübarizə zamanı regiondakı bir sıra dövlətlərin mövqeləri onların Azərbaycana gerçək münasibətlərini ortaya qoymuşdur. Region dövlətlərindən yalnız Türkiyə həm birinci, həm də ikinci Qarabağ müharibəsi zamanı Azərbaycanlı qardaşlarına maddi və mənəvi dəstək göstərərək hər zaman haqqın yanında durduğunu elan etmişdir. Lakin, bununla belə, birinci Qarabağ müharibəsi zamanı Türkiyənin siyasi vəziyyəti və beynəlxalq arenadakı çox da güclü olmayan mövqeyi onun Azərbaycana yetərli dəstək göstərməsini məhdudlaşdırmışdır. İkinci Qarabağ müharibəsi zamanı isə Türkiyənin artan iqtisadi və siyasi gücü, eləcə də Türkiyə-Azərbaycan münasibətlərinin yeni inkişaf erasına qədəm qoymuş olması, Türkiyənin Azərbaycana açıq və hərtərəfli dəstək göstərə bilməsinə imkan vermişdir. Münasibətlərin müharibədən sonrakı dövrdə də artan xətlə inkişafı, bu iki türk dövləti ilə yanaşı bütövlükdə region üçün yeni üfüqlər açmaqdadır.

**Ədəbiyyat:**


1. Zbiqnev Bzejinski, Böyük şahmat taxtası, səh.136
2. Babayeva, Vefa. (2013). Haydar Aliyev Dönemi Türkiye-Azerbaycan İlişkileri, Yüksek Lisans Tezi, İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Enstitüsü Uluslararası İlişkiler Anabilim Dalı.
3. TBMM, 10 Mart 1992: 135
4. TBMM Tutanak Dergisi, Dönem: 19, C: 8, Birleşim: 61, 25 Mart 1992, s. 628
5. Ahmet Davudoğlu, Stratejik Derinlik, səh. 128.
6. Modern.az, 23 avqust 2010, Türkiyə Ermənistan sərhəddi Kəlbəcərə görə bağlanıb.

10. https://xalqqazeti.com/mobile/az/news/73642

7. Cumhurbaşkanlığı İletişim Başkanlığı Yayınları, (2021). Yukarı Karabağ’da 44 Günde Gelen Zafer: Türkiye-Azerbaycan Kardeşliğinin Nişanesi, 1.baskı, İstanbul
8. Karl fon Klauzevitz, Vom Kriege, 1832, səh.182
9. Ekşi, M. (2009). Türkiye-Azerbaycan İlişkileri: Söylemden Reelpolitiğe, Avrasya Etüdleri, 36(2), 95-112.
10. https://www.bbc.com/turkce/haberler-turkiye-54340987

# BRETTON VUDZ SİSTEMİ

**Əzizova Sevinc Saləddin**
**Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu**
**https://orcid.org/0000-0002-0957-6773**
**elizadesevinc001@gmail.com**

# BRETTON WOODS SYSTEM

**Azizova Sevinj Saladin**
**Institute of History named after Abbasgulu Agha Bakikhanov**
**https://orcid.org/0000-0002-0957-6773**
**elizadesevinc001@gmail.com**

## Summary

Throughout history, wars and the disasters caused by them, the economic situation before and after the war, the regulation of economic power, and the reviving of states are very important issues. Today's reality also clearly shows that wars are inevitable and conflicts between different states on have impact on states. İn this research, the attempts to ensure economic development after the second World War, the main characteristics of the Bretton Woods, system which is one of the systems that is basis on developing stage of the world currences the principles on which it is based,the institutions it created,the goals,the stability of the system, and the ways to prevent another collapse have been studied. Bretton Woods is a framework for developed countries. That is, it is an order prepared for world capitalism. The Bretton Woods conference is still one of the most succesful international meetings held for definite and certain purposes. Generally, the conference is considered the crowded moments of the history, because the conference was the end of this era and the beginning of a new era.

By investigating this system we can see that some of the current problems have already been determined in Bretton Woods, and we can identify foreign this balance,their damages and the conditions which brea their stability. Thus,important changes can be determined according to the geography which changed economical development of today's world potentially changeable geopolitical environment and unstable financial stream.

**Keywords:** The transfer of world hegemony, New Hampshire, Keynes plan, White plan, IMF.

# БРЕТТОН-ВУДСКАЯ СИСТЕМА

**Азизова Севиндж Саладдин**
**Институт истории имени Аббасгулу Аги Бакиханова**
**https://orcid.org/0000-0002-0957-6773**
**elizadesevinc001@gmail.com**

## Резюме

На протяжении всей истории войны и вызванные ими бедствия, экономическое положение до и после войны, регулиарование экономической мощи, возрождение государств являются очень важными вопросами.Сегодняшняя действительность также ясно показывает, что войны неизбежны, а конфликты между различными государства неизбежно влияют на другие государства.В исследовании попытки обеспечения экономического развития после Второй мировой войны рассмотрены основные черты Бреттон-Вудской системы, которая является одной из систем, в основе которых лежит этап развития мировой валюты системы,

принципы, на которых она базируется, созданные ею институты, цели, устойчивость системы, пути предотвращения очередного коллапса. Бреттон-Вудс – это система для развитых стран. То есть это порядок, подготовленный для мирового капитализма Конференция Вудса до сих пор остается одной из самых успешных В целом, конференция считается многолюдным моментом в истории, потому что конференция была концом эры и началом новой эры. Мы видим, что часть текущих проблем уже была выявлена в Бреттон-Вудсе, и мы можем выявить внешние диспропорции, их ущерб и дестабилизирующие условия, тем самым мы можем внести необходимые изменения, чтобы приспособить сегодняшний мир к меняющейся географии экономического развития, изменение геополитической обстановки и потенциально естабильные финансовые потоки.

**Ключевые слова:** Передача мировой гегемонии, Нью-Гемпшир, план Кейнса, Международный Валютный Фонд, Белый план

Bugünkü beynəlxalq sistemdə hökmranlığını davam etdirən ABŞ və inkişaf etmiş Qərbi Avropa hələ də dünya siyasətini idarə etməkdə çox təsirlidir. Lakin, hər iki dünya müharibəsinin meydanı olan Avropa dövlətləri indiki vəziyyətlərinə birdən-birə çatmadılar, onlar öz mövqelərinə ABŞ-ın dəstəyi ilə müəyyən proseslərdən keçərək gəldilər. Bu tədqiqatda XX əsri kapitalizm prizmasından anlamağa çalışırıq və Bretton Vudz sistemi sayəsində XX əsri daha yaxşı başa düşə bilərik. Çünki Bretton Vudz sistemi tam olaraq inkişaf etmiş ölkələri düşünən, dünya kapitalizmi üçün hazırlanmış bir nizamdır. Amma bu elə bir sistemdir ki, biz əslində iki adamın, daha doğrusu iki kapitalizm dövlətinin razılaşmasını görürük. Sanki iqtisadi gücü ələ keçirməklə dünya dövlətlərinə nəzarəti ələ almağı təmin edəcək bir oyun qurulub və bu oyun inkişaf etmiş bazarlarda oynanılır. Yəni, Amerika və Avropada onların hökumətləri, pul və maliyyə orqanları, bazarları ilə oynanılacaq bir oyun. Bu, kreditorun, iddialı Amerikanın və borclu olan İngiltərənin tənəzzül deyil, yumşaq eniş etmək səylərinin birləşməsidir. Müharibə illərində İngiltərənin ABŞ-dan Lend və Liz qanunu ilə aldığı yardımlar, ABŞ-ın müharibədən sonrakı dövrdə yürütdüyü siyasətlər onların fikirlərinə çox yaxın idi. Bu səbəbdən İngiltərə ABŞ ilə maliyyə ittifaqında olmağı və yeni maliyyə əsaslarının yaradılmasını məqsədəuyğun hesab etmişdir (Helleiner 2014).

Bretton Vudz sisteminin iqtisadiyyat tarixçiləri tərəfindən daima iqtisadi əhəmiyyəti ön plana çıxarılsa da, sistemin siyasi əhəmiyyəti heç də az deyil. Əslində, bu konfrans bir növ dünya hegemonluğunun təhvil-təslim mahiyyətini əks etdirir. İngilis imperializminin tərk etməli olduğu hegemon mövqe açıq şəkildə Amerika imperializminə təhvil verilirdi. Qlobal valyutanın dollar olması da, bu çərçivədə çox mənalı addım idi. Qlobal pul həm siyasi və hərbi güc, həm də iqtisadi güc tələb edir, yəni lider olan imperialisti, onun malik olduğu gücü göstərən mexanizm idi (H.James.2017).

**Konfransa qədərki vəziyyət və konfransda müzakirə olunan planlar:** 1914-cü ildə Birinci dünya müharibəsinə qədər dünya iqtisadiyyatı özünü tənzimləyən sistem idi. Əslində, dövlətlər beynəlxalq təşkilatlara, iqtisadi birliyə ehtiyac olmadan, hegemonların diktə etdiyi ticarət siyasətlərini davam etdirirdilər. Ancaq bu iqtisadi vəziyyət müharibənin nəticələri ilə sona çatdı. Müharibədən sonrakı dövrdə yaşanan qısamüddətli sülh dövründən sonra 1929-cu ildə Böyük böhranın reallaşması ilə həm ABŞ, həm də Avropanın tarazlığı yenidən pisləşdi. Yenə sonrakı dövrdə birincisindən daha əhatəli bir müharibə olan İkinci dünya müharibəsi baş verdi və dövlətlər böyük bir çöküşün məngənəsində qaldı (B.K.Madan Jun 1, 1969).

1944-cü il iyulun 1-dən iyulun 22-dək Nyu-Hempşir ştatının Bretton Vudz əyalətində keçirilən konfransın təşkili bir neçə cəhətdən gərgin, gizli və məhsuldar mübadilənin aparılması üçün ideal idi. ABŞ-da daxil omaqla 44 ölkənin 1000-ə yaxın nümayəndəsi toplaşmışdı. Fəal müzakirədə iştirak edən dövlətlər arasında Braziliya, Çin, Hindistan da var idi (Bordo Michael D.1993). Bretton Vudz konfransı hələ də müəyyən və konkret məqsədlər üçün çağırılmış ən uğurlu görüşlərdən biri kimi qalır. Katib Morqenthaunun sözləri ilə desək "Bu pul sazişi beynəlxalq fəaliyyətin geniş proqramında ancaq bir addımdır. Bretton Vudz konfransı bütün insanların yan-yana gedə biləcəyi geniş bir magistral yolda istiqamət göstərən işarə dirəyi ucaltdı (B.K.Madan Jun 1, 1969). Konfransda dominant güc kimi ABŞ-ın danışıqlar zamanı beynəlxalq inkişaf məqsədlərinin prioritetləşdirilməsini dəstəkləməsi xüsusilə vacib idi. O dövrdə ABŞ-ın bir çox aparıcı siyasətçiləri dünyanın daha yoxsul bölgələrində həyat səviyyəsini yüksəltmək məqsədinə ABŞ-ın sadiqliyini qeyd edərək F.Ruzveltin çıxışına diqqət çəkirlər. Prezident Franklin Ruzvelt 1941-ci ilin yanvarında məşhur "Dörd Azadlıq" nitqində (Helleiner 2014, 120) "dünyanın hər yerində yoxsulluqdan azad olmağı" təmin etmək məqsədini öhdəlik kimi bəyan etmişdir. Bu öhdəliklə Ruzvelt Yeni Sövdələşməni və onun fərdlər üçün daha çox iqtisadi təhlükəsizliyi təmin etmək məqsədini beynəlmiləlləşdirməyə çalışdı (Borgwardt 2005).

Beləliklə, əsas məqsəd müharibələrarası kapitalizmə qayıdışın qarşısını alacaq qlobal mexanizm yaratmaq idi. Konfransın əsas məqsədi böyük böhranın təkrarlanmasının qarşısını almaq və İkinci Dünya Müharibəsindən sonrakı dövrdə beynəlxalq valyuta sisteminin yenidən məhv olmasının önünə keçmək, beynəlxalq maliyyə sabitliyi yaratmaq, yoxsulluğu azaltmaq, iqtisadi inkişafı təmin etmək idi. Konfransda iki plan müzakirə olunmuşdur. Biri İngilis iqtisadçısı Con Maynard Keynesin planı, digəri isə ABŞ xəzinə katibinin köməkçisi Harry Dekster Vaytın planı (Edward. M.Bernstein-1927 - 1996 ).

Keynes həm Birinci dünya Müharibəsi, həm də İkinci dünya Müharibəsini bitirən konfransda iştirak edən yeganə şəxsdir. O konfransa batmaqda olan Britaniya imperiyasını, onun müstəmləkə imperializmini xilas etmək üçün gəlmişdi. Onun dostu, Britaniya siyasətçisi, o vaxt Vaşinqtonda səfir olmuş lord Halifax ona demişdi ki: "Amerikalıların pul kisəsi ola bilər; amma bizim də ağlımız var. İngiltərə, həqiqətən, tənəzzülə uğramış və gücsüz vəziyyətdə idi. B.K.Madan (Jun 1, 1969) müharibənin sonunda onun borcları milli gəlirdən 2,5 dəfə çox idi və bu borcların böyük bir hissəsi ABŞ-dan götürüldü. Beləliklə, Keyns kreditorun qapısına gedən borclu idi.

Keynsin zehni və intellektual dərinliyi Vaytın qəti təkidi ilə məğlub olacaqdı. Vaytın planı qəbul edildi. Breton Vudz sistemi tətbiq olundu. Birincisi, qızılın 1 unsiyası 35 dollara, bütün digər milli valyutalar isə dollara bağlandı; beləliklə, bir növ sabit məzənnə rejimi yarandı. Amerika imperializminin istədiyi də məhz bu idi. İki qurum Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı – yaradılmışdır. Hər iki qurum ABŞ Xəzinədarlığı və ABŞ Federal Ehtiyat Sistemi ilə bağlı idi. Beləliklə, Amerika imperializminin iqtisadi üstünlüyü, eləcə də hərbi və siyasi üstünlüyü təmin edildi.(Eric Helleiner 2014)

Bretton Woods sistemi üç əsas prinsipə dayanırdı:

1. Gücün az sayda dövlətlərdə cəmləşməsi;
2. Bu dövlətlər tərəfindən paylaşılan mühüm maraqlar toplusunun mövcudluğu;

3.Liderlik rolunu öz üzərinə götürmək istəyən və bacaran dominant gücün mövcudluğu (Arın,T.1995).

Bütün bu qeyd etdiklərimizin məntiqi nəticəsi olaraq, beynəlxalq ödəmə vasitəsinin əsasında ABŞ dollarının dayandığı bu sistem dünya ölkələrinin hər birinin beynəlxalq xarici-iqtisadi və ticarət əlaqələri sahəsindəki tələbinə cavab verməyə başladı (Bordo Michael D.1993). Avropa ABŞ-ın rəhbərliyini könüllü qəbul etdi. Həm Bretton Vudz institutlarının göstərdiyi yardımlar, həm də 1947-ci ildə Marşal planının həyata keçirilməsi Avropanın dirçəlməsində çox təsirli oldu. 1950-ci ildən sonrakı dövrdə dünya iqtisadiyyatı gözlənilməz şəkildə böyüdü və Avropanın rifah səviyyəsi xeyli yüksəldi. Beləliklə, ABŞ iqtisadi inkişafla yanaşı, həm psixoloji, həm siyasi, həm hərbi məqsədlərinə nail oldu (Eric Helleiner 2014). Ancaq iqtisadiyyat tarixçilərinin fikrincə, Bretton Vudz sistemi əslində 1971-ci il avqustun 15-də prezident Nikson televiziya kameraları qarşısında dolların qızıla konvertasiyasını qadağan etməsi ilə başa çatdı. 1944-cü ildə Breton-Vudzda yaranmış yeni beynəlxalq pul nizamı göstərdi ki, heç bir pul və ticarət sistemi sabit qala bilmir və günümüzə böyük dəyişikliklərə məruz qalaraq gəlib çatır.

**Ədəbiyyat**:


1. Eric Helleiner 2014 Forgotten Foundations of Bretton Woods, Cornell University Press;
2. Elizabet Borgwardt 2005 A new deal for the world
3. Bordo Michael D., “The Bretton Woods International Monetary System: A Historical Overview”, Michael D. Bordo and Barry Eichengreen (ed.), A Retrospective on the Bretton Woods System: Lessons for International Monetary Reform, University of Chicago Press, 1993.
4. Melzter A. H. (1991). US Policy in the Bretton Woods Era. Federal Reserve Bank of St. Lois Review, 73, 54-83.
5. Harold James September 2017 Bretton Woods to Brexit
6. Edward M.Bernstein-( 1927- 1996 )Do the world need a new Bretton Woods?.
7. B.K.Madan (Jun 1, 1969) Echoes of Bretton Woods
8. Arın, T. (1995). Uluslararası Para Fonu, Dünya Bankası ve Birlesmis Milletlerin
9. Kalkınma Stratejileri. Ankara. Petrol-_s Yayınları.
10. Binay, S. (2004). Tarihsel Süreçte Uluslararası Para Fonu (IMF). TürkiyeCumhuriyet Merkez Bankası. Ankara

# SÜNİ İNTELLEKT TEXNOLOGİYALARININ İNKLÜZİV JURNALİSTİKAYA TƏTBİQİ

**Zalova Sünbül Mehman**
**Bakı Dövlət Universiteti**
**sunbulmehmanqizi@gmail.com**

# APPLICATION OF ARTIFICIAL INTELLIGENCE TECHNOLOGIES TO INCLUSIVE JOURNALISM

**Zalova Sunbul Mehman**
**Baku State University**
**sunbulmehmanqizi@gmail.com**

## Summary

The article presents information on the integration of technology into journalism and new emerging media directions. It also explores artificial intelligence technologies, the current situation regarding the application of artificial intelligence to journalism, and the problems encountered in this direction. Examples of journalism based on AI widely used in the international media are shown, and companies offering AI services to global news organizations are analyzed in the article. The article notes that journalism education should always be modern and keep up with the development of technology. Information about the concept of inclusive journalism, the main task of inclusive journalism, the opportunities it can create and the application of artificial intelligence to inclusive journalism are described. Academic research on inclusiveness is investigated, the activity of inclusive journalism in Azerbaijan is studied, and the current situation is analyzed.It was noted that the application of ICT technologies to journalism will serve to provide information to people with physical limitations.At the same time, the prospects of applying ICT to journalism and the issues related to it are being investigated. The article describes the application of artificial intelligence to journalism, which provides anew form of information gathering, preparation, and dissemination.

**Keywords:** Artificial intelligence, NLG technologies, inclusive journalism, ICT Technologies.

# ПРИМЕНЕНИЕ ТЕХНОЛОГИЙ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ИНКЛЮЗИВНОЙ ЖУРНАЛИСТИКЕ

**Залова Сюнбюль Мехман**
**Бакинский Государственный Университет**
**sunbulmehmanqizi@gmail.com**

## Резюме

В статье представлена информация об интеграции технологий в журналистику, новых зарождающихся направлениях медиа. Также объектом исследования статьи стали технологии искусственного интеллекта, современная ситуация с применением искусственного интеллекта в журналистике, проблемы, возникающие в этом направлении. Показаны примеры журналистики искусственного интеллекта, широко применяемой в международных СМИ. Представлены компании, предлагающие услуги ИИ глобальным новостным организациям. В статье также упоминается о необходимости того, чтобы журналистское образование было

постоянно современным и не отставало от развития технологий. Предоставлена информация о концепции инклюзивной журналистики, основной задаче инклюзивной журналистики, возможностях, которые она может создать, и применении искусственного интеллекта в инклюзивной журналистике. Были проанализированы академические исследования инклюзивности. Также была изучена деятельность инклюзивной журналистики в Азербайджане и дана оценка текущей ситуации. Было отмечено, что применение ИКТ-технологий в журналистике послужит для предоставления информации людям с ограниченными физическими возможностями.Также были исследованы перспективы применения ИКТ в журналистике и проблемы, которые они могут создать. Было отмечено, что применение искусственного интеллекта в журналистике может обеспечить новую форму сбора, подготовки и распространения информации.

**Ключевые слова:** Искусственный интеллект, технологии NLG, инклюзивная журналистика, ИКТ-технологии

Müasir dövrdə texnologiyanın inkişafının müxtəlif sahələrə tətbiqi İKT-nin jurnalistikaya təsiri yeni jurnalistika istiqamətlərinin yaranmasına səbəb olmuşdur. “İnternet jurnalistika” (sosial media, vətəndaş jurnalistikası, korporativ media və s.) “Robot jurnalistika”, “Süni intellektə əsaslanan jurnalistika”, “Dron jurnalistika” və s. texnologiya həyatın bütün sahələrinə, o cümlədən jurnalistikaya nüfuz edib (Zalova 2020). İKT və təbii dilin təkamülü nəticəsində ənənəvi xəbər istehsalı dəyişərək, yeni imkanlar əldə etməkdədir. Belə ki, artıq proqram təminatının köməyi ilə avtomatik şəkildə mətni baza məlumatlarından təbii dilə çevirmək mümkündür. Xəbərlərin avtomatik, multimedia resurslarının imkanlarından geniş istifadə olunaraq yaradılması bir ənənə halını almaqdadır. Süni intellekt müasir jurnalistikanın bütün sahələrinə geniş tətbiq olunmaqdadır. Əsasən mətn tipli məlumatların intellektual analizi, multimedia resurslarının avtomatik aşkarlanması, toplanması, müəyyən formata gətirilməsi və digər optimallaşma məsələlərində süni intellekt böyük əhəmiyyətə malikdir (Zalova 2020). Süni intellekt əsasında hazırlanan xəbərlərdə qərəzlilik, reklam və şəxsi rəğbət izlərinin olmaması süni intellekt texnologiyalarına əsaslanan jurnalistikanın əsas xarakterik cəhətidir. Süni intellektə əsaslanan jurnalistika ictimaiyyətin maraqlarına xidmət etmək potensialına malikdir, fərdi məlumatların təhlükəsizliyi, xəbərlərdə şəffaflıq və hesabatlılıq məsələləri daxil olmaqla informasiya təhlükəsizliyində böyük imkanlar yaradır. Xəbərlərin əldə olunmasında, redaktə olunmasında, yayımında, məruzələrin oxunmasında robot proqramlardan (botlardan) geniş istifadə olunmaqdadır. Məsələn, mətnlərdə avtomatik şəkildə ümumiləşdirmələrin aparılmasında, hava proqnozunun hazırlanmasında, reklam bazarında mətni toplayan və emal edən xüsusi analitik sistemlərdən istifadə edilir (Zalova 2020). 1990-cı ildən başlayaraq idman, tibb, maliyyə hesabatlarında bu sistemlərdən geniş istifadə olunmaqdadır. Son illərdə proqram təminatının köməyi ilə hazırlanmış xəbərlər tədricən xəbər hazırlanma sisteminin ayrılmaz bir hissəsinə çevrilib və nəticədə jurnalistika, kompüter elmləri və statistika sahələrinin qarşılıqlı şəkildə işləməsinə səbəb olub (Zalova 2020)

***Süni intellektin jurnalistikaya tətbiq olunması***

Jurnalistika tarix boyu informasiya texnologiyaları və informasiya inqilablarının yaratdığı imkanlardan istifadə etməklə daim formalaşan bir peşədir. Son dövrlər informasiya kommunikasiya texnologiyalarının (İKT) sürətli inkişafı jurnalistikada yeni istiqamətlərin yaranmasına təkan verib. Süni intellekt və təbii dil nəsli (NLG) kimi yeni, innovativ texnologiyaların tətbiqi

yeni media anlayışının yaranmasında böyük rol oynayır. Bu texnologiyalar xəbərlərin toplanması, istehlakı və yayılmasına təsir göstərdiyinə görə jurnalistikaya nəzərə çarpacaq dərəcədə dəyişikliklər gətirdi. İKT-nin jurnalistikaya tətbiqi, 4-sənaye inqilabının təsiri altında kiber-fiziki sistemlərin genişlənməsi süni intellekt-alqoritmik jurnalistikanı formalaşdırdı (Kotenidis, E.2021).

Süni intellekt texnologiyaları xəbər sənayesində bir sıra kateqoriyalara daha çox təsir edir. Bunlar aşağıdakılardır:

- Avtomatlaşdırılmış məzmun istehsalı
- Data mining
- Xəbərlərin yayılması
- Məzmunun optimallaşdırılması

Süni intellekt jurnalistikasında məzmun istehsalında yeniliklərin əsasını "təbii dil generasiyası" və ya qısaca NLG adlandıran texnologiya təşkil edir (Konstantin Nicholas Dörr. 2016). Təbii dil generasiyası dedikdə rəqəmsal strukturlaşdırılmış məlumatlardan mətnin avtomatik yaradılması kimi müəyyən edilir. Bu texnologiyadan ilk dəfə 1950-ci illərdə maşın tərcüməsi konteksində ortaya çıxan bir texnologiyalıdır. Xəbər media sənayesində NLG texnologiyalarından süni intellektlə birgə istifadə etməyə başladılar. Hazırda "Automated Insights", "Narrative Science" və ya "Yseop" kimi süni intellekt şirkətləri alqoritmləri, chatbotları və avtomatlaşdırılmış hesabat sistemlərini hazırlayır və bütün dünya üzrə xəbər təşkilatlarına çatdırırlar.

"Associated Press" (AP) xəbər agentliyində robot jurnalistika təcrübəsindən xüsusilə iqtisadi xəbərlərin hazırlanmasında istifadə olunur. Bu xəbər agentliyində jurnalistlərin işinin əhəmiyyətli hissəsi (iqtisadiyyat və idman xəbərləri) alqoritmlərə keçib. Avtomatik məzmun istehsalı üçün istifadə olunan tətbiqlərdən biri də 2014-cü ildə "Los Angeles Times" tərəfindən yaradılan "Quakebot" proqramıdır. Bu proqram təbii fəlakət və kriminal xəbər mətnlərinin yaradılması və təqdimatında istifadə olunur. 2017 -ci ildə Çinin "Xinxua" xəbər agentliyində canlı müsahibə zamanı robot jurnalistdən istifadə olunub. Robot jurnalist auditoriya tərəfindən maraqla qarşılansa da əsas suallardan kənara çıxa bilmir və məhdud hərəkət edir. Emosionallıq və hadisəyə şərh vermə texnologiyaya əsaslanan jurnalistikada yoxdur. Süni intellektin jurnalistikaya tətbiqi rəqəmsal bərabərsizliyi kəskinləşdirə və fərdi məlumatların icazəsiz yayımına şərait yarada bilər və s. (Zalova 2020). Lakin bütün bunlara baxmayaraq süni intellekt tərəfindən yazılan xəbərlərdə orfoqrafik səhvlərə yol verilmir, hesabat, idman xəbərləri kimi statistik məlumatları hazırlamaqla jurnalistlərin işini asanlaşdıra bilər. Həmçinin süni intellektin jurnalistikaya inteqrasiya olunması fiziki məhdudiyyətli şəxslərin informasiya ilə təmin olunmasını asanlaşdıracaq.

***İnklüziv jurnalistika anlayışı***

İnklüziv jurnalistika haqqında danışmazdan əvvəl inklüziv nə deməkdir ona nəzər salaq. İnklüziv sözünün hərfi mənası (fr. inclusif - "özünə daxil edən", lat. include - "daxil edirəm") daxil edən və ya daxil edirəm deməkdir.

İnklüziv jurnalistikanın vəzifəsi sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə daxil olunmasındır. İnklüziv jurnalistika istər sağlam, istərsə də əlillərin bərabər məlumat alma hüquqlarını təmin edir və bu cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil vətəndaşların informasiya ilə

təmin olunmasına və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur (Verica R. 2017).

Jurnalistika tədqiqatlarına görə "jurnalist hadisəni birbaşa müşahidə edə bilsə belə, öz şərhini verməkdən çəkinir, bunun əvəzinə xəbər mənbələrinə əsaslanmağa üstünlük verir", çünki müxbir üçün xəbər faktlara, mənbəyə əsaslanmalıdır (Siqal 1973). Xəbərlərdə kimin sözünü deyə bilməsi "etibarlılıq, nüfuz və səmimiyyətdən" asılıdır (Brown, Bybee, Wearden & Straughan 1987) və bu meyarlara uyğun insanları tapmağın ən asan yolu rəsmi mənbələri axtarmaqdır.

Media ilə müxtəlif cəmiyyətlərin sosial birliyi arasındakı əlaqə bu gün ən çox müzakirə olunan məsələlərdən biridir. İnsanların çoxu dünya və gündəlik həyat haqqında məlumat almaq üçün mediadan asılıdır.

İnklüziv jurnalistikanın əsas mahiyyəti hamı üçün irqi, rəngi, cinsi, dili, dini, siyasi və ya digər əqidəsi, milli və ya sosial mənşəyi, əmlakı, doğumu və ya digər statusu kimi heç bir fərq qoyulmadan hər kəsin informasiya ilə təmin olunmasını təşkil etməkdir. Həmçinin sağlamlıq imkanları məhdud şəxslərin problemlərini daha da aktuallaşdırmaq və cəmiyyətin diqqətini bu kimi problemlərin həllinə yönəltməkdir. Xüsusi qayğıya ehtiyacı olan vətəndaşların səsləri nə qədər çox eşidilirsə, fərdi və sosial təmsilçi düşüncə qabiliyyəti, onların hüquq və azadlıqlarının müdafiəsi bir o qədər güclü olar.

İnklüziv jurnalistika hər ölkə üçün aktualdır. Bu problemin aktual olması jurnalistika təhsilinə də yeni yanaşma tələb edir.

Bu konteksdə 2007-ci ildə Sinqapurda keçirilən Dünya Jurnalistika Təhsili Konqresi (WJEC) "Jurnalistika Təhsilində Prinsiplər Bəyannaməsi"ni qəbul edib. Jurnalistika təhsilinin fənlərarası xarakter daşıdığını, özünəməxsus bilik və nəzəriyyəyə malik akademik sahə olduğunu bildirib. 2019-cu ildə WJEC üzv təşkilatları Jurnalistika Azadlığı haqqında Paris Bəyannaməsini imzalayıb.

Jurnalistika təhsili tələbələrə kifayət qədər təmsil olunmayan icmaları və sağlamlıq imkanları məhdud olan şəxslərin məsələlərini işıqlandırmaq üçün əməkdaşlıq və inklüziv yanaşmanı ən yaxşı şəkildə necə öyrədə bilər?

İnklüziv mədəniyyətin formalaşmasında medianın xüsusi rolu və məsuliyyəti var. İnklüzivlik məsələləri mediada necə işıqlandırılır, cəmiyyətin inklüziv şüurunun inkişafında medianın maarifləndirici fəaliyyəti hansı səviyyədədir?

İnklüzivliklə bağlı akademik tədqiqatlar göstərir ki, ənənəvi olaraq xəbər mənbələrinin öyrənilməsidə qərəz və nifrət nitqinin yayılmasının qarşısını almaq jurnalistikanın məsuliyyətindədir. Sosial təmsilçilik, mədəniyyət araşdırmalarından tənqidi media nəzəriyyəsinə kimi bu tədqiqatlar, irqçilik və ideologiya, irqindən, etnik mənsubiyyətindən, inancından, dinindən, dilindən və s. aslı olmayaraq hər bir vətəndaşın bərabər imkanlardan istifadə etdiyi bir cəmiyyət *inklüziv cəmiyyət* ideyasını doğurur. Sosial diversifikasiya prosesləri və azlıqların hüquqları ilə bağlı siyasətlər, qanunlar və qaydalar - inklüziv cəmiyyət ideyasının arxasında duran əsas məsələlərdir (Kymlicka 2007).

İnklüziv jurnalistika media sahəsində səslərin müxtəlifliyini təmin etmək üçün yaranmış normativ diskurslar, redaksiya siyasəti və hesabat təcrübələri toplusu kimi müəyyən edilə bilər.

İnklüziv demokratiya və ya siyasi anlayışa əsaslanan inklüziv jurnalistika ideyası jurnalistlərin sosial strukturların bərabərsizliyini həll etmək və onları informasiya ilə təmin etmək üçün xüsusi təklifləri araşdırır (Rupar, V., Pesic, M. 2012).

Tədqiqatçıları ən çox maraqlandıran məsələ sosial təcriddə medianın roludur. Bütövlükdə cəmiyyət üçün sosial inteqrasiya həyat təcrübəsi və fəaliyyətin bir hissəsidir (Ewart and Snowden 2012).

Texnologiyanın inkişafı ilə əlaqədar olaraq media əlilliyi olan şəxslərin problemlərini işıqlandırmaqla yanaşı, fiziki məhdudiyyəti olan insanları informasiya ilə təmin edə və onları informasiya mənbəyinə çevirə bilər.

***İKT texnologiyalarının inklüziv cəmiyyətin formalaşmasında rolu***

İKT informasiyanın əldə olunması, saxlanılması, emalı, təkrar istifadəsi və eyni zamanda qorunması ilə bağlı geniş texnologiyaları əhatə edən bir sahədir. Müasir texnologiyalar sağlamlıq imkanları məhdud insanlar üçün müstəqil bir şəkildə yaşamaq, sağlam insanlarla eyni informasiyaya çata bilmək imkanı və cəmiyyətdə bir fərd ola bilmək baxımından daha da önəmlidir.

İKT fiziki məhdudiyyəti olan insanların üzvü olduqları cəmiyyətə və iqtisadi mühitə inteqrasiyasını asanlaşdırır. Məsələn, Kanada Nitq Patologiyaları və Audioloqistlər Assosiasiyası (ing. The Canadian Association of Speech Language Pathologists and Audiologists) həm öz professional üzvləri ilə, həm də ünsiyyət qurarkən çətinlik yaşayan insanlar, onların qohumları və ya uşaqları ilə sosial media üzərindən əlaqə saxlayır, Facebook və Twitter kimi sosial şəbəkələr vasitəsilə şirkətlərinə məxsus hadisələri və xəbərləri öz izləyiciləri ilə bölüşürlər (A. Khetarpall, 2014).

İKT vasitəsilə fiziki məhdudiyyətli bu insanların əmək fəaliyyətinə cəlb edilməsinin müxtəlif yolları mövcuddur. Məsələn, Hindistanda əlil insanların özlərinə daha rahat iş tapmasına imkan verən saytlar hazırlanmışdır. Bu saytlarda qeydiyyatdan keçən şirkətlər, əgər əlil işçi götürməyə maraqlıdırsa, onda asanlıqla axtarılan işçiləri tapa bilirlər.

İKT-də fiziki məhdudiyyətləri olan insanlara kömək sahəsində istifadə olunan proqramlardan biri də “Mind Machine Interface” (MMI) və ya “Brain-Computer Interface” (BCI)-dır. Bu proqram insanların fikirləri ilə robotları idarə etməyə dəstək olur. Beləliklə, fiziki problemləri olan insanlar robotlar vasitəsilə öz fikirlərini həyata keçirə bilirlər. 14 Aprel 2016-cı ildə Massaçusets Texnologiya Universitetində (ing. Massachusetts Institute of Technology) aparılan araşdırmalarda eşitmə problemi olan insanların öz fikirlərini digər insanlara çatdıra bilmələri üçün yeni bir kəşf olmuşdur. Belə ki, eşitmə problemi olan şəxs əlinə “bluetooth” vasitəsilə məlumat ötürə bilən əlcəkləri geyinir. Sonra cihaz həmin şəxsin əl hərəkətlərini ona bağlı olan kompütерə ötürür. Kompüter isə öz növbəsində bu məlumatları səsə çevirərək insanların bu şəxsi daha yaxşı anlamağına kömək edir. Göründüyü kimi, gələcəkdə bu ixtira eşitmə qüsurları olan insanların cəmiyyətə inteqrasiyası prosesində çox önəmli rol oynayacaqdır (M.Məmmədova, S.Əhmədli, 2016).

Azərbaycanda hazırda əlillər əhalinin 5,6 faizini təşkil edir (http://www.udpo.az/qanunlar/index.html) Hazırda anadangəlmə danışma və eşitmə qabiliyyəti olmayan 8 mindən çox insan qeydiyyatdadır. Dövlətin qəbul etdiyi "İnformasiya əldə etmək haqqında" qanuna görə, ölkə vətəndaşlığını qəbul etmiş hər kəsin informasiya almaq hüququ var (e-qanun). Azərbaycanda fəaliyyət göstərən televiziya kanallarının bir çoxunda (ARB-nin 19:00 buraxılışında istifadə olunur) surdo

tərcümədən (Jest dili) geniş istifadə edilmir. Bunu isə eşitmə və nitq qabiliyyəti olmayan insanların hüquq pozuntusu kimi qiymətləndirmək olar. Çünki sosial inklüzivliyə əsaslanan siyasətlər hamıya səlahiyyət vermək və iştirak etmək məqsədi daşımalıdır (Mitchell və Shillington, 2002).

Eşitmə və nitq məhdudiyyəti olan şəxslər üçün televiziya xəbərlərinin təqdim olunmasında dünya mediasında jest dilindən istifadə olunur. İKT texnologiyalarının tətbiqi ilə əlilliyi olan vətəndaşların informasiya baryeri aradan qaldırıla bilər.

Analtik vasitə kimi inklüziv jurnalistika insanların sosial mühitdə media təmsilçiliyi funksiyasını həyat keçirir. Texnologiyanın sürətli inkişafı jurnalistikaya inteqrasiyası süni intellektin inklüziv jurnalistikaya tətbiq olunması yeni imkanlar yarada bilər. Süni intellektin jurnalistikaya tətbiqi informasiya saytları və ya agentliklərində yayılan xəbərlərin avtomatik olaraq səsli mətnə, jest dilinə və s. çevrilməsini təmin edə bilər.

Araşdırmaların nəticəsi göstərir ki, texnologiyanın jurnalistikaya tətbiqi yeni imkanlar yarada bilər. Media və jurnalistika sahəsində mütəxəssislər sosial inkişafların texnoloji səviyyəsinə uyğunlaşmalıdırlar. Texnologiyanın jurnalistikaya inteqrasiyası inklüziv cəmiyyətin formalaşmasında mühüm rol oynayır. Texnologiyanın köməyi ilə əlilliyi olan vətəndaşlar həm informasiya ilə təmin oluna bilər, həm də informasiya mənbəyinə çevrilə, öz problemini aktuallaşdıra bilər. İKT fiziki məhdudiyyətli insanların yenidən cəmiyyətə qaytarılmasına, onların müstəqilliyinin bərpasına və cəmiyyətdə bərabərhüquqlu insanlar olmalarına vəsilə olacaqdır.

**Ədəbiyyat**:


1. Zalova S. (2020) Süni intellekt texnologiyalarına əsaslanan jurnalistika: problemlər və perspektivlər İnformasiya cəmiyyəti problemləri, 1, 119–127.
2. Barnhurst, K. G., & Nerone, J. (2009). Journalism history. The handbook of journalism studies, 17-28.
3. Ewart, J., & Snowden, C. (2012). The media's role in social inclusion and exclusion. Media International Australia, 142(1), 61-63.
4. Kotenidis, E. Algorithmic Journalism Current Applications and Future Perspectives / E. Kotenidis, A. Veglis // Journalism and media. – 2021. – № 2. – C. 244–254.
5. Rupar, V. and Pesic, M. (2012). Development of Journalism Education and Rebuilding Democracy. In Hamada, B. (ed) Rebuilding Egyptian Media for a Democratic Future [in Arabic], Cairo: Dar Alam al-Kuttub, 2012, pp 154-171.
6. Kymlicka, W. (2007). Multicultural odysseys: navigating the new international politics of diversity. Oxford: Oxford University Press
7. Mitchell, A., & Shillington, R. (2002). Poverty, inequality and social inclusion. Toronto: Laidlaw Foundation. Retrieved 2 September 2017 from: http://library.bsl.org.au/jspui/bitstream/1/1797/1/poverty-inequality_social_inclusion.pdf
8. Konstantin Nicholas Dörr. 2016. Mapping the field of Algorithmic Journalism. Digital Journalism 4, 6 (August 2016), 700–722.
9. https://e-qanun.az/framework/11142 (İnformasiya əldə etmək haqqında)

10. Sigal, L. (1973). Reporters and officials-the organization and politics of news making, Lexington: Heath & Company.
11. https://www.wjec.paris/conference-proceedings/
12. Brown, D., Bybee, R., Wearden, T. & Straughan, M. (1987). Invisible power: Newspaper news sources and the limits of diversity. Journalism Quarterly 64, 45-54
13. Verica R. (2017) Inclusive journalism: How to shed light on voices traditionally left out in news coverage, Journal of Applied Journalism & Media Studies 6(3), 1-6
14. A. Khetarpall. "Information and Communication Technology (ICT) and Disability", Review of Market Integration,vol.6,no.1, pp. 6-13, 2014.
15. M.Məmmədova, S.Əhmədli "Sağlamlıq İmkanları Məhdud İnsanların Cəmiyyətə İnteqrasiyası Prosesində İKT-nin Rolu", "Elektron tibbin multidissiplinar problemləri" I respublika elmi-praktiki konfransı, Bakı, 24 may 2016-cı il, s.-273-276

## SHUSHA AS A PEARL OF GARABAGH: A BRIEF HISTORY OF CULTURAL CITY

**Orucova Sugra Askar**
**Baku State University**
**https://orcid.org/0000-0001-7735-6548**
**sugrau@mail.ru**

## ŞUŞA QARABAĞIN İNCİSİ KİMİ: MƏDƏNİYYƏT ŞƏHƏRİNİN QISA TARİXİ

**Orucova Suqra Əskər**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0001-7735-6548**
**sugrau@mail.ru**

### Xülasə

Bu tezisdə Qarabağın və xüsusən Azərbaycanın mədəniyyət paytaxtı kimi Şuşanın tarixi haqqında qısa məlumat verilir. Mövzunun aktuallığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2022-ci ili "Şuşa İli" elan etməsi ilə bağlıdır. Beləliklə, bu tezisin məqsədi Qarabağın, Şuşa şəhərinin tarixinin yaranmasından tutmuş müasir dövrə qədər baş verən hadisələrin təsviridir. İlk növbədə tədqiqat Şuşanın tarixi və onun Azərbaycan tarixində yeri haqqında oxuculara məlumat verir. Bu işi yazarkən müxtəlif dillərdə müxtəlif mənbələrdən istifadə edilmişdir. Şuşa Azərbaycanın nadir mədəniyyət mərkəzlərindən biridir. O, gözəlliyi ilə seçilən bir şəhərdir. Qarabağ xanlığının mərkəzi olan Şuşa böyük iqtisadi, siyasi və mədəni əhəmiyyət kəsb edən bir şəhər kimi xalqımızın həyatında xüsusi rol oynamışdır. Tezis Azərbaycan ərazisində baş verən hadisələri təsvir edən 3 hissədən ibarətdir. Sonuncu hissədə 44 günlük müharibə və 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyannamə, 15 iyun 2021-ci il tarixli Şuşa bəyannaməsi haqqında məlumat verilmişdir. Ən mühüm hadisə-Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci ilin "Şuşa şəhəri İli" elan edilməsi haqqında sərəncam imzalamasıdır.

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Şuşa, tarix.

# ШУША, КАК ЖЕМЧУЖИНА КАРАБАХА: КРАТКАЯ ИСТОРИЯ КУЛЬТУРНОГО ГОРОДА

**Оруджова Сугра Аскер**

**Бакинский Государственный Университет**

**https://orcid.org/0000-0001-7735-6548**

**sugrau@mail.ru**

**Резюме**

В данном тезисе будут представлены краткие сведения об истории Карабаха и особенно Шуше-культурной столице Азербайджана. Актуальность темы связана с распоряжением Президента Азербайджанской Республики Ильхама Алиева об объявлении 2022 г. "Годом города Шуша". Таким образом, целью данного тезиса является описание событий, происходивших в истории Карабаха, истории Шуши, начиная с образования до современного периода. В первую очередь, исследование дает информацию читателям об истории Шуши и ее месте в истории Азербайджана. При написании данной работы были использованы различные источники на разных языках. Шуша является одним из уникальных культурных центров Азербайджана. Это город, который отличается своей красотой. Шуша, будучи центром Карабахского ханства, прошла богатый путь, пока не утвердилась как город большого экономического, политического и культурного значения, играла особую роль в жизни нашего народа. Тезис состоит из 3 частей, которые описывают события, происходящие на территории Азербайджана. В последней части дана информация о 44-дневной войне и Трехсторонней декларации от 10 ноября, 2020 года, Шушинской декларации 15 июня 2021 года в городе Шуша. И самое важное событие – Президент Азербайджана Ильхам Алиев подписал распоряжение об объявлении 2022-го года «Годом города Шуша».

**Ключевые слова:** Азербайджан, Гарабах, Шуша, история.

The thesis describes the brief information about the history of Garabagh and especially Shusha as a cultural capital of Azerbaijan and the declaration of 2022 "Year of Shusha" by President of the Republic of Azerbaijan Ilham Aliyev. Previous studies have focused on researches in terms of varied directions. This article illustrates the events taken place in the history of Garabagh, including of Shusha, beginning from the formation till contemporary period. The main objective of this study is to present the comparison between past and present-day Shusha. The results of the study provide thorough understanding of the measures taken toward restoration of the pearl of Azerbaijan. Various scientific literatures in different languages have been used during the research.

**Garabagh as the oldest place for mankind.** First of all, it must be noted that the word "Garabagh" which translated from Azerbaijani as the "Black Garden, proves that this land belongs to Azerbaijan historically. Garabagh has specific place and role in the history of Azerbajan. This region of our country is one of the most ancient habitations in the world. Sites of the most ancient times have been found within its territory. The jaw-bone of a primitive man of Azykh named azikhantrope was found in the Azykh Cave in 1968 (Vəlixanlı and Cabbarov, 2020).Significant changes in Garabagh history took place in the $7^{th}$ -$9^{th}$ centuries, with the Arab Caliphate occupation, as a result the majority of population adopted Islam (Huseynov, 2017).Garabagh was part of different Muslim states such as Sajids, Salarids, Shaddadids, Atabekhs, Hulagids, Garagoyunlu, Aghgoyunlu, which replaced one another in Azerbaijan. Safavid state was established in 1501 that

marked the beginning of the centralization of all Azerbaijani lands. One of the four bekhlarbekhs established by Safavids was named Garabagh or Ganja beklarbekh.

**The history of formation of Shusha city**. The creation of Garabagh khanate and the formation of Shusha city and beginning of its history which is the most dear and great historical corner of Azerbaijan (Hacıyev, 2005). The Garabagh khanate was established in 1747 by Panakhaly khan Javanshir. Panakhali khan Javanshir created the city and fortress of Shusha; this is a great monument created by the Azerbaijani people and our ancestors, not just a city, but a great historical monument (Hüseynov, 2007). In this city, a great culture, cultural heritage and heroic examples of the Azerbaijani people with several centuries of history have been created around it (Bayramov, 2003). “Shusha not only for Shusha residents, for all Azerbaijanis, every citizen who loves his homeland and his nation for it, Shusha is a dear city, a dear land, a dear fortress, a dear monument.” These words were said by National leader of Azerbaijan Heydar Aliyev that assists us to understand the meaning of Shusha. During the reign of the son of Panakhali khan, Ibrahim khan, the Garabagh khanate became even more powerful. Ibrahim khan signed a treaty with commander of the Russian forces Sisianov in Kurakchay in 1805 (Yeşilot, 2021). According to Kurakchay treaty, Garabagh khanate was annexed to Russia. The Kurekchay Treaty is one of the most important documents evidencing that Garabagh, including its mountainous region, historically belonged to the Azerbaijani nation (Исмаилов, 2010). On 28 May 1918, after being ruled by Russia for almost 100 years, the Azerbaijani people established a new independent state in Northern Azerbaijan which had great meaning for today Azerbaijan (Abdullayev, 2017). This republic did not last a long time in 1920, April Soviet power was established there. This dependence lasted till 1991, fortunately Azerbaijan Republic was established. With the announcement of its independence, new republic began to spend various reforms. Our homeland, located in an extremely geostrategically favorable area, with its rich underground and surface resources, attracted the attention of enemies and caused them to set foot in our homeland. From time to time, the brave men of the homeland fought to the death against the old enemy, and even managed to preserve the territorial integrity of our country. Of course, people's struggle for survival is a very difficult, complex and multifaceted process. Thus, we are talking about the inexhaustibility of human life, its inner spiritual world, the infinity of its potential. In the late 80s and early 90s of the twentieth century, Armenia openly made territorial claims to the historical lands of Azerbaijan and launched a military aggression against our country. However, on May 8, 1992 Shusha was captured by Armenians and that was really the unluckiest page of Shusha’s history. Armenians not only captured these territories, but also they destroyed cultural monuments, buildings, their main aim was to clean Azerbaijani history. It does not last a long period. 44-days war was turning period for history of Azerbaijan. Azerbaijani territories were returned from Armenian occupation (14). I want to write about Patriotic War and especially its significance and consequences. We can find a lot of information about this topic, also we are able to write great works with a sense of pride because we success in this way as it ends with our victory which opens to us the beginning for new flourishing days (Yeşilot, 2021). All of us had been waiting for this event approximately for 30 years for the returning our lands. Unfortunately, I would like to note

with regret, we reach aim but it costs for us with thousands of Martyrs who we never forget. As the people of Azerbaijan, no one will forget them and dept to them. I want to give short information about the beginning and a continuation of war. Patriotic War began 27 September 2020 and lasted 44 days. The significance of these days is great. During this short period of time our monuments, ruined houses, steppes, gardens were escaped (Mülahizə və məzmun, 2021). In my opinion finally we can say this victory showed to the world the power of Azerbaijani people, their Leader and army. It should be noted everyone has to know that there any status given to Garabagh. It is part of Azerbaijan. All lands which return will changed, flourished, agriculture, roads and etc. will restored. All people who were removed from their own lands according to the order of President of Azerbaijan Republic will return to their motherlands (15).

Azerbaijan heard the first steps of the Great Victory on November 8, 202 in the first hours of the liberation of Shusha, the pearl of Garabakh. Yes, the salvation of our ancient homeland paved the way for our complete victory. The enemy had no choice but to raise a white flag and capitulate. In the battles, the whole world clearly saw the determination of the Azerbaijani people, the fighting ability of the Azerbaijani Army. It was reaffirmed how our patriotic people support their President and unite closely around him. "We are waiting for a single order from the Supreme Commander-in-Chief," said the Azerbaijani soldiers and officers, proving in battle that they have their word.

"Dear Shusha, you are free!
Dear Shusha, we are back!
Dear Shusha, we will revive you!
Shusha is ours! Karabakh is ours! Karabakh is Azerbaijan!"

"Shusha is one of the unique cultural centers of Azerbaijan. Natural it is a city that is distinguished by its beauty and the beauty of our national architecture. It is a precious monument of his art. Having always kept our national and spiritual values and musical traditions alive, Shusha, being the center of the Garabakh Khanate, passed a rich way until it was established as a city of important economic, political and cultural importance, played a special role in the life of our people. It is known as the cradle of Azerbaijani mugham" these words were said by Ilham Aliyev, President of The Azerbaijan Republic.

According to the November 10 Tripartite Declaration, Armenia returns Aghdam, Kalbajar and Lachin regions to Azerbaijani control, and the Azerbaijani side guarantees the security of the Lachin Corridor, which will be used as a humanitarian link between Armenia and Armenians living in Garabakh. Azerbaijan has launched a large-scale program to restore the liberated territories and develop infrastructure in the region, and many international companies are involved in this process. Azerbaijan has already signed agreements with Turkish and Italian companies and is working on the reconstruction of all necessary roads, railways and other infrastructure, which are key elements of full economic integration (Ibrahimov, 2021).

Shusha Declaration of June 15, 2021 year is a cooperation between Azerbaijan and Turkey in the political, economic and military spheres was further continued after the signing on June 15 by Presidents Ilham Aliyev and Recep Tayyip Erdogan. This declaration considered a very essential way of cooperation between two brotherhood countries in various directions including

economical, cultural, political, social ones. As for the prospects for further expansion and development of the Azerbaijani-Turkish allied relations, the text of the declaration lists the ways in which this will be carried out. The document specifies the spheres of existing and prospective cooperation - military-political, military-technical, trade-economic, humanitarian (Кузнецов, 2021).

The article deals with data on the brief history of Shusha city and its role in the history of Azerbaijan. And last given words said President of Azerbaijan Republic Ilham Aliyev which proved the essence of Shusha. Shusha is a key city in the Garabakh region due to its geographical location and historical significance as one of the major cultural, economic, and administrative centers of Azerbaijan. For many years, our poets have written poems about the marvelous Garabakh, and its cradle of music and poetry - Shusha. Today, every citizen writes poems in honor of Shusha. Because Shusha, being the pearl not only of Azerbaijan, but also of the entire Caucasus, is the cradle of our culture, the mugham-singing heart of our country. Today, the city of Shusha restores its own historical and cultural appearance. The city is now under generally reconstruction and rebuilding. The Government of Azerbaijan paid a great attention to the preservation of all traces and heritages of ancient history of the region.

**References:**

1. Abbasova X. (2021). Şuşa – Azərbaycanın mədəniyyət paytaxtı. Elm.
2. Abdullayev M. (2017). History of Azerbaijan. Bakı Universiteti.
3. Bayramov A. (2002) Şuşa-Azərbaycanın mədəniyyəti və tarixi incisidir. Nağıl evi.
4. Cavanşir A. (2019). Karabağ Hanlığının Tarihi. Post Yayın.
5. Hacıyev N. (2005). Dağlıq Qarabağın tarixindən sənədlə. Gənclik.
6. Hüseynov Y. (2007). Qarabağnamələr Azərbaycan tarixini öyrənmək üçün mənbə kimi. Elm.
7. İbrahimov M. (2021). 44 günlük Qarabağ müharibəsi, mülahizə və dəyərlər. Azərbaycan.
8. Ismailov D. (2017). History of Azerbaijan. Poliqrafiya Mərkəzi.
9. Исмаилов Э. (2016). Очерки по истории Азербайджана. Флинта.
10. Кузнецов О. (2021). Война и Мир: Карабаха полгода спустя.
11. Vəlixanlı N., Cabbarov F., (2020). Azərbaycan tarixi 100 eksponatda. Elm və təhsil.
12. Yeşilot O. (2021), “Karabağ: Dünü, Bugünü, Yarını. Selenge yayinları.
13. 44 günlük Qarabağ Müharibəsi: Mülahizə və məzmun. (2021).
14. 44 gün sürən Vətən Müharibəsi (II Qarabağ müharibəsi). Azərbaycan Respublikasının Baş Prokurorluğunun məlumatı / Elektron resurs URL: https://genprosecutor.gov.az/az/page/azerbaycan/i-ve-ii-qarabag-muharibesi/44-gun-suren-veten-muharibesi-ii-qarabag-muharibesi
15. İlham Əliyev xalqa müraciət edib / Elektron resurs / - 10 Noyabr, 2020URL: https://president.az/az/articles/view/45924

# BRITISH ECONOMY AFTER BREXIT

**Gasimova Khayala Namig**
**Baku Slavic University**
**https://orcid.org/0000-0001-5832-4591**
**khayala.english@gmail.com**

# BREXİTDƏN SONRA BRİTANİYA İQTİSADİYYATI

**Qasimova Xəyalə Namiq**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0000-0001-5832-4591**
**khayala.english@gmail.com**

**Xülasə**

Ali təhsil müəssisəsi regionun innovasiya sisteminin obyektlərindən biridir. Universitetlər innovasiya sisteminin digər obyektlərinə nisbətən daha effektiv şəkildə innovativ inkişaflar həyata keçirir və tədqiqatlar aparır ki bu da gələcəkdə praktikada istifadə olunur.[6]

Müasir dövrdə təhsilin iqtisadi həyatda rolu əhəmiyyətli dərəcədə artmışdır. Hazırda təhsil iqtisadiyyatda tələb olunan bilik və bacarıqların aşılanması ilə bərabər, vətəndaşın gələcək həyata və cəmiyyətə inteqrasiyasına hərtərəfli hazırlığı kimi vəzifələri yerinə yetirməlidir.[1]

Azərbaycan Respublikasında regional ali təhsil müəssisələrinin yaradılması təcrübəsi Sovetlər dövründən başlanmış və müstəqillik illərindən başlayaraq bu prosesin inkişaf etdirilməsinə daha çox diqqət yetirilir. Bunun əsas səbəbləri yuxarıda qeyd etdiyimiz kimi regionların ehtiyacına uyğun olaraq elmi-pedaqoji kadr potensialının formalaşdırılması və inkişaf etdirilməsidir. Respublikamızın ali təhsil müəssisələri şəbəkəsi daha da genişləndirilərək əsas iqtisadi zonaları əhatə edir: Gəncə Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Lənkəran Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti, Sumqayıt Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Bakı Dövlət Universitetinin Qazax filialı, İqtisad Universitetinin Zaqatala filialı, ADPU-nun Şəki, Quba, Cəlilabad, Ağcabədi, Şamaxı filiallarını və s. misal göstərə bilərik. Bu gün də dövlətimizin maraqlarına uyğun ali təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsi prosesi davam edir.

Ali məktəblərin ayrı-ayrı rayonların və ya regionların inkişafında katalizator kimi istifadə edilməsi qardaş Türkiyə Respublikasının təcrübəsində də mövcuddur. Amma buna ən gözəl nümunə ABŞ-dır. ABŞ da bütün böyük və məşhur universitetlər kiçik şəhərlərdə yerləşir. [2]

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələrinin standartlarına uyğunlaşdırılması istiqamətində həyata keçirilən tədbirlər çərçivəsində hərbi təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi məqsədilə Milli Müdafiə Universiteti yaradılmışdır. Azərbaycanda tədqiqat potensialı yüksək olan 2 universitetin bazasında 2 tədqiqat universiteti yaradılması da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təsdiqlədiyi “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda öz əksini tapmışdır. [1]

Müasir dünyada ali məktəblər ağır qlobal rəqabətə davam gətirmək məcburiyyəti qarşısındadırlar. Yaşamaq və irəli getmək üçün özünü digərlərindən fərqləndirmək daha səviyyəli daha güclü olduğunu sübuta yetirmək zəruridir. [3]

Ali təhsil müəssisələri şəbəkəsinin genişləndirilməsində təkcə iqtisadiyyatın müxtəlif sahələrinin regional müəssisə və təşkilatlarının ehtiyaclarına diqqət yetirmək deyil, həm də elmin müəyyən sahələri üzrə mütəxəssislərin hazırlanmasına tələbat yaratmaq imkanı məhz regional universitetlərdə mövcuddur. Regional universitetlər davamlı olaraq gələcək üçün ən yaxşı inkişaf yolunu və regionun ali təhsil sistemində rəqabətə davamlı olmaq imkanlarını axtarırlar. Müəyyən bir ərazinin innovativ inkişafının əsas amillərinə əsas təsir göstərən universitetlərdir.[5]

Ali təhsil müəssisələri şəbəkəsinin inkişaf qanunauyğunluqları mövcud Azərbaycan ali təhsilinin ənənələri üzərində qurulmaqla regional xüsusiyyətləri və tələbləri özündə birləşdirir. Bu ba-

xımdan regional ali təhsil şəbəkələrinin effektivliyi təhsilin keyfiyyətinin qiymətləndirilməsi məsələlərində regional parametrlərin daha çox nəzərə alınması ilə bağlıdır. Bu baxımdan regional ali təhsil şəbəkəsinin modelinin effektivliyi böyük əhəmiyyət kəsb edir. Belə modellər adətən iki prinsip üzərində qurulur; ali təhsilin idarə olunmasında dövlət siyasəti və ayrı-ayrı təşkilatların xidməti ilə bağlıdır. Belə ciddi problemlərin həllində beynəlxalq təcrübəyə uyğun olaraq ilk növbədə regional ali təhsil şəbəkəsinin effektivliyinin qiymətləndirilməsi metodologiyasına müasir tələblər baxımdan bir aydınlıq gətirilməlidir. Eyni zamanda regional ali təhsil şəbəkəsinin inkişafına təsir göstərən məqsədyönlü dövlət tədbirləri də öz təsirini artırmalıdır.

Uzun illərin təcrübəsi göstərir ki, Respublikamızda ali təhsil müəssisələrinin əksəriyyəti Bakı şəhərində cəmlənmişdir. Bu da regionlarda yaşayan gənclərin təhsil almasında çətinliklər törədirdi. Beləliklə apardığımız araşdırmalara əsasən aşağıdakı nəticələri qeyd edə bilərik:

- Regionların inkişafı üçün regional ali təhsil şəbəkəsinin rolu danılmazdır;
- Regionların ehtiyacına uyğun elmi-pedaqoji kadr potensialı formalaşır;
- Regionlarda davamlı inkişafa təminat verir;
- Regionlardan paytaxta doğru miqrasiya axınının qarşısını almaqda önəmli rola malikdir.

Bütün bunlar ölkənin iqtisadi potensialını inkişaf etdirən milli təhlükəsizliyini və davamlı inkişafını təmin edən əsas amillərdəndir.

**Ədəbiyyat:**

1.Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. 24 oktyabr 2013

2.Ali təhsil və cəmiyyət jurnalı. 2012. №1.

3.H.İsaxanlı. Müasir dünyada ali təhsil sistemində nələr baş verir. 2008.

4.https://qafqazinfo.az/news/detail/azerbaycanda-milli-mudafie-universiteti-yaradilib-364261

5.Губарьков С.В.Рол вузов в повышении эффективности функционирования региональной инновационной системы. 2014.

6.Милова. Ю.Ю. Рол высших учебных заведений в развитии регионов. 2012.

## SCIENTIFIC AND PEDAGOGICAL BASIS OF USING STEM TECHNOLOGIES IN BIOLOGY LESSONS

**Azizova Malak Mahammad**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-6135-7845**
**malak.azizova@abc.edu.az**

## BİOLOGİYA DƏRSLƏRİNDƏ STEM TEXNOLOGİYALARINDAN İSTİFADƏNİN ELMİ-PEDAQOJİ ƏSASLARI

**Əzizova Mələk Məhəmməd**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-6135-7845**
**malak.azizova@abc.edu.az**

## Xülasə

Məqalədə Biologiya dərslərində STEM texnologiyasından istifadənin elmi-pedaqoji əsaslarının əsas müddəaları barədə məlumat verilir. Orta məktəblərdə Biologiya kursunun tədris, təlim və tərbiyə prosesi zamanı təhsil alanlara yanaşmalara yenidən baxılması üçün zəruri tələblər araşdırılmışdır. Məqalədə, həmçinin həmin texnologiyalar və onların Biologiya dərslərində istifadəsinə düzgün yanaşma ətraflı təsvir edilir. Məqalədə STEM təhsilinin fənlər üzrə deyil, mövzular üzrə inteqrasiya olunmuş təhsil kimi üstünlüklərinin analizi verilir; kreativ düşüncə və problemlərin həll edilməsinə yönəlmiş vərdişlərinin inkişafı; texniki yönümlü fənlərə marağın inkişaf etdirilməsi və s. Həmçinin müasir texnoloji istiqamətlərin üstünlüklərinin analizi və təlim kursunu hazırlayan müəllimin işində onların həyata keçirilməsi imkanlarının təhlili aparılır. Praktik material olaraq STEM texnologiyası vasitəsi ilə biologiya dərslərində hesablamalara və riyazi həllərə aid bir sıra ideyalar və onların həlli yolları təklif edilmişdir. 8-9-cu siniflərin Biologiya kursunda tədqiqat yönümlü tapşırıqların həlli şagirdlərin məlumatlarla işləmək, dataları analiz etmək və nəticələrin çıxarılması bacarıqlarını inkişaf etdirir. Layihə əsaslı Biologiya dərslərində STEM texnologiyalarının tətbiqi şagirdlərin intellektual, emosional və sosial inkişafına müsbət təsir edir.



**Açar sözlər:** STEM, tədris, texnologiya, pedaqogika, şagirdlər.


## НАУЧНО-ПЕДАГОГИЧЕСКИЕ ОСНОВЫ ИСПОЛЬЗОВАНИЯ STEM-ТЕХНОЛОГИЙ НА УРОКАХ БИОЛОГИИ


**Азизова Мелек Мухаммед**

**Институт Образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0001-6135-7845**

**malak.azizova@abc.edu.az**



## Резюме

В статье представлена информация об основных положениях научно-педагогических основ использования STEM-технологий на уроках биологии. Исследованы необходимые требования к пересмотру подходов к учащимся в процессе преподавания, обучения и воспитания по курсу биологии в общеобразовательных школах. В статье также подробно описаны эти технологии и правильный подход к их использованию на уроках биологии. В статье проводится анализ преимуществ STEM-образования как интегрированного обучения по предметам, а не по предметам; развитие творческого мышления и навыков решения проблем; развитие интереса к техническим предметам и др. Также проводится анализ преимуществ современных технологических направлений и возможности их внедрения в работу преподавателя, готовящего учебный курс. В качестве практического материала ряд идей, связанных с расчетами и математическими решениями, и их решения были предложены на уроках биологии посредством технологии STEM. Решение задач исследовательской направленности по курсу биологии 8-9 классов развивает у учащихся навыки работы с данными, анализа данных и формирования выводов. Применение STEM-технологий на проектных занятиях по биологии положительно влияет на интеллектуальное, эмоциональное и социальное развитие учащихся.



**Ключевые слова:** STEM, биология, учебно-педагогический процесс, технология, педагогика, учащиеся


The article provides information on the main provisions of the scientific-pedagogical basis of using STEM technology in Biology classes. Necessary requirements for revising approaches to learners during the teaching, training and education process of the Biology course in secondary schools were investigated (Tyson, 2007) (Felder, 2016). The article also describes in detail those technologies and the correct approach to their use in Biology classes. The article provides an analysis of the advantages of STEM education as an integrated education on subjects rather than

subjects; development of creative thinking and problem-solving skills; development of interest in technical subjects, etc. Also, an analysis of the advantages of modern technological directions and the possibility of their implementation in the work of the teacher preparing the training course is carried out. As a practical material, a number of ideas related to calculations and mathematical solutions and their solutions were proposed in biology classes through STEM technology.

Through STEM technology, the possibilities of integrating not only biological concepts, but also lessons on topics have been opened in Biology lessons.

Methodology and methods. Based on the research conducted in the field of exact sciences, it can be concluded that the lack of self-motivation of the trainees becomes a big problem along with the insufficiently equipped material and technical base, while the quality of education is at a low level (Mangal, 2007).

Scientific innovation. Currently, changes have started in the Biology course of secondary schools regarding the inclusion of STEM technology in the teaching and learning process, which means that it is necessary to retrain the teaching staff for the professions of the future (Porozovs et., 2015) (Cunningham, 2017). The STEM approach technology is based on the understanding of the importance of developing skills of coordination and invention in order to achieve success in any field in the modern age (Sharma, 2018). Students, in turn, rely on their flexible thinking and sharp minds to solve specific problems (Healy, 2011). The level of training in STEM technology is directly related to age characteristics and the curriculum of the subject of Biology. (Wahono, 2018) (Marginson, 2013). The application of STEM technology in educational institutions develops habits comprehensively, gender aspects are taken into account, and at the same time every student has completely equal development opportunities.

Currently, there are many successful examples of project work on STEM technology in Biology classes (Estrada, 2016) (Gasiewski, 2012). (Zollman, 2012) in the 8th-9th grades of high schools, and practice shows that these attempts are successfully implemented, as STEM technology engages the hemisphere of the brain responsible for creativity, feelings and emotions (Estrada, 2016) (Hobbs, 2018). The main ideology of modern education is that today's children should be educated and brought up in such a way that they become a successful generation in the future.

**Ədəbiyyat**:

1. Vasquez, J. A., Sneider, C. I., & Comer, M. W. (2013). STEM lesson essentials, grades 3-8: Integrating science, technology, engineering, and mathematics (pp. 58-76). Portsmouth, NH: Heinemann.

2. Saito, T., Gunji, Y., & Kumano, Y. (2015). The problem about technology in STEM education: Some findings from action research on the professional development & integrated STEM lessons in informal fields. K-12 STEM Education, 1(2), 85-100.

3. Getmanskaya, E. (2021). Steam technologies in Western education: new approaches to literary text study. Revista Tempos e Espaços em Educação, 14(33), 6.

4. Hashimova, X. T. (2021). The Role and Tasks of Information and Communication Technologies and Pedagogical Technologies in Teaching Biology. Academic Journal of Digital Economics and Stability, 10, 89-92.

5. Lindsay, S. M. (2021). Integrating microscopy, art, and humanities to power STEAM learning in biology. Invertebrate Biology, 140(1), e12327.

6. Nizomova, B. (2022). Steam approach in biology education.

7. Henriksen, D. (2017). Creating STEAM with design thinking: Beyond STEM and arts integration. The STEAM Journal, 3(1), 11.

8. Glass, D., & Wilson, C. (2016). The art and science of looking: Collaboratively learning our way to improved STEAM integration. Art Education, 69(6), 8-14.

9. Moon, K. M. H. (2020). A case study of the perceptions of education stakeholders of STEAM integration in a K-8 setting (Doctoral dissertation, Concordia University (Oregon)).

10. Hlukhaniuk, V., Solovei, V., Tsvilyk, S., & Shymkova, I. (2020, May). STEAM education as a benchmark for innovative training of future teachers of labour training and technology. In SOCIETY. INTEGRATION. EDUCATION. Proceedings of the International Scientific Conference (Vol. 1, pp. 211-221).

# NATAMAM AİLƏLƏRDƏ BÖYÜYƏN YENİYETMƏLƏRİN TƏRBİYƏ İŞİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Mirzəliyeva Nərminə Seyfəl**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-0422-1543**
**mirzaliyevanarmina95@gmail.com**

# IMPROVING THE UPBRINGING OF TEENAGERS GROWING UP IN INCOMPLETE FAMILIES

**Mirzaliyeva Narmina Seyfal**
**Baku State University**
**https://orcid.org/0000-0002-0422-1543**
**mirzaliyevanarmina95@gmail.com**

## Summary

In the education of children from incomplete families, as well as children belonging to other families, there should be constant interaction between the educational institution, the teacher and the parents. One of the main factors influencing the formation and development of a child as a personality and the most important is the family, training and education process. Teachers and other educational workers should always help adolescents from incomplete families and their parents, influence them with special methods and methods, and also take a number of measures to prevent negative situations in the behavior of adolescents. In this process, teachers have a great responsibility. Professional teachers must know deeply the ways of organizing and implementing educational work with teenagers

from this type of families, and also organize their pedagogical activities correctly when necessary. Adolescence is a period of life in which many important changes occur from the biological, psychological and social point of view. During this period, the teenager's sensitivity to environmental factors increases. This can have a positive or negative effect on the adolescent's future behavior. Therefore, the frequency of antisocial behavior increases especially during adolescence. Compared to other developmental stages, risky behaviors are more common during adolescence.

**Keywords:** adolescent, education process, adolescence, socialization, family.

## УСОВЕРШЕНСТВОВАНИЕ ВОСПИТАТЕЛЬНОЙ РАБОТЫ ПОДРОСТКОВ, ВОСПИТЫВАЮЩИХСЯ В НЕПОЛНЫХ СЕМЬЯХ

**Мирзалиева Нармина Сейфаль**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-0422-1543**
**mirzaliyevanarmina95@gmail.com**

### Резюме

В воспитании детей из неполных семей, а также детей, принадлежащих к другим семьям, должно быть постоянное взаимодействие образовательного учреждения, педагога и родителей. Одним из основных и важнейших факторов, влияющих на формирование и развитие ребенка как личности, является семья, процесс обучения и воспитания. Педагоги и другие воспитательные работники должны всегда помогать подросткам из неполных семей и их родителям, воздействовать на них специальными приемами и методами, а также принимать ряд мер по предупреждению негативных ситуаций в поведении подростков. В этом процессе на учителях лежит большая ответственность. Профессиональные педагоги должны глубоко знать способы организации и осуществления воспитательной работы с подростками из этого типа семей, а также при необходимости правильно организовывать свою педагогическую деятельность. Подростковый возраст – это период жизни, в котором происходит много важных изменений с биологической, психологической и социальной точек зрения. В этот период повышается чувствительность подростка к факторам внешней среды. Это может иметь положительное или отрицательное влияние на поведение подростка в будущем. Поэтому частота асоциального поведения особенно возрастает в подростковом возрасте. По сравнению с другими этапами развития, рискованное поведение чаще встречается в подростковом возрасте.

**Ключевые слова:** воспитательный процесс, подростковый возраст, отрочество, социализация, семья

Son zamanlarda natamam ailələrdən olan yeniyetmələrlə aparılan təlim-tərbiyə işi ilə əlaqəli bütün problemlər nəinki ölkəmizdə, həmçinin bütün dünyada həlli əsas olan vacib məsələlərdən biridir. Ailə qan qohumluğuna söykənən kiçik qrupdur. Ailə üzvləri bir-birinə mənəvi cavabdehlik, məişət birliyi, eləcə də qarşılıqlı köməklə sıx bağlıdır. Ailə yaxın qohumların, ailə üzvlərinin birlikdə yaşadıqları kiçik qrupdur. Bu qrupa sıradan, adi bir qrup kimi yanaşmaq doğru deyildir (Abbasov, 1995). Belə bir nəticəyə gəlmək olar ki, ailə kiçik bir sosial qrup olub, eyni zamanda cəmiyyətin başlıca özəyini təşkil edir. Ailənin müxtəlif tipləri var ki, bu tiplərdən biri də natamam ailələrdir. Hal-hazırda natamam ailələrlə bağlı yaranan ən əsas məsələ, həmçinin ən ciddi problem bu tip ailələrdən olan yeniyetmələrin təlim-tərbiyə məsələsi, ünsiyyət problemi, psixoloji durumu və sairdir (Əliyev, 2015).

İlk növbədə uşaq ailədə tərbiyə alır, onun sonrakı taleyi, həyatda tutacağı mövqe həmin tərbiyədən çox asılı olur. Buna görə də dövlət sənədlərində ailə tərbiyəsinə ciddi fikir verilməsi tələbi

irəli sürülür (Abbasov, 1995). Ümummilli liderimiz Heydər Əliyev uşaqların ailə tərbiyəsində əsas etibarı ilə üç vəzifəni nəzərə almağı lazım bilirdi: "Xalq maarifinin bir çox vəzifələrinin həyata keçirilməsi xeyli dərəcədə ailə ilə məktəbin qarşılıqlı əlaqəsindən asılıdır. Uşaqların tərbiyəsi üçün valideynlərin məsuliyyətini gücləndirmək, ata və anaların pedaqoji biliyini yüksəltmək, ailə tərbiyəsi ilə ictimai tərbiyənin ahəngdar vəhdətinin təmin etmək - bir-biri ilə bağlı olan üç vəzifə bunlardır" (Abbasov, 2019).

Görkəmli fizioloq L.A.Arşavski uşağın ailə qayğısından məhrum edilməsinin onun şəxsiyyət kimi formalaşmasına mənfi təsir göstərməsi qənaətinə gəlir. Alimin rəyinə görə, uşağın dünyaya fiziki və mənəvi sağlam gəlməsi valideynlərin bir-birinə qarşılıqlı məhəbbəti və övladın dünyaya gəlməsinə münasibətindən da asılıdır. L.A.Arşavskinin fikrincə, yetimlik valideynlər öləndə və uşağın tərbiyəsini dövlət öz üzərinə götürdüyü andan deyil, valideynlər və ailənin digər üzvləri tərəfindən doqquz aydan sonra dünyaya gələcək insanı taleyin ən qiymətli neməti kimi deyil, ağır yük, əzab-əziyyət kimi qəbul edildiyi andan başlayır və xeyirxah uşaqlar valideynlər tərəfindən dünyaya gəlişi səbirsizliklə gözlənilən uşaqlardır (Opçin, 2018).

Natamam ailələr müxtəlif səbəblərdən meydana gələ bilir. Son zamanlar boşanmalar nəticəsində yaranan natamam ailələrlə daha çox rastlaşırıq. Boşanma çətin, eyni zamanda bəzən uzun-müddətli proses olur (Əlizadə & Mahmudova 2013). Ziddiyyət və qarşıdurma, problemlərlə davam edə bilən bu prosesdə tərəflərdən daha çox uşaqlar, xüsusən də keçid dövründə olan yeniyetmələr əziyyət çəkir. Həm psixoloji, həm də mənəvi cəhətdən yeniyetmələri dərin şəkildə sarsıdan, eyni zamanda zərər verən bu halların sonu necə olursa olsun yeniyetmələr bu vəziyyətdən ən çox sarsılmış, məğlub olmuş və yara almış şəkildə çıxırlar (Abbasov, 2006).

Yeniyetmələr ailə daxilində baş verən münaqişələr səbəbindən əsasən özünəqapalı və aqressiv olurlar. Bu isə yeniyetmənin ətrafındakı insanlarla (müəllimləri, dostları, ailə üzvləri və digər şəxslərlə) ünsiyyət prosesində daim problemlərə səbəb olması ilə nəticələnir. Onlar insanlarla münasibətdə daha səbirsiz və kobud olurlar (Ağayev, Rzayeva, Hüseynova, &.Vahabova, 2008). Yeniyetmələr məhz bu cür mühitdə yetişdikləri ailədə daim münaqişə, kobudluq gördükləri üçün çox zaman etdikləri hərəkətlərin, davranışların yanlış olduğunun fərqinə varmırlar. Hətta yanlış hərəkət etdiyini dərk etdiyi zaman belə üzr istəməkdən utanır və çəkinirlər (Əliyev & Əhmədov, 2006).

Bu mövzuda aparılan tədqiqatın əsas məqsədi natamam ailələr və onların əsas mahiyyətini araşdırmaq, məlumat əldə etmək, həmçinin problemin elmi-pedaqoji ədəbiyyatlarda qoyuluşunu, həlli yollarını öyrənmək, Azərbaycanda və dünyada natamam ailələrin hazırki vəziyyətindən xəbərdar olmaq, natamam ailələrdə yeniyetmələrin tərbiyəsinə təsir göstərən amilləri araşdırmaq, müəyyənləşdirmək və bu faktorları müsbət istiqamətdə yönləndirməkdir. Həmçinin natamam ailələrdən olan yeniyetmələrin tərbiyə işinin təşkilində yeni üsul və metodlardan istifadə etməkdir (Əliyev, 2014). Problemli davranış sərgiləyən yeniyetmə və uşaqlarla yenidəntərbiyə və tərbiyə prosesində fərqli metod və vasitələrdən istifadə olunmalıdır: Yeniyetmə və uşaqları əmək, mədəni və ictimai həyata hazırlamaq; (Əliyev et al., 2006) Uşaq və yeniyetmələrdə sosial-əxlaqi norma və qaydaları inkişaf etdirmək; Boş zamanları əlverişli keçirməklə uşaqların bekar qalmasına yol verməmək; (Opçin, 2018) Asosiallığa meylli gənc və yeniyetmələrlə motivlərinin tənzimlənməsi və onlarda müsbət davranışların aşılanması istiqamətində individual olaraq iş aparmaq; (Ağayev

et al., 2008) Uşaq və yeniyetmələrdə həm özünənəzarət, həm də özünütərbiyəni stimullaşdırmaq və burada uşaq və yeniyetmə kollektivinin də yardımından geniş istifadə etmək vacibdir (Əlizadə et al., 2013).

Ümumi metod və vasitələr hər bir uşaq və yeniyetmənin individual davranışları nəzərdə saxlamaqla bütünləşdirilməli, onların uşaq və yeniyetmələr üzərində olan təsirini geniş bir şəkildə öyrənilməli və lazımi qaydada təkmilləşdirilməlidir (Hüseynzadə & İsmayılova, 2012).

Sonda belə bir qənaətə gəlmək olar ki, hər hansı bir uşağın gözü qarşısında uşaq yaşlarından ailədaxili münaqişələr baş verirsə, bu hadisələr təbii ki, onun gələcək həyatına təsirsiz ötüşmür. Çünki, uşaqların xüsusən də yeniyetmələrin bu proseslər nəticəsində yaşadığı travmalar onlara müxtəlif yaş dövrlərinə uyğun şəkildə təsir göstərir, hətta bir çox hallarda onların mənəviyyatını da zədələyir. Hər bir yaş dövrünün sözsüz ki, özünəməxsus keçid dövrləri olur və bu keçid dövrlərində yaşanan travmalar insanın gələcək həyat və fəaliyyətinə öz təsirini göstərir. Məsələn, valideynləri boşanmış və ya valideynlərindən hər hansı birini itirmiş müxtəlif yaş arası uşaqlar bu hadisələrdən tamamilə fərqli şəkildə təsirlənir, onların yaşadıqları travmalar arasında yetərincə böyük fərqlər özünü göstərir. Buna baxmayaraq, hər iki halda da uşağın aid olduğu ailədə natamamlıq və bundan qaynaqlanan uğursuz ailə modeli meydana gəldiyi üçün uşaq cəmiyyətdə özünü hərtərəfli və tam şəkildə rahat hiss edə bilmir.

**Ədəbiyyat:**


1. Abbasov A.N.( 2008). Milli əxlaq və ailə etikası, 226.
2. Abbasov A.N.( 2019). Ailə pedaqogikası, 272.
3. Abbasov A.N. (1995). Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyəsi və təcrübəsi 305.
4. Ağayev, Ə.Ə., Rzayeva, Y.T., Hüseynova, T.M., &.Vahabova, T.Ə. (2008). “Sosial pedaqogika” ,177,123-125.
5. Eyüp ÇELİK & Fatma Betül (2018). “Toplumda değişen çocuk algısı, eğitim yöntemleri ve internetin etkilerine yönelik nitel bir araştirma”, Akademik İncelemeler Dergisi, 265-300,
6. Əliyeva G.B. ( 1996) .Yeniyetmələrin mənəvi tərbiyəsində cinsi xüsusiyyətlərin nəzərə Alınması, 27.
7. Əliyev R & Əhmədov N (2006). Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi, 264.
8. Əliyev R.(2015). Şəxsiyyət və onun formalaşması: sosial-pedaqoji məsələlər. Azərbaycan məktəbi, N2.
9. Əliyev R. (2004). Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları, 270.
10. Əlizadə, H.Ə. & Mahmudova, R.M. (2013) . Sosial pedaqogika, 365.
11. Hüseynzadə R & İsmayılova M. (2012). Tərbiyə işi və onun metodikası, 212.
12. Ebru Opçin (2018). Tek ebeveynli ailelerde çocuk yoksunluğu, 124, 70-72
13. https://ailevecalisma.gov.tr/uploads/athgm/uploads/pages/arastirmalar/tekebeveynli-aileler.pdf
14. https://aztehsil.com/valideyn/201-ail-trbiysinin-pedaqoji-prinsiplri.html
15. https://kaspi.az/az/natamam-aile

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏHSİL SİSTEMİMİZDƏKİ ROLU VƏ MÖVQEYİ

**Niftəliyeva Nigar Nəsir**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**https://orcid.org/0000-0003-2810-9502**
**nasirniftaliyev123@gmail.com**

## THE ROLE AND POSITION OF NATIONAL LEADER HEYDAR ALIYEV IN OUR EDUCATION SYSTEM

**Niftaliyeva Nigar Nasir**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**https://orcid.org/0000-0003-2810-9502**
**nasirniftaliyev123@gmail.com**

### Summary

In the thesis, national leader Heydar Aliyev's attention and concern for education, his reforms in the field of education were approached and analyzed from a pedagogical point of view. The thesis encourages young educators and educational researchers to benefit from the model created by the great leader in the field of education and his recommendations, to become his followers. The thesis also mentions the stages and result orientation of reforms in this direction.

The national leader has always taken care of teachers, education workers, and students. His compassionate and stimulating reforms to teachers and learners are a guide to today's educators and administrators.

In the thesis, both the national leader's recommendations and his reforms were analyzed in a comprehensive and scientific manner, and they are recommendations for the younger generations. It is also briefly mentioned that the President of the Republic of Azerbaijan, Ilham Aliyev, follows the path of a great leader and takes care of education workers, and the work he does in the field of education.

In the thesis, the Heydar Aliyev’s school was analyzed in detail and it was noted that it is a valuable treasure that can be passed on to the future.

**Keywords:** Heydar Aliyev’s school, progressive education worker, presidential scholarship

## РОЛЬ И ПОЗИЦИЯ ОБЩЕНАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В НАШЕЙ СИСТЕМЕ ОБРАЗОВАНИЯ

**Нифталиева Нигяр Насир**
**Азербайджанский Государственный Педагогический Университет**
**https://orcid.org/0000-0003-2810-9502**
**nasirniftaliyev123@gmail.com**

### Резюме

В тезис рассмотрены и проанализированы с педагогической точки зрения внимание и забота общенационального лидера Гейдара Алиева об образовании, его реформы в сфере образования. Тезис призывает молодых педагогов и исследователей в области образования воспользоваться моделью, созданной

великим лидером в области образования, и его рекомендациями, стать его последователями. В тезисе также упоминаются этапы и нориентированность на результат реформ в этом направлении.

Общенациональный лидер всегда заботился об учителях, работниках образования и учащейся молодежи. Его сострадательные и стимулирующие реформы в отношении учителей и учащихся служат руководством для современных педагогов и администраторов.

В тезисе всесторонне и научно проанализированы как идеи общенационального лидера, так и его реформы, являющиеся рекомендациями для подрастающего поколения. Также кратко упоминается, что Президент Азербайджанской Республики Ильхам Алиев идет по пути великого лидера и заботится о работниках образования и о работе, которую они ведут в области образования.

В тезисе была подробно проанализирована школа Гейдара Алиева и отмечено, что это ценное сокровище, которое можно передать в будущее.

**Ключевые слова:** школа Гейдара Алиева, передовой работник образования, президентская стипендия.

“Təhsil millətin gələcəyidir” (1, s. 4) deyən ümummilli liderimiz Heydər Əliyev həmişə təhsilimizə diqqət və qayğı göstərmiş, təhsilin hər bir millətin gələcəyi üçün zəruriliyini xüsusi önə çəkmişdir. Həqiqətən də müasir, qloballaşan dünyada qarşıda duran məqsədlərə nail olmaq, milli ümumbəşəri problemləri həll etmək və daima inkişafda olub, özünütəkmilləşdirmə prosesini icra etmək təhsilsiz mümkün deyil.

Tarixi reallıqlardan aydındır ki, H.Əliyev SSRİ dövründə, yəni Azərbaycan Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də xalqımızın unudulmaz oğlunun rəhbərliyi ilə təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir.

Lakin bütün bunlar ümummilli lider H.Əliyevin təhsil sistemimizdə həyata keçirdiyi islahatların cüzi bir qismidir və tezisdə ulu öndərin geniş fəaliyyəti haqqında tarixi xronika ilə daha ətraflı şərh edilir. Heç şübhəsiz ki, bu gün rifah içində olan, çiçəklənən vətənimizdə qalib ölkənin nümayəndələri olaraq yaşamağımız, sabit və təhlükəsiz şəraitdə fəaliyyətimizə davam etməyimiz, işğaldan azad olan torpaqlarımıza zəfər və qürurla gəlişimiz, təhsilimizin doğma Qarabağımıza qayıdışı bir daha Heydər Əliyev məktəbinin bizə gərəkli bir yol olduğunu və bizim doğru yolda olmağımızın əyani sübutudur.

**Ulu öndər Heydər Əliyevin təhsil sahəsində həyata keçirdiyi islahatlar.** “İnsan təhsilin əsasını orta məktəbdə alır. Ona görə də bütün təhsil sistemində orta məktəb xüsusi yer tutmalıdır” (3)-deyən, ümummilli liderin məktəbə, təhsilə qayğısı onun ilk rəhbərlik fəaliyyəti dönəmindən aydın idi. Belə ki, yuxarıda qeyd etdiyim kimi hələ SSRİ-nin mövcud olduğu zamanlar ulu öndərin ölkəyə rəhbərlik edərkən 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” (6, s.6) və 1973-cü ildə “Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında” (6, s.6) qəbul edilmiş qərarları nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. (6, s.6)

Ulu öndərin gördüyü nəzərə çarpacaq tədbirlərdən biri də məktəblərin və məktəblilərin pulsuz dərsliklərlə, müəllimlərin isə tədris vəsaitləri ilə təminatı idi. Belə ki, 1994-1995-ci ildən H.Əliyevin göstərişi ilə bu imtiyaz yenidən bərpa edilmişdir. (2) Həmçinin dərsliklərin məzmu-

nunun yenilənməsi (9) də məhz ümummilli liderin tapşırığı ilə yerinə yetirilmişdir. Düşünürəm ki, bizim zəfər qazanmağımızda vətənpərvərlik ruhunu əldə rəhbər tutan dərsliklərin də rolu mühüm əhəmiyyətə malikdir. Məktəbəqədər təhsil mərhələsindən başlayaraq ali təhsil mərhələsinədək davam edən vətənpərvərlik (8) ideologiyası gənc nəsildə vətənə sevgi, özünəinam hissi aşılamışdı. Bu da bizim parlaq Qarabağ zəfərimizlə nəticələnmişdir.

Təhsilin 6 yaşdan başlaması, orta təhsilin 11 illik təhsilə (2) keçirilməsi, məktəblərin dövlət hesabına təmiri, müasir infrastrukturla təchizi, yeni məktəb binaların və fərqli perspektivli təhsil müəssisələrinin açılışı bunların hamısı ümummilli liderin tövsiyələrinə əsaslanır.

O, həmçinin hələ Sovet İttifaqı dönəmində Azərbaycanda 5 yeni ali təhsil müəssisəsinin (6, s.6) açılmasına nail olmuş, bunun sayəsində azərbaycanlı tələbələrin sayı 70 000-dən 100 000-ə qədər (6,s.6) yüksəlmişdir və həmçinin hər il 800-900-a (6, s.6) yaxın azərbaycanlı tələbənin keçmiş SSRİ-nin nüfuzlu ali təhsil müəssisələrində təhsil almasına şərait yaratmış, bilavasitə bunu diqqətdə saxlamış, onlarla mütəmadi görüşlər keçirmiş, onlara məsləhətlər vermiş və istiqamətləndirmişdir.

Ümummilli lider həmçinin öz uzaqgörənliyi sayəsində bu gün şanlı qələbəmizin əldə olunmasında xüsusi rolu olan hərbi kadrlarımızı yetişdirən hərbi lisey və ali hərbi məktəbi də keçmiş SSRİ dönəmində yaratmışdır ki, bu da ölkəmiz müstəqillik əldə edəndən sonra, xüsusən Qarabağ zəfərində nə qədər əhəmiyyətli olduğunu bir daha göstərdi.

Məhz ulu öndərin təşəbbüsü ilə təhsildə yüksək nəticə əldə etmiş gənclər, qabaqcıl təhsil işçiləri prezident təqaüdü (2), müxtəlif yüksək adlı mükafatlarla təltif edilmişdir.

Bunu qeyd etmək xüsusi qürurdur ki, istedadlı gənclərin xarici ölkələrdə dövlət hesabına nüfuzlu ali təhsil müəssisələrində təhsil almağa göndərilməsi, yüksək nailiyyətlər əldə edən gənclərin, həmçinin mütəxəssislərin prezident təqaüdü ilə, digər fəxri fərman və yüksək statuslu mükafatlarla təltif edilməsi, təhsilə davamlı qayğının göstərilməsi, bu gün Heydər Əliyev məktəbini uğurla keçmiş prezident İlham Əliyev cənabları tərəfindən uğurla aparılır.

**Ulu öndər xatirələrdə...**

“Təhsil millətin gələcəyidir” (1, s.4) deyən ulu öndər təhsil işçilərinə qayğıkeş münasibət bəsləyirdi. Özünün məktəb xatirələrindən danışarkən ulu öndər daima deyərdi: “Mən müəllimlərimi həmişə böyük hörmət və ehtiramla xatırlamışam. Bunu bu gün bir daha bildirmək istəyirəm. Arzu edirəm ki, müəllim elə müəllim olsun ki, bax, mənim hafizəmdə orta məktəbdən indiyədək yaşayan duyğular hər bir gəncin hafizəsində qalsın. Xatirimdədir, biz müəllimi görəndə həmişə özümüzü yığışdırırdıq. Müəllimdən həm qorxurduq, həm də ona hörmət edirdik. Biz müəllimin hər sözünü qanun kimi qəbul edirdik. Şəxsən mənim həyatımda müəllim ən ali sima olmuşdur. Mən tək deyiləm, hesab edirəm, Azərbaycan vətəndaşlarının əksəriyyəti mənim kimi belə düşünür. Hər kəs öz həyatında müəllimlə özünün əlaqəsi haqqında fikirlər söyləyə bilər. Ancaq mənim çox-illik həyatımda, dünyanın çox mərhələlərini keçib gəldiyim həyatımda ən çox yadımda qalan, mənim üçün əziz olan müəllimlərdir. Mən onları bu gün də böyük minnətdarlıqla xatırlayıram. Hesab edirəm ki, mənim öz daxili istedadımla yanaşı, müəllimlərimin mənə verdikləri bilik, tərbiyə, müəllimlərimin mənə göstərdiyi yol bütün həyatımı uğurlu edibdir və bu gün də uğurlu edir” (10).

Göründüyü kimi, H.Əliyevin məktəbə, təhsilə qayğısı heç də təsadüfdən yaranmamışdır. Lakin bu hörmət heç də bir tərəfli deyildi. Ümummilli liderin müəllimi olmuş Lətif Hüseynzadə ümummilli liderimiz haqqında belə söyləmişdir: "...Heydər Əliyev böyük siyasətçi və müdrik dövlət başçısı idi. O, öz ağlı, kamalı ilə bütün dünyanı fəth etdi. Azərbaycan xalqını bütün dünyaya tanıtdı. Onun, vətənimiz, xalqımız qarşısındakı xidmətləri tarixdə analoqu olmayan, misli görünməyən xidmətlərdir. Ona görə də mən bir müəllim kimi çox istərdim ki, həmkarlarım - yaşlı və cavan müəllimlər - öz şagirdlərini Heydər Əliyev nümunəsində tərbiyə etsinlər. Heydər Əliyevin irsini dərindən öyrənib gənc nəslə də öyrətsinlər...", "Heydər Əliyev kimi bir şəxsin müəllimi olduğum üçün özümü xoşbəxt sanıram" (7, s.6).

Dahi lider və siyasətçimiz H.Əliyev öz simasında biz gənclərə nümunəvi bir örnəkdir. Biz, onun yolunu getməyə və cənab prezidentimiz İlham Əliyevin təhsil sistemində apardığı islahatların bir parçası olmağa çalışırıq.

Ümummilli liderimizin təhsil sahəsində apardığı uğurlu islahatlar bu gün də öz bəhrəsini göstərməkdədir. Buna görə də gənc təhsil işçiləri və tədqiqatçıları Heydər Əliyev məktəbinin layiqli nümayəndəsi olmalı və bu dəyərli irsi gələcək nəsillərə də ötürməlidir. H.Əliyevin təhsil sahəsində apardığı islahatların nəticəsi olaraq deyə bilərik ki, bu gün hər bir gənc dövlət hesabına yüksək formada təmirli şəraitdə davamlı təhsil ala bilir. Xaricdə təhsil alan istedadlı gənclərimizin müəyyən qismi xarici ölkələrdə vətənimizi yüksək səviyyədə təmsil edir, onların bir qismi isə bu gün vətənimizdə çalışaraq dövlətimizə öz faydasını vermiş olur. Gənc müəllimlərə, təhsil işçilərinə dövlət qayğısı da bunun bariz nümunəsidir. Heydər Əliyev məktəbinin ən bariz nümayəndəsi olan İlham Əliyev cənablarının bilavasitə rəhbərliyi ilə əldə olunan uğurlu qələbə və apardığı uğurlu islahatlar sayəsində qürurla deyə bilərik ki, təhsilimiz artıq Qarabağa və işğaldan azad olunan rayonlara geri qayıdır. Zəngilan rayonunun Ağalı kənd orta məktəbi bunun bariz nümunəsidir. Bu Heydər Əliyev uzaqgörənliyinin, islahatlarının nəticəsidir ki, bütün dünyada onun uğurlu siyasətinin nəticələrini görmüş oldu və buna qibtə edirlər.

**Ədəbiyyat:**


1. Ulu öndər Heydər Əliyev təhsil haqqında. "Azərbaycan müəllimi" qəzeti 10 dekabr 2010.
2. Ceyhun Bayramov. Uğurlu təhsil islahatlarının banisi. "Azərbaycan" qəzeti. 12 iyul 2019.
3. Esmir Həsənova. Təhsil sahəsində qazanılan uğurlar ölkəmizin gələcəyinə xidmət edir. "Şərq qapısı" qəzeti. 25.08.2022.
4. Əhmədzadə Nərmin. Heydər Əliyevin kəlamları. Bakı-2017.
5. Habil Həmidov. Heydər Əliyev və Azərbaycanda təhsil siyasəti. Bakı-2007.
6. İsa Alıyev. Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı. "Xalq" qəzeti. 12 dekabr 2009.
7. Yusif Əliyev."Heydər Əliyev kimi bir şəxsin müəllimi olduğum üçün özümü xoşbəxt sanıram". "Azərbaycan müəllimi" qəzeti. №17. 9 may 2007-ci il.
8. https://mod.gov.az/az/pre/40349.html
9. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/
10. https://www.muallim.edu.az/www.old/arxiv/2015/16/05.htm

# İKT-NIN TƏTBİQİ İLƏ DİSKURSİV BACARIQLARIN TƏKMİLLƏŞDİRİLMƏSİNİN DİDAKTİK XÜSUSİYYƏTLƏRİ

**Əbdülrəhimova Nüşabə Mirzə**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0002-1959-1213**
**nushaba.azizova@mail.ru**

# DIDACTIC FEATURES OF IMPROVING DISCURSIVE SKILLS WITH THE APPLICATION OF ICT

**Abdulrahimova Nushaba Mirza**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0000-0002-1959-1213**
**nushaba.azizova@mail.ru**

## Summary

This paper introduces the didactic analyses of students' discursive skills development via modern information and communication technologies (ICT). It presents and discusses theoretical researches on developing communicative strategies with the use of ICT. Specifically, this study demonstrates that the methodology of developing discursive strategies is based on both, classical and modern didactic theories. So, the principles such as, accessibility, visualization, individualization, integrated instruction, durability, interactivity and so on are sought in methodological process in order to maintain the application of ICT aids for communicative purposes. Furthermore, using modern technological strategies associated with didactic approaches help to achieve achievements in all four types of discursive skills (discursive writing, discursive writing, discursive listening comprehension, discursive speaking). Some researchers and academicians (V.A. Krasilnikova, V.M.Qlushan, Martin Skutil etc.) have explicitly investigated the ICT tools for academic purposes and determined certain didactic aspects for it.

We can conclude that sufficient automation of discursive skills can be obtained with the use of motivating technological tools and properly chosen didactic principles.

**Keywords:** discursive skills, didactic principles, network literacy, individualization.

# ДИДАКТИЧЕСКИЕ ОСОБЕННОСТИ СОВЕРШЕНСТВОВАНИЯ ДИСКУРСИВНЫХ НАВЫКОВ С ПРИМЕНЕНИЕМ ИКТ

**Абдулрагимова Нушаба Мирза**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0000-0002-1959-1213**
**nushaba.azizova@mail.ru**

## Резюме

Как нам известно, дидактика воспринимается как теоретическое учение об обучении и понимается как искусство обучать. В статье раскрываются основные положения дидактики и дидактические особенности для совершенствования дискурсивных умений с использованием ИКТ в условиях современного образовательного процесса. А также отмечается информатизация образовательного процесса, его ориентация и индивидуализация, диверсификация методов и технологий обучения. Процесс развития дискурсивных

навыков требует дидактических подходов (ссознательность и активность; наглядность; системность и последовательность; прочность; научность; доступность; связь теории с практикой) и это можно достигнуть с помощью новейших технологических средств. Статья ориентирована на освещение проблем, обусловленных информатизацией дидактических процессов. Выделены проблемы, характерные для развития дискурсивных умений в цифровом мире. Выводы основаны на анализе теоретических заключений. Предложены подходы к гармоничному развитию дискурсивных умений в современных условиях развития общества. Проанализированы основные факторы, связанные с дидактикой в современном обществе, общественными тенденциями. Выработаны направления деятельности при использовании информационно-коммуникационных средств в развития дискурсивных навыков. Статья предназначена для педагогов, исследователей, занимающихся вопросами современной методики.

**Ключевые слова:** дискурсивные умения, дидактические принципы, сетевая грамотность, индивидуализация.

Xarici dilin tədrisində diskursiv bacarıqların inkişaf etdirilməsi metodik problem olaraq didaktik prinsiplərə söykənir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən (2008-ci il 10 iyun tarixli sərəncamı ilə) 2008-2012-ci illərdə təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramının təsdiq edilməsi bütün fənlərin, o cümlədən xarici dillərin tədrisi prosesinin innovativ yollarla həyata keçməsini gücləndirdi. Bununla da, didaktik prinsiplərin İKT vasitəsi ilə reallaşan prioritet xüsusiyyətləri daha aktual məzmunla araşdırılmağa başlandı. Bu baxımdan İKT imkanları ilə diskursiv bacarıqların inkişaf etdirilməsi həm ənənəvi, həm də müasir didaktik prinsiplərin fonunda reallaşır. Bu zaman meydana çıxan problemlər kommunikativ səriştənin təkmilləşdirilməsi zamanı meydana çıxan problemlərlə düzmütənasiblik təşkil edir, çünki diskursiv bacarıqlar kommunikativ səriştənin komponentlərindən biridir.

Didaktik prinsiplər və pedaqoji biliklər sisteminə istinad edərək İKT vasitələrindən istifadə edilməsi yazılı və şifahi nitq fəaliyyətində müsbət nəticələrə yol açır. Bu baxımdan, didaktik problemlərin təhlil olunması didaktik prinsiplərin nə dərəcədə izlənməsi reallığından meydana çıxır. Nəzərə alsaq ki, əyanilik, didaktik reduksiya (ümumidən xüsusiyə keçilməsi, mürəkkəb və abstrakt anlayışların analoji və daha anlaşıqlı variantlarla əvəz olunması), refleksiya (hər bir praktik biliyin insanın özlüyündə qiymətləndirilməsi) və s. kimi kommunikativ didaktik prinsiplər diskursiv əməliyyatlar zamanı izlənir, o zaman müasir texnologiyalar vasitəsilə bu bacarıqların inkişaf etdirilməsi yollarını müəyyən etmək vacib sayılır (Требухина, 2009). Diskursiv bacarıqların İKT vasitəsi ilə həm şifahi, həm də yazılı formada təkmilləşdirilməsi üçün Y.Kamenskinin göstərdiyi klassik didaktik prinsiplərlə (sistemlilik, ardıcıllıq, elmlilik, əyanilik, uyğunluq, interaktivlik və s.) yanaşı, yeni metodik prinsipləri də nəzərə almaq mütləqdir (Коменський, 2006). Araşdırmalar göstərir ki, "şəxsiyyətyönümlülük" kimi mühüm didaktik prinsip müxtəlif məqamlarda müşahidə olunur. İnteraktiv dialoqun reallaşması, tədris materialındakı informasiyanın vizuallaşdırılması, informasiyanın rəqəmsal formatla yaddaşa salınması və istənilən uzaqlığa ötürülməsi, öyrədici və yoxlayıcı eksperiment nəticələrinin yoxlanılması və s. yuxarıda qeyd etdiklərimizi bir daha təsdiqləyir. Bu zaman, öyrənənlərin individual psixofizioloji cəhətləri nəzərə alınır. Beləliklə, şəxsiyyətyönümlülük prisipi kommunikativ inkişaf və "özünü təlimin" fonunda reallaşır (Глушань, Бузняков, 2017). Şəxsiyyətyönümlülük həm də tələbələrin motivasiya prinsiplərini diqqətimizə çatdırır (Blake, 2016).

Təbiidir ki, İKT müasir didaktik prinsiplərə söykənərək diskursiv bacarıqları zamanın sosial sifarişinə uyğun olaraq inkişaf etdirir. Təsadüfi deyil ki, informasiya əsrinin təsiri didaktik prinsipləri ensiklopedizm, formalizm, praqmatizm, funksional materializm və s. konsepsiyalardan kibernetik tədris konsepsiyasına qədər təkmilləşdirmişdir. S.İ. Arxanqelskiy və E.İ. Maşbis tərəfindən irəli sürülmüş tədrisin kibernetik konsepsiyası informasiyanın ötürülməsi və qəbul olunmasına əsaslanır. Nəzərə alsaq ki, diskursiv bacarıqların inkişafı reseptiv və reproduktiv istiqamətdə inkişaf etdirilməlidir, o zaman deyə bilərik ki, kibernetik müddəanın informasiya-kommunikasiya texnologiyaları vasitəsilə reallaşması məqsədəuyğundur (Мирзагитова, 2016)

Diskursiv bacarıqların didaktik prinsiplərə uyğun inkişaf etdirilməsi üçün İKT vasitələrinin rolu müstəsnadır. Həm yazılı, həm də şifahi nitq bacarıqlarının inkişaf etdirilməsi məqsədilə ən son texnologiyaların istifadə olunması tədris prosesini daha maraqlı və rəngarəng edərək dil bilikərinin tez bir zamanda kommunikativ məqsədlər üçün istifadə olunmasına yol açır (Зайченко, 2004). İKT vasitələri fonetik, leksik və qrammatik biliklərin konkret situasiyalarda təcrübədən çıxmasına və müşahidə olunmasına kömək edir. Xüsusilə, sosial şəbəkələrdə yazışmaq, internetdə axtarışlar vermək, əsas və ikinci dərəcəli məlumatları toplamaq, multimediya vasitələrindən yararlanmaq və s. yazılı nitq bacarıqları üçün əlçatan sayılsa da, oxu bacarıqları üçün çap olunmuş mətnlər daha əlverişlidir (Baker, 2010). Müxtəlif audio-video materialların, autentik mətnlərin dinlənməsi və proyektlərin hazırlanması isə şifahi nitq bacarıqları üçün faydalı sayıla bilər. (Lindner, 2014)

Ənənəvi didaktik prinsiplərə nəzər yetirsək, inkişafetdirici, tərbiyəedici xüsusiyyətləri, elmilik, əlçatanlıq, davamlılıq, nəzəriyyə ilə təcrübənin vəhdəti, şüurluluq, aktivlik, əyanilik, sistemlilik, ardıcıllıq və s. kimi prinsipləri izləmiş oluruq. V.A. Krasilnikova müasir İKT vasitəsi kimi kompüterləri araşdırarkən müəyyən didaktik prinsiplərlə bağlı müəyyən nəticələrə gəlmişdir (Красильникова, 2019). Onun göstərdiyi didaktik xüsusiyyətlər bunlardır: Kompensatorluq (təlim prosesinin asanlaşması, keçilən materialın mənimsənilməsində güc və zaman itkisinin azalması); İnformativlik (gərəkli və əlavə informasiyanın ötürülməsi); İnteqrativlik (obyektin hissə-hissə, yaxud bütövlüklə öyrənilməsi); Etibarlılıq (keyfiyyətli öyrədici materialın hazırlana bilməsi imkanı, Əyanilik (kompüterin imkanlarından istifadə edərək materialın və informasiyanın təqdim olunması); Virtuallıq (real olaraq təqdim oluna bilməyən hadisə və proseslərin modelləşdirilərək nümayiş etdirilməsi); İnstrumentallıq-öyrənənlərlə müəllim arasında müəyyən fəaliyyət növlərinin rasional şəkildə təmin edilməsi; İnteraktivlik (individuallıq prinsipinin və öyrənənlərin mütləq fəallığının reallaşması imkanı); Vasitəçilik (kompüter alqoritmləri və tədris materialları vasitəsilə öyrənmə prosesinə nəzarət edilməsi) və s.

Ümumiyyətlə, informasiya-kommunikasiya texnologiyalarını “didaktik vasitə” kimi təhlil edərkən “şəbəkədə işləmək savadı” (network literacy) anlayışına rast gəlmək mümkündür. Didaktik “alət” və ya “vasitə” dedikdə bütün maddi və qeyri-maddi vasitələr başa düşülür. “Şəbəkədə işləmək savadı” isə İKT-nin inkişafı ilə bağlı anlayış olub informasiyanın elektron formada müəyyənləşdirilməsi və istifadə olunması ilə əlaqədardır. (Skutil, 2013)

Düşünürük ki, ingilis dilinin tədrisi zamanı diskursiv bacarıqların inkişaf etdirilməsi üçün həm ənənəvi, həm də müasir didaktik prinsiplər nəzərə alınmalıdır, çünki ənənəvi prinsiplərdən tam

uzaqlaşmaq və yalnız müasir İKT əsaslı didaktik prinsiplərə əsaslanmaq gözlənilən keyfiyyəti verməyə bilər. Eyni zamanda, İKT bacarıqlarının yetərincə avtomatlaşması tələbələrin motivasiya olmalarına və stimullaşmalarına müsbət təsir göstərir. Bu isə öz növbəsində, həm didaktik, həm də metodik prinsiplərin keyfiyyətli vəhdətini reallaşdırır. Gələcək araşdırmalar zamanı diskursiv bacarıqların İKT vasitəsilə inkişaf etdirilməsinin ənənəvi və müasir didaktik prinsiplər fonunda müqayisəli təhlili arzuolunandır.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, 2008-2012-ci illərdə təhsil sisteminin informasiyalaşdırılması üzrə dövlət proqramı, - 2008-ci il 10 iyun tarixli Sərəncam.

2. Глушань В.М., Бузняков А.Ю., Бузнякова Е.С. Дидактические принципы обучения в условиях возрастаюшей роли NKT в образовательном процессе // Современный взгляд на проблемы педагогики и психологии/Сборник научных трудов по итогам международной научно-практической конференции.-Уфа: -11 сентября,- 2017г, . 59

3. Коменський Ян. Велика дидактика / Ян Коменський // Історія зарубіжної педагопки. Хрестомам: навчальний посібник / Уклад. і автори вступних статей G.I. Коваленко, H.1. Белкіна [Заг. ред. G.I. Коваленко]. - К.: Центр навчальної л^ератури, 2006. - 664 с.

4.Красильникова В.А. Использование информационных и коммуникационных техноло-гий в образовании Рекомендовано Ученым советом федерального государственного бюджетного образовательного учреждения высшего профессионального образования «Оренбургский государственный университет» в качестве учебного пособия для студентов, обучающихся по программам высшего профессионального образования. –Оренбург: -2012.- 291 с.

5. Мирзагитова А.Л. Дидактика в условиях современного образовательного процесса // Современные проблемы науки и образования. №6 -2016.

6. Требухина Н. В. Становление системы принципов коммуникативной дидактики // – Ростов: Вестник ДГТУ, Гуманитарные науки-2009. Спец. Выпуск УДК 370.1 – с. 3-5

7. Georg Lindner ICT and the four language skills – an interdisciplinary study of teachers' attitudes towards ICTas a teaching tool, 31 p

8. Martin Skutil, Martin Maněnová, and Lucie Čermáková // İCT as a didactic tool and its use in the educational process İnternational Journal of e-Education, e-Business, e-Management and e-Learning, Vol. 3, No. 4, -August 2013 -p. 285-288

9.Зайченко Т.П.-Основы дистанционного обучения//Теоретико-практический базис: Учебное пособие. - 2004. -СПб.: Изд-во РГПУ им. А.И. Герцена, - 167 с

10. Robert Blake. University of California, Davis. Language Learning & Technology. Volume 20, Number 2, June 2016, p 129–142.

# AZƏRBAYCANDA ÜMUMİ TƏHSİL PİLLƏSİNDƏ ÇALIŞAN MÜƏLLİMLƏRİN NEYROMİFLƏRƏ İNANCINA TƏSİR EDƏN FAKTORLARIN TƏHLİLİ

**Mahmudov Röyal Aydın**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-6292-2957**
**royalaydin0@gmail.com**

# ANALYSIS OF FACTORS AFFECTING THE BELIEF IN NEUROMYTHS OF TEACHERS WORKING AT THE GENERAL EDUCATION LEVEL IN AZERBAIJAN

**Mahmudov Royal Aydin**
**Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-6292-2957**
**royalaydin0@gmail.com**

## Summary

The main purpose of the study is to investigate the main factors that influence the belief in neuromyths of educators working at the general education level in Azerbaijan. The study was based on a survey of neuromyths and true facts about the brain developed by Dekker et al. (2012), Torrijos-Muelas et al. (2021), and Vancouver Island University (2022). In the study, 21 of them are neuromyths, 13 are true facts about the brain, and a total of 34 real and unreal facts were included in the survey. The survey used was delivered online to educators and asked to share the survey with their colleagues, thereby increasing the number of participants to some extent using the snowball method. Based on the data obtained from the research, a multiple linear regression model was used to investigate the degree of influence of various factors on the beliefs of educators about various facts. As a result of the study, it was found that there is a positive correlation between educators' belief in the true facts related to neuroscience and their belief in neuromyths. This may indicate that the information that educators read and obtain in various ways about the brain may contain facts that do not have a sufficient scientific basis, and these facts may lead educators to believe in neuromyths.

**Keywords:** Education, educators, neuroscience, neuromyth, brain.

# АНАЛИЗ ФАКТОРОВ, ВЛИЯЮЩИХ НА ВЕРУ В НЕЙРОМИФЫ ПЕДАГОГОВ, РАБОТАЮЩИХ НА ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ СТУПЕНИ В АЗЕРБАЙДЖАНЕ

**Махмудов Роял Айдын**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-6292-2957**
**royalaydin0@gmail.com**

## Резюме

Основной целью исследования является изучение основных факторов, влияющих на веру в нейромифы педагогов, работающих на общеобразовательной ступени в Азербайджане. Исследование было основано на обзоре нейромифов и реальных фактов о мозге, разработанном Деккером и др. (2012 г.), Торрихос-Муэлас и др. (2021 г.) и Университетом острова Ванкувер (2022 г.). В исследовании 21 из них являются нейромифами,

13 — истинными фактами о мозге, а всего в опрос было включено 34 реальных и нереальных факта. Используемый опрос был доставлен в режиме онлайн преподавателям, и их попросили поделиться опросом со своими коллегами, тем самым в некоторой степени увеличив количество участников с помощью метода снежного кома. На основе данных, полученных в ходе исследования, была использована модель множественной линейной регрессии для исследования степени влияния различных факторов на представления педагогов о различных фактах. В результате исследования было обнаружено, что существует положительная корреляция между верой педагогов в истинные факты, связанные с нейронаукой, и их верой в нейромифы. Это может указывать на то, что информация о мозге, которую педагоги читают и получают различными способами, может содержать факты, не имеющие достаточного научного обоснования, и эти факты могут привести педагогов к вере в нейромифы.

**Ключевые слова:** образование, педагоги, неврология, нейромиф, мозг

Nevrologiya öyrənmə prosesini və dolayısı ilə öyrənmənin baş vermə mexanizmini və bu proses daxilində yarana biləcək problemləri bioloji aspektdən araşdırmağa fayda verən bir elm sahəsidir. Bu elm sahəsi təhsilalanlara öyrənmədə doğru istiqamət seçməyə, təhsilverənlərə tədris prosesini effektiv formada həyata keçirməyə və valideynlərə isə övladlarının akademik uğurlarının inkişaf etdirilməsi üçün tövsiyələr verməyi əsas hədəf olaraq müəyyənləşdirmişdir (Varma və dig., 2008). Nevrologiya sahəsi ilə birlikdə digər sahələrin beyin ilə əlaqəli olan araşdırmaları təhsilalanlara öyrənmə proseslərini sərbəst seçmək və istədikləri metod və üsullarla təşkil etmək kimi şanslar verməkdədir. Belə ki, təhsilalanlar öyrənmə metodlarının müxtəlif aspektlərini bilərək bu sahədə daha sərfəli yollar seçə bilər və bunu öz akademik uğurları üçün istifadə edə bilərlər (Duman, 2015). Bu istiqamətdə təhsil və nevrologiyanın qarşılıqlı əlaqəsi XX əsrin sonlarından bəri araşdırılmaqdadır. Bruer (1997) nevrologiya ilə təhsilin qarşılıqlı əlaqədə olmasının labüdlüyünə diqqət çəkir və bunun təhsilalanların və ya təhsilverənlərin tədris prosesində öz fəaliyyətlərini daha effektiv etmələri üçün önəmli bir yol olduğunu vurğulayır.

Müxtəlif tədqiqatlara əsasən, son dövrlərdə nevrologiya üzrə çalışan mütəxəssislər ilə təhsilverənlər arasında əməkdaşlıq problemləri mövcuddur və bu problemlər səbəbi ilə nevrologiyada hazırlanan nəzəriyyələr tədris prosesinə ya tətbiq edilə bilinmir, ya da müəyyən dərəcədə təhrif olunmuş formalarda tətbiq edilir. Bu boşluğu aradan qaldırmaq üçün neyrotəhsil, koqnitiv nevrologiya kimi sahələrdə müxtəlif tədqiqatlar həyata keçirilir (Tokuhama-Espinosa, 2018).

Nevrologiya və təhsil sahələri arasındakı bu boşluq beyin və təhsil ilə əlaqəli olan müxtəlif yanlış anlaşılmalara və dolayısı ilə neyromiflərin yaranmasına səbəb olmuşdur (OECD, 2002). Bu neyromiflərin yaranmasının və təhsilverənlər arasında yayılmasının müxtəlif səbəbləri vardır. Belə ki, bu səbəblər beş başlıq altında qeyd edilsə demək olar ki, bu başlıqlar aşağıdakı formada bildirilməkdədir:

- İnsanların sadə, asan məlumat əldə etmək istəməsi;
- Elmi ədəbiyyatlardakı məlumatların təhrif edilməsi;
- Kommersial fayda məqsədilə yanlış, populist açıqlamalar;
- Məşhur nəşrlərdə hər hansı mövzuya sadəcə səthə yanaşma (Tokuhama-Espinosa, 2018).

Bu tədqiqatda Azərbaycanda ümumi təhsil pilləsində çalışan təhsilverənlər arasında neyromiflərə inancın təhlil edilməsi məqsədilə sorğu aparılmışdır. Tədqiqatda ümumilikdə 195 nəfər olmaqla, ibtidai, ümumi orta və tam orta təhsil səviyyəsində çalışan təhsilverənlər iştirak etmişdir.

Respondentlərin tədqiqatda iştirakı əsasən müəyyən məktəblərə sorğunun onlayn olaraq göndərilməsi ilə təmin edilmişdir. Əlavə olaraq, qartopu metodu ilə təhsilverənlərdən sorğunu Bakıdakı və ya müxtəlif bölgələrdəki öz həmkarları ilə paylaşılması istənilmiş və beləcə tədqiqatda iştirak edən təhsilverənlər təsadüfi olaraq seçilmişdir.

Data analizi zamanı müstəqil dəyişənlərin asılı dəyişənlərə nə dərəcədə təsir etdiyini araşdırmaq üçün çox xətti reqressiya modeli seçilmiş və bütün dəyişənlər həmin modelə daxil edilərək təsiredicilik dərəcəsi müəyyənləşdirilmişdir. Tədqiqatda istifadə edilmiş ölçmə aləti Dekker və digərlərinin (2012), Torrijos-Muelas və digərlərinin (2021) və Vancouver Island Universitetinin (2022) tədqiqatlarında istifadə edilmiş neyromiflərin və beyin haqqında olan doğru faktların yerli kontekstə uyğunlaşdırılması ilə hazırlanmışdır.

Tədqiqat zamanı Azərbaycanın müxtəlif bölgələri üzrə çalışan təhsilverənlərin neyromiflər üzrə inanclarının araşdırılması istənilsə də həm tədqiqat işinin müddət olaraq buna imkan verməməsi, həm də təhsilverənlərin qartopu metodu üzrə sorğunu öz həmkarlarına göndərərkən çox istəkli olmamalarına görə say göstəricisinin çox yüksək olmaması səbəbi ilə bu istiqamətdə analiz aparmaq mümkün olmamışdır.

Tədqiqatın nəticələri əsasında bəlli olmuşdur ki, təhsilverənlərin neyromiflərə inanmada əsas təsiredici faktor onların beyin haqqında doğru faktlara inanc nisbətləridir. Başqa ifadə ilə desək, neyromiflərə inanca təsir edən faktorların 73%-i beyin haqqında doğru faktlara inanc nisbəti ilə pozitiv korrelyasiyadadır.

Yəni təhsilverənlər arasında beyin haqqında doğru faktlara inanc nisbəti nə qədər artırsa onların neyromiflərə inanc nisbətləri də artmaqdadır. Bunu da tədqiqat zamanı aparılmış ədəbiyyat təhlilləri zamanı qarşıya çıxan müxtəlif nəticələrlə əlaqələndirmək mümkündür. Belə ki, müxtəlif ölkələrdə müəyyən olunmuşdur ki, təhsilverənlər arasında nevrologiya sahəsinə marağı olanlar, bu sahə üzrə təlim və ya təhsil sahələrində iştirak edənlər və ya ədəbiyyatları mütaliə edənlər neyromiflərə yüksək inanc göstəricilərinə sahibdirlər (Canosa və Risso-Migues, 2015; Deligiannidi və Paul, 2015; Karakus və dig., 2015; Kim və Sankey, 2009; Papadatou-Pastou və dig., 2017). Bu da onu göstərə bilər ki, Azərbaycanda da təhsilverənlər arasında neyrotəhsil sahəsinə marağı olanlar və bu sahə üzrə təlimlərdə və ya hər hansı təhsil sahələrində təhsil alanlar, ədəbiyyatları mütaliə edənlər həmin ədəbiyyatlarda, təhsil və ya təlimlərdə məruz qaldıqları neyromiflərə görə bu inanclara sahibdirlər.

Bu nəticələri əsas qəbul edərək müəyyən tövsiyələr vermək olar:

Təhsilverənlər namizədlərinin təhsil proqramlarında neyrotəhsil ilə əlaqəli ədəbiyyatların, təlim və ya digər fəaliyyətlərin təşkil edilməsi neyromiflərə inanc göstəricilərini azalda bilər.

Neyrotəhsil üzrə hazırlanacaq ədəbiyyatlara, təlim və ya digər fəaliyyətlərə diqqətli nəzər yetirmək və onlarda ola biləcək neyromifləri əvvəlcədən gerçək məlumatlarla əvəz etmək gərəklidir.

Populyar jurnallarda nevrologiya ilə əlaqəli nəşrlərə diqqət edilməsi, onların populist yanaşma ilə hər hansı elmi faktları qısaldaraq və ya təhrif edərək ictimaiyyətə çatdırılmasına imkan yaradılmaması neyromiflərə inanmada artımın qarşısını almaq üçün faydalı ola bilər.

**Ədəbiyyat:**

1. Bruer, J. T. (1997, Noyabr 1). Education and the Brain: A Bridge Too Far. Educational researcher, 26(8), pp. 4-16. https://doi.org/10.3102/0013189X026008004

2. Canosa, A. F., və Risso-Migues, A. (2015, Noyabr). Evaluación de conocimientos y actitudes sobre neuromitos en futuros/as maestros/as. Revista de Estudios e Investigación en Psicología y Educación, 6(6). DOI:10.17979/reipe.2015.0.06.530

3. Dekker, S., Lee, N. C., Howard-Jones, P., və Jolles, J. (2012, Oktyabr 18). Neuromyths in education: Prevalence and predictors of misconceptions among teachers. Frontiers in psychology, 3(429), 8. 10.3389/fpsyg.2012.00429

4. Deligiannidi, K., və Paul, H.-J. (2015). The neuroscience literacy of teachers in Greece. Procedia Social and Behavioral Sciences, 174(3909–3915), 10.

5. Duman, B. (2015). Neden beyin temelli öğrenme? Pegem A Yayıncılık. Dundar, H., Béteille, T., Riboud, M., və Deolalikar, A. B. (2014, May). Student Learning in South Asia: Challenges, Opportunities, and Policy Priorities. World Bank. DOI:10.1596/978-1-4648-0160-0

6. Karakus, O., Paul, H.-J. A., və T, J. (2015). Primary and secondary school teachers' knowledge and misconceptions about the brain in Turkey. Procedia - Social and Behavioral Sciences, 174(1933–1940), 10.

7. Kim, M., və Sankey, D. (2009, Avqust 11). Towards a Dynamic Systems Approach to moral development and moral education: a response to the JME Special Issue. Journal of Moral Education, 38(3). https://doi.org/10.1080/03057240903101499

8. OECD. (2002, Aprel 29). OECD Annual Report 2002. OECD Publishing. https://doi.org/10.1787/annrep-2002-en

9. Papadatou-Pastou, M., Haliou, E., və Vlachos, F. (2017, May 29). Brain Knowledge and the Prevalence of Neuromyths among Prospective Teachers in Greece. Front. Psychol, 804(8), pp. 1-13. https://doi.org/10.3389/fpsyg.2017.00804

10. Torrijos-Muelas, M., González-Víllora, S., və Bodoque-Osma, A. R. (2021, Yanvar 21). The Persistence of Neuromyths in the Educational Settings: A Systematic Review. Frontiers in Psychology, 11(591923), 10. 10.3389/fpsyg.2020.591923

11. Tokuhama-Espinosa, T. (2018). Neuromyths: Debunking False Ideas about the Brain. W.W. Norton.

12. Varma, S., Mccandliss, B. D., və Schwartz, D. L. (2008, Aprel). Scientific and Pragmatic Challenges for Bridging Education and Neuroscience. Educational Researcher, 37(3). DOI:10.3102/0013189X08317687

13. VIU. (n.d.). Myth Busting: 2SLGBTQ+ Myths və Facts | Positive Space | Vancouver Island University | Canada. Administration. Retrieved May 14, 2022, from https://adm.viu.ca/positive-space/lgtb-myths-facts#

## RƏĞBƏTLƏNDİRMƏ VƏ CƏZALANDIRMA STİMULLAŞDIRMA VƏ MOTİVASİYA METODU KİMİ

**Əliyeva Sevinc Qərib**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0003-4365-6344**
**alievasevinc_1976@hotmail.com**

## INCENTIVE AND PUNISHMENT AS A METHOD OF STIMULATION AND MOTIVATION

**Aliyeva Sevinj Garib**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0003-4365-6344**
**alievasevinc_1976@hotmail.com**

### Summary

Stimulation means to make a person move, encourage, encourage. To stimulate activity and behavior means to encourage activity and behavior, to encourage to work, to incite a person to positive activity, to move, to motivate. In our science of pedagogy, there are methods that stimulate activity and behavior - encouragement and punishment. Stimulation creates feelings and emotions, such as internal desire, effort, drive, joy, and joy, which arise from motivation and are reflected in consciousness. Motivation, as a psychological process, is the reflection of the stimulus in the mind and prompting to action to satisfy human needs. All this is carried out as a result of the correct application of methods of encouragement and punishment.

**Keywords:** appreciation, punishment, stimulation, motivation, methods.

## ПООЩРЕНИЕ И НАКАЗАНИЕ КАК МЕТОД СТИМУЛИРОВАНИЯ И МОТИВАЦИИ

**Алиева Севиндж Гариб**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0003-4365-6344**
**alievasevinc_1976@hotmail.com**

### Резюме

Стимуляция означает заставить человека двигаться, поощрять. Стимулировать активность и поведение значит побуждать к активности и поведению, к положительным действиям, к движению, мотивировать. В нашей педагогической науке методами, стимулирующими деятельность и поведение, являются поощрение и наказание.Правильный выбор и верное применение воспитательных методов может повысить качество

педагогического процесса или, наоборот, неправильно выбранный метод может замедлить или даже нанести ущерб педагогическому процессу. Поэтому компетентность и профессионализм педагогов и воспитателей, творческий подход к процессу – главное условие при выборе методов.

Существуют также стимулирующие и мотивирующие методы, обеспечивающие комплексность методов убеждения и обучения, которые считаются древнейшими методами, и эти методы широко применяются в организации воспитательной работы и в ведении воспитательного процесса и используются до сих пор.

Стимуляция создает чувства и эмоции, такие как внутреннее желание, усилие, драйв, радость, счастье, которые формируются из мотивации и отражаются в сознании. Мотивация, как психологический процесс, представляет собой отражение раздражителя в сознании и побуждение к действию для удовлетворения потребности человека. Все это осуществляется в результате правильного применения методов поощрения и наказания.

**Ключевые слова:** оценка, наказание, поощрение, мотивация, методы.

İnsanın şüur və davranışının vəhdətinə nail olmaq, kamil şəxsiyyət yetişdirmək üçün xüsusi tərbiyə metodları mövcuddur. Belə ki, metod – yunan sözü olub “Yol” “Üsul” deməkdir. Tərbiyənin müəyyən edilmiş metodları qarşıya qoyulmuş məqsədə çatmaq üçün istifadə edilən yollar və üsullardır.

Demək, metodlar qarşıya qoyulan məqsədlə sıx bağlıdır. Bu cəhətdən tərbiyə metodlarının düzgün seçilməsi və düzgün tətbiq edilməsi pedaqoji prosesin keyfiyyətini artıra bilər və ya əksinə düzgün seçilməmiş metod pedaqoji prosesi ləngidə bilər və ya hətta zərər verə bilər. Buna görə metodların seçilməsində müəllim və tərbiyəçilərin səriştəliliyi və peşəkarlığı, habelə prosesə yaradıcı yanaşması əsas şərtdir.

Tərbiyə işi insanın şüuru ilə davranışının vəhdətinə əsaslanır.

Bəzən elə ola bilir ki, insan bir cür düşünüb və ya inanıb başqa cür hərəkət edə bilir. Buna görə də - **“Şüuru formalaşdıran metodlar” (buna inandırma metodları deyilir) və davranışa təsir edən və onu təşkil edən metodlar”** (buna alışdırma metodları deyilir) mövcuddur ki, o metodların da özünə məxsus üsulları, vasitələri, yolları və tərzləri vardır.

Belə ki, şüuru formalaşdıran metodların məqsədi insanın şüuruna təsir edərək insanda düzgün təsəvvürlər, həqiqi inam və əqidə formalaşdırmaqdan ibarətdir. Bu metodlar qrupuna əxlaqi söhbətlər, əxlaqi mövzuda məruzə və mühazirələr, aydınlaşdırma, nümunə metodları daxildir.

Davranışa təsir edən və onu təşkil edən metodlar isə insanda müsbət adət və vərdişlər yaratmaq və iradəni möhkəmlətməklə bərabər düzgün davranış təcrübəsi formalaşdırmağa – başqa sözlə desək alışdırmağa xidmət edir.

İnandırma və alışdırma metodlarının bütövlüyünü, kompleksliyini təmin edən stimullaşdırıcı, motivasiyaedici metodlar da vardır ki, ona **rəğbətləndirmə və cəzalandırma metodları** deyilir. Bu metodlar ən qədim metodlar hesab edilir ki, tərbiyə işinin təşkilində, tərbiyə prosesinin aparılmasında bu metodlardan geniş istifadə olunmuş və bu gün də istifadə edilir.

Tərbiyə - insanda müəyyən əxlaqi keyfiyyətlər formalaşdırmaq üçün bir şəxsin digər bir şəxsə məqsədyönlü, planlı və ardıcıl təsiridir. Rəğbətləndirmə və cəzalandırma metodları haqqında görkəmli pedaqoqlar A.S. Makarenko (Mən pedaqoji fəaliyyətimdə cəzasız keçinə bilmədim), V.A. Suxomlinski (Uşaq şəxsiyyətinə hörmətlə yanaşmalı), Yanuş Korçak (Ən yaxşı metod

uşaqlara sevgi metodudur) və başqaları dəyərli fikirlər söyləmişlər. Rəğbətləndirmə və cəzalandırma tərbiyə olunan şəxsdə motivasiya yaradır və fəaliyyətini stimullaşdırır.

**Motivasiya** müxtəlif fəaliyyət imkanları və seçimin doğru-düzgünlüyü ilə şərtlənir. Professor Bəşir Əhmədov "motiv nədir "sualına qısa və aydın şərh verərək yazırdı: " Motiv stimulun şüurda əks olunmasıdır" (1, s. 138). Digər bir tədqiqatçı isə bu anlayışı belə açıqlayır: "Motiv daxili səbəblərdən elə bir fəaliyyətdir ki və ya elə bir hökm, yaxud hərəkətdir ki, bilavasitə insanı təhrikə sövq edir" (2, s. 88). Yenə bir başqa açıqlamada isə belə yazılır: Motiv –"motivasiya" sözündən götürülüb insanın fəallığına səbəb olan və onun fəaliyyətini yönəldən amillərin məcmusudur" (3,s.233) . Bir qism tədqiqatçılar isə motivlərin bir problem kimi hələ həll olunmadığını (4,s.88), bəziləri də hərtərəfli və sistemli şəkildə işlənilmədiyi haqqında fikirlər də söyləmişlər (5,s.121). Bütün bunlara baxmayaraq, motivasiya və stimullaşdırma haqqında psixoloji, pedaqoji aspektdə dəyərli əsərlər yazılmış, fikirlər söylənmişdir (6;7).

Motivasiya sözünün kökü olan "motiv" sözünün mənası da "Təkan", "Təhrik etmək", Şövq etmək", deməkdir. Bu təkan, təhrik bəzən güclü olur, bəzən isə zəifləyir, tükənir və funksiyasını itirə bilir.

1. **Motivasiya davranışı dəyişdirə bilir.** Belə ki, istifadə etdiyimiz motivasiyadan asılı olaraq düşüncə və davranış dəyişə bilir.

2. **Motivasiya güclü məmnuniyyət hissi yaradır.** Belə ki, motivasiya tərzi insanı ən çox maraqlandıran hədəfə doğru aparır.

3. **Motivasiya marağı artırır.** Düzgün motivasiya insanda maraq yaradır və bu da insanı həmin marağa doğru sövq edir.

4. **Motivasiya insanda güc yaradır, daxili keyfiyyətləri, qüvvələri səfərbər edir.** Bu xüsusiyyətlər insanı qarşıya qoyduğu məqsədə doğru aparır.

**Stimullaşdırma isə** - hərəkətə gətirmək, həvəsləndirmək, şirnikləşdirmək deməkdir. Fəaliyyət və davranışı motivə edən və stimullaşdıran metodlar dediyimiz kimi **rəğbətləndirmə və cəzalandırmadır.**

**Rəğbətləndirmə** *metodları şagirdlərin hərəkət və davarnışlarının müsbət qiymətləndirilməsinin, təqdir edilməsidir.* Rəğbətləndirmə müsbət vərdiş və adətləri möhkəmləndirir və inkişaf etdirir. Rəğbətləndirmənin tətbiqi zamanı onun pedaqoji, psixoloji tərəfləri, təsiri, onun nəticələri əvvəlcədən təxmin edilməli və nəzərə alınmalıdır. Belə ki:

**1.** Müəllimlər çalışmalıdırlar ki, rəğbətləndirmə zamanı şagirdlərdə təriflənmək və ya mükafat almaq, hədiyyə almaq motivləri yaranmasın, onlarda lovğalıq hisləri də meydana gəlməsin, əksinə, rəğbətləndirmə şagirdlərdə daxili inam, müsbət emosiya və düzgün davranış, yüksək əxlaqi keyfiyyətlər motivasiyası formalaşsın. 2. Rəğbətləndirmə şagirdi kollektivin üzvlərinə qarşı qoymamalı, kollektivin narazılığına səbəb olmamalı, əksinə bu metod kollektiv tərəfindən razılıqla qarşılanmalı və kollektivi daha da sıx birləşdirməlidir. 3. Yüksək əməksevərlik, məsuliyyət, səmimilik keyfiyyətləri göstərən, başqalarına kömək göstərməklə özü yüksək şəxsi nailiyyətlər qazanan şagirdləri, xüsusilə rəğbətləndirmək lazımdır ki, onlarda bu müsbət işlərini davam etdirməyə həvəs və stimul yaransın. 4. Rəğbətləndirmə şagirdin göstərdiyi xidmətlərinə, fərdi, psixoloji xüsusiyyətlərinə, kollektivdə tutduğu mövqeyinə uyğun olmalıdır. 5. Eyni şagirdlər hər dəfə

rəğbətləndirilməməlidir, başqa şagirdlər də, hətta zəiflər də unudulmamalı, nə vaxtsa onlara da diqqət yetirilməlidir ki, onlar da həvəslənsinlər, onlar da fərəhlənsinlər və stimul hiss etsinlər. 6. Yersiz, haqq edilməyən təriflər, tez-tez tətbiq edilən rəğbətlər şagirdlərdə lovğalığa gətirib çıxarar. 7. Rəğbətləndirmə fərdi yanaşma tələb edir. Özünə inamı olmayan, geri qalan şagirdi də ruhlandırmaq, ona stimul vermək çox vacibdir. Rəğbətləndirmə tətbiq edilərkən ədalətlilik prinsipinə ciddi əməl edilməlidir. Rəğbətləndirmə metodunu iki qrupa ayırmaq olar:

**1) Sadə rəğbətləndirmə metodları;**

**2) Yüksək rəğbətləndirmə metodları.**

*Sadə rəğbətləndirmə metodları şagirdin* başına sığal çəkmək, "Afərin!", "Əhsən", "İşi belə görərlər" kimi ifadələr işlətmək, arzusunu yerinə yetirmək, hədiyyə vermək, səyini, çalışqanlığını dilə gətirib tərifləmək, rəğbətləndirici jest etmək, uşağın valideyninə razılıq məktubu göndərmək və s. *Yüksək rəğbətləndirmə metodları* şifahi və ya yazılı təşəkkür elan etmək, tərifnamə, fəxri fərman vermək, fərqlənmə diplomu təqdim etmək, şəklini şərəf lövhəsinə və s.

**Cəzalandırma metodu şagirdin hərəkət və davranışına** *pedaqoji, psixoloji və emosional təsir metodudur.* Cəzalandırma metodunun tətbiqinə diqqət və ehtiyatla yanaşılmalıdır. Bu metod insanda xoşagəlməz münasibət və əməllərinə qarşı iztirab, əzab, utancaqlıq hisləri yaradır, daxili heysiyyata ciddi təsir göstərə bilir. Cəzalandırma metodu xarici stimulları yavaş-yavaş daxili stimullara çevirməyi nəzərdə tutur. *Müasir məktəbdə cəzalandırmanın müxtəlif formaları tətbiq edilir:*

Cəzalandırma və rəğbətləndirmə çox incə və həssas tərbiyə metodlarıdır ki, ondan düzgün istifadə edilmədikdə tərbiyə işinə ciddi ziyan vura bilər.

***Cəzalandırma metodunun səmərəliliyini müəyyən edən pedaqoji şərtlər*** bunlardır:

**1.** Əgər cəzalandırma ideyası kollektivdən gələrsə və cəzanı kollektiv müdafiə edərsə, o zaman onun təsir gücü daha da artmış olar. **2**. Uşağa cəza verərkən kollektivin ictimai rəyinə söykənmək lazımdır. **3**. Cəza şagird üçün tam aydın olanda o daha da təsirli olur. Cəzanı verdikdən sonra onu yada salmaq, tez-tez ona xatırlatmaq olmaz və şagird ilə normal münasibətlər yenə də saxlanılmalıdır. **4**. Şagirdin mənfi hərəkəti yalnız zərurət olduğu halda cəzalandırılır. Cəzadan istifadə edərkən şagirdi təhqir etmək, şəxsiyyətini alçaltmaq olmaz. **5**. Münaqişəli situasiya cəza metodunu tətbiq etmək üçün əsasdır. Cəza haqqında hər hansı bir resept vermək də olmaz, hər bir hərəkət fərdidir. **6**. Cəza güclü emosional və psixoloji təsir edən, motivasiyaedici metoddur. Müəllimin cəzanı tətbiq edərkən buraxdığı səhvləri düzəltmək xeyli çətindir. Ona görə də yaranmış situasiya haqqında tam aydınlıq olana qədər cəza verməyə tələsməmək lazımdır. **7**. Cəzanın əvəz çıxmaq, qisas almaq alətinə çevrilməsinə heç vaxt yol vermək olmaz. **8**. Cəza pedaqoji taktı, şagirdin yaş və fərdi xüsusiyyətlərini yaxşı bilməyi tələb edir və yalnız fərdi xarakter daşıyır. **9**. Cəzalandırma kollektiv qarşısında verilməlidir ki, daha təsirli və effektli olsun. **10**. Cəza tədbirini tətbiq edərkən qəbahətin, nöqsan hərəkətin xarakterini, uşağın fərdi, psixoloji xüsusiyyətlərini motivasiyasını nəzərə almaq lazımdır. Hər bir nöqsan hərəkət də cəzalandırılmaya bilər. Bunun üçün müəllimin pedaqoji ustalığı və səriştəliliyi mühüm əhəmiyyət kəsb edir.

Beləliklə, deyə bilərik ki, tərbiyə işinin təşkilində, tərbiyə prosesinin yerinə yetirilməsində rəğbətləndirmə və cəzalandırma metodları stimullaşdırma və motivasiyaedici metod kimi çıxış edir və digər tərbiyə metodları ilə birlikdə kompleks şəkildə tətbiq edilir.

**Ədəbiyyat:**


1. Əhmədov B. Pedaqogikadan mühazirə konspektləri. Bakı: Maarif, 1988, 270 s.
2. Çələbiyev N.Z. Uşaq psixologiyası. Dərs vəsaiti. Bakı: ADPU, 2005, 287 s.
3. Salamova K. B. Ümumi psixologiya. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2014, 295 s.
4. Əmrahlı L.S. Şəxsiyyət və cəmiyyət(2007). Bakı: Müəllim, 2007.
5. Əliyev R.İ. Psixologiya. Dərs vəsaiti. Bakı: Nurlan, 2008, 276 s.
6. Əlizadə Ə.Ə. Əlizadə H.Ə. Əlizadə S.H. Psixopedaqogika. Dərs vəsaiti. Bakı: Ekoprint,2019, 298 s.
7. Əzizov Q. M. Psixolopiya. Dərs vəsaiti. Bakı:Mütərcim, 2012, 275 s.
8. Hüseynzadə R. L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.
9. Qasımova L.N. Pedaqogika. Dərslik. Bakı: Ekoprint,2021, 524 s.
10. Allahverdiyeva F.M. (2018). Pedaqogika. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 2018, 321s


## PEDAQOJİ FƏNLƏRİN TƏDRİS KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ YENİ TƏLİM TEXNOLOGİYALARININ VƏ İKT-NİN TƏTBİQİ İMKANLARI


**Eylazova Sevinc Cəfər**
**Bakı Slavyan Universiteti**
**https://orcid.org/0000-0002-3632-8089**
**eylaz441@gmail.com**


## POSSIBILITIES OF APPLICATION OF NEW LEARNING TECHNOLOGIES AND ICT IN IMPROVING THE TEACHING QUALITY OF PEDAGOGICAL SUBJECTS


**Eylazova Sevinj Jafar**
**Baku Slavic University**
**https://orcid.org/0000-0002-3632-8089**
**eylaz441@gmail.com**



### Summary

As in all areas in the Republic of Azerbaijan, information and communication technologies are widely used in the education and upbringing of the younger generation, in the training of young specialists in the field of education. Particular attention is paid to the ability of teachers to work with ICT, the ability to correctly use new pedagogical technologies, competence and professionalism in this area. The current state of education makes the introduction of new learning technologies inevitable. In today's globalized and modernizing world, the competitiveness of countries is primarily determined by their effective use of ICT. The results of pedagogical experiments and experimental work in education have already proved that the use and integration of ICT in education improves the quality of education,

makes pedagogical work more productive, students acquire modern knowledge and skills, habits, expand and improve their horizons, ethical, cultural, spiritual and moral qualities technical skills are being improved, their active position in society is being formed. The need to form a mass ICT mentality in society leads to the use of ICT at various levels of education.

The topicality of given article has been corroborated and degree of problem processing has been reviewed. The importance of using new learning technologies in pedagogy classes was emphasized. The role, place and importance of new learning technologies in improving the quality of pedagogical subjects in teaching were widely explained.

**Keywords:** education, pedagogical method, new teaching methods, pedagogy.

## ВОЗМОЖНОСТИ ПРИМЕНЕНИЯ НОВЫХ ТЕХНОЛОГИЙ ОБУЧЕНИЯ И ИКТ В ПОВЫШЕНИИ КАЧЕСТВА ПРЕПОДАВАНИЯ ПЕДАГОГИЧЕСКИХ ПРЕДМЕТОВ

**Эйлазова Севиндж Джафар**

**Бакинский Славянский Университет**

**https://orcid.org/0000-0002-3632-8089**

**eylaz441@gmail.com**

### Резюме

Как и во всех сферах в Азербайджанской Республике, информационно-коммуникационные технологии широко используются в обучении и воспитании молодого поколения, в подготовке молодых специалистов в сфере образования. Особое внимание уделяется умению педагогов работать с ИКТ, умению правильно использовать новые педагогические технологии, компетентности и профессионализму в этой области. Современное состояние образования делает неизбежным внедрение новых технологий обучения. В современном глобализованном и модернизирующемся мире конкурентоспособность стран в первую очередь определяется их эффективным использованием ИКТ. Результаты педагогических экспериментов и экспериментальной работы в образовании уже доказали, что применение и интеграция ИКТ в образование повышает качество образования, делает педагогический труд более продуктивным, учащиеся приобретают современные знания и навыки, привычки, расширяют и повышают кругозор, этические, культурные , духовные и нравственные качества, совершенствуются технические навыки, формируется их активная позиция в обществе. Необходимость формирования массового ИКТ-менталитета в обществе приводит к применению ИКТ на различных уровнях образования.

В статье была обоснована актуальность темы. Автором затронут уровень развития механизма проблемы. Была подчеркнута значимость разработки новых учебных технологий на уроках педагогике. Особое внимание было уделено качеству повышения роли новых учебных технологий, их месту и важности на уроках педагогических предметов.

**Ключевые слова:** педагогическая технология, новые учебные технологии, ИКТ, интерактивное обучение, педагогика

Hal-hazırda həyatımızın ayrılmaz tərkib hissəsinə çevrilmiş informasiya texnologiyaları bir çox elm sahələri kimi, pedaqogika elmində və fənnində böyük kəşflərə, nailiyyətlərə gətirib çıxarır. İnformasiya və kommunikasiya texnologiyalarına dair bilik və bacarıqlara sahib olmağın yolu ümumtəhsil məktəblərindən başlayır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2004-cü il 21 avqust tarixində təsdiq etdiyi “Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramı” Azərbaycan təhsil

sisteminin inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Proqramın əsas məqsədi yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətini yüksəltməyə xidmət edən, ölkə təhsil informasiya sisteminin dünya təhsil sisteminə inteqrasiyasına imkan verən vahid təhsil informasiya mühitini yaratmaq və cəmiyyəti informasiyalaşdırılmış cəmiyyətə hazırlamaqdır". Qarşıya qoyulan bu məqsədi həyata keçirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

- kompüter texnikası əsasında qurulan yeni informasiya texnologiyalarının mənimsənilməsinin və onun bütün imkanlarından istifadə olunmasının təmin edilməsi;
- ölkənin təhsil sisteminin səmərəli idarə olunmasının təmin edilməsi;
- elmi-metodiki işlərinin səmərəliliyinin artırılması;
- beynəlxalq informasiya şəbəkələri vasitəsi ilə dünya ölkələrinin təhsil müəssisələri ilə əlaqələrinin yaradılması.

Göründüyü kimi İKT-nin tətbiqi təhsilin bütün sahələrini əhatə edir.

Tədris prosesində fəal təlim üsullarından istifadə şagirdlərin təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır, dərsin strukturu qarşısında müəyyən tələblər qoyur

Təqdirəlayiq işlərdən biri də budur ki, Respublikamızda 2010-cu ili "Təhsildə İKT" ili elan edilmişdir. Ölkədə bu istiqamətdə seminarlar, konfranslar, həvəsləndirici və stimullaşdırıcı aksiyalar, müsabiqələr keçirilməsinə start verilmişdir. Nəinki ümumtəhsil müəssisələri, eyni zamanda, orta ixtisas təhsili müəssisələri, ali təhsil müəssisələri avadanlıqlarla-noutbuklarla, kompüterlərlə, ağıllı lövhələrlə təchiz olunmuşdur. Fənnindən asılı olmayaraq bütün müəllimlərin yalnız öz seçdikləri biliklər, psixologiya və pedaqogika sahəsində deyil, eyni zamanda informasiya sahəsində də yenidən biliklər alması aktual bir məsələdir. Yeni nəslin öz müəllimlərindən öyrəndikləri fənnin məqsədinə və məzmununa uyğun, şagirdlərin şəxsi xüsusiyyətlərini diqqətə alan, onların hərtərəfli inkişafına optimal şərait yaradan texnologiyaları seçib təlim prosesinə tətbiq etmək məktəb qarşısında mühüm tələb kimi qoyulmuşdur.

Bu gün ölkənin təhsil sisteminin bütün pillələrində kompüterlərə çıxış imkanlarının genişləndirilməsi zərurəti ilə yanaşı, İKT avadanlığının daha səmərəli istifadə olunmasının aktuallığı qabarıq şəkildə hiss olunur. Yeni texnologiyalardan istifadə edən müəllimlərin sözlərinə istinadən deyə bilərik ki, informasiya və kommunikasiya texnologiyaları vasitələrinin geniş imkanları təlim prosesini sadələşdirir, rahat təhsil almaq imkanı verir, müxtəlif öyrənmə üsullarından istifadə edir, onu çevik və dinamik edir. Kompüterlərlə həyata keçirilən pedaqoji dərslər və ya son dövrlərdə geniş tətbiq edilən distant təhsil şagirdlər və tələbələr üçün həm yaddaqalan, həm də cəlbedici olur.

Avtomatlaşdırılmış öyrədici sistemlər, mültimedia vasitələri, prometan löhvələr, kompüter tədris proqramları, rəngli illustrasiyalar, pedaqogika və psixologiya dərslərində proyeksiyalardan, slaydlardan istifadə şagirdlərin və tələbələrin fəallığına, materialı daha şüurlu və həvəslə mənimsəməsinə müsbət təsir göstərir. Nəticədə, təhsilin səviyyəsi yüksəlir, təhsilalanların bilik və dünyagörüşləri inkişaf edir, təlimə maraq daha da artır.

Təlim prosesində təhsilalanlar qazandıqları bilik, bacarıq və vərdişlərin tətbiq edir, öz fikirlərini sərbəst şəkildə söyləmək və onu əsaslandırıb müdafiə edərək, sərbəst şəkildə düşüncə

qabiliyyətlərinin formalaşdırılmasına nail olur. Şagirdlərin müstəqil şəkildə bilikləri əldə etmələri və mənimsəmələri, fəallığı, öz maraq və qabiliyyətlərini gerçəkləşdirməsi və təşəbbüskarlığa can atmaları interaktiv təlimin üstünlüklərindən hesab olunur.

Fəal və interaktiv təlim texnologiyalarından istifadə etmək müasir təhsilin keyfiyyətinə müsbət təsir edir ki, bu da indiki dövr üçün ən aktual məsələdir. Tədris prosesində fəal təlim üsullarından istifadə təhsilalanların təhsilə, elmə marağını artırmaqla yanaşı, onlarda əməkdaşlıq, yaradıcılıq, tədqiqatçılıq qabiliyyətlərinin formalaşmasına imkan yaradır, dərsin strukturu qarşısında müəyyən tələblər qoyur Təhsil sistemində yeni metodlardan və texnologiyalardan istifadə etmək şagirdlərin daha yüksək nəticələr qazanmasına gətirib çıxarır və onlarda müstəqillik, məsuliyyət və təfəkkür fəallığı kimi müsbət xüsusiyyətlər formalaşdırır.

Təlim prosesində Prometan lövhələrdən istifadə etmək fəal dərsin, inreraktiv təlimin əsas tələblərindən biridir. Belə dərslər daha cəlbedici, maraqlı və əyani olmaqla şagirdlərin fəallıqla təlim materialına cəlb edilir, sərbəst fikirlər söylənilir, müzakirələr keçirilir ki, bütün bunlar təlimin keyfiyyətini, təhsilalanların elmi dünyagörüşünün formalaşmasını təmin edir. İnteraktiv (ağıllı) lövhə, kompüterə qoşulmuş mikroskop, skaner, videoqurğulardan və s. əldə edilən görüntülər və təsvirlər də proyektor vasitəsilə qəbul edilir ki, bu da təhsil müəssisələrində virtual laboratoriyaların təşkilində böyük əhəmiyyət kəsb edir.

İnteraktiv löhvənin daha bir müsbət cəhəti odur ki, onun üzərində aparılan bütün əməliyyatları kompüterin yaddaşında saxlamaq və onlardan dəfələrlə istifadə etmək mümkün olur. Kompüterin bu cür imkanları tez-tez dərsdən qalan, hətta təlimdən geri qalan şagirdlərin -tələbələrin materialı yenidən izləməsi üçün imkanlar yaradır.

Tədrisdə informasiya və kommunikasiya texnologiyalarından istifadə edən müəllimlərin fikrincə, interaktiv şəraitdə keçirilən dərslərdə təhsilalan əsas sima, mərkəzi fiqurdur. Belə interaktiv şəraitdə aparılan dərslər bütün şagirdlərin, yəni utancaq, müəyyən psixoloji, fiziki qusurları olan şagirdlərin də dərs prosesində fəallaşmasına imkan yaradır.

Bütün bunlarla yanaşı, dərsdə videofilmlərə baxışdan başqa, tələbələrin nümayiş təqdimatlarından da istifadə etmək məqsədəuyğundur. Təqdimat Microsoft PowerPoint proqramında hazırlanaraq keçirilən materialın əsas məsələlərinə həsr olunmalıdır. Əlavə olaraq təqdimata yeni mövzuya aid tələbələrin müstəqil analizləri də daxil edilməlidir. Təqdimatla işləyərkən hər bir tələbə, yaxud şagird başqa şagirdlərdən, yaxud müəllimdən asılı olmayaraq öz tempinə uyğun şəkildə işləməyə imkan qazanır. Belə şərait hər bir kəsə yaradıcılıq imkanlarından tamamilə istifadə edərək öz fəaliyyətini nizamlamağa, şüurlu fəaliyyət göstərməyə, öz işinin keyfiyyətinə nəzarət etməyə imkan verir. Bu zaman onlar özlərini sadəcə subyekt deyil, tədris prosesinin rəhbəri kimi hiss edir ki, bu da tədris fəaliyyətinə marağı yüksəldir, öyrənənlərdə özünə inam hissini formalaşdırır. Pedaqogikanın tədrisində interaktiv üsullarla hazırlanmış mültimedialar imkan verir ki, öyrənilən mövzu proses iştirakçılarına əhatəli çatdırılsın və istənilən anda yaranmış suallara aydınlıq gətirilsin. Bu baxımdan dərs prosesində öyrənənlərin daha çox sual verməsi tədrisin səmərəliliyi üçün əsas şərtlərdən biridir. Bu həm öyrənməyə, həm də biliklərin dərinləşməsinə şərait yaradır. Kompüterdən istifadə edərək şagird tapşırıqların mənimsəmə sürətini özünə asan formada müəyyən edə bilər. Rahat rejimdə şagirdin işləməsi müsbət nəticə verir, şagirdin öz güvəni artır,

təlimdə əlverişli atmosfer yaradır. Dərs zamanı müəllim şagirdlərə suallar verdikdə onların hamısı kompüterin köməyi ilə eyni vaxtda cavab verir, təlimdə şüurluluq və fəallıq artır. Fənn müəllimi də dərsin sonunadək şagirdlərin fəallığının qorunub saxlanılmasına nail olur.

İstər ümumtəhsil, istər orta ixtisas, istərsə də ali təhsildə təhsilalanlar tərəfindən çətin mənimsənilən mövzuların tədrisində müzakirə, əqli hücum, laboratoriya, layihə, debat metodlarına üstünlük verilməlidir. Müəllim çalışmalıdır ki, mövzunun tədrisi zamanı bir deyil, bir neçə metoddan istifadə etsin. Metodların seçilməsi təlim prosesinin bir tərəfidir. Digər tərəfi isə düzgün tətbiqidir. Metodların müasir tələblər baxımından tətbiqi işin əsas hissəsi sayılmalıdır. Bunun üçün müəllim seçdiyi metodun mahiyyətini bilməli, ona pedaqoji, psixoloji və gigiyenik tələblər baxımından yanaşaraq tətbiq edilməlidir. Bir dərsdə bir neçə fəal təlim metodları tətbiq edilə bilər.

Azərbaycanda informasiya kommunikasiya texnologiyalarından istifadə sahəsində müəyyən addımlar atılmış, bir sıra sahələrdə bu texnologiyaların tətbiqində ciddi uğurlar qazanılmışdır. İnformasiya cəmiyyətinə istiqamətlənmiş yol bəşəriyyətin gələcəyinə gedən yol kimi dəyərləndirilir. Digər sahələrdə olduğu kimi, İKT sahəsində də regionda liderlik edən Azərbaycan bu yolla uğura irəliləyir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli "Azərbaycan Respublikasında Təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sərəncamı / Xalq qəzeti, 25 oktyabr, 2013-cü il.

2. Əliyev, İ.H. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblilərin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı Proqramı (2005-2007-ci illər)" 2004-cü il 21 avqust tarixli 355 nömrəli Sərəncamı. / Xalq qəzeti, 23 avqust, 2004-cü il.

3. 2008-2012-cil illərdə "Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" Azərbaycan Respublika Prezidentinin 2008-ci il 10 iyun tarixli Sərəncamı ilə təsdiq edilmişdir. http://www.president.az

4. Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.

5. Həsənov A. Müasir təlim texnologiyaları. Bakı, 2012.

6. Ə.Ağayev. Yeni təlim metod və texnologiyalarından istifadənin nəzəri və praktik məsələləri. // ARTPİ-nin «Elmi əsərləri», Bakı, 2006.

7. Fəal təlim metodlarına giriş üçün tövsiyələr (Məktəb müəllimləri üçün). Bakı, YUNİSEF, 2004.

8. Zeynalov. Yeni pedaqoji texnologiyalar və müasir dərs. // Azərbaycan müəllimi qəzeti, Bakı, 2002.

9. R.Həsənov. Şagird şəxsiyyətinin formalaşmasında yeni pedaqoji texnologiyalar. // Azərbaycan məktəbi, Bakı, №2, 2002. s. 50.

10. R.Həsənov. İnteraktiv metodlar və təlimin əməkdaşlıq şəraitində təşkili. // Azərbaycan müəllimi qəzeti, Bakı, 2002.

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNDƏ KREATİV DÜŞÜNCƏNİN FORMALAŞMASINDA TƏLİMİN TƏŞKİLİNƏ MÜASİR YANAŞMA

**Əlisoy Təranə Hüseyn**
**Azərbaycan Respublikası Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-9637-539X**
**aliyevatarana143@gmail.com**

# A MODERN APPROACH TO THE ORGANIZATION OF TRAINING IN THE FORMATION OF CREATIVE THINKING IN PRIMARY SCHOOL STUDENTS

**Alisoy Tarana Huseyn**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-9637-539X**
**aliyevatarana143@gmail.com**

## Summary

The century we live in, especially the last ten years, is characterized by an abundance of information, drastic changes in science, technology and society. Living in a rapidly developing and changing world, the modern period requires a number of skills in the personality for adapting to these changes. Today's personality must be an open mind, think logically, analyze-synthesize, make free judgments, take a critical approach to events, be competitive, make independent decisions, and be able to overcome the difficulties faced flexibly and creatively.

As in every period, nowadays education, training and upbringing have an exceptional role in the formation of personality. In the study, the role of education was analyzed from the point of view of the problem. In the study, the importance of the concepts of "creativity" and "creative thinking" was revealed as a skill of the 21st century. The factors that can affect the development of creative skills in a negative or positive direction and the conditions for the organization of an efficient environment were discussed. Proper organization of the pedagogical process and efficient training methods were emphasized in the development of these skills in schoolchildren.

**Keywords:** creativity, creative thinking, training, education, skill.

# СОВРЕМЕННЫЙ ПОДХОД К ОРГАНИЗАЦИИ ОБУЧЕНИЯ ПО ФОРМИРОВАНИЮ ТВОРЧЕСКОГО МЫШЛЕНИЯ У МЛАДШИХ ШКОЛЬНИКОВ

**Алисой Тарана Гусейн**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-9637-539X**
**aliyevatarana143@gmail.com**

## Резюме

Век, в котором мы живём, в основном период последнего десятилетия, характеризуется изобилием информации, резкими изменениями в науке и технике, в обществе. Чтобы жить в быстроменяющемся мире, адаптироваться к этим изменениям, современная эпоха требует наличия ряда навыков в личности. Личность сегодняшнего дня должна обладать непредвзятостью, логически мыслить, анализировать, синтезировать,

свободно выносить суждения, критически относиться к событиям, быть конкурентоспособной, самостоятельно принимать решения, уметь гибко и творчески справляться с возникающими трудностями.

Сегодня, как и в любую эпоху, образование, обучение и воспитание играют исключительную роль в формировании личности. Роль образования в исследовании была проанализирована с проблемной точки зрения. В исследовании раскрыто значение понятий” креативность“,” креативное мышление " как навыка XXI века. Затронуты факторы, которые могут повлиять на развитие творческих способностей в отрицательном или положительном направлении, рассмотрены условия организации эффективной среды.В развитии этих навыков у школьников подчеркивается правильная организация педагогического процесса и эффективные методы обучения.

**Ключевые слова:** креативность, креативное мышление, обучение, образование, навыки.

Təhsilin məqsədlərindən biri müstəqil və yaradıcı düşünən vətəndaş, şəxsiyyət yetişdirməkdir (“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009). Məlumdur ki, ibtidai təhsil ümumi təhsilin əsas təməlini təşkil edir. Ona görə də ibtidai təhsilin düzgün təşkili, fənn proqramlarının bu günkü tələblərə cavab verməsi ibtidai sinif şagirdlərində həyati bacarıqların formalaşdırılması üçün xüsusi əhəmiyyətə malikdir. Eyni zamanda təlimə aid olan prinsiplərlə yanaşı dərsin bilavasitə özünə məxsus bəzi tələbləri də nəzərə alınmalıdır (Abbasov, 2013). Bu gün təhsil-tərbiyə cəmiyyətin mühüm inkişaf şərti olaraq, onun obyektiv tələbatına çevrilmişdir (Rüstəmov, 2012). Şagirdlərə aşılanan bilik və bacarıqlar onların gələcək həyatlarını qurmağa kömək etməlidir. Ənənəvi təhsil proqramlarından fərqli olaraq müasir fənn kurikulumları şagirdyönümlü, şəxsiyyətyönümlü xarakter daşıyır ki, bu da şəxsiyyətin hərtərəfli inkişafını, həmçinin onun maraq və tələbatlarını nəzərə almağı tələb kimi qarşıya qoyur. (Gökalp, 2016)

Tədqiqatın məqsədi “ XXI əsr bacarıqlarından biri olan kreativ düşüncənin inkişaf etdirmək üçün pedaqoji prosesi daha səmərəli necə təşkil etmək olar?” sualına cavab tapmaqdır. Tədqiqat zamanı problem baxımından həm mövcud vəziyyət öyrənilmiş, həm də xarici ədəbiyyatlar araşdırılaraq əhəmiyyətli məlumatlar əldə edilmişdir.

**“Kreativlik”, “kreativ düçüncə” anlayışı.** Mənbələrdə kreativlik problemi müəyyən edib orijinal həll yolunu tapmaq, bəzi mənbələrdə isə var olan məhsulu ideya və fikri dəyişdirərək, qeyri-adi formada istifadə etmək bacarığı olaraq izah olunur (Özcan, 2009). Ümumilikdə kreativliyin 4 əsas kateqotiyadan ibarət olduğu qeyd olunur. İngilis dilində 4P kimi adlandırılan bu kateqoriyalar: sıxıntı, tələbat (press), şəxs (person), proses (process), məhsuldur (product) (Çelebi Öncü, 2010).

Kreativ düşüncə əşyalara, hadisələrə, problemin həllinə yeni və qeyri-adi nöqteyi nəzərdən baxmağa, çərçivədən kənar düşünməyə kömək edən idrak prosesidir. Kreativ düşünmə qabiliyyətləri pedaqoji-psixoloji ədəbiyyatlarda problemin nə olduğunu müəyyən etmək, problemin bir neçə həll yolunu tapmaq, fərqli, özünəxas ideyalar irəli sürmək, mövcud olan ideya və fikirləri zənginləşdirmək, əlaqələndirmək, daha əvvəldən mövcud olan əşyaları fərqli, əşyaya çevirmək və fərqli məqsədlərlə istifadə etmək, xəyal qurma qabiliyyəti, fikirləri, hadisələri ağıl gözü ilə görmək, təsəvvürdə canlandırmaq şəklində izah olunur (Kaplan Sayı və Tanık, 2014).




**Şəkil 1. Problem baxımından mövcud vəziyyətin təhlili.**

Kiçikyaşlı məktəblilərdə kreativ düşüncənin formalaşdırılmasına təsir edən amillərlə bağlı müxtəlif bölgələrdən olan qabaqcıl müəllimlərin fikirlərini öyrənmək üçün sorğu keçirildi. Diqqət çəkən məqamlardan biri müəllimlərin dərsliklərin problem baxımından tələbləri tam ödəmədiyi qənaətində olmalarıdır. Keçirilən sorğunun nəticələri şəkil1-də təsvir olunmuşdur.

Kreativlik anadangəlmə olaraq hər bir insanda müəyyən bir səviyyədə var olan qabiliyyətdir. İnsanın ailəsi, təlim-tərbiyəsi, yaşadığı sosial mühit və s. kimi amillərin təsiri bu qabiliyyətin inkişafına müəyyən qədər mane olmaq, düzgün yanaşma, xüsusi təlim proqramları və təlim üsulları ilə kreativ düşüncənin inkişafını dəstəkləmək mümkündür (Sadıqov, 2012). Valideynlər və müəllimlər uşaqların hərtərəfli, dəstək olmalı, rəhbərlik etməlidir. Həm ailədə, həm də məktəbdə buna xüsusilə diqqət yetirilməlidir (Zeynalova, 2018). Şablon proqramlar, standart davranışlar, tələblər olan mühitdə fərqli düşünən şəxsiyyətlər yetişdirmək olmaz. Uşaqlarda kreativlik bacarıqlarının inkişaf etdirilməsi üçün onlara sərbəstlik verilməli, gördükləri işi, səsləndirdikləri fikri və ya hazırladıqları nəsnəni dəyərləndirən zaman uşağın yaş və zehni inkişaf səviyyəsi nəzərə alınmalıdır. Onlara öz işlərinə özlərinin rəy verməsini istəməklə onları motivə etmək lazımdır. Rəy müəllim və ya valideyn tərəfindən veriləndə həssaslıqla verilməli, bu rəy uşağı həvəsdən salmamalıdır (Gökalp, 2016).

İbtidai siniflərdə təlimin məzmunu problem baxımdan diqqətə alınmalı, düşündürücü tapşırıqlara daha çox yer verilməlidir. (Zhuravskaya, 2013) Pedaqoji prosesin təşkilində şagirdyönümlük, şəxsiyyətyönümlük, bərabər imkanların yaradılması və s. kimi prinsiplərə əməl olunmalıdır (“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, 2009). Sinfin idarə olunmasında demokratik üslubdan istifadəyə, qarşılıqlı münasibətlərdə hörmət, hümanist yanaşma, empatiyaya əsaslanmaq lazımdır.

Kreativ düşüncəni formalaşdırmaq üçün bəzi təlim üsullarının da xüsusi rolu var. Nümunə olaraq “beyin fırtınası”, “SCAMPER”, “zehni xəritələr”(Çay, 2021), “altı papaqlı düşünmə” (Zhuravskaya, 2013) “Proqnozlaşdırma”, “əşyalardan qeyri-adi istifadə”, “kimi kimi” (Sezgin və Baysal) və s. göstərə bilərik.

Əldə olunan məlumatlar təhlil olunaraq belə bir nəticəyə gəlmək olar ki, təhsil proqramları təkmilləşdirilərsə, təlim üsulları doğru seçilib tətbiq edilərsə və səmərəli mühit təşkil olunarsa, bu kiçikyaşlı məktəblilərdə kreativ düşüncəni formalaşdırmağa kömək edər. Düşünürük ki, problem baxımından daha geniş tədqiqatların aparılmasına ehtiyac var.

**Ədəbiyyat:**

1. Abbasov A., (2013). Pedaqogika, 360 səh.
2. Rüstəmov F., (2012). Pedaqogika, 463 səh.
3. Sadıqov F., (2012). Pedaqogika, 551 səh.
4. “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu, (2009).
5. Zhuravskaya N.Y. (2013). İrkutsk.
6. Çay B., ( 2021). Yaratıcılık, yaratıcı düşünme teknikleri ve yaratıcı düşünme tekniklerii üzerine bir uygulama 118 səh.
7. Çelebi E.Ö., (2010). Çocukluk dönemində sanat ve yaratıcılık, 310 səh.
8. Özcan S., (2009). Yaratıcı düşünmü etkinliklerinin öğrencilerin yaratıcı düşünmelerine ve proje geliştirmelerine etkisi, 119 səh.
9. http://genderi.org/elmi-eserler-2018-1-90-nakhchivan-state-university-scientific.html?page=19
10. https://hayefjournal.org/tr/ilkokul-3-sinif-ogrencileri-icin-gelistirilen-dusunme-becerileri-programinin-ogrencilerin-yaraticiliklarina-etkisinin-incelenmesi-132
11. https://cocukuniversitesi.aydin.edu.tr/belgeler/yaratici_dusunme.pdf

## KİMYA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİ YARADICILIQ FƏALİYYƏTİNƏ TƏŞVİQETMƏNİN 5 YOLU

**Nağızadə Zərinə Hikmət**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0003-4543-5166**
**nagizadezarina@gmail.com**

## IN CHEMISTRY CLASSES 5 WAYS TO ENCOURAGE STUDENTS TO BE CREATIVE

**Nagizadeh Zarina Hikmet**
**Baku State University**
**https://orcid.org/0000-0003-4543-5166**
**nagizadezarina@gmail.com**

**Summary**

In the rapidly developing world of education and business, creativity has started to play a more important role over time, because now society needs creative minds who develop the ability to work with technologies, who are ready to ask questions and explore. The more colorful life and the more complex the problems, the greater the demand for people with innovative ideas and original solutions. Innovation and creativity have a very important place among the skills of the XXI century and the future. As a result of integration into the international education system, personnel training requires not only the knowledge level of candidates, but also the formation of modern skills such as creativity and research at a very high level in accordance with the requirements of the time. For this purpose, various training

methods, modern scientific-technical tools and pedagogical technologies are used during the work with students in the teaching-learning process. Teaching students other skills necessary to be creative, using non-traditional teaching materials, turning creativity into an assessment criterion, supporting students' internal motivation and removing limitations for their creative activity will contribute to solving such important issues facing the education system.

**Keywords:** creativity, chemistry, teaching, development.

# 5 СПОСОБОВ ПООЩРЕНИЯ УЧАЩИХСЯ К ТВОРЧЕСТВУ НА УРОКАХ ХИМИИ

**Нагизаде Зарина Хикмет**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0003-4543-5166**
**nagizadezarina@gmail.com**

## Резюме

В быстро развивающемся мире образования и бизнеса креативность со временем стала играть все более важную роль, потому что сейчас обществу нужны креативные умы, которые развивают способность работать с технологиями, готовы задавать вопросы и исследовать. Чем красочнее жизнь и чем сложнее проблемы, тем больше спрос на людей с новаторскими идеями и оригинальными решениями. Инновации и креативность занимают очень важное место среди навыков XXI века и будущего. В результате интеграции в международную систему образования подготовка кадров требует не только уровня знаний кандидатов, но и формирования на очень высоком уровне в соответствии с требованиями времени современных навыков, таких как креативность и исследовательская деятельность. С этой целью при работе со студентами в учебно-воспитательном процессе используются различные методы обучения, современные научно-технические средства и педагогические технологии. Обучение студентов другим навыкам, необходимым для творчества, использование нетрадиционных учебных материалов, превращение креативности в критерий оценки, поддержка внутренней мотивации студентов и снятие ограничений на их творческую активность будут способствовать решению столь важных задач, стоящих перед системой образования.

**Ключевые слова:** творчество, химия, обучение, развитие.

Artıq əksər iş sahələrində mütəxəssis kimi biliklərini ortaya qoyanlardan daha çox yüksək səviyyədə yaradıcılıq potensialına malik mütəxəssislərə üstünlük verilir. Təcrübələrdən məlum olur ki, müəllim və şagirdlərin yaradıcı və tədqiqatçılıq işlərinə cəlb olunması məktəblərdə təlim və tərbiyənin keyfiyyətinin yüksəldilməsinə də müsbət təsir göstərir. Bu tədqiqat işi kimya fənninin tədrisində şagirdlərin tədqiqatçılıq və yaradıcılıq bacarıqlarına yiyələnməsi, bununla yanaşı müasir texnologiyalardan istifadə qabiliyyətinin formalaşdırılmasına həsr olunur ki, tədqiqat işinin aktuallığı da bu amillərə əsaslanır.

Tədqiqat işi müasir dövrün tələblərinə cavab verən bacarıqlı kadrların yetişdirilməsini təklif edir və ümumtəhsil məktəblərində tətbiq olunarkən şagirdlərin tənqidi və yaradıcı təfəkkürünü formalaşdırır.

Kimya fənninin tədrisi prosesində mətnin daxilində bəhs edilmiş yol və vasitələrdən istifadənin əsas hədəfi şagirdləri yaradıcı fəaliyyətə cəlb edərək onların yaradıcılıq qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirməkdən ibarətdir.

Qarşıya qoyulmuş məqsədə nail olmaq üçün tədqiqat işinin respublikamızda tətbiqini təşkil etmək və öyrənmək, kimya dərslərində iştirak edib müşahidə və müsahibə aparmaq, tədqiqat işi ilə bağlı təcrübələri həyata keçirmək vəzifələri nəzərdə tutulmuşdur.

1. *Şagirdlərə yaradıcı olmaları üçün zəruri olan digər bacarıqları öyrətmək*- Sinif nümunəsi: maddənin fiziki xassələrindən biri olan donma haqqında danışarkən müəllim belə bir sual verir: "Donma prosesi hansı maddələrdə baş verə bilər?" Şagirdlərin ilk ağlına gələn su olsa da, daha hansı əşyaların donduğunu müəyyənləşdirmək üçün təcrübə (müşahidə) qururlar. Təcrübənin təşkili üçün məhdudiyyət onların həmin vaxt yalnız sinif otağında olanlardan istifadə edə bilmələri ola bilər. Öncə donub-donmadığını görmək üçün çölə qoyacaqları əşyaların siyahısını tərtib edirlər: su, şirə, yapışqan, şüşə təmizləyici, sirkə və kağız. Ertəsi gün isə onlar öz tapıntılarını müzakirə edir, kağızın və ya sirkənin donmaması barədə söhbətlər edirlər. Şagirdlər arasında ilkin müzakirə onlarda fikirlərini müdafiə etmək, dinləmək və güzəştə getmək bacarıqlarını inkişaf etdirir. Sonrakı müzakirə isə deduktiv əsaslandırmanı təşviq edir.

2. *Qeyri-ənənəvi tədris materiallarından istifadə*-müxtəlif maraqlı təcrübə videolarını izləmək sinifə dərslikdən, müəllimin izahından başqa kənar səslər gətirmək üçün ideal yoldur. Şagirdlər 15 dəqiqəlik nitqlərə baxa və ya dinləyə və ertəsi gün sinifdə onlar haqqında təxribatçı müzakirə apara bilərlər. Bu söhbətlər tələbələrdən maraqlı fikirlər almağa məcburdur və nəticədə onlar müəyyən bir mövzunu davam etdirmək üçün ilhamlana bilərlər.

3. *Yaradıcılığı qiymətləndirmə meyarına çevirmək*- Şagirdləri qiymətləndirərkən müəllim onların yaradıcılığını da nəzərə almalıdır. Qiymətləndirmə zamanı "Tapşırıq nə dərəcədə orijinaldır?", " Şagird fikirlərini ifadə etmiş, yoxsa sadəcə hərəkətə keçmişdir?" və s. kimi daxilə yönəlmiş suallar şagirdlərin yaradıcılıq qabiliyyətlərini dəyərləndirməklə bərabər, onları daha çox yaradıcılığa təşviq edə bilər.

4. *Şagirdlərin daxili motivasiyasını dəstəkləmək*- Daxili motivasiya həmişə yaradıcılığı gücləndirir. Tədqiqatlar onu göstərir ki, sinifdə mükafatlara ya da həvəsləndirmələrə güvənmək tapşırığı yerinə yetirmək üçün şagirdin daxili motivasiyasını poza bilər – ("həddindən artıq əsaslandırma" effekti). Bunun üçün Wellesley Kollecinin professoru Beth Hennessey müəllim-pedaqoqlara şagirdlər arasında rəqabəti və onların başqaları ilə müqayisəsini məhdudlaşdırmağa, bunun əvəzinə isə özlərini təkmilləşdirməyə fokuslanmağı təklif edir. Bu məqsədlə sinif otağının divarlarını və ya masa üstlərini motivasiyaedici cümlələrlə bəzəmək daha məqsədəuyğundur.

5. *Yaradıcılıq üçün şagirdlərə yer (və ya çərçivə vermək)* – Kimya dərslərində bu imkan daha əlçatandır. Belə ki, şagirdlərə təhlükəsiz sayılan maddələrlə müəyyən təcrübələr həyata keçirməyə, kiçik kəşflər etməyə şərait yaratmaqla onların yaradıcı fəaliyyətini dəstəkləmək mümkündür.

Şagirdləri yaradıcı fəaliyyətə cəlb etmək üçün bəhs olunan yollardan istifadə kimya fənninin tədrisində effektiv imkanlar olub, onların tənqidi təfəkkürünü inkişaf etdirməyə, yaradıcılıq qabiliyyətlərini kəşf etməyə və təkmilləşdirməyə xüsusi zəmin yaradır.

**Ədəbiyyat:**

1. Marvin Bartel, 20 Clever student engagement strategies to increase creativity, 2021,LiveTiles

2. Lauren Cassani Davis,Creative Teaching And Teaching Creativity: How To Foster Creativity In The Classroom, 2018
3. Ben Jhonson, 4 Ways to Develop Creativity in Students, 2019
4. Petra Stamer-Brandt (2004): Kreativitätsspiele. Christophorus: Freiburg.
5. Monika Murphy-Witt/Petra Stamer-Brandt (2004): Was Kinder für die Zukunft brauchen. Gräfe und Unzer: München.
6. Turabova R. Yaradıcılıq psixologiyasının tədqiqat üsulları // Azərbaycan Pedoqoji Universitetinin xəbərləri, 2005, №1,
7. Hüseynzadə R.L., Əzizova Z.M., Əliyev S.H., Verdiyeva Ü.M. Pedaqogika, dərslik Bakı, Mütərcim, 2021. 488s
8. Collard, P., & Looney, J. (2014). Nurturing creativity in education. European Journal of Education, 49(3), 348-364.
9. Craft, A. (2001). An analysis of research and literature on creativity in education: Report prepared for the Qualifications and Curriculum Authority.
10. Runco, M. (2008). Creativity and education. New Horizons in Education, 56(1), 96-104.
11. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün kimya fənni üzrə təhsil proqramı (kurikulumu), VII-XI siniflər, Bakı, 2013

## İNGİLİS DİLİNDƏ SABİT SÖZ BİRLƏŞMƏLƏRİNİN TƏDRİSİNİN LİNQVİSTİK PROBLEMLƏRİ

**Qafarlı Zümrüd Mahir**
**Azərbaycan Dillər Universiteti**
**https://orcid.org/0000-0002-0663-4640**
**z_qafarli@hotmail.com**

## LINGUISTIC PROBLEMS OF TEACHING FIXED WORD COMBINATIONS IN ENGLISH

**Gafarli Zumrud Mahir**
**Azerbaijan University of Languages**
**https://orcid.org/0000-0002-0663-4640**
**z_qafarli@hotmail.com**

### Summary

The article examines the linguistic problems in the teaching of fixed word combinations in faculties where English is taught as a major language. The teaching of phraseological units is important for understanding and communicating. Purposeful teaching of word combinations, especially fixed word combinations, so that students can communicate with native speakers through examples and analysis, a complex combinatorial-semantic analysis method to determine the semantic, combinatory, syntagmatic and functional properties of fixed word combinations as language and speech units, its based on the principle of combinatoriality of linguistic signs, special attention is paid to semantic and combinatorial-syntagmatic blocks as the most important aspects of the study of the compatibility of lexemes.

In the article, at the same time, the creation of a complex combinatorial-semantic analysis method to determine the semantic, combinatory, syntagmatic and functional properties of stable word combinations as language and speech units, the additional contrastive-semantic block of the complex analysis allows to reveal their universal and specific properties, stable in combinatorial lexicology by word combinations, the structural-semantic integrity and the issues of understanding them as combinative conditioned lexico-phraseological units characterized by various types (logical-conceptual, semantic, compatibility, functional, etc.) restrictions are investigated.
**Keywords:** fixed word combinations, linguistic, combinatorics, analysis.

## ЛИНГВИСТИЧЕСКИЕ ПРОБЛЕМЫ ОБУЧЕНИЯ УСТОЙЧИВЫМ СЛОВОСОЧЕТАНИЯМ АНГЛИЙСКОГО ЯЗЫКА

**Гафарли Зюмрюд Махир**
**Азербайджанский Университет Языков**
**https://orcid.org/0000-0002-0663-4640**
**z_qafarli@hotmail.com**

### Резюме

В статье рассматриваются лингвистические проблемы при обучении устойчивым словосочетаниям на факультетах, где английский язык преподается как основной. Целенаправленное обучение словосочетаниям, особенно устойчивым словосочетаниям, с тем, чтобы учащиеся могли общаться с носителями языка на примерах и анализе, комплексный комбинаторно-семантический метод анализа для определения семантических, комбинаторных, синтагматических и функциональных свойств устойчивых словосочетаний как языка, так и речи. единиц, в ее основе лежит принцип комбинаторности языковых знаков, особое внимание уделяется семантическим и комбинаторно-синтагматическим блокам как важнейшим аспектам изучения сочетаемости лексем.

Комбинаторно-семантический анализ включает ряд этапов и блоков. Определение сочетаний цветов на этапе 1, например, в англоязычных контекстах. На 2 этапе к исследованию в статье привлекаются вопросы непосредственного комбинаторно-семантического анализа. К этим этапам планируются семантико-функциональный блок, синтагматический блок, контрастно-смысловой блок, и каждый из этих этапов, согласно приведенным в статье примерам и анализам, эффективно осуществляется при правильной организации методики обучения. Анализ лингвистических проблем при обучении устойчивым словосочетаниям студентов старших курсов языковых факультетов делает вывод о том, что он может быть проведен.

**Ключевые слова:** устойчивые (фиксированные) словосочетания, лингвистический, комбинаторика, анализ

İngilis dilinin ixtisas dili kimi tədris edildiyi fakültələrdə tələbələrə dildaşıyıcısının nitqini başa düşmək və ünsiyyətə girmək üçün söz birləşmələrinin, xüsusilə də sabit söz birləşmələrinin məqsədəmüvafiq şəkildə tədrisi mühüm əhəmiyyət kəsb edir.

Dil və nitq vahidləri kimi sabit söz birləşmələrinin semantik, kombinator, sintaqmatik və funksional xüsusiyyətlərini müəyyən etmək üçün kompleks kombinator-semantik təhlil metodu yaradılmışdır. Kompleks təhlilin əlavə kontrastiv-semantik bloku onların universal və spesifik xüsusiyyətlərini aşkar etməyə imkan verir. Kombinator leksikologiyada sabit söz birləşmələri dedikdə, struktur-semantik bütövlüyü və müxtəlif növ (məntiqi-konseptual, semantik, uyğunluq, funksional və s.) məhdudiyyətləri ilə səciyyələnən kombinativ şərtlənmiş leksiko-frazeoloji vahidlər başa düşülür. Bu metod linqvistik işarələrin kombinatorikliyi prinsipinə əsaslanır, çünki

birləşmələr verilmiş mənanı əks etdirmək üçün müəyyən sözlərin birləşmələri vasitəsilə qurulur. (1. Adger, 2007).

Rəng birləşmələri sözlərin kombinativ şərti birləşmələrinin xüsusi növüdür, bu halda sifət növünə görə formalaşır və rəngin semantikası ilə məhdudlaşır, məsələn, *yellow wall, yellow fever, yellow press* və s. Bu tip birləşmələr aşağıdakı xüsusiyyətlərə malikdir:

1) kombinator - onlar elementlərin birləşməsinə əsaslanır;

2) mürəkkəblik - 2 və ya daha çox elementdən ibarətdir;

3) yığcamlıq - digər element(lər) ilə birləşdirilə bilir;

4) sabitlik - anlayışların daimi əlaqəsi və birgə reproduktivlik mümkündür;

5) qanunauyğunluq - elementin xassəsidir ki, burada onun hər bir baş verməsi proqnozlaşdırıla bilər;

6) təkrar istehsal - vahidlərin müntəzəm təkrarlanması nəzərdə tutulur;

7) tipiklik - standartlılıq nəzərə alınır;

8) adilik - ümumi istifadəyə uyğunluqdan bəhs olunur. (2. Bozseahin, 2012)

Dildaşıyıcılarının nitq təcrübəsində müəyyən məhdudiyyətlərə malik müxtəlif növ birləşmələri ehtiva edən, onların arasında semantik və sintaqmatik olanların üstünlük təşkil etdiyi çox sayda kontekstdən istifadə edildiyinə əsaslanaraq, onların təhlili üçün kompleks kombinator-semantik təhlil metodu adlanan xüsusi bir texnika hazırlanmışdır.

Kombinator-semantik təhlilə bir sıra mərhələlər və bloklar daxildir.

Mərhələ 1. Rəng birləşmələrinin aşkarlanması, məsələn, ingilis dilli kontekstlərdə.

Mərhələ 2. Birbaşa kombinator - semantik təhlilin aparılması.

I. Semantik-funksional bloka daxildir:

1) birləşməni təşkil edən sözlərin semantik təhlili və kontekstə uyğun semantikanın təyini;

2) birləşməyə daxil olan sözlərin leksik məna növünün müəyyən edilməsi;

3) norma, istifadə baxımından birləşmə növünün müəyyən edilməsi;

4) birləşmənin yerinə yetirdiyi funksiyanın təyini.

II. Sintaqmatik bloka daxildir:

1) anlayışların uyğunluğuna əsaslanaraq birləşmə növünün müəyyən edilməsi;

2) verilmiş vahidin sözlərinin leksik uyğunluq növünün müəyyən edilməsi;

3) birləşmə daxilində komponentlərin dəyərinin xarakterini aşkar etmək;

4) təhlil edilən bölmənin tərkib hissələrinin nominasiyalarının xarakterinin müəyyən edilməsi;

5) birləşmədə frazeologiyanın olması və ya olmaması.

III. Təzadlı-semantik blok təhlil edilən vahidin universal və spesifik xüsusiyyətlərini digər dillərdəki oxşar vahidlərlə müqayisədə müəyyən etmək üçün nəzərdə tutulmuşdur.

Mərhələ 3. Təhlilin bütün mərhələlərində alınan nəticələrin təsviri.

Beləliklə, birləşmələrin kompleks təhlilinə semantik, funksional, sintaqmatik, kontekstual, komponent və təzadlı təhlil üsulları daxildir.

Mərhələ II. Semantik-funksional blok.

Bu təhlil blokunun məqsədi sarı rəng komponenti ilə rəng birləşmələrinin əsas semantik xüsusiyyətlərini və funksional xüsusiyyətlərini müəyyən etməkdir.

1. Yuxarıda təqdim olunan kontekstlərdə ilk növbədə rəng mənasını verən və rəng birləşmələrinin bir hissəsi olan sarı polisemantın təhlili aşağıdakı semantikaların mövcudluğunu göstərir:

1) Spektrin əsas rənglərindən birinin rənginə sahib olmaq

-an average between orange and green; egg yolk, gold. Yellow paint Yellow autumn fields. ... People with yellow skin (about people of the Mongoloid race) // Having an unhealthy complexion, body (about a person). His face is completely swollen and yellow..

2) Satış, barışdırıcı; əsas. Yellow press, print.

Glaucoma. Yellow house.22 Hospital for the mentally ill. Yellow fever. Infectious disease common in tropical countries, accompanied by yellowing of the skin.

2. Sarı komponentli kolorativ birləşmələrə daxil olan sözlərin leksik məna növünə görə, habelə təqdim olunan kontekstlərə, leksik məna növlərinin təsnifatına əsasən aşağıdakılar fərqləndirilir:

1) nominativ (birbaşa) məna - yellow color, yellow suit, yellow skin, etc.;

2) törəmə-nominativ (obrazlı) məna - conciliatory, base (about the press): yellow newspaper, yellow press etc.;

3) frazeoloji birləşmələrin mənaları: yellow fever (disease), yellow water (colloquial: glaucoma), yellow house (psychiatric hospital), yellow ticket ("passport"), yellow race (Mongoloid), as well as yellow vests (protest movement in France), the country of the "yellow devil" (USA), etc.

3. Norma baxımından istifadəyə uyğun fərqləndirilir:

1) adi (milli, ümumi dil) birləşmələri: yellow color, yellow ticket, yellow fever, yellow race, yellow house, yellow newspaper, Yellow Sea, etc.;

2) müəyyən edilmiş semantik normadan kənara çıxan təsadüfi (fərdi-müəllif) birləşmələr: yellow crunch, yellow abyss of fear, yellow hack-work etc.

4.Yerinə yetirdiyi funksiyalara görə sıralamalarda leksik mənalar ola bilər:

1) nominativ, ad verən hadisələr, əşyalar, onların keyfiyyətləri: yellow flower, yellow face, yellow newspaper etc.;

2) emosional - qiymətləndirici (konnotativ) xüsusiyyətin üstünlük təşkil etdiyi ekspressiv-sinonim: yellow fever (acute infectious disease), yellow house (asylum for the mentally ill), yellow crunch (about leaves that have fallen and rustling underfoot), yellow hack (about fraud with gold items), etc.

Yuxarıda verilmiş nümunə və təhlillər göstərir ki, dil fakültələrinin yuxarı kurslarında tələbələrə sabit söz birləşmələrinin tədrisi linqvistik problemlərin təhlili metodikasının düzgün təşkili zamanı səmərəli şəkildə həyata keçirilə bilər.

**Ədəbiyyat:**

1. Adger D. Combinatorial Variability / D. Adger // Journal of Linguistics. -2006. - Vol. 42. Iss. 3. - pp. 503-530.

2. Bozseahin C. Combinatory Linguistics / C. Bozsëahin. - Berlin & Boston: Walter de Gruyter Mouton GmbH, 2012. - 284 p.

3. Dominic Anctil, Ophélie Tremblay, Les collocations: des combinaisons de mots Privilégiées, Volume 21, 2016, numéro 3.

4. Mehrəliyeva Jalə, İngilis dili fakültələrinin aşağı kurslarında sərbəst söz birləşmələri tədrisinin imkan və yolları, dissertasiya, Bakı 2013, 147 səh.

5. Ахманова О. С. Очерки по общей и русской лексикологии / О. С. Ахманова. - Москва: Учпедгиз, 1957. - 295 с.

6. Архипова Е. И. Этнокультурная коллокация как лингвистический феномен / Е. И. Архипова // Язык и культура: сборник статей 28 Международной научной конференции, 25-27 сентября 2017 года. - Томск : Издат. Дом Том. гос. ун-та, 2018. - с. 104-108.

7. Виноградов В. В. Основные типы лексических значений. Избранные труды. Лексикология и лексикография / В. В. Виноградов. - Москва: Наука, 1977. - с. 162-189.

8. Гак В. Г. Сопоставительная лексикология / В. Г. Гак. - Москва: Международные отношения, 1977. - 264 с.

9. Емельянова А. В. Окказиональные коллокации на основе эпитета в произведениях русских и английских поэтов-романтиков / А. В. Емельянова // Межкультурная коммуникация : лингвистические аспекты: сборник материалов 8 Международной науч.-практ. конф., Новосибирск, 28-29 марта 2019 г. - Новосибирск : Изд-во НГТУ, 2019. - С. 216-223.

10. Зайкина З. М. Семантическая динамика паремиологического поля «Труд» / З. М. Зайкина // Межкультурная коммуникация: лингвистические аспекты : сборник материалов 8 Международной науч.-практ. конф., Новосибирск, 28-29 марта 2019 г. - Новосибирск: Изд-во НГТУ, 2019. - с. 223-230.

11. Кокова А. В. Специфика объективации оптативной модальности в немецком языке / А. В. Кокова // Известия Южного федерального университета. Филологические науки. - 2014. - № 4. - с. 171-184.

12. Кулаева О.А. О внутренней «сцепленности» неустойчивых словосочетаний [Электронный ресурс] - https://cyberleninka.ru/article/n/o-vnutrenney-stseplennosti-neustoychivyh-slovosochetaniy/viewer .

13. Матвеева Т. В. Учебный словарь: русский язык, культура речи, стилистика, риторика / Т. В. Матвеева. - Москва: Флинта: Наука, 2003. - 432 с.

14. Ожегов С. И. О структуре фразеологии / С. И. Ожегов // Лексикология, лексикография, культура речи. - Москва: Высшая школа, 1974. - 350 с.

15. Онал И. О. Коллокация в турецкой лингвистике: проблемы определения и основные направления исследований / И. О. Онал // Российский гуманитарный журнал. - 2019. - Т. 8, № 3. - с. 191-202. - DOI: 10.15643/libartrus-2019.3.3.

16. Цвенгер Л. В. Колоративные коллокации и их функции в газетном заголовке / Л. В. Цвенгер // Вестник Челябинского государственного университета. - 2020. - № 1 (435). - С. 173-179.

17. Филлипова Г. Н. Узуальная и окказиональная синестезия в современном немецком языке: автореферат диссертации ... кандидата филологических наук: 10.02.04 / Г. Н. Филиппова. - Нижний Новгород, 2011. - 20 с.
18. https://www.thoughtco.com/collocation-examples-1210325

## PEDAQOJİ YÖNÜMLÜ ALİ VƏ ORTA İXTİSAS TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MƏSAFƏDƏN TƏHSİL

**Abuşov Ayaz Ümüdvar**
**Azərbaycan Respubliksasının Təhsil İnstitutu**
**ayaz.abushov@gmail.com**

## EXPERIENCE OF THE DISTANT EDUCATION IN AZERBAIJAN

**Abushov Ayaz Umudvar**
**The Institute of Education of the Republic of Azerbaijan**
**ayaz.abushov@gmail.com**

### Summary

The thesis highlights distance education, the development of distance education and existing examples of distance education at all levels of education in Azerbaijan were noted.

"Microsoft Teams" platform has been one of the most widely used platforms during the suspension of traditional education in Azerbaijan. Also, the implementation of the "Virtual school" project created an opportunity for students to continue the education process while maintaining social distance during the quarantine regime. A survey was also conducted in pedagogically oriented higher and secondary educational institutions regarding distance education in the country. The main purpose of the survey was to study the level of readiness of higher and secondary educational institutions, professors and teachers working in educational institutions, students for distance education, and at the same time to determine the difficulties and needs faced and analyze the situation.

**Keywords**: distance learning, information and communication technologies, pandemic, academy.

## ОПЫТ ДИСТАНЦИОННОГО ОБРАЗОВАНИЯ В ПЕДАГОГИЧЕСКИХ ВЫСШИХ И СРЕДНОСПЕЦИАЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

**Абушов Аяз Умудвар**
**Институт Образования Азербайджанской Республики**
**ayaz.abushov@gmail.com**

### Резюме

В тезисе освещается вопросы дистанционного образования, развитие дистанционного образования и были отмечены существующие примеры дистанционного обучения на всех уровнях образования в Азербайджане.

Платформа «Microsoft Teams» была одной из наиболее широко используемых платформ во время приостановки традиционного образования в Азербайджане. Также реализация проекта «Виртуальная школа»

создала возможность для учащихся продолжить учебный процесс при соблюдении социальной дистанции в период режима карантина. Также был проведен опрос в педагогически ориентированных высших и средних учебных заведениях по дистанционному обучению в стране. Основной целью опроса было изучение уровня готовности высших и средних учебных заведений, профессорско-преподавательского состава, работающих в образовательных учреждениях, студентов к дистанционному обучению, а заодно определить трудности и потребности, с которыми они столкнулись, и проанализировать ситуацию.

**Ключевые слова:** дистанционное обучение, информационные и коммуникационные технологии, пандемия, академия.

Müasir dünyada ənənəvi və distant təhsil arasındakı xəttin yoxa çıxması tendensiyası mövcuddur, çünki insanların çoxu təlim prosesində informasiya kommunikasiya texnologiyalarından istifadə edirlər. Hazırda texnologiyanın sürətli inkişafı ilə əlaqədar olaraq, elektron təhsil texnologiyaları, xüsusən distant təhsil yüksək templə inkişaf etməkdədir. Distant təhsil cəmiyyətin virtualizasiyası prosesinin təzahürü hesab olunur. Ölkəmizdə tədqiqat yönümündən məsafədən təhsilin inkişafını aşağıdakı formada qruplaşdırmaq olar:

- Elm sahəsində tətbiq olunan;
- Yerli ali təhsil müəssisələri tərəfindən tətbiq olunan;
- Elm sahəsində tətbiq olunan.

2008-ci ildən fəaliyyət göstərən Azərbaycan Təhsil Şəbəkəsi (ATŞ) milli təhsil sistemi üçün texnoloji, eləcə də elmi-intellektual müstəvidə geniş imkanlar təqdim edir. Ölkə üzrə ali təhsil verən bütün müəssisələr ATŞ-yə qoşularaq şəbəkənin resursları üzərindən GEANT beynəlxalq akademik şəbəkəsinə çıxış əldə edə və bu şəbəkənin elmi araşdırma potensialından yararlana bilirlər. Hazırda dünyanın ən nəhəng elmi araşdırma və tədqiqat şəbəkəsi olan GEANT-ın əhatə dairəsinə müxtəlif ölkələri təmsil edən 38 milli təhsil və tədqiqat şəbəkələri daxildir. GEANT şəbəkəsi bütün iştirakçılarına elmi fəaliyyət üçün bir araya gəlmək və birgə elmi tədqiqatlar aparmaq, eləcə də müştərək təhsil proqramlarını tərtib etmək üçün şərait yaradır. (1)

*Ali təhsil müəssisələrində "Microsoft Teams" platforması.* Tədris prosesinin dayandırıldığı müddət ərzində təhsilalanlara təhsil proqramlarının mənimsənilməsi imkanlarının təmin edilməsi və təlim-tədris prosesinin məsafədən təşkili məqsədilə ali təhsil müəssisələrinə "Microsoft Teams" platformasından istifadə təklif edilir. Belə ki, ali təhsil müəssisələri "Microsoft Teams" platforması üçün pulsuz lisenziyalar ilə təmin edilib, "Microsoft Teams" platformasına giriş üçün texniki quraşdırma və inteqrasiya işləri görülüb, tələbə və müəllim kontingenti üçün istifadəçi hesabları açılıb və giriş məlumatları ötürülüb, təhsil müəssisələrinin İT mütəxəssisləri üçün müvafiq təlim və dəstək xidmətləri göstərilib, yaradılmış onlayn infrastruktur təhsil müəssisələri tərəfindən idarə olunması üçün təhvil verilib. Hazırda 39 ali və peşə təhsili müəssisəsi distant təhsil üçün müvafiq platformaya malikdir və onlardan 35-i "Microsoft Teams" platformasından istifadə edir. 110 mindən çox tələbə və müəllim fəal istifadəçilər arasındadır. Tele dərslərin, "Virtual Məktəb" layihəsinin və "Microsoft Teams" platformasının tətbiqi karantin rejimi dövründə təhsilalanlara sosial məsafəni qoruyaraq təlim tədris prosesini davam etdirmək imkanı yaratdı. Ölkənin ucqar bölgələrindən olan şagirdlər şəhər mərkəzindəki həmyaşıdları ilə eyni keyfiyyətli məzmuna yiyələnmə imkanı əldə etdilər. Bu müddət ərzində ölkəmizdə təhsil sistemi sürətli olaraq rəqəmsallaşdı.

Getdikcə inkişaf etdirilən rəqəmsal məzmun və məlumatlar təhsilin idarə edilməsində qərar qəbul etmək üçün möhkəm bir zəmin yaradır. (4 )

Ölkədə pedaqoji yönümlü ali və orta ixtisas təhsili müəssisələrinin məsafədən təhsil üçün mövcud bazası, ehtiyacları, hazırkı vəziyyət ilə bağlı professor-müəllim heyəti üçün sorğu keçirilmişdir. Sorğunun məqsədi təhsil müəssisələrinin, həmin müəssisələrdə fəaliyyət göstərən professor-müəllim heyətinin, tələbələrin məsafədən təhsilə hazırlığı səviyyəsinin (həm avadanlıq həm tədris proqramı baxımından) öyrənilməsi, eyni zamanda qarşılaşdığı çətinliklər və ehtiyacları müəyyənləşdirmək və vəziyyəti təhlil etməkdir.

Sorğuda Azərbaycan Pedaqoji Universiteti və filialları, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji kolleci, Azərbaycan Dövlət Slavyan Universiteti, Xarici dillər universitetinin səlahiyyətli nümayəndələri iştirak etmişdir. Sorğuda ümumi 150 respondent iştirak etmişdir.

1. Təmsil etdiyiniz təhsil müəssisəsi.




2. Təhsil müəssisələrində Məsafədən təhsilin təşkili üçün infrastruktur varmı?




3. Təhsil müəssisələrində Məsafədən təhsilin təşkili üçün pedaqoji heyət hazırdırmı?




4. Təhsil müəssisəsində Məsafədən təhsil ilə keçirilən kurslar, dərslər və s. fəaliyyətlər varmı?




5. Təhsil müəssisəsində ikinci ixtisasa yiyələnmə məqsədilə infrastruktur və pedaqoji baza varmı?




6. Necə hesab edirsiniz, məsafədən təhsilin təşkilinin keyfiyyəti nədən aslıdır? (ən çox dörd cavab variantını qeyd etmək olar)







**Ədəbiyyat:**


1. https://ict.edu.az/news/87
2. **www.e-derslik.edu.az,** www.video.edu.az
3. www.tehsilim.edu.az

4. https://azertag.az/xeber/Tehsil_Nazirliyi_ali_tehsil_muessiselerine_Microsoft_Teams_platformasindan_istifadeni_teklif_edir-1443559
5. http://asoiu.edu.az/az/news/642-adnsu-da-vahid-akademik-test-merkezinin-teqdimati-kecirilib
6. https://azertag.az/xeber/Senaye_ve_Innovasiyalar_uzre_Baki_Dovlet_Pese_Tehsil_Merkezinde_Cisco_Sebeke_Akademiyasi_fealiyyete_basladi-1394372

## ƏYANİLİK ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ TƏDRİSİNİN OPTİMALLAŞDIRILMASI VASİTƏSİ KİMİ

**Ağayeva Gülarə Ədalət**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-1417-8494**
**guler.agayeva@oxbridgedu.org.uk**

## VISUALITY AS A MEANS OF OPTIMIZING THE TEACHING THE HISTORY OF AZERBAIJAN IN SECONDARY SCHOOLS

**Agayeva Gulara Adalat**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-1417-8494**
**guler.agayeva@oxbridgedu.org.uk**

### Summary

The expression "visualization" comes from the Latin word "illustrato", which means "visual description", "enlightenment". Since the principle of visualization involves the construction of learning not only in words, but also on directly perceived specific objects, it plays an important role in mastering topics by students and in shaping their thinking in various directions.

Visual aids used in teaching the history of Azerbaijan are important because they help students to correctly understand the past of our country, awaken the national spirit, and strengthen feelings of patriotism. In order to turn the principle of visibility into a means of optimization in the teaching of the history of Azerbaijan, such issues as the creation of an appropriate material and technical base in secondary schools the creation of archaeological parks, the participation of students in archaeological excavations, the implementation of special programs and projects in this direction will improve the pedagogical process, increase its quality and efficiency

**Keywords**: Azerbaijan, education, history, school, visual.

## ВИЗУАЛЬНОСТЬ КАК СРЕДСТВО ОПТИМИЗАЦИИ ПРЕПОДАВАНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

**Агаева Гюлара Адалат**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-1417-8494**
**guler.agayeva@oxbridgedu.org.uk**

## Резюме

Выражение «визуализация» происходит от латинского слова «illustrato», что означает «наглядное описание», «просветление». Поскольку принцип наглядности предполагает построение обучения не только на словах, но и на непосредственно воспринимаемых конкретных предметах, он играет важную роль в овладении учащимся темами и в формировании их мышления в различных направлениях.

Одним из факторов, повышающих качество преподавания истории Азербайджана в средних школах, является визуализация учебного процесса. Средства наглядности, используемые в преподавании истории Азербайджана, важны, поскольку помогают учащимся правильно понять прошлое нашей страны, пробуждают национальный дух, укрепляют чувства патриотизма. Использование наглядных пособий о геополитическом положении и социально-экономическом развитии Азербайджана приводит к гибкости их мышления и развитию их логического мышления. В целях превращения принципа наглядности в средство оптимизации в преподавании истории Азербайджана перспективны такие вопросы, как создание соответствующей материально-технической базы в общеобразовательных школах, организация образовательных экскурсий, сотрудничество с соответствующими научными центрами, создание археологических парков, участие студентов в археологических раскопках, реализация специальных программ и проектов в этом направлении усовершенствуют педагогический процесс, повысят его качество и эффективность.

**Ключевые слова:** Азербайджан, образование, история, школа, визуальное

Ümumtəhsil məktəblərində tədris olunan Azərbaycan tarixi fənni insanın həyatı boyunca onun təfəkkürünün, elmi–məntiqi düşüncəsinin formalaşmasına yardım edir. Şagirdlərin 5-ci sinifdə "Azərbaycan tarixi" fənni ilə tanışlığı başlayır. Vətən tarixinin öyrədilməsi, öyrənilməsi milli təfəkkürün, milli kimlik düşüncəsinin formalaşmasında bütün optimal variantlardan istifadə etmək, eyni zamanda təlimdə başlıca prinsiplərdən sayılan əyanilik prinsipinin optimallaşdırması çox vacibdir.

**Azərbaycan tarixinin tədrisində əyanilik anlayışının mahiyyəti.**

Azərbaycan tarixi fənninin öyrədilməsində əyanilik metodunun optimallaşdırılması mühüm məsələdir ki, bu problemin həlli tədricən istənilən səviyyəyə çatacaqdır. Əyanilik prinsipi əsasında təhlil olunan tariximizin şanlı səhifələrinin, böyük tarixi qəhrəmanlarımızın şagirdlərə tanıdılması yönündə əyani vasitələrdən doğru istifadə, arxeoloji qazıntılarla yerində tanışlıq, döyüşlərin baş verdiyi ərazilərdə dərslərin təşkili, texniki təlim vasitələrindən qənaətbəxş şəkildə istifadə və digər əyanilik prinsipini optimallaşdıran istiqamətlərdə dərslər təşkil olunmalıdır. Belə ki, dövrün tələblərinə uyğun olaraq "Təlimin həyatla, quruculuq işi ilə əlaqələndirilməsi" prinsipi ilə "əyanilik" prinsipinin inteqrasiyası tədrisin keyfiyyətini artıran amillərdən biri kimi tövsiyə olunandır.

Qeyd etdiyimiz kimi, tədrisin keyfiyyətini yüksəldən amillərdən biri də dərs prosesinin əyaniləşdirilməsidir. Yəni əyanilik prinsipi təlimi təkcə sözlər üzərində deyil, şagird tərəfindən, bilavasitə qavranılan konkret əşyalar, vizual qavrama əsasında qurmağı nəzərdə tutur. Tədrisdə əyanilik, latın dilində "illustrato", əyani təsvir, maarifləndirmək deməkdir (Rüstəmova G.2014). Dərs məşğələlərində ləvazimatların, aparat, maket, tədris filmlərinin nümayişi şagirdin mövzunu əyani mənimsəməsində xüsusi resurslardır. Təcrübə göstərir ki, təlim prosesində əyanilik prinspinin istifadəsi çox faydalı hesab edilir. Hətta Y.A.Komenski təlim prosesində əyaniliyi "qızıl qayda adlandırır" və tədris prosesində geniş istifadəsini tövsiyə edirdi. Əyanilik biliklərin həm də şüurlu qavranılmasına, təlimin canlı və maraqlı olmasına şərait yaradır.

Azərbaycan tarixi tədrisində əyaniliyin optimallaşdırılması nədir? Optimallaşdırma əyanilik prinsipinin həyata keçirilməsində mümkün variantlardan ən yaxşısının tapılmasını təmin edir. Tədris proqramının qurulması, tədris prosesində əyanilik prinsipi əsasında ən uyğun olanlarının seçilməsini, yəni optimallaşdırmanın aparılması, müəllimin bilik və bacarığı ilə yanaşı vətəndaşlıq mövqeyindən, şagird auditoriyasının düşüncə və bilik səviyyəsindən, məktəbin maddi-texniki bazasının təminat dərəcəsindən, yaşayış ərazisindən və ən müasir vəsaitlərin əldə edilməsi təşəbbüskarlığından, zəruri və uyğun yolların təyin olunmasından asılıdır. (Cəbrayilov İ.H. 2006)

"YUNESKO-nun məlumatına görə, insan ona bildirilən informasiyanın danışıq və eşitmə zamanı-15%, vizual olaraq-25% eşidərək və eyni zamanda görərək 65%-ni yadda saxlayır". Belə olduğu halda, ümumtəhsil məktəblərində tədrisin keyfiyyətinin yüksəldilməsində əyanilik prinsipinə əsaslanmaq, interaktiv dərslərin təşkilində əyani vasitələrdən yerində və geniş istifadə etmək müasir təhsilin başlıca vəzifələrindəndir. Fəal metodda müəllim və şagirdlər fikir, təqdimat mübadilələri önə çəkilir. İnteraktiv metodla isə müəllim şagird münasibətləri deyil, mövzunun əyanilik vasitəsilə qavranılmasında şagirdlərin qarşılıqlı fikir mübadiləsi, müqayisələr aparılması, elmi-məntiqi düşüncələrinin qarşılıqlı ifadəsi əsas götürülür, belə ki, şagirdlərin özləri arasında dominant rolunu oynayır( Əlizadə Ə.Ə., Əlizadə H.Ə. 2008). İnteraktiv təlim üsulları o zaman müsbət nəticə verə bilər ki, şagirdlər üçün müasir tələblərə cavab verən öyrədici mühit yaradılsın: 1) sosial-psixoloji, 2)informasiya mühiti, 3)əşyavi mühit (Əmirov M.M. 2011).

**Əyanilik vasitəsilə Azərbaycan tarixi tədrisinin optimallaşdırılması imkanları.**

Azərbaycan tarixi fənninin ümumtəhsil məktəblərində tədrisində fəal-interaktiv dərsin ümumi quruluşunun bir mərhələsi şagirdlər tərəfindən tədqiqatın aparılması təşkil edir. Bu proses əyani vasitələrdən istifadəni zəruri edir. Tədqiqatın nəticələri aşağıdakı təqdimat formasında ümumiləşdirilməlidir. Esselər, sxemlər, cədvəllər, qrafiklər, illüstrasiyalar, xəritə, modellər, rəmzlər, layihələr, referatlar, krossvordlar və s. Həmçinin lent yazıları, sənədli və yaxud bədii filmlər (fraqmentlər), şəxsi əşyaların, məktubların nümayiş olunması, arxiv materiallarının slaydlar vasitəsi əyani şəkildə nümayişi təlim prosesinin keyfiyyətini artırır, biliklərin mənimsənilməsində mühüm rol oynayır. Nümunə olaraq qeyd edə bilər "Ağqoyunlular və Sara Xatun" mövzusunda ölkəmizin tarixinə dair dərs mühiti yaratmaq üçün qədim alətlərdən (mis küzələr, kasalar, müxtəlif su qabları), məişət əşyalardan (xalçalar, milli ornamentli örtülər) istifadə edib. İnteraktiv, təqdimat dərsin təşkilində əyanilik prinsipi əsas götürülərək Ağqoyunlu və Osmanlı dövlətlərinin xəritələrindən, Sara Xatunun şəklindən, Azərbaycan-Turkiyə qardaşlıq əlaqələrindən bəhs edən şəkillərdən istifadə olunub. Mövzunun mənimsənilməsində eksperimetdən istifadə edərək şagirdlər Uzun Həsən, Sara xatun, II Mehmet obrazlarını səhnələşdirərək dərsi canlandırmışdır. Nümunə olaraq 9-cu sinfin "Zəfər tarixi" dərsini göstərmək olar, məqsəd Şuşanın tarixi haqqında məlumat verməkdir. Dərsin inteqrasiyası Azərbaycan dili, informatika və coğrafiya təlimin forması qruplarla iş, təlim üsulu beyin həmləsi, resurslar Şuşa ilə bağlı şəkillər, video görüntülər, maketlər, dərslik kimi qeyd olunmuşdur. Şagirdlərin hazırladığı əyani vəsaitlər "2022-ci il – Şuşa ili" həsr olunmuş məktəbin keçirdiyi tədbirdə nümayiş olunmuşdur.

Müasir dövrdə Azərbaycan tarixi fənninin tədrisi prosesində əyaniliyin optimallaşdırılmasında bir sıra vasitələrdən istifadə olunur. Bunlardan biri və başlıca texniki təlim vasitələrindən

istifadədir. Sürətlə inkişaf edən elmlərin köhnə metodlarla öyrədilməsi mümkünsüz hala gəlmişdir. Odur ki, təlim prosesində elmi-texniki vasitələrdən istifadə, texniki vasitələrin tədris prosesində aktiv istifadəsi şagirdlərin biliklərinin əsaslı şəkildə möhkəmləndirilməsinə, tədris prosesinin effektivliyini artırmağa səbəb olur. Qeyd edək ki, son illər Azərbaycan tarixi fənninin tədrisində İKT-dən istifadəyə diqqət artıb. Mütəxəssislər qeyd edirlər ki, məktəblərdə informasiya-kommunikasiya texnologiyarından istifadə zamanı "Müəllim-şagird-dərslik" tədris modelinə kompüterin də əlavə edilməsi tədris prosesinin optimallaşdırması istiqamətində xüsusi mərhələdir. Multimedia vasitələri, avtomatlaşdırılmış öyrədici sistemlər, kompüter tədris proqramları, animasiya qrafikası, rəngarəng illustrasiyalar şagirdlərin idrak aktivliyinə müsbət təsir göstərir. Keçirilən mövzunun mənimsənilməsində subyektdən obyektə keçid, əyani vəsaitin kompüter vasitəsilə sürətli və əhatəli şəkildə əldə edilməsi tədrisin keyfiyyətini yüksəldir.

Təlim prinsiplərinin təkmilləşdirilməsi istiqamətində "Azərbaycan tarixi" fənninin tədrisinin qurulması qaçılmazdır. "Azərbaycan tarixi" fənninin ümumtəhsil məktəblərində tədrisində müəllimlərin qarşısında qoyulan vəzifə təkcə nəzəri şəkildə şagirdləri məlumatlandırmaq deyil, həmçinin optimal vasitələrdən istifadə edərək şagirdlərdə ölkəmizin tarixini sevərək həvəsini və bacarığını yüksəltmək, bu yöndə təlim prinsiplərindən doğru istifadə etməkdir. Bildiyimiz kimi elmi-texniki inkişaf təlim prosesinin optimallaşdırılmasını zərurətə çevirmişdir. Buna görə köhnə tədris metodları ilə öyrətmək istənilən nəticəni verməyəcəkdir. Yeni metodların yaranması, köhnə metodlarla, eyni zamanda əyani vəsaitlərdən istifadəyə yeni təkmilləşmiş forma və metodlarla yanaşmaq tədris prosesinin effektivliyini artırmış olur.

**Ədəbiyyat:**


1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan tarixi fənni üzrə təhsil proqramı (kurikulumu) (2013) Azərbaycan Respublikası Təhsil Nazirliyi Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Bakı. 144 .
2. Azərbaycan Respublikası Təhsil Nazirliyi, Tədris resurslarının idarə olunmasının məlumat sistemi, https://www.trims.edu.az/site/resource.php?id=1074, İstifadə tarixi: 12.04.2022
3. Cəbrayilov İ.H "Azərbaycan tarixinin tədrisi metodikası" Bakı,2006
4. Əmirov. M.M. Tam orta məktəbdə tarixin fəal / interaktiv təlimin metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011.
5. Əlizadə Ə.Ə., Əlizadə H.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı: ADPU, 2008.
6. Kərimova M. Müasir təlim texnologiyaları tarix dərsində, https://www.muallim.edu.az/news.php?id=3217, 15.04.2022
7. Qasımova. R. Tarix dərslərində xəritə ilə işin təşkili, Azərbaycan Respublikasının Təhsil İnstitutunun Elmi əsərləri, Cild 85, № 7, 2018, s 151-155
8. Quliyev M. "Tarix dərslərində vətənpərvərlik tərbiyəsi", "Azərbaycan müəllimi" qəzeti, 19 aprel 2019-cu il, s. 1.

9. Mirzəyev Ruslan. Gələcək mütəxəssislərin təlim və tədrisinə informasiya texnologiyalarının (İT) tətbiqi, https://www.kitabyurdu.org/meqale/1318-gelecek-mutexessislerin -telim-ve-tedrisine-informasiya-texnologiyalarinin-it-tetbiqi.html İstifadə tarixi: 12.04.2022

10. Rustəmova G. Azərbaycan tarixi və Ümumi tarix dərslərində IKT-dən və əlavə materiallardan istifadə etməklə dərsin təşkili, https://tarixklubu.blogspot.com/2014/03/azrbaycan-tarixi-v-umumi-tarix-drslrind_28.html, 2014

11. Təlim prinsiplərinin səciyyəsi və vəhdəti, https://aztehsil.com/qt/144-tlim-prinsiplrinin-sciyysi-v-vhdti.html, İstifadə tarixi, 12.04.2021

12. Tarixin tədrisində müasir üsullar (şərhlər, tövsiyyələr, nümunələr) (2000). Bakı

13. https://azedu.az/az/news/36415-prezident-ilham-eliyev-terefinden-azerbaycan-tarixinin-en-sanli-sehifeleri-yazilir-elm-tarixi-institutu

14. http://tarixinstitutu.az/books/view/251

15. https://aztehsil.com/news/6687-nnvi-v-interaktiv-tlim-metodlarnn-mqayisli-thlili.html İstifadə tarixi: 12 iyul 2022.

## RUS DİLİNİN XARİCİ DİL KİMİ TƏDRİSİ PROSESİNDƏ ŞAGİRDLƏRİN ŞİFAHI NİTQ BACARIQLARININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ ROLLU OYUNLARIN ƏHƏMİYYƏTİ

**İbrahimova Gülçöhrə Bala Əli**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**gulchoxra@yandex.ru**

## THE IMPORTANCE OF ROLE-PLAYING GAMES IN THE DEVELOPMENT OF STUDENTS' ORAL SPEECH SKILLS IN THE PROCESS OF TEACHING RUSSIAN AS A FOREIGN LANGUAGE

**Ibrahimova Gulchohra Bala Ali**
**The Institute of Education of the Republic of Azerbaijan**
**gulchoxra@yandex.ru**

### Summary

The article demonstrates the use of role-playing games at an early stage of teaching Russian as a foreign language in order to form students' oral speech skills. The validity of the problem from a linguistic, psychological and pedagogical point of view clearly indicates the relevance of this problem. The focus is on the formation of communication skills and the practice of learned speech materials in real speech situations. The widespread use of role-playing games in the learning process is expedient due to game activity is very close to child psychology. After all, the use of this interactive method saturates the learning process with a high degree of motivation, contributes to the creation of a positive emotional background, stimulates mutual communication between group members and creates a condition for applying the acquired communication skills in real speech situations. It is for this purpose that role-playing games are placed in the textbooks of Russian as a second foreign language, corresponding to the age characteristics of students and their interests. Selected role-playing games in accordance with studying topics

contribute to the effective assimilation of the presented lexical and grammatical material. This, in turn, serves to overcome the communication shyness of students in the new studied foreign language.
**Keywords:** speech situations, play activity, communication skills.

# ЗНАЧЕНИЕ РОЛЕВЫХ ИГР В РАЗВИТИИ НАВЫКОВ УСТНОЙ РЕЧИ УЧАЩИХСЯ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ РУССКОМУ ЯЗЫКУ КАК ИНОСТРАННОМУ

**Ибрагимова Гульчохра Бала Али**
**Институт Образования Азербайджанской Республики**
**gulchoxra@yandex.ru**

## Резюме

Статья посвящена применению ролевых игр на раннем этапе усвоения русского языка как иностранного с целью формирования устных речевых навыков учащихся. Обоснованность проблемы с лингвистической, психологической и педагогической точки зрения наглядно демонстрирует актуальность данной проблемы. В центре внимания формирование навыков общения и применение усвоенных речевых материалов в реальных речевых ситуациях. Игровая деятельность очень близка по своему существу детской психологии, что оправдывает широкое применение ролевых игр в процессе обучения. Ведь использование этого интерактивного метода насыщает процесс обучения высокой степенью мотивации, способствует созданию положительного эмоционального фона, стимулирует взаимное общение между участниками групп и создаёт условие для применения приобретённых коммуникативных навыков в реальных речевых ситуациях. Именно с этой целью в учебниках русского языка как второго иностранного помещены ролевые игры, соответствующие возрастным особенностям учащихся и их интересам. Подобранные в соответствии с изучаемой темой, ролевые игры способствуют эффективному усвоению представленного лексического и грамматического материала. Это, в свою очередь, служит преодолению учащимися комплекса общения на новом изучаемом иностранном языке.
**Ключевые слова:** речевые ситуации, игровая деятельность, навыки общения.

Müasir dövrümüzdə dünya ölkələrinin çoxşaxəli inteqrasiyası xarici dil bacarıqlarının müstəsna əhəmiyyətini ön plana çəkir. Yüksək səviyyəli xarici dil bacarıqlarına malik insan həm çalışdığı şirkətin iqtisadi maraqlarını beynəlxalq arenada təmsil etmək imkanına malik olur, həm də öz ölkəsini dünya birliyində müxtəlif aspektlərdən (siyasi, iqtisadi, mədəni və s.) təmsil edir. Hal-hazırda respublikamızın orta məktəblərində tədris olunan xarici dillər arasında rus dili xüsusi yer tutur. Bu həm ölkələrimiz arasındakı çoxəsrlik mehriban qonşuluq əlaqələri ilə, həm də müasir mərhələdə qarşılıqlı münasibətlərin yeni strateji əhəmiyyət kəsb etməsi ilə əlaqədardır.

Şəxsiyyətin müasir biliklərlə təmin olunmasını və müasir səriştələrə yiyələnməsini prioritet istiqamət kimi görərək, xarici dil fənn kurikulumu üzrə şagirdlərdə formalaşdırılması nəzərdə tutulan əsas bacarıqlardan biri şifahi nitq bacarıqlarıdır (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013). Bu bacarıqların inkişaf etdirilməsində çoxsaylı təlim metodlarından istifadə olunur ki, rollu oyunlar belə səmərəli vasitələrdən biri sayılır (Əhmədov, 2016). Səriştəliliyə əsaslanan təhsilin hədəflərinə görə şagirdin əldə etdiyi bilik və bacarıqların onun konkret fəaliyyətinin nəticəsinə çevrilməsidir ki, bu da məhz rollu oyunların istifadəsi ilə

yaradılan nitq situasiyalarında reallaşır. Odur ki, rollu oyunlardan istifadə etməklə şagirdlərimizin rus dili üzrə şifahi nitqinin inkişaf etdirilməsi problemi aktual bir məsələ kimi dəyərləndirilməlidir.

Rollu oyunların təlim prosesində tətbiqinin şagirdlərin şifahi nitq bacarıqlarının formalaşdırılmasında müstəsna əhəmiyyətini həm linqvistik, həm psixoloji, həm də pedaqoji cəhətdən əsaslandırmaq olar. Belə ki, şagirdlərin rabitəli şifahi nitqini inkişaf etdirmək rus dilinin mənimsənilməsi prosesində əsas vəzifələrdən biridir (Milrud, 2015). Şagirdlərin rus dilində şifahi nitq vərdişlərini inkişaf etdirərkən müəllim dilin bütün sahələri üzrə çətinliklərlə üzləşir. Bu, ilk növbədə, dilin fonetik strukturu ilə bağlıdır (yumşaq samitlərin tələffüzü, saitlərin reduksiyaya uğraması və s.). Məhz buna görə rollu oyunların şagirdlərin şifahi nitq bacarıqlarının inkişafına təsiri danılmazdır, axı rollu oyuna ayrılan vaxtın hamısı nitq təcrübəsinə həsr olunur (Sbitnev, 2012). Beləliklə, mənimsənilən xarici dilin fonetik, leksik və qrammatik strukturu məhz canlı ünsiyyət şəraitində istifadə olunmaq baxımından maraqlıdır. Sadə sintaktik konstruksiyaların rollu oyunlar zamanı yaradılan canlı ünsiyyətin bir modeli olan nitq situasiyalarında müstəqil şəkildə tətbiqi spontan nitqin inkişafına zəmin yaradır, mənimsənilən nitq etiketindən və hazır klişelərdən məqamında, eləcə də düzgün formada istifadə şagirdlərin nitqinin daha ifadəli olmasına imkan verir (Skopova, 2016).

Rollu oyunların dərs prosesinə canlı inteqrasiyası pedaqoji nöqteyi-nəzərdən də özünü doğruldur. Belə ki, rus dilinin xarici dil kimi tədrisi prosesində kommunikativ metodun tələblərinə əsasən qurulan təlim nitq situasiyalarının gerçəkləşdirilməsi ilə aparılır ki, bu da xəyali situasiyaların yaradılması potensialına malik rollu oyunların tətbiqinin məqsədəuyğunluğunu aşkarlayır və təlimin şüurluluq və fəallıq prinsipini gerçəkləşdirməyə zəmin yaradır (Passov, 1991). Rollu oyunlar şagirdlərin paralinqvistik vasitələrdən istifadə etməsinə şərait yaradır ki, bu da nitqin ifadəliliyini artırır, onu daha dolğun edir və eyni zamanda da təlimdə əyanilik prinsipini reallaşdırmağa fürsət verir (Gerlax, 2010).

Rollu oyunların təlim prosesində tətbiqinin məqsədəuyğuluğunun psixoloji cəhətdən əsaslandırılması isə bu təlim metodunun effektivliyini bariz şəkildə sübut edir. Çünki rollu oyunlar bütün psixi proseslərin inkişafına təkan verərək xarici dilin uğurla mənimsənilməsinə zəmin yaradır, ünsiyyət çətinliklərini aradan qaldırır (Elkonin, 2007). Oyun uşaq təbiətinə uyğun olduğundan rollu oyunların xarici dil kimi rus dili dərslərində istifadə olunması şagirdlərin təlim prosesinə marağını artırır (Əzizov, 2013). Rollu oyunlar dərsə müsbət emosional fon bəxş etdiyindən, şagirdlərin psixoemosional vəziyyətinə müsbət təsir göstərir, gərginlikdən azad edir (Braun və Voqan, 2015). Rollu oyunların dərs prosesində istifadə olunması müəllimə şagirdin fərdi xüsusiyyətləri haqqında əlavə məlumat verir ki, bu da gələcəkdə həmin məlumatlara əsaslanaraq onun mənfi xüsusiyyətlərinin aradan qaldırılmasına, müsbət xüsusiyyətlərinin isə daha da inkişaf etdirilməsinə şərait yaradır (Stolyarenko, 2010). Oyun şagirdlərin həyata hazırlanmasının əlverişli üsuludur, bu zaman onlar sanki gələcək sosial rollarının və şəxsiyyətlərarası münasibətlərinin məşqini reallaşdırırlar (Bayramov, 2009; Xanova, 2016).

Rollu oyunların dərs prosesinə geniş inteqrasiyasını təmin etmək məqsədilə həmmüəllifi olduğum dərsliklərdə bu təlim metodunun reallaşdırılmasına imkan verən tapşırıqların yer almasına xüsusi önəm verilmişdir (Hüseynova, Məmmədova, İbrahimova, 2020). Aşağıda verilmiş cədvəllərdə ikinci xarici dil kimi tədris olunan rus dili fənni üçün nəzərdə tutulan V və VI sinif dərslik-

lərində yer almış tapşırıqlar arasında rollu oyunlar və real nitq situasiyalarının gerçəkləşdirilməsinə dair tapşırıqların yeri öz əksini tapmışdır:

***Cədvəl 1. V sinif üçün ikinci xarici dil rus dili dərsliyində verilmiş tapşırıqlar***

| Dərslikdə verilən tapşırıqların ümumi sayı | Şifahi nitqin inkişafına yönəlmiş tapşırıqların sayı | Rollu oyunların və nitq situasiyalarının tətbiqini nəzərdə tutan tapşırıqların sayı |
|---|---|---|
| 259 | 138 | 31 |

***Cədvəl 2. VI sinif üçün ikinci xarici dil rus dili dərsliyində verilmiş tapşırıqlar***

| Dərslikdə verilən tapşırıqların ümumi sayı | Şifahi nitqin inkişafına yönəlmiş tapşırıqların sayı | Rollu oyunların situasiyalarının tətbiqini nəzərdə tutan tapşırıqların sayı |
|---|---|---|
| 250 | 105 | 20 |

Bu tapşırıqlarda rollu oyunların şərtləri və şagirdlərin oyun əsnasında istifadə edəcəkləri leksik baza təqdim olunmuşdur. Oyunların keçirilməsinə dair geniş məlumat isə müəllim üçün metodik vəsaitdə yer almışdır (Hüseynova, Məmmədova, İbrahimova, 2021). Axı rollu oyunların təlim prosesinə tətbiqi hər hansı təlim məqsədinin reallaşdırılmasını nəzərdə tutur ki, bu da həm oyuna hazırlıq mərhələsinin, həm bilavasitə oyun prosesinin, həm də oyundan sonrakı mərhələnin metodik cəhətdən düzgün qurulmasının vacibliyini ön plana çəkir.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası (2013). Azərbaycan məktəbi, 5, s. 6–17.

2. Bayramov, Ə.S. (2009). Psixologiya / Ə.S. Bayramov, Ə.Ə. Əlizadə, Bakı.

3. Əhmədov, H.H.(2016). Pedaqogika / H.H. Əhmədov, N.E. Zeynalova; Bakı: Elm və Təhsil.

4. Əzizov, Q.Q. (2013). Psixologiya; Bakı: Mütərcim.

5. Браун, С. (2015). Игра. Как она влияет на наше воображение, мозг и здоровье. Москва.

6. Герлах И.В. (2010). Сюжетно-ролевая театрализованная игра как средство формирования социально значимых качеств личности. Вестник КГУ, 3, -с. 221-226.

7. Гусейнова С., Мамедова Д., Ибрагимова Г. (2020) Русский язык (учебник по предмету второй иностранный язык для 5-го класса общеобразовательных школ). Баку: Шарг-Гарб.

8. Гусейнова С., Мамедова Д., Ибрагимова Г. (2021) Русский язык (учебник по предмету второй иностранный язык для 6-го класса общеобразовательных школ). Баку: Шарг-Гарб.

9. Мильруд Р.П. (2015). Приемы и технологии обучения устной речи. Язык и культура, 1, -с. 104-121.

10. Пассов Е.И. (1991). Коммуникативный метод обучения иноязычному говорению. Москва.

11. Сбитнев К.В. (2012). Ролевая игра в обучении иностранному языку студентов 1-го курса неязыкового вуза. Lingua mobils, 6, - с.130-133.

12. Скопова Л.В. (2016). Развитие навыков устной речи – основа обучения иностранному языку. Педагогическое образование в России, 8, -с. 178-180.

13. Столяренко Л.Д. (2010). Основы психологии. Москва.

14. Ханова Т.Г. (2016). Особенности современной субкультуры детской игры. Общество: социология, психология, педагогика, 11, -с. 108-110.

15. Эльконин Д.Б. (2007). Детская психология. Москва: Академия.

16. Lyubenova Birova I. (2013). Game as a Main Strategy in Language Education. American Journal of Educational Research,1, pp. 7-11.

## ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN KOLLEGİAL İDARƏ EDİLMƏSİNDƏ VALİDEYNLƏRİN ROLU, MÜASİR TƏLƏBLƏR BAXIMINDAN MƏKTƏB-VALİDEYN ƏLAQƏLƏRİNİN TƏŞKİLİ VƏ İDARƏ OLUNMASI TƏCRÜBƏSİNDƏN

**Mahmudova Həcər Mahiyəddin**
**https://orcid.org/0000-0002-9729-3422**
**Xəzər Universiteti**
**hecermahmudova@gmail.com**

## THE ROLE OF PARENTS IN THE COLLEGIAL MANAGEMENT OF SECONDARY SCHOOLS, FROM THE EXPERIENCE OF ORGANIZING AND MANAGING SCHOOL-PARENT RELATIONS IN TERMS OF MODERN REQUIREMENTS

**Mahmudova Hajar Mahiyaddin**
**Khazar University**
**https://orcid.org/0000-0002-9729-3422**
**hecermahmudova@gmail.com**

### Summary

The quality of education itself reflects the conditions of training in a broad sense: teacher-pupil relations, teacher-pedagogical team relations, teacher and school management relations, and teacher-parent relations. In modern times, school-parent relations are of great importance.

The school cannot be successful in the field of education and school management without establishing a systematic relationship with parents. That is why the creation of parent committees, which are one of the collegial management bodies in schools, is a priority issue. The effectiveness of the activity of this body depends on: 1) its completion, 2) correct pedagogical orientation.

Summarizing all the studies, it is concluded that the effectiveness of School-Parent cooperation depends on the knowledge, skills and organizational levels of the partners who organize it, and there is always a need to guide it pedagogically. In this direction, work with parents should be systematic and orderly, parent meetings should not only discuss the results of training, but also educate parents.

By ensuring the mutual communication of parents with the school, it is possible to increase the quality of education and the efficiency of the educational process, and to participate in solving the problems that may be related to their child at school.

**Keywords:** Management, organization of school-parent relations, collegiality.

# РОЛЬ РОДИТЕЛЕЙ В КОЛЛЕГИАЛЬНОМ УПРАВЛЕНИИ ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ ШКОЛОЙ, ИЗ ОПЫТА ОРГАНИЗАЦИИ И УПРАВЛЕНИЯ ШКОЛЬНО-РОДИТЕЛЬСКИМИ ОТНОШЕНИЯМИ В УСЛОВИЯХ СОВРЕМЕННЫХ ТРЕБОВАНИЙ

**Махмудова Хаджар Махияддин**
**Хазар Университет**
**https://orcid.org/0000-0002-9729-3422**
**hecermahmudova@gmail.com**

## Резюме

В статье рассматриваются отношения «учитель-ученик», отношения «учитель-педагогический коллектив», отношения учителя и администрации школы, а также отношения «учитель-родитель», отражающие качество самого образования и условия обучения в широком смысле. В современное время большое значение имеют отношения между школой и родителями.

Управление школой не может быть успешной в области образования и управления школой без установления систематических отношений с родителями. Именно поэтому создание родительских комитетов, являющихся одним из коллегиальных органов управления в школах, является приоритетным вопросом. Эффективность деятельности этого органа зависит от: 1) его полноты, 2) правильной педагогической направленности.

Обобщая все исследования, делается вывод о том, что эффективность сотрудничества школы и родителей зависит от знаний, навыков и организационного уровня партнеров, которые его организуют, и всегда существует потребность в его педагогическом руководстве. В этом направлении работа с родителями должна носить системный и упорядоченный характер, родительские собрания должны не только обсуждать результаты обучения, но и просвещать родителей.

**Ключевые слова:** управление, организация связи школа-родители, коллегиальность

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı qəbul edilmiş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasında irəli sürüldüyü kimi Təhsil strategiyasının uğurla həyata keçirilməsində və təhsilin keyfiyyətinin dayanıqlı yüksəlişində maraqlı tərəflərin cəlb olunmasını təmin edən səmərəli idarəetmə mühüm rol oynayır. Bu, ilk növbədə, bütün növ təhsil müəssisələrinin müstəqilliyinin artırılmasını, valideyn, şagird, tələbə və təhsil prosesinin digər iştirakçılarını geniş cəlb etməklə təhsil ocaqlarının idarə olunmasını, nəticəyönlü menecmentin və digər müasir idarəetmə texnologiyalarının prosesə tətbiqini tələb edir.

Təhsilin keyfiyyəti özündə geniş mənada təlim şərtlərinin əks etdirir: müəllim- şagird münasibətləri, müəllim-pedaqoji kollektiv münasibətləri, müəllim və məktəb rəhbərliyi münasibətləri və eləcə də müəllim-valideyn münasibətləri. Müasir dövrdə məktəb-valideyn münasibətləri böyük əhəmiyyət kəsb edir. Belə ki, təhsildə müəllim-şagird münasibətləri kompleks halında qurulan anlayışdır, burada əsas tərəflər valideynlər, şagirdlər və müəllimlərdir. Çox vaxt müəllimlər dərs dedikləri şagirdin valideynləri, valideynlər isə övladlarının müəllimlərini tanımırlar. Halbuki, məktəb-valideyn əlaqəsinin qarşılıqlı və sistemli olması zəruridir. Belə olan halda məktəb-valideyn münasibətləri vacib pedaqoji amil kimi şagirdlərin təlim-tərbiyəsində mühüm rol

oynayır. Unutmaq olmaz ki, məktəb-valideyn münasibətlərində səmimiliyə, qarşılıqlı hörmət və etibara xüsusi diqqət yetirmək lazımdır.

Müasir təhsilimizdə məktəb–valideyn əlaqəsinin möhkəmləndirilməsi istiqamətində məktəbin gördüyü işlərin nəticələrini öyrənmək və qiymətləndirmək məqsədilə 2019-cu ilin fevral ayında məktəbdə tədqiqat aparıldı.




Tədqiqatın məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində məktəb- valideyn əlaqəsinin rolunu və xüsusiyyətlərini dəyərləndirmək idi. Tədqiqat metodu kimi sosioloji sorğudan (anket) istifadə edildi. Aparılan sorğuda tərəfsiz olaraq 26%-i kişi, 74%-i isə qadın olmaqla 82 nəfər valideyn iştirak etmişdir ki, onlardan da ümumilikdə 36%-i 18-35 yaş arası, 62%-i 36-54 yaş arası, 2%-i isə 55 yaşdan yuxarı yaşa malik valideynlərdir.

Tədqiqatdan aydın olur ki, sorğuda qadın valideynlər daha aktiv iştirak etmişdirlər. Buna səbəb kimi ailədə övladının təhsili ilə bağlı qayğının daha çox qadınların öz üzərinə götürməsidir. Kişi valideynlər isə bunun səbəbini işləmələri ilə izah etmişlər.

Şagirdlərin təlim - tərbiyəsində məktəb - valideyn əlaqəsini sorğu iştirakçıları böyük əksəriyyətlə əhəmiyyətli və çox faydalı hesab edir. Ancaq belə düşündüklərinə baxmayaraq sorğudan məlum olur ki, məktəbin ümumi təlim-tərbiyə işləri ilə bağlı bu əlaqəni araşdırarkən valideynlərin 63%-i yalnız valideyn iclaslarına gedir, 33.3%-i məktəblə bağlı bütün işlərdə yaxından iştirak edir, 3.7%-i isə iştirak etməyi lazım bilmirlər.

Rəyi soruşulan valideynlərdən məktəblə əlaqələrini 55%-i çox yaxşı, 37%-i normal, çox az 7.4%-i isə orta qiymətləndirir. Valideynlərin məktəblə əlaqəsinin nisbətən yaxşı olmasında valideynlərin maraqlı tərəf olmaqla bərabər məktəbin də rolu inkar edilməzdir. Yəni məktəbdə psixoloji mühit qənaətbəxşdir.

Yuxarı siniflərə doğru valideynlərin məktəblə əlaqəsi nisbətən zəifləməyə başlayır.

Əsas amil kimi valideynlərin ailənin iqtisadi durumu ilə əlaqədar hər iki valideynin işləməsini, yuxarı sinif şagird valideynləri isə övladına inanaraq məlumatlı ola bilməsini göstərmişlər. Digər az hissəsi isə 1.2 %-i məktəbdə rəhbərlik tərəfindən övladı haqqında ancaq mənfi rəy alacağı ehtimalını, 7.4 %-i müasir informasiya texnologiyaları vasitəsilə məktəbə getmədən övladının

təhsili ilə maraqlana bilmə imkanını, 2.5 %-i məktəbə getməyi əhəmiyyətsiz olduğunu səbəb gətirirlər və beləliklə məktəbdən soyuyurlar. Bu amil mütləq diqqətə alınmalıdır.

Valideynlər məktəblə əlaqə saxlamaqla təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq hüququna malikdirlər ki, sorğu iştirakçılarının böyük əksəriyyəti əlaqə dedikdə – 49.4% valideyn iclaslarında iştirakı nəzərdə tutur.

Onlardan ancaq 25.9%-i dərsdə iştirak etmək, 7.4%-i sinif tədbirlərində iştirak etmək, 8.6% -i məktəb rəhbərliyinin və ya müəllimin çağırışı ilə məktəbə təşrif gətirmək, yalnız 8.6%- i müəllimə yardım etmək üçün məktəbi ziyarət edirlər.

Əslində məktəb-valideyn münasibətləri müntəzəm xarakter daşımalıdır ki, bunun nəticəsi olaraq davamlı və səmərəli əlaqə vacib amil kimi şagirdlərin tərbiyəsində getdikcə daha çox tərbiyəvi təsir qüvvəsinə çevrilir.

"Təhsil Haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunun 34.1.1. – ci bəndində deyilir ki, valideynlər yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək hüququna malikdirlər.

Aparılan sorğunun nəticələrinə görə valideynlərin əksəriyyəti məktəbin yerinə yetirdiyi işlərdən məmnun, az hissəsi isə qismən razıdır. Məktəbdən razı qalma səbəblərini araşdırdıqda bu nəticəyə gəlmək olar ki, məktəb müəllimlərinin verdiyi təhsilin keyfiyyəti yüksək və sinif rəhbərlərinin apardığı işlər səmərəli, faydalıdır və valideynlərin böyük əksəriyyətini məmnun edir. Valideynlərin əksəriyyətinin fikrincə məktəb daha çox yüksək bilik verir.

Valideynlərin çox hissəsi məktəblə münasibəti birbaşa qurur , amma onu da nəzərdən qaçırmaq olmaz ki, valideynlərin bir hissəsi məktəbdən yalnız qınaq eşitdiyini və ya bəzi müəllimlərlə konfliktdə olduğunu bildirərək məktəbdən soyuyurlar. Bu amil mütləq diqqətə alınmalıdır. Çünki valideynə yalnız övladı haqqında mənfi rəy bildirmək, üstəlik bunu digər valideynlər qarşısında etmək pedaqoji və psixoloji baxımdan düzgün deyil. Sonda valideynlər getdikcə artıq valideyn iclaslarına belə gəlmək istəmirlər, məktəblə birbaşa əlaqə qırılmağa başlayır. Onlar yalnız məktəbdən çağırış olduqda məktəbə gəlir. Nisbətən sevindirici haldır ki, əksər valideynlər isə mütəmadi olaraq məktəbə şəxsən gəlir və vəziyyətlə birbaşa tanış olurlar. Məktəbin işlərində dəstək olmaqla öz faydalarını verməyə çalışırlar.

Valideynlər məktəbdə daha çox tədbirlərin təşkilində və sinif valideyn komitəsinin işində həvəslə iştirak edirlər, müəyyən dərs vəsaitlərinin əldə edilməsinə yardım edirlər. Onların az hissəsi digər məsələlərin həllində iştirak edir. Çox az hissəsi isə ümumiyyətlə heç bir yardım etmədiyini bildirmişdir.

Sorğu anketlərinə əsaslanaraq valideynlərin məktəb kollektivi ilə münasibətini araşdırdıqda görürük ki, onlarla məktəb rəhbərliyi, sinif rəhbərləri və fənn müəllimləri arasında xeyirxah münasibətlər üstünlük təşkil edir. Müəyyən sayda valideynlər 19.8% -i məktəb rəhbərliyi, 8.6 %-i sinif rəhbərləri və 16% -i fənn müəllimləri ilə neytral münasibətdədirlər. Bu da məktəbdə psixoloji mühitin yaxşı olduğunun nəticəsidir ki, onları məktəbin işlərində yaxından iştirak etməyə həvəsləndirə bilir.

Valideynlərin 49.4 %-i məktəbin təhsil proqramının yaradılmasında və ya dəyişdirilməsində məmnuniyyətlə, 28.4%-i qismən iştirak etmək istədiyini, 21 %-i isə iştirak etmək istəmədiyini bildirmişdir. Bu məsələ ilə bağlı qanunvericilikdə deyilir ki, valideynlər təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək, təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək kimi hüquqlara malikdirlər.

Onlardan da 14.8 %-i məktəb ilə ailə arasındakı əlaqənin yaxşılaşdırılması üçün öz təklif və ya planını təklif etmiş, 16 %-i qismən və 9.9 %-i isə az hallarda təşəbbüs göstərməyə çalışmışdır. Valideynlərin böyük əksəriyyəti isə heç bir təşəbbüs göstərməmişdir ki, bu da onların bu sahədə qarşı tərəf kimi maraqsız və ya məlumatsız olduğundan irəli gəlir. Deməli, onlarla müxtəlif istiqamətlərdə maarifləndirici işlər aparmaq lazımdır.

Məktəb valideynlərlə sistemli əlaqə yaratmadan təlim-tərbiyə sahəsində və məktəbin idarə olunmasında müvəffəqiyyət qazana bilməz. Məhz ona görə də məktəblərdə kollegial idarəetmə orqanlarından biri olan valideyn komitələri yaradılması prioritet məsələ olaraq diqqət mərkəzində durur. Bu orqanın fəaliyyətinin səmərəliyi isə: 1) onun komplektləşdirilməsindən, 2) pedaqoji cəhətdən düzgün istiqamətləndirilməsindən asılıdır.

Məktəb qarşısında duran bu və ya digər məsələlərin həlli istiqamətində valideyn komitəsinin rolu danılmazdır ki, bu suala onların münasibəti aşağıdakı kimi olmuşdur: 37 %-i məktəbdə müxtəlif tədbir və layihələrin keçirilməsində, 16 %-i valideynlərin maarifləndirilməsi üçün seminar və konfransların təşkilində, 21 %-i məktəbdə bilik və idman yarışmalarının təşkili və qaliblərin rəğbətləndirilməsində, 17.3 %-i xeyriyyə fondlarının yaradılmasında və onun maliyyəsinə nəzarətdə, 6.2 %-i isə çətin tərbiyə olunan uşaqların ailəvə vəziyyəti və problemi ilə tanışlıq işlərində valideyn komitəsinin rolunu qeyd etmişdir.

Məlumdur ki, Məktəb-Valideyn əlaqəsinin səmərəliyi: 1) onun komplektləsdirilməsindən, 2) pedaqoji cəhətdən düzgün istiqamətləndirilməsindən asılıdır. Valideyn komitəsinin digər ictimai orqanlardan fərqi onun fəaliyyətinin direktiv orqanlar tərəfindən tənzimlənməsidir. Belə ki, məktəb valideyn komitəsinin hüquq və vəzifələri "Valideyn komitəsinin əsasnaməsi" ilə müəyyən edilir. Əsasnaməyə görə Valideyn komitəsi pedaqoji kollektiv ilə birlikdə təlim-tərbiyə prosesinin təkmilləşməsində, uşaq nəzarətsizliyinin qarşısının alınmasında, icbari təhsilin yerinə yetirilməsində, məktəbin maliyyə-təsərrüfat işlərində, uşaq hüquqlarının qorunmasında, məktəbin tədris-maddi bazasının möhkəmləndirilməsində, təmirində, eləcə də tədris kabinetləri və emalatxanaların təchizi, texniki təlim vasitələri və məktəb avadanlığının təmiri və mühafizə olunub saxlanılmasında, məktəb fondunun yaradılmasında və düzgün istiqamətdə səmərəli xərclənməsində, məktəblilərin yeməyinin və istirahətinin təşkilində və s. işlərdə yaxından iştirak edir və bu proseslərin idarə olunmasında məktəbin ən yaxın köməkçisi rolunu oynayır.

Bütün araşdırmaları yekunlaşdıraraq belə bir nəticə alınır ki, Məktəb-Valideyn işinin səmərəliliyi onu təşkil edən adamların bilik, bacarıq və təşkilatçılıq səviyyələri ilə bağlıdır və onun pedaqoji cəhətdən istiqamətləndirilməsinə həmişə ehtiyac hiss olunur. Bu istiqamətdə valideynlərlə aparılan işlər sistemli və nizamlı xarakter daşımalı, valideyn iclasları yalnız təlim nəticələrinin müzakirəsini deyil, eyni zamanda valideynləri maarifləndirmə xarakteri daşımalıdır. Məktəb yer-

ləşdiyi ərazidə yaşayan valideynlər üçün elmi-pedaqoji mərkəzə çevrilməlidir. Valideynləri məktəbin ictimai həyatında müşahidəçi deyil, bərabər hüquqlu tərəf kimi təhsilin inkişafına öz töhfələrini verməyə cəlb etmək lazımdır.

Valideynlərlə fərdi, qrup və kollektiv halında təşkil edilən bütün formalar valideynin məktəblə qarşılıqlı ünsiyyətini təmin etməklə təhsilin keyfiyyətinin və tərbiyə prosesinin səmərəliliyini artıraraq aşağıdakı nəticələrə gətirib çıxarır:

– valideynin övladına-şagirdə münasibətində doğmalığın artması, hər zaman övladına dəstək olmaqda maraqlı olması, onun lider kimi formalaşmasına hörmət, məktəb və şagirdlə bağlı bütün məslələrdə məsuliyyət hiss etməsi;

– müəllim və valideynin qarşılıqlı səmimi məlumatlandırılması;

– valideynlərin məktəbə könüllü yardımı və valideyn komitələrin fəaliyyətinə dəstək;

– məktəbdə övladına aid ola biləcək ( məsələn: piyada keçidinin təşkili, məktəb həyətinin abadlaşdırılması, yaşıllaşdırma, xırda təmir işləri, ekskursiya və tədbirlərin təşkili, idman yarışlarının keçirilməsi və s.) problemlərin həllində iştirak;

**<u>Məktəb valideyn əlaqələrinin təşkili formaları ilə bağlı təkliflər:</u>**

1. Fərdi formada (fərdi ünsiyyət, inam telefonu və s.)

1.1. Ailənin evinə getmək

1.2. Məktəbə dəvət etmək

1.3. Yazışma ( yazılı ünsiyyət)

2. Qrup formada (təlimlər, mühazirələr, təlimatlar və s.)

2.1. Valideyn lektoriyaları

2.2. Mövzu üzrə məsləhət

3. Kollektiv formada (valideynlərlə tədqiqatyönümlü fəaliyyətlər: layihə metodikası, konfranslar, iclaslar və s.)

3.1. Valideyn iclasları.

**Məktəbdə yaradılması təklif edilən formalar:**

**“Təcili pedaqoji yardım” məsləhət punktu,** burada valideynlər fərdi olaraq müxtəlif istiqamətlər üzrə müəllim və psixoloq məsləhətləri, dəstəyi ala bilərlər.

**“Valideyn klubu”-** valideynlər, nənələr, babalar, digər qəyyumlar birliyi. Sərbəst formada söhbətlər, valideyn debatları, müxtəlif məsələlərin həllində qərarların qəbulu. İntellektual və idman yarışlarının və onların əl işlərinin təşkili.

**“Valideyn akademiyası”**, valideynlər onlar üçün sistemli təşkil edilmiş kurslarda, mühazirələrdə iştirak edə bilərlər. Təhsil ekspertləri ilə görüşlər təşkil oluna bilər. Əvvəlcədən mühazirələrin mövzuları və qrafiki elan edilir. Bu mövzular isə öyrənilən rəylər əsasında seçilir.

**Valideynlər üçün pedaqoji kitabxana və oxu zalı,** valideynlərin bədii və estetik zövqünə müsbət təsir edəcək mütaliənin və ziyalılarla görüşlərin təşkili həyata keçirilər. Məktəblərdə sırf valideynlərə aid olacaq kitabxananın təşkil olunarsa, valideynlər bu kitabxanada pedaqoji, tibbi, sosial, psixoloji, hüquqi ədəbiyyatla, eləcə də bu ədəbiyyatların elektron formatları ilə tanış olacaqlar. Düşünürük ki, valideynlərin maarifləndirilməsi istiqamətində qurulacaq iş onlara övladlarının təlim-tərbiyəsi sahəsində müstəsna yardımçı olacaq.

**“Valideyn patrullar”** - növbətçilik, dərsdinləmələrdə iştirak, monitorinqlərin təşkili və nəzarət fəaliyyətlərini icra edə bilərlər.

**“Valideyn poçtu”** elektron portalı – burada müasir İKT vasitələri köməyi ilə məktəbin ictimai həyatı, eləcə də tədris sahəsində fəaliyyətini əks etdirən məlumatlar, məsləhətlər, yeniliklər, tapşırıq nümunələri və qiymətləndirilməsi meyarları ilə tanışlıq, monitorinqlərin qrafiki və s məlumatlar yerləşdirilə bilər. Valideynlər məktəblə daha çevik ünsiyyət quraraq rəy və təkliflərini həmin portala yaza bilərlər.

**Ədəbiyyat:**


1. Pedaqoji etika. Talıbov Y.R., Talıbov E. Y., Bakı. -1998.
2. "Təhsil Haqqında" Azərbaycan Respublikasının 19 iyun 2009-cu il tarixli Qanunu
3. R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova, R.Cabbarov, S.Rəsulov, Ə.Quliev. “Təhsilin idarə edilməsinin bəzi problemləri”, Bakı. – 2008.
4. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı, Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası.
5. Pedaqogika. Y.R.Talıbov, Ə.A.Ağayev, İ.N.İsayev, A.İ.Eminov. Bakı. -1993.
6. https://nsportal.ru/shkola/klassnoe-rukovodstvo/library/2013/11/21/innovatsionnye-formy-raboty-s-roditelyami


## AZƏRBAYCAN DİLİ DƏRSLİKLƏRİNDƏ KOMMUNİKATİV TAPŞIRIQLAR


**Alıkişiyeva Humay Arif**

**Azərbaycan Respublikasının Təhsil İnstitutu**

**https://orcid.org/0000-0001-5702-5645**

**h85.a@mail.ru**


## COMMUNICATIVE TASKS IN AZERBAIJANI LANGUAGE TEXTBOOKS


**Alikishiyeva Humay Arif**

**The Institute of Education of the Republic of Azerbaijan**

**https://orcid.org/0000-0001-5702-5645**

**h85.a@mail.ru**



**Summary**

One of the most important skills today is communication. One of the main conditions of communication skills is that people communicate with each other, convey their behavior and thoughts concisely, concisely, express their thoughts in a logical sequence. Today we need to form these types of competencies in our students. Our lessons should be student-centered, and textbooks should include tasks that reflect the high activity of students. Subject tasks in the Azerbaijani language should be reflected in four content lines - listening, reading, writing and language rules. Reflecting cognitive activity in Bloom's taxonomy, tasks should form students' communication skills, such as explaining, listening, reasoning, preparing a new sentence, communication, verbal or non-verbal. The loading of textbooks with theoretical information and language rules should be reduced. More life skills tasks should be included. A student who has completed the general education level should concisely and freely, without hesitation, express his

opinion in front of an audience, enter into a comfortable dialogue, and possess special skills related to practical types of writing. To do this, disputes and discussions on events taken from real life should be organized in our textbooks, essays should be written that reflect the student's writing and attitude to any image, special attention should be paid to mutual evaluation when assessing. These tasks should reflect more diverse activities and be organized in the form of group or pair work to form extraverted personalities.

**Keywords:** communicative skills, communication, assignments.

## КОММУНИКАТИВНЫЕ ЗАДАНИЯ В УЧЕБНИКАХ АЗЕРБАЙДЖАНСКОГО ЯЗЫКА

**Алыкишиева Хумай Ариф**

**Институт Образования Азербайджанской Республики**

**https://orcid.org/0000-0001-5702-5645**

**h85.a@mail.ru**

### Резюме

Общение является одним из важных навыков на сегодняшний день. Одним из основных условий коммуникативных навыков является то, что люди общаются друг с другом, передают свое поведение и мысли сжато, лаконично, выражают свои мысли в логической последовательности. Сегодня нам необходимо сформировать эти виды компетенций у наших учеников. Наши уроки должны быть ориентированы на учащихся, а учебники должны включать задания, отражающие большую активность учащихся. Предметные задания по азербайджанскому языку должны быть отражены в четырех содержательных линиях – аудировании, чтении, письме и языковых правилах. Отражая познавательную деятельность в таксономии Блума, задания должны формировать у учащихся коммуникативные навыки, такие как объяснение, слушание, рассуждение, подготовка нового предложения, общение, вербальное или невербальное. Следует уменьшить загрузку учебников теоретической информацией и языковыми правилами. Следует включить больше задач по формированию жизненных навыков. Учащийся, окончивший общеобразовательный уровень, должен лаконично и свободно без стеснения излагать свое мнение перед классом, вступать в комфортный диалог, владеть специальными навыками, связанными с практическими видами письма. Для этого в наших учебниках должны быть организованы диспуты и дискуссии по событиям, взятым из реальной жизни, должны быть написаны сочинения, отражающие письмо учащегося и отношение к какому-либо изображению, особое внимание при оценивании должно быть уделено взаимооценке. Данные задания должны отражать больше разноплановой деятельности и быть организованы в форме групповой или парной работы для формирования экстравертных личностей.

**Ключевые слова:** коммуникативные навыки, общение, задачи

Bu gün cəmiyyətin qarşısında duran vətəndaş şəxsiyyətinin formalaşdırılması vəzifəsinin yerinə yetirilməsi tələbi ilə əlaqədar təhsil müəssisələrinin, ilk növbədə ümumi təhsilin üzərinə böyük məsuliyyət düşür. Ümumi təhsil təhsilalanlara elmlərin ümumi əsaslarının öyrədilməsini, zəruri bilik, bacarıq və vərdişlərin aşılanmasını, onların həyat və əmək fəaliyyətinə hazırlanmasını təmin edir. Müasir zamanda həyata və əmək fəaliyyətinə hazırlanan hər kəs ilk növbədə cəmiyyətin üzvü kimi ona adaptasiya olmalı, insanlar arasında öz yerini tutduqdan sonra fəallıq göstərərək ən zəruri biliklərə yiyələnməli, həyat və yaşayış naminə cəmiyyətdəki iqtisadi münasibətləri yaratmaq üçün bəşəri dəyər olan kommunikativ mədəniyyətə sahib olmalıdır.

Azərbaycan dilinin təlimi prosesində təhsilalanların kommunikativ mədəniyyətin formalaşdırılması onların dinləyib-anlama, danışma və yazı bacarıqlarının inkişafına səbəb olacaqdır. Kommunikativ mədəniyyət sayəsində təhsilalanlar bir-birini dinləməyi, ünsiyyət qurmağı, jest və mimikalardan yerində istifadəni öyrənəcək.

Müasir dərsliklərimiz artıq məlumat kitabçası deyil. O şagirdə istiqamətverici bir köməkçidir. Müasir dərsliklər yalnız nəzəri biliklərdən ibarət olmamalıdır. Çünki dərsliklərə qoyulan tələblər də dəyişilmişdir. Bu gün dərsliklərdəki tapşırıqlar da şagirdlərdə həyati bacarığın formalaşdırılmasını ödəməlidir. Məktəblərdəki şagirdlər sabahın hər hansısa bir peşə sahibidirlər. Ona görə də 11 illik təhsilin sonunda təhsilalanalarda ilkin təsəvvür formalaşdırılmalıdır.

Müasir Azərbaycan dili dərsliklərini təhlil edərkən orada kommunikativlik bacarığı yaradan tapşırıqların kifayət qədər olmasını görmək sevindirici haldır. Dialoq qurmaq, debatların təşkili, monoloq, illustrasiyalar əsasında öz fikrini ifadə etmək və s. buna misal ola bilər. Əvvəlki dərsliklərdə tapşırıqlar daha çox nəzəri xarakter daşıyırdı. Bir növ sinifdə keçilənlərin evdə daha möhkəmləndirilməsi üçün şagird ev tapşırığı edirdi. Lakin bu gün az da olsa evə verilən tapşırıqların məzmununda dəyişikliklər var. Şagirdlərə araşdırma xarakterli, öz fikrini ifadə etmək, münasibət bildirmək, rollu oyunlar tipli tapşırıqların verilməsi sevindirici haldır. Bəzi dərsliklərdən nümunələrə baxaq: **V sinif Azərbaycan dili dərsliyində "İradənin gücü"** adlı mətndə Nahid adlı bir uşağın kobud davranışlarından söhbət açılır (İsmayılov, 2020). Səbrsizlik edərək yoldaşlarına qarşı kobud davranan bu uşağı müəllimi onun ruhu belə duymadan islah edir. Belə ki, Nahidə hər gün ulduzları saymağı tapşıran müəllimi ona səbri, iradəni, bir sözlə mədəni keyfiyyətləri aşılayır. Müəlliminin məsləhəti ilə gərgin vəziyyətə düşərkən saymağa başlayan Nahid bu zaman ərzində hadisələrin gedişatını izləmək şansı əldə edir. Səbr, mədəniyyət onda güclü iradə formalaşdırır. Kommunukativ mədəniyyət sahib şəxsin sahib olmalı olduğu keyfiyyətlər içərisində dözümlülük, tolerantlıq ən vaciblərdən biri hesab olunur. Bu mətn vasitəsilə biz 11 yaşlı uşaqlara hövsələsizlikdən yol verə biləcəyimiz səhvləri öyrədirik. Çünki biz səbrsizlik edərək ətrafımıza ziyan vura bilərik.

**Həmin dərsliyin 40-cı səhifəsində "Hamının bildiyi dil" mətnində** (İsmayılov, 2020) şagirdlərə jest və mimikalar haqqında ilkin məlumatlar verilir. Kommunikativ mədəniyyətin əsasında duran bəzi jest-mimikaların izahı şagirdlərə çatdırılır. Müxtəlif peşə sahiblərinin həyatında jestlərin rolu izah edilir. Dərslikdə şifahi kommunikasiya vasitəsi kimi şagirdlərə 10 dəfə təqdimat, 5 dəfə məruzə, 2 dəfə müzakirə və debat, qrup işləri tapşırılır.

**VI sinif dərsliyində ( İsmayılov, 2021) "Əlvida bilmirəm"** adlı mətndə oxuyuruq:

"Biz səbrsizliklə Günay müəllimi gözləyirik. Nəhayət, o, sinfə daxil olur və bizimlə salamlaşır. Həmişəki kimi gülərüzdür. Qəribədir, hamımızda xoş ovqat yaradan səmimi təbəssüm heç vaxt onun simasından əskik olmur. Hərdən adama elə gəlir ki, Günay müəllimə tamamilə qayğısız həyat sürür. Ancaq, məncə, belə ola bilməz. Sadəcə olaraq, dərsə gələndə o, qayğılarını qapının ağzında qoyub sinfə daxil olur."

Bu kiçik abzasda kommunikativ mədəniyyətin nəzakətli davranış qaydaları öz əksini tapıb. Müəllim-şagird münasibətlərinin timsalında insanların bir-birinə mimikaları vasitəsilə ötürdükləri

ünsiyyətin nəticəsi canlandırılır. Mətnin bu hissəsində müəllim şagirdlərlə kollektiv söhbət aparaq, əhval-ruhiyəmizin bizim münasibətlərimizdə bizə nə qədər kömək etdiyini izah etməlidir.

**IX sinif dərsliyində** (Hacıyev,2020) 104-cü səhifəsində kommunikativlik anlayışının ayrılmaz hissəsi olan bədən dili haqqında məlumat verilir. "Bədən dili" təhsil prosesində əhəmiyyətli dərəcədə böyük rola malikdir. Tədris zamanı müəllimlər "bədən dili" vasitəsilə şagirdlərinə öz fikirlərini daha dəqiq, aydın çatdırırlar: "Siz mənim üçün vacibsiniz", "Sizin dərslərinizin öhdəsindən gələcəyinizə inanıram", "Sizə güvənirəm", "Sizin uğurlarınıza inanıram", "Sizinlə birlikdəyəm və yanınızdayam" və yaxud "Sizdən heç nə çıxmayacaq", "İstər öyrənin, istər öyrənməyin, məni maraqlandırmır", "İmtahanda mən sizə göstərərəm". Müəllim də şagirdlərin "bədən dili" vasitəsilə çatdırmaq istədiklərini düzgün anlamalıdır. İzah edilənlərə şagirdlərin maraq göstərib-göstərmədiklərini, dərsi anlayıb-anlamadıqlarını, sinfin motivasiyasını, dərsdə sıxılıb-sıxılmadıqlarını anlamalı, vəziyyəti düzgün qiymətləndirməlidir. Sinfi diqqətlə müşahidə edən müəllim üçün bu, asan olmalıdır. Bu kiçik mətndə böyük mətləb gizlənib. Müəllim-şagird ünsiyyəti bir-bir qarşımızda son nöqtəsinə kimi izah edilir.

**X** sinif dərsliyinin ( Hüseynova, 2018) 124-cü səhifəsində tapşırıq 19-da verilir:

**Oxuyun.** Bədii ədəbiyyatda mimika və jestlərin müxtəlif növlərinin söz vasitəsilə təsvirinə diqqət yetirin, onları qruplaşdırın. Şifahi nitqinizdə onlardan bir neçəsini əks etdirməyə çalışın.

1. Vasili ayağa qalxdı və kətili havaya qaldırıb, dəhşət içində baxan növbətçilərdən gözlərini çəkməyərək, güləşməyə hazırlaşan pəhləvan kimi ayağının birini irəli, birini geri qoyub yanakı dayandı (M.Hüseyn). 2. Hirsindən burun pərləri qalxıb-enən Mehdi koxa toza batmış papağını çırpıb başına qoydu (F.Eyvazlı). 3. Gözlərini yayındırıb heç bir şey görməməyə çalışsalar da, hökmdarın oğlunun sinəsinə əzrayıltək çökdüyünü və vəliəhdin göyərdiyini də görürdülər. Hökmdar tez-tez əlinə güc verdikcə vəliəhdin dişlərini xırçıldatdığını, ağzını açıb, qaraqançır dilini əsdirə-əsdirə xırıldadığını da eşidirdilər (İ.Hüseynov). 4. Məhəmmədin yaşlı arvadları Fatma xalanın qoluna girmişdilər, amma Fatma xala imkan tapan kimi əlini başına atıb pırpızlaşmış saçını yolurdu, əlini üzünə atıb sifətini cırırdı və ağlamaqdan, vay-şivəndən batmış səsi ilə zarıyırdı (Elçin). 5. Əlini yelləyə-yelləyə gələn professor başını dik tutmuşdu (Ə.Hacızadə). 6. Qocanın qalın çal qaşları düyünlənmişdi, qırışlı sifətindən hiss edirdi ki, nə üçünsə narahatdır (H.Abbaszadə). 7. Danışdıqca Qulamın qaşları çatılır, bayaqdan sönmüş kimi görünən xəstə gözləri parlayırdı (S.Rəhman). 8. Rafiq əl-qolunu oynada-oynada nədənsə söhbət edirdi (Ə.Kərim). 9. Eyvanda arvadını görcək kəlmə kəsmədi, başını yellədi, Sadıflının ayaqqabılarını göstərib sahibinə işarə ilə şəhadət barmağını xirtdəyinə qoydu (Ə.Məmmədxanlı). 10. Mustafa qızın tünd-şabalıdı qaşlarının azacıq dartıldığını, uzunsov sifətinin tezcə ciddiləşdiyini gördü (G.Hüseynoğlu). 11. Qadının dodaqlarında acı bir təbəssüm duyulurdu (İ.Hüseynov). 12. Kərbəlayı Cəfər qırmızı sifətini ovuşdurub hiyləgər gözlərini qıydı (C.Bərgüşad).

Bu tapşırığı müəllim qruplara verərək, jest və mimikaların köməyi ilə canlandırılmasını istəyə bilər. Cümlələri oxuyarkən görürük ki, jestlərdən istifadə zamanı şagird o insanın həmin andakı vəziyyətini də bilmiş olacaq. Məsələn: Hirsindən burun pərləri qalxıb-enən Mehdi koxa toza batmış papağını çırpıb başına qoydu. Şagird bu cümlədən anlayır ki, bu insan əsəbidir, hərəkətləri jest və mimikaları da əsəbini əks etdirir.

Müəllim və valideynlər tez-tez uşaqların fikirlərini çatdırmaqda çətinlik çəkdiklərindən şikayətlənirlər. Bunun əsası ailədən gəlir. Ağır iş rejimi, gün ərzində yorğunluq və gündəlik qayğılar insanlar, ailə daxili arasında da ünsiyyətin azalmasına gətirib çıxarmışdır. Bu hal uşaqları qapalı, ünsiyyətə həvəssiz edir. Daha sonra bağçada bu problem bir qədər də genişlənir. Uşağın tərbiyəçidən qorxması, digər uşaqlardan çəkinməsi onun ünsiyyət qurmasına mane olur. Bu proses məktəbə doğru da şagirdlə birlikdə addımlayır. Və məktəbdə bu problem daha da dərinləşir.

Müasir uşaqlara bəzən "test uşaqları" da deyilir. Bəzi tənqidçilər hesab edir ki, şagirdlərin nitqinin bu cür zəifləməsinin səbəbi məhz testdir. Lakin unutmayaq ki, bütün dünyada bu gün test üsulundan istifadə olunur. Lakin müqayisədə bizim şagirdlərin nitq zəifliyi gözə çarpır. Xarici bir uşaqla müqayisədə bizim uşağı ona tanış olmayan lakin həmyaşıdları ilə bir mühitə salsaq bu fərqi açıq-aydın görə bilərik. Ona görə də şəxsiyyətin inkişafının əsas mərhələlərinin formalaşdığı dövrlər məktəb illərinə təsadüf etdiyi üçün biz kommunikativ bacarıları məktəbdə-tədris zamanı şagirdlərə aşılamalıyıq.

**Ədəbiyyat:**


1. İsmayılov R., Cəfərova D., Xudiyeva G., Qasımova X. "Azərbaycan dili (tədris dili) 5-ci sinif"
2. Rafiq İsmayılov, Dilrüba Cəfərova, Sahibə Məmmədova VI sinif Azərbaycan dili
3. Tofiq Hacıyev, Samirə Bektaşi, Yeganə Hüseynova IX sinif Azərbaycan dili
4. Yeganə Hüseynova,Samirə Bektaşi, Tofiq Hacıyev X sinif Azərbaycan dili
5. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2015, səh.212
6. N.Abdullayev. Nitq mədəniyyətinin əsasları, Bakı:2013, səh.275
7. Abbasəliyeva R. Dildə ekspressivlik və emosionallığın verbal və qeyri-verbal ifadə vasitələri Bakı,2018
8. İbadova B. Şagirdlərdə həyati bacarıqların formalaşmasında müasir təlim strategiyalarının rolu. Bakı: Təhsil Problemləri, 2016.
9. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Azərbaycan dili fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər). Bakı: 2015.
10. Əhmədov A., Abbasov Ə. Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar. Bakı: Kurikulum, 2013, №2, səh.14-21.
11. https://cyberleninka.ru/article/n/diskussii-i-debaty-kak-sredstvo-sovershenstvovaniya-kultury-rechi
11. https://az.wikipedia.org/wiki/M%C9%99d%C9%99niyy%C9%99t
12. http://baku.edu.gov.az/az/page/9/2419
13. http://elenaoskirko.blogspot.com/p/blog-page_4.html
14. http://www.muallim.edu.az/www.old/arxiv/2015/13/31.htm

# BİOLOGİYANIN TƏDRİSİNDƏ HƏYATİ BACARIQLARIN FORMALAŞDIRILMASI İMKANLARI

**Mahmudova Könül Faiq**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0001-7042-9257**
**konul-mahmudova@mail.ru**

# POSSIBILITIES OF FORMATION OF LIFE SKILLS WHEN TEACHING BIOLOGY

**Mahmudova Konul Faig**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0001-7042-9257**
**konul-mahmudova@mail.ru**

## Summary

The thesis considers cognitive microskills as opportunities for the formation of vital skills in teaching biology, ways to implement lower and higher levels of thinking, motivation for the subject, some features of current learning, the role of STEAM technology, The dissertation discusses the importance of communication and cooperation in learning, non-verbal behavior , openness, nature of actions, we are talking about processes related to questions, the result of verbal and non-verbal communication. In the thesis, also the formation of the 21st century knowledge and skills necessary for students to succeed in life, career and citizenship in accordance with the requirements of the modern era, the implementation of necessary activities for the acquisition of life skills by students, the development of biology in accordance with the current order of the world on the way from theory to practice by encouraging students the position, importance, active inquiry, cooperation and supportive environment, in the formation of skills in learners, the interaction of teachers and students, which emerged as a result of more effective implementation of the teaching opportunities, are discussed in providing the service for the development of life skills.

**Keywords:** teaching, research, communication, non-verbal, openness.

# ВОЗМОЖНОСТИ ФОРМИРОВАНИЯ ЖИЗНЕННЫХ НАВЫКОВ ПРИ ОБУЧЕНИИ БИОЛОГИИ

**Махмудова Кёнуль Фаиг**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0001-7042-9257**
**konul-mahmudova@mail.ru**

## Резюме

В тезисе рассматриваются когнитивные микронавыки как возможности формирования жизненно важных умений в обучении биологии, способы реализации низших и высших уровней мышления, мотивация к предмету, некоторые особенности обучения в настоящее время, роль технологии STEAM, В диссертации рассматривается важность общения и сотрудничества в обучении, невербальное поведение, открытость, характер действий, речь идет о процессах, связанных с вопросами, результатом вербального и невербального общения. В тезисе также формирование знаний и умений 21 века, необходимых учащимся для достижения успеха в жизни, карьере и гражданстве в соответствии с требованиями современной эпохи, осуществление необходимой деятельности по приобретению учащимися жизненных навыков, развитие биологии в соответствии с современным мироустройством на пути от теории к практике путем поощрения учащихся за позицию, важность, активное исследование, сотрудничество и поддерживающую среду, в формировании умений у учащихся, взаимодействии учителей и учеников, которые возникли в результате более эффективной

реализации педагогических возможностей, обсуждаются при оказании услуги по развитию жизненных навыков.

**Ключевые слова:** обучение, исследования, общение, невербальный, открытость

Biologiyanın tədrisi zamanı müvafiq təhsil proqramının mühüm elementlərinin həyata keçirilməsinə cavabdeh olan müəllim ümumtəhsil pilləsinin istənilən mərhələsində məqsəd olaraq millətin gələcəyinin etibarlılığını təmin etmək vəzifəsini yerinə yetirir. Bu proses öyrənənlərdə həyati bacarıqların formalaşdırılması hədəfinə nail olmaqla biologiyanın tədrisinin başlıca cəhətidir. Müasir dövrün tələbi öyrənənlərdə həyatda, karyerada və vətəndaşlıqda uğur qazanmaq üçün zəruri olan 21-ci əsrin əsas bilik və bacarıqlarının formalaşdırılmasına töhfə olaraq şagirdlərin həyati bacarıqlara yiyələnməsində zəruri fəaliyyətlərin həyata keçirilməsinə istiqamətlənmişdir. Belə ki, biologiyanın tədrisi bu bacarıqları vermək üçün geniş imkanlara, üsul və texnikalara malikdir. Müasir müəllim də bu imkanlardan istifadə edərək öyrənənlərə ən yaxşı bilik üçün əlindən gələni etməyə qadirdir. İlk növbədə o şagirdlərini həvəsləndirərək nəzəriyyədən praktikaya doğru gedilən yolda dünyanın hazırkı düzəninə uyğun olaraq biologiyanın mövqeyini, əhəmiyyətini şagirdləri ilə qarşılıqlı əlaqədə müəyyən edir. Biologiyadan həyati bacarıqları formalaşdıran müəllim tədrisin bəzi xüsusiyyətlərini diqqətdə saxlamaqla hədəfə nail ola bilər:

1. Tədrisin əsas xarakteri bələdçilik və təlim verməkdir.
2. Tədris öyrənən və öyrədənlərin  qarşılıqlı əlaqəsidir.
3. Müəllimlik şagirdlərə effektiv şəkildə bilik vermək sənətidir.
4. Tədris müxtəlif fənlərin müxtəlif mövzularının faktlarını və səbəblərini öyrədən bir elmdir.
5. Tədris davam edən prosesdir.
6. Müəllim fənnə tam inamı varsa, effektiv şəkildə öyrədə bilər.
7. Tədris şagirdləri daha çox öyrənməyə həvəsləndirir.
8. Tədris həm rəsmi, həm də qeyri-rəsmidir.
9. Tədris məlumatın tələbələrə çatdırılmasıdır. Tədris zamanı müəllim şagirdlərin məlumatı asanlıqla başa düşməsi üçün maraqlı şəkildə məlumat verir, uşaqları informasiya ilə təmin edir.
10. Tədris tələbəyə cəmiyyətdə və onun mühitində özünü uyğunlaşdırmağa kömək edən vasitədir.

Tədris prosesində öyrənənlər bacarıqların əldə edilməsinə cəlb olunur və ciddi şəkildə aşkar və ya müşahidə oluna bilən davranışlar nümayiş etdirirlər. Bu zaman həyati bacarıqların əldə edilməsinin 3 əsas komponentlə əlaqəsi qeyd edilməlidir: qavrayış, idrak və fəaliyyət.

Bunlar qeyri-şifahi davranış, açıqlıq, hərəkətlərin təbiəti kimi məsələlərlə əlaqəli proseslərdir. Biologiyanın tədrisi həyati proseslərlə bağlı olduğundan müəllimin hədəfə nail olması reallaşdıracağı standarta uyğun mövzunun təqdim edilməsindən çox asılıdır. Məsələn, 6-cı sinfin ilk mövzulardan biri olan Hüceyrənin ümumi quruluşuna aid nümunəyə diqqət edək. Bu mövzunu STEAM texnologiyası ilə əlaqələndirək (steam.edu.az). Belə ki, ilkin fəaliyyət olaraq hüceyrəyə mikroskop altında nəzər salıb, hüceyrə quruluşunun tinkercard tətbiqində qurulmasını tapşırmaqla onlarda rəqəmsal bacarıqlar formalaşdıra bilərik (Y.Seyidli, X.Əhmədbəyli, N.Əliyeva, 2021).



**Şəkil 1.** Tinkercardda hazırlanmış hüceyrə

Giriş təqdim etməyin, yəni motivasiya yaratmağın bir çox yolu var (Biologiya fənn kurikulum, 2013): Şagirdləri dərsin mövzusu haqqında düşündürmək üçün suallar vermək, dərs mövzusuna aid şəkillərin göstərilməsi, mövzunun vacibliyini göstərmək üçün hansısa situasiya danışmaq və s.

Bu prosesdə izahetmə mikrobacarığı nümayiş olunur ki, bu dərsi danışmaq anlamında deyil, bir anlayışı dərk etmək üçün fəaliyyət mənasındadır. İzahat aşağı təfəkkür səviyyəsinin mürəkkəb bacarığıdır. Bu zaman təlimatın mahiyyəti öyrənənlər üçün aydın olmalıdır. Burada öyrənən yeni məlumatları və ya təcrübəni mənimsəyir və tətbiq edir, yəni tapşırığı yerinə yetirir. Bu prosesdə izahın əsas funksiyası özünü göstərir: mövzunu onun faydalılığı və tətbiqi haqqında məlumat verməklə tanıtmaq; mövzunu sadə, tam və cəlbedici şəkildə təsvir etmək.

Öyrənənlərdə sual vermək texnikasının formalaşdırılması uğurlu tədrisdən xəbər verir. Suala cavab vermək asan, sualı formalaşdırmaq çox çətindir. Effektiv sorğu-sual təlim bacarıqlarının əsas şərtidir. Suallar da iki cürdür:

1.Aşağı səviyyəli suallar keçmiş məlumatı xatırlamağı tələb edən suallara aiddir, yaddaşa əsaslanır. Aşağı səviyyəli suallar öz bilik səviyyəsindən çıxış edərək fənn üzrə bilik bazasını əhatə edir.

2.Yüksək səviyyəli suallar daha çox məlumatı emal etməyi tələb edən suallardır və bu cür suallar insanın qavramaq, tətbiq etmək, təhlil etmək, məlumatı sintez etmək və qiymətləndirmək bacarıqlarını formalaşdırır ki, bu da həyati bacarıqların əldə edilməsində mühüm əhəmiyyət kəsb edir.

Öyrənənlərdə həyati bacarıqların formalaşdırılmasında Sorğu texnikası faydalı hesab edilir. Yaxşı suallar müəllim və şagird arasında effektiv ünsiyyət üçün vacibdir. Yaxşı Sorğu üçün bəzi texnikaların həyata keçirilməsi effektlidir. Bu zaman sualları təsadüfi şəkildə paylamaq, həmişə eyni şagirdə müraciət etməmək, sualı bütün sinfə ünvanlamaq, prosesə hamını cəlb etmək, bütün cavabları qəbul edib ən doğru olanı müəyyən etmək lazımdır. Düşünmək üçün vaxt vermək və zamanı düzgün idarə etmək də bu prosesdə mühüm rol oynayır.

Bağlama, yəni ümumiləşdirmə bacarığı. Bu bacarıq müəllimin öz dərsini düzgün yekunlaşdırması üçün faydalıdır. Müəllimin ümumiləşdirməsi öyrənənlərdə müddət ərzində öyrətmək və öyrənilən məsələni əlaqələndirmək imkanlarını təmin etmək bacarıqları aşılayır. Öyrənənlərdə həyati bacarıqların formalaşdırılması prosesində sinifdəki öyrənmə vəziyyətinin səviyyəsinin gözlənilməsi də mühüm bacarıqlar sırasındadır. Bu prosesin komponentləri arasında hərəkətlər, jestlər, səs tonunun dəyişməsi, fokuslanma, qarşılıqlı əlaqə modelində dəyişiklik, pauza, öyrənənin fiziki iştirakı, eşitmə vizual keçidi və s. mühüm rol oynayır. O cümlədən qeyri-verbal işarələr də ünsiyyət bacrıqlarının bir əlaməti olaraq adətən, göz, əl, baş, bədən hərəkətləri və üz ifadələrinin köməyi ilə yaranır və öyrənənləri prosesə cəlb edir.

Ünsiyyət, ümumiyyətlə, insanlara mesajların göndərilməsi və qəbul edilməsinə imkan verən prosesidir. Biz ünsiyyəti, adətən, eşitmə, görmə, qoxu, dad və toxunma, hisslə edirik. Bu verbal və qeyri-verbal yolla baş verir. Bütün bu qeyd edilənlər-aktiv sorğu, əməkdaşlıq və dəstəkləyici mühit, öyrənənlərdə bacarıqların formalaşdırılmasında biologiyanın tədris imkanlarının daha da effektli həyata keçirilməsi nəticəsində meydana çıxaraq müəllim və şagirdlərin qarşılıqlı əlaqələrinin həyati bacarıqların inkişafına xidmətini təmin edir.

**Ədəbiyyat:**


1. Y. Seyidli, X.Əhmədbəyli, N.Əliyeva, Ümumi təhsil məktəblərinin 6-cı sinifləri üçün Biologiya fənni üzrə dərslik, Bakı nəşr-2021.
2. Путюков Ю.А. Основы педагогической технологии.М.:Просвещение, 2001.181 с.
3. Orucov F.M. Biologiyanın tədrisində yeni texnologiyaların tətbiqi istiqamətləri. Metodik vəsait. Bakı: Mütərcim, 2007, 139 s.
4. https://www.tinkercad.com/
5. https://www.tinkercad.com/things/4ikNz5hdGbk
6. https://e-qanun.az/framework/46052
7. https://e-qanun.az/framework/42543
8. https://www.steam.edu.az/
9. Azərbaycan Respublikasının Ümumitəhsil Məktəbləri üçün Biologiya fənni üzrə Təhsil Proqramı (kurikulumu) VI- XI- ci siniflər, Bakı- 2013
10. N. Məmmədova, B.Həsənova, K.Mahmudova, L.Fətəliyeva, Ümumi təhsil məktəblərinin 8- ci sinifləri üçün Biologiya fənni üzrə dərsliyin metodiki vəsaiti, Şərq- qərb nəşr, 2019 .


## PSİXİ İNKİŞAF AMİLLƏRİNİN KİÇİKYAŞLI MƏKTƏBLİLƏRİN TƏLİMİNİN UĞURUNA TƏSİRİ


**Səmədova Sevinc Raqub**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**


## THE INFLUENCE OF MENTAL DEVELOPMENT FACTORS ON THE SUCCESS OF TRAINING OF YOUNG SCHOOLCHILDREN


**Samadova Sevinj Ragub**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**


### Summary


At present, there is a trend towards an increase in primary school students with low academic performance, who do not have clinical diagnoses, but demonstrate pronounced learning difficulties in a comprehensive school. In the

article, the failure of young schoolchildren was analyzed from the point of view of psychopedagogical and neuropsychological processes. The important role of the detection of learning differences in the mental development of young schoolchildren is noted. This includes audial, visual and kinesthetic learning; tune in to positive energy, self-control, focus, etc. the provision of factors can be cited as an example. The methodology that will be created by taking into account the listed factors can be helpful to primary school teachers, psychologists and researchers studying this field. Children with learning differences are labeled with learning disabilities, which in turn leads to both psychological and academic underachievement. Every child comes into the world with a unique brain. The uniqueness of some is perceived as "weakness" and that of others as "strength". The most basic condition for creativity, original thoughts and dreams that can build the future is to be able to develop our experience of conscious awareness and our ability to be in the moment.

**Keywords:** Learning differences of young schoolchildren, reasons for their retardation, Psycho-pedagogical and neuro-psychological reasons.

## ВЛИЯНИЕ ФАКТОРОВ ПСИХИЧЕСКОГО РАЗВИТИЯ НА УСПЕШНОСТЬ ОБУЧЕНИЯ МЛАДШИХ ШКОЛЬНИКОВ

**Самадова Севиндж Рагуб**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0002-0687-6412**
**sevinc.samedova.1988@mail.ru**

### Резюме

В настоящее время наметилась тенденция к увеличению учащихся начальных классов с низкой успеваемостью, не имеющих клинических диагнозов, но демонстрирующих выраженные трудности обучения в общеобразовательной школе**.** В статье неуспеваемость младших школьников проанализирована с точки зрения психолого-педагогических и нейропсихологических процессов. Отмечается важная роль выявления учебных различий в психическом развитии младших школьников. Сюда входит аудиальное, визуальное и кинестетическое обучение; настроиться на положительную энергетику, самообладание, сосредоточенность и т.д. в качестве примера можно привести обеспечение факторами. Методология, которая будет создана с учетом перечисленных факторов, может быть полезна учителям начальных классов, психологам и исследователям, изучающим данную область. Детям с отклонениями в обучении присваивается ярлык «неспособность к обучению», что, в свою очередь, приводит как к психологической, так и к академической неуспеваемости. Каждый ребенок приходит в этот мир с уникальным мозгом. Уникальность одних воспринимается как «слабость», а других — как «сила». Самым основным условием для творчества, оригинальных мыслей и мечтаний, которые могут построить будущее, является возможность развивать наш опыт сознательного осознания и нашу способность быть в настоящем моменте.

**Ключевые слова:** Различия в обучении младших школьников, причины их отсталости, психолого-педагогические и нервно-психологические причины

Uşaqlıq dövrü gələcək həyatımızın üzərinə qurduğumuz çox qiymətli dövrdür. Bu dövrdə oyunlar oynayarkən kəşf edərək anladıqlarımız və xəyallarını qurduqlarımızın üzərində həyatımızın irəlidə olan hissəsini inşa edərik və ya əksinə uşaq ikən ürəyimizdə qalan arzuların gerçəkləşməsi üçün içimizdəki o uşağı daim təmin etməyə çalışarıq. Uşaq beyninin sirlərini yeni-yeni öyrənən neyroelm insan beyninin uşaqlıq dövründə inkişaf edən möhtəşəm bacarıqlarını hələ təzə kəşf etməyə başlayıb (S.Canan, A.Şahin. 2021). Beynin təməl qaydası olaraq istifadə olunan sinaptik bağlantıların qüvvətləndiyini və sürətləndiyini, istifadə olunmayan bağlantıların isə zamanla yox olduğunu və yaxud əlaqələndirdikləri funksiyaları edə bilmədikləri artıq elmə məlumdur (Frances E. Jensen, Amy Ellis Nutt. 2022). Yaradıcılığın, özünəməxsus düşüncələrin və gələcəyini inşa edə

biləcək xəyallar qurabilməyin ən təməl şərti maarifləndirmə təcrübəmizi və bacarıqlarımızı inkişaf etdirə bilməkdir (S.Canan, A.Şahin. 2021).

Öyrənmə fərqliliyi olan uşaqlar "öyrənmə çətinliyi olan uşaqlar" adı altında etiketlənir, bu da öz növbəsində həm psixoloji, həm də akademik cəhətdən qeyri – müvəffəqliyə səbəb olur. Bu və digər məsələlərdən yola çıxaraq məqalədə kiçikyaşlı məktəblilərin qeyri-müvəffəqliyi psixopedaqoji və neyropsixoloji proseslər nöqteyi-nəzərindən təhlil edilib. Öyrənmə fərqliliyinin aşkarlanmasının kiçikyaşlı məktəblilərin psixi inkişafındakı vacib rolu qeyd olunub.

Bu tədqiqatın əsas məqsədi pedaqoqun müvafiq yaş dövründə baş verən psixi prosesləri, beyin strukturlarının inkişafındakı əsas qanunauyğunluqları bilməli olmasıdır. O, həmçinin hər uşağın öyrənmə metodunu, temperament xüsusiyyətlərini bilərək buna uyğun ünsiyyət və münasibət qurmalıdır. Buna audial, vizual və kinestetik öyrənmə, pozitiv enerjiyə köklənmək, özünüidarəetmə, diqqətin cəmlənməsinə zəmin yaratmaq və s. amillərin təmin edilməsini misal göstərmək olar. Sadalanan faktorların nəzərə alınması ilə yaradılacaq metodika bu istiqamətdə inkişaf edən ibtidai sinif müəllimlərinə, praktik psixoloqlara, bu sahəni tədqiq edən tədqiqatçılara kiçikyaşlı məktəblilərin təlim prosesindəki çətinliklərinin aradan qaldırılması işinə yardımçı ola bilər (Скворцов, И.А. 2000)

Hər uşaq dünyaya bənzəri olmayan beyinlə gəlir. Bəzilərinin özünəməxsusluğu "əksiklik", bəzilərininki isə "güclü" olaraq bilinir. Məsələn: oxuma fərqliliyi adlandırılmalı olan "oxuma çətinliyi" (disleksiya) üçün də belədir. Bu beynə sahib olan uşaqlar böyük gücə malikdirlər. Onların məktəbdə dezavantaj qəbul edilən xüsusiyyətləri həyatda böyük avantajdır (B.Eriş - 2021). NASA-da fəaliyyətt göstərən hər iki insandan birində disleksiya var. BBC-nin tədqiqatlarına görə sıfırdan milyoner olanların 40%-i disleksiyalıdır. İncəsənət sahəsində olanların disleksiyalı olma faizi 3 qat daha çoxdur (B.Eriş - 2021).

Oyun oynamağın üstünlük təşkil etdiyi kiçikyaşlı məktəbli dövrü birdən – birə parta arxasında oturmağa keçid alır. Yazı, oxu, hesablama vərdişlərinin, məntiqi düşüncə, mətnlərin başa düşülüb mənimsənilməsində kiçikyaşlı məktəblilər çətinliklərlə rastlaşır və bu təlimdə baş verən ilkin - əsas problem kimi qiymətləndirilir. Bir çox hallarda isə kiçikyaşlı məktəblilərin qeyri-müvəffəqliyinə bu yaş dövrünün psixopedaqoji və neyrofizioloji inkişafına uyğun olmayan təlim, ünsiyyət və münasibət metodları səbəb olur (Рубинштейн С. 2016). Bu səbəbdən müəllim şagirdlərin fərdi temperament xüsusiyyətlərini müşahidə etməlidir ki, bu da təlimin yeni, xüsusi metodikasının işlənməsini tələb edir (Скворцов, И.А. 2000).

Uşaqlarda vaxtında psixi inkişaf amillərinin formalaşdırılması çox vacibdir (Ясюкова, 1997). Onların qiymətləndirilməsi əsasında pedaqoq koqnitiv proseslərin inkişaf diaqnostikasını daha səmərəli apararaq, lazımi korreksiya-inkişaf işlərini həyata keçirə bilər (Корсакова, 2001). Psixi inkişafın əsas amilləri təkcə normal antogenez üçün deyil, eyni zamanda gələcəkdə şagirdin öyrənmə fəaliyyətinə müsbət təsir edir (Цветкова, 2000). Hər bir şagirdin özünün "təfəkkür təbiəti" vardır (Рубинштейн С. 2016). Buna uyğun olaraq kiçikyaşlı məktəblilər arasından zəif funksional elementli olanlar seçilib, onların çətinliklərinin ləğvi, həmçinin şəxsi fəaliyyətinə şüurlu şəkildə nəzarət üçün təlim fəaliyyətinin bütün növlərindən istifadə olunaraq iş aparılmalıdır. Nəticədə isə onların oxu, yazı, riyazi əməliyyatlar, o cümlədən təfəkkür, yaddaş, diqqət bacarıqlarının formalaş-

ması üçün metod və üsullar araşdırılmış olacaq. Göstərilən psixi inkişafın aktivləşməsinin əsas vasitəsi kimi sensomotor səviyyə əsas götürülür (Семенович, 2007).

Ontogenezin mövcud mərhələsində əqli əmək qabiliyyətinin artırılması və orqanizmin funksional vəziyyəti bütöv götürüldükdə, hərəkət və koqnitiv korreksiya bir-birini tamamlamış olur (Безруких, 2005). Motor funksiyanın sərbəst requlyasiyası mexanizmi ilə bağlı sistematik tapşırıqlar beyin gövdəsinin alın və gicgah hissələrinin aktiv funksiyası üçün əlverişli şərait yaradır. Nəticədə psixi funksiyanın sərbəst requlyasiyasında bu hissələrin funksional imkanları artırılır. Öyrənmə fərqliliyi olan uşaqların nəzərə alınmaması ilə təşkil edilən dərslər nəinki akademik cəhətdən qeyri müvəffəq olurlar, eyni zamanda onlar mənimsənilmə zamanı ciddi psixoloji problemlər yaşayırlar. Müvafiq yaş dövrünü psixopedaqoji, fizioloji və neyroelm cəhətdən anlamayan və bu sahədə özlərini inkişaf etdirməyən pedaqoqların fəaliyyəti şagirdləri qeyri-müvəffəq edir. Pedaqoq müvafiq yaş dövründə baş verən psixi prosesləri, beyin strukturlarının inkişafındakı əsas qanunauyğunluqları bilməlidir (Безруких, 2005). O, həmçinin hər uşağın öyrənmə metodunu, temperament xüsusiyyətlərini bilərək buna uyğun ünsiyyət və münasibət qurmalıdır. Bu istiqamətdə inkişaf ibtidai sinif şagirdlərinin təlim prosesindəki çətinliklərinin aradan qaldırılması işində ibtidai sinif müəllimlərinə və praktik psixoloqlara kömək edəcəkdir.

Tədqiqatımızın bu istiqamətdə davamı metodika yaratmaq və eksperimentin təşkili ilə nəticələnəcəkdir. Gələcək işlərimizdə metodika və eksperiment nəticələri dərc ediləcəkdir. Proqramın əsasını şagirdlərin iş qabiliyyətini yaradan hərəkət çalışmaları, neyroelm təməlli hiss, fərqindəlik və diqqət çalışmaları, psixi fəaliyyətin aspekt və müxtəlif səviyyələri arasındakı qarşılıqlı hərəkətləri aktivləşdirməsi təşkil edəcəkdir.

**Ədəbiyyat:**


1. B.Eriş “ Gölgedeki yıldızlar” 9. Baskı: Ağustos. 2021, 200 s.
2. S.Canan, A.Şahin “Kendimi keşfediyorum” 6. Baskı: Mart 2021, 184 s.
3. Frances E. Jensen, Amy Ellis Nutt “Ergen beyni” 8. Baskı: Mart 2022, 376 s.
4. Безруких, М.М. Психофизиология ребенка: учеб. пособие / М.М. Безруких, Н.В. Дубровинская, Д.А. Фарбер. – 2-е изд., доп. – М.: Московский психологосоциальный институт; Воронеж: НПО «МОДЭК», 2005. – 496 с.
5. Корсакова, Н.К. Неуспевающие дети: нейропсихологическая диагностика трудностей в обучении младших школьников / Н.К. Корсакова, Ю.В. Микадзе, Е.Ю. Балашова. – М.: Педагогическое общество России, 2001. – 160 с.
6. Рубинштейн С. Основы общей психологии. 2016. Ч. 3. Гл. 10. URL: http://www.gumer.info/bibliotek_Buks/Psihol/rubin/10.php
7. Семенович, А.В. Нейропсихологическая коррекция в детском возрасте. Метод замещающего онтогенеза: учеб. пособие / А.В. Семенович. – М.: Генезис, 2007. – 474 с.
8. Скворцов, И.А. Модифицированная методика нейропсихологической диагностики и коррекции при нарушениях развития высших психических функций у детей / И.А. Скворцов, Г.А. Адашинская, И.В. Нефедова. – М.: Тривола, 2000. – 50 с.

9. Цветкова, Л.С. Нейропсихология счета, письма и чтения: нарушение и восстановление / Л.С. Цветкова. – М.: Московский психолого-социальный институт; Воронеж: МОДЕК, 2000. – 187 с.

10. Ясюкова, Л.А. Оптимизация обучения и развития детей с ММД / Л.А. Ясюкова. – СПб.: [б.и.], 1997. – 78 с.

# SOME APPROACHES TO THE DETERMINATION OF THE PROFESSIONALLY IMPORTANT PSYCHOLOGICAL QUALITIES OF ATC INSTRUCTORS

**Estrova Sabina Tofig**
**Baku State University**
**https://orcid.org/0000-0002-3428-4000**
**sabinaestrova@gmail.com**

# ATC TƏLİMATÇILARININ PEŞƏKAR ƏHƏMİYYƏTLİ PSİXOLOJİ KEYFİYYƏTLƏRİNİN MÜƏYYƏN EDİLMƏSİNƏ BƏZİ YANAŞMALAR

**Estrova Səbinə Tofiq**
**Bakı Dövlət Universiteti**
**https://orcid.org/0000-0002-3428-4000**
**sabinaestrova@gmail.com**

## Xülasə

Məqalə HHİE (hava hərəkəti idarə edilməsi) dispetçerlərinin peşəkar əhəmiyyətli keyfiyyətlərinin (PƏK) öyrənilməsinə həsr edilmişdir. Metodologiya olaraq rəhbər sənədlərin öyrənilməsi, müşahidə və peşələrin psixoloji xüsusiyyətləri üçün Lipman testinin modifikasiyası istifadə edilmişdir. Tədqiqat çərçivəsində öz funksional vəzifələrini səmərəli yerinə yetirən, orta xidmət stajı on ildən artıq olan mütəxəssislər arasında sorğu keçirilib. Ekspert qrupuna hava hərəkəti dispetçerləri, qiymətləndiricilər və uçuş rəhbərləri daxil idi. Müşahidə, ədəbiyyatın təhlili və sorğunun nəticələrinə əsasən 12 PƏK müəyyən edilmiş, iyerarxiyası peşə fəaliyyətinin xüsusiyyətləri ilə əlaqədar qiymətləndirilmiş, təlimatçıların peşəkar fəaliyyətin uğur və səmərəliliyinə töhfə verən şəxsi xüsusiyyətlər barədə nəticələr çıxarılmışdır. Tədqiqatın nəticələri hava hərəkəti dispetçerinin təlimatçısının təyin edilməsində, eləcə də ixtisasartırma kurslarında istifadə edilə bilər.

**Açar sözlər:** ATC təlimatçısı, peşəkar əhəmiyyətli psixoloji keyfiyyətlər, ekspertlərin qiymətləndirmə metodu.

# НЕКОТОРЫЕ ПОДХОДЫ К ВЫЯВЛЕНИЮ ПРОФЕССИОНАЛЬНО ВАЖНЫХ ПСИХОЛОГИЧЕСКИХ КАЧЕСТВ ИНСТРУКТОРОВ УВД

**Эстрова Сабина Тофик**
**Бакинский Государственный Университет**
**https://orcid.org/0000-0002-3428-4000**
**sabinaestrova@gmail.com**

## Резюме

Статья посвящена вопросам изучения профессионально-важных качеств (ПВК) инструкторов-диспетчеров УВД (управления воздушным движением). В качестве методологии было использовано изучение руководящих документов, наблюдение, а также модификация теста Липмана для психологической характе-

ристики профессий. В рамках исследования был проведён опрос экспертов, эффективно выполняющих свои функциональные обязанности, средний служебный опыт которых составил более десяти лет. В экспертную группу входили инструкторы-диспетчеры УВД, асессоры, руководители полётов. На основании наблюдения, анализа литературы и результатов опроса выделены 12 ПВК, оценивается иерархия ПВК в связи с особенностями профессиональной деятельности, сделаны выводы о личностных характеристиках, способствующих успешности и эффективности профессиональной деятельности инструкторов. Результаты исследования могут применяться при назначении на должность инструктора-диспетчера УВД, а также на курсах повышения квалификации.

**Ключевые слова:** инструктор-диспетчер УВД, профессионально важные психологические качества, метод экспертной оценки.

The ATC (air traffic controller) profession is one of the most important in the chain of specialists affecting flight safety. One of the determining factors for the safe and efficient work of ATCs is the stage of personnel selection and training. The central link in these processes is the ATC instructor. The relevance of this study is justified by the existing gaps in the system for selecting candidates for the position of ATC instructor. At present, this system is based on the expert opinions of experienced ATC instructors, supervisors, and the management personnel. The main selection criterion is the level of knowledge of the future ATC instructor. There are no clear characteristics of the psychological qualities necessary for the successful activity of an instructor. Thus, it can be argued that the current system of professional selection for the positions of ATC instructors needs to be improved. The purpose of this study is to develop the qualification characteristics of ATC instructors, to study and determine their professionally important psychological qualities. The task is to analyze the available literature on professionally-important qualities (PIQ), determine the research methodology, conduct it, and process the results. The research methodology includes the analysis of sources, observation of the work of ATC instructors and questioning by the peer review method. Along with the noticeable upward trend in the increase in flights over the last few decades and the associated shortage of ATC specialists, the COVID-19 pandemic has significantly affected the system of their training.

The practice of transferring part of the educational process of training to a remote platform has appeared in the world (Brudnicki, Chastain, Ethier, 2006; Arminen, Koskela, Palukka, 2014; Borisov, Borsoev, Bondarenko, 2020). Studies of Updergrove and Jafer have focussed on improving the ATC training process and simulation at the FAA Academy (Updegrove, Jafer, 2017). The content of ATC training and teaching process is discussed in ICAO doc. 9683. Much attention is paid to the qualifications and competence of the experts who carry out the training process. In ICAO (International Civil Aviation Organization) document 9868[1] discusses the issues of interaction between instructor and trainee in the educational process, sets out recommendations when developing programs for the qualification training system to pay attention to the ATC instructor’s mentoring skills, cooperation, as well as ethics and integrity. Koskela and Arminen have focussed on the evaluation of trainee performance in practice-based training (Arminen, Koskela, Palukka, 2014), Vogel-Walcutt J.J, Fiorella L., Malone N. studied the

[1] Procedures for Air Navigation Services - Training Doc 9868. (2020) Third Edition. International civil aviation organization, Montréal

structure of training strategies for military training systems (Vogel-Walcutt J.J, Fiorella L., Malone N., 2013). Sonhaji explores the adoption of international standards for ATC instructor competence[2]. Although Soldatov, Zasyad'ko, Bogomolov, Vonarshenko, and Solomka investigated the development of the basic skills of ATC's based on the analysis of the professional profiles of their work, the relationship of professional skills with experience and the possibility of learning these skills (Soldatov et., 2018), however, the study of the psychological PIQ of ATC instructors has not been conducted. According to the definition, psychological professional qualities are “individual personality traits, mental and psychomotor properties that meet the requirements for a person from a certain profession and contribute to the successful mastery of this profession[3]” To identify the professionally important psychological qualities of ATC instructors it was developed a questionnaire of peer review "Suitability for work as an ATC instructor", modified on the basis of the Lipman's questionnaire[4] for mental labor professions. The essence of the method was to question experienced expert using a scoring system in order to identify the professional qualities of instructors. The data source used was an ICAO 9683 document[5] and the ATC OJTI Training Curriculum[6], as well as observations of instructors in the process of their professional activities. Sample: 18 ATC instructors, assessors and supervisors, female and male respondents, aged 35-65 years. The questionnaire of peer review is adapted to the specifics of the field of ATC and allows to get a more objective assessment of the professionally important qualities of an instructor from experts in this field.

Based on the analysis of literary sources, the study of the conditions of activity of air traffic controller instructors, and also as a result of a survey of experts, there were identified 12 psychological professional important qualities in the profession of ATC instructor: stress tolerance, attentiveness, and concentration, exactingness, ability to defend his point of view, interconnection, responsibility, ability to coordinate and interact, learning ability, punctuality, authority, pedagogical tact.

Current research and analysis of the literature made it possible to identify the most significant PIQ of ATC instructors. In the future, it is recommended to develop training programs for instructors, including the improvement of psychological PIQ. The results of the study can be used in the appointment of an ATC instructor, as well as in advanced training courses.

**References:**

1. Arminen, I.; Koskela, I.; Palukka, H. (2014). Multimodal production of second pair parts in air traffic control training. Journal of Pragmatics

2 Sonhaji I, Jatmoko D., Wijaksono A. (2021) Studi Adopsi Standar Kompetensi Internasional Air Traffic Controller On The Job Training Instructors Kedalam Kurikulum Pelatihan Air Traffic Controller On The Job Training Instructors Langit Biru: Jurnal Ilmiah Aviasi DOI:10.54147/langitbiru.v14i03.479 psychological PIQ of ATC instructors has not been conducted. According to the definition, psychological professional qualities are “individual personality traits, mental and psychomotor properties that meet the requirements for a person from a certain profession and contribute to the successful mastery of this profession”

3 Il'in Ye.P., (2008) Differential psychology of professional activity. Retrieved from //https://iknigi.net/avtor-evgeniy-ilin/73449-differencialnaya-psihologiya-professionalnoy-deyatelnosti-evgeniy-ilin/read/page-27.html (in Russ.)

4Encyclopedic Dictionary of Psychology and Pedagogy (2013) Retrieved from https://psychology_pedagogy.academic.ru/(in Russ.)

5Human Factors Training Manual. Doc. 9683-AN/950. First edition. International Civil Aviation Organization (ICAO), Montreal, 1998

6Document No. AAR-PEL-006 "Azerbaijan Aviation Rules for Licensing Air Traffic Controllers".

2. Borisov V.E., Borsoev V.A., Bondarenko A.A. (2020). Development of promising simulators with voice support, with the function of automating the assessment of the skills of air traffic controllers / Nauchnyy Vestnik MGTU GA. Vol. 23, No. 06, pp. 8-19 (in Russ.)

3. Brudnicki, D.; Chastain, K.; Ethier, B. Application of Advanced Technologies for Training the Next Generation of Air Traffic Controllers. MITRE Corporation, 2006. Retrieved from: https://www.mitre.org/sites/default/ files/pdf/06_0978.pdf

4. Pavel S.R. (2012). The evolution of the ATC selection and training process. J. Aviat / Aerosp. Educ. Res., 21, 31. DOI:10.15394/JAAER.2012.1336

5. Soldatov S. K., Zasyad'ko K.I., Bogomolov A., Vonarshenko A.P., and Solomka A.V. (2018). Professionally Important Skills of Air Traffic Controllers, Human Physiology, volume 44, pp.775–778. (in Russ.)

6. Updegrove J.A., Jafer S. (2017). Optimization of air traffic control training at the Federal Aviation Administration Academy// Aerospace. Vol. 4, iss. 4. Retrieved from: https://www.mdpi.com/2226-4310/4/4/50.

7. Vogel-Walcutt J.J, Fiorella L., Malone N. (2013). Instructional Strategies Framework for Military Training Systems. Computers in Human Behavior 29: pp. 1490-1498 DOI:10.1016/j.chb.2013.01.038

8. Lyu T., Song W., Du K. (2019). Human Factors Analysis of Air Traffic Safety Based on HFACS-BN Model, Applied Sciences 9 (23) DOI:10.3390/app9235049

## ŞAGİRDLƏRİN TƏLİM NƏTİCƏLƏRİNƏ YENİ YANAŞMALAR

**Xəlilova Xatirə Süleyman**
**Azərbaycan Respublikasının Təhsil İnstitutu**
**https://orcid.org/0000-0003-3828-0565**
**xatire82@gmail.com**

## NEW APPROACHES TO STUDENT LEARNING OUTCOMES

**Khalilova Khatira Suleyman**
**The Institute of Education of the Republic of Azerbaijan**
**https://orcid.org/0000-0003-3828-0565**
**xatire82@gmail.com**

### Summary

Subject curricula are designed to increase the learning results of students and ensure their development. The goals of the subject are clearly defined, and the learning outcomes for each class are specified. The training results create conditions for students to be provided with modern knowledge and skills, and for personality formation. It will be possible to achieve these results with the joint activity of teachers and students. The importance of continuous education and updating of skills in order to create enthusiasm for science in students, to determine the role that

education plays in human life, and to keep pace with the modern world should be clear. Skills such as leadership and teamwork skills, being result-oriented, being responsible, being able to make urgent decisions in various situations, being able to solve problems, being self-motivated, being self-organized, and being able to show tolerance to different people and situations are considered twenty-first century skills. We should form these skills through general education subjects, extracurricular and extracurricular activities. In this regard, each subject has certain responsibilities both separately and in the integrated case.

**Keywords:** competence, learning outcome, self-organization, result-oriented.

## НОВЫЕ ПОДХОДЫ К РЕЗУЛЬТАТАМ ОБУЧЕНИЯ УЧАЩИХСЯ

**Халилова Хатира Сулейман**
**Институт Образования Азербайджанской Республики**
**https://orcid.org/0000-0003-3828-0565**
**xatire82@gmail.com**

### Резюме

Предметные курикулумы призваны повышать результаты обучения учащихся и обеспечивать их развитие. Цели предмета четко определены, а результаты обучения для каждого класса указаны. Результаты обучения создают условия для обеспечения учащихся современными знаниями и навыками, формирования личности. Достичь этих результатов можно будет при совместной деятельности учителей и учащихся. Должна быть ясна важность непрерывного образования и обновления навыков для того, чтобы вызвать у учащихся энтузиазм к науке, определить роль, которую образование играет в жизни человека, и идти в ногу с современным миром. Такие навыки, как лидерство и умение работать в команде, нацеленность на результат, ответственность, способность принимать срочные решения в различных ситуациях, умение решать проблемы, самомотивация, самоорганизация, способность проявлять толерантность к различным люди и ситуации считаются навыками двадцать первого века. Эти умения мы должны формировать через общеобразовательные предметы, внеурочную и внеурочную деятельность. В связи с этим каждый субъект имеет определенные обязанности как в отдельности, так и в комплексном случае.

**Ключевые слова:** компетентность, результат обучения, самоорганизация, ориентированность на результат.

Müasir təhsilin qarşısında duran ən vacib məsələlərdən biri XXI əsr bacarıqlarının təhsilalanlarda formalaşdırılmasıdır. Bu bacarıqlar olmayan işçi heç bir işəgötürən üçün maraqlı deyil. Dövrümüzdə ən tələbatlı kadrlar daim hərəkətdədir, ömürboyu təhsilə cəlb olunub və bacarıqlarının zamanın tələbinə cavab verməsi üçün çalışır. Müasir texnologiyalar və internetdən istifadə müasir dövrümüzün ən əhəmiyyətli elementidir. Texnologiyanın bəlkə də gündəlik yenilənməsi özü ilə "ömür böyu öyrənmə" modelini yaradır. Artıq ali təhsil almaq və daimi olaraq bu təhsildən istifadə etmək öz əhəmiyyətliliyini itirib. Elmi tərəqqinin sürətini texnologiyada, biznesdə və sənayedə dəyişiklikləri, yeni peşələrin və sahələrin yaranmasını, indikilərin köhnəlməsini nəzərə alsaq, belə bir yanaşmanın zəruriliyi xüsusilə vacibdir. Şəraitdən asılı olaraq digər vəzifələri də icra edə bilmək ehtiyacı yaranıb. Bütün sahələr üzrə ortaq ola biləcək bacarıqlara ehtiyac vardır. İnteqrativ təhsilə keçid ehtiyacı yaranıb. Ayrı- ayrı elm sahəsinə aid olan nəzəri biliklərlə yüklənmiş işçini robotlar asanlıqla əvəz edir. Bəs o zaman sual olunur ki, təhsildə hansı yeniliklər olmalıdır? Təhsilanlarımızın müasir tələblərə tam cavab verə bilməməsinin səbəbi nədir?

Müasir fənn proqramları(kurikulumları) şagirdlərin təlim nəticələrinin yüksəlməsinə, onların inkişafının təmin olunmasına hesablanmışdır. Hər bir fənnin məqsədləri dəqiq müəyyən olunmuş, siniflər üzrə təlim nəticələri konkret verilmişdir. Təlim nəticələri şagirdlərin müasir bilik və bacarıqlarla təmin olunmasına, şəxsiyyətin formalaşmasına şərait yaradır. Müəllim və şagirdlərin birgə fəaliyyəti ilə bu nəticələrə çatmaq mümkün olacaqdır. Şagirdlərdə elmə həvəs yaratmaq, təhsilin insan həyatında oynadığı rolu müəyyən etmək, müasir dünya ilə ayaqlaşmaq üçün davamlı təhsilin və bacarıqların yenilənməsinin vacibliyi aydın olmalıdır.

AR-nın Təhsil Qanununda təhsilin məzmununa və təşkilinə verilən tələblər içərisində: təhsilalanlarda müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabət qabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət yaratmaq, məntiqi, tənqidi və yaradıcı düşünmək bacarığını formalaşdırmaq; (Təhsil Qanunu, 2009) maddəsi də yer alır. Qanunda verilmiş "müasir" sözü bütün dövrlər üçün yanaşmaların dəyişməsini tələb edir. Bir neçə il bundan əvvəl əldə olunan təlim nəticələri bu gün üçün uğurlu sayılmır. Yeni yanaşmaların tətbiqinə ehtiyac yaranır.

Liderlik və komanda ilə işləmək bacarığı, nəticəyönümlü olmaq, məsuliyyətli olmaq, müxtəlif situasiyalarda təcili qərarvermə bacarığı, problem həll edə bilmək, özünü motivasiya etmək, özünütəşkiletmə qabiliyyəti, müxtəlif insanlara və vəziyyətlərə dözümlülük göstərə bilmək kimi bacarıqlar iyirmi birinici əsr bacarıqları hesab olunur. Bu bacarıqları ümumtəhsil fənləri, dərsdənkənar və məktəbdənkənar məşğələlər hesabına formalaşdırmalıyıq. Bu xüsusda həm hər bir fənnin ayrılıqda həm də ümumilikdə inteqrasiya olunmuş halda üzərinə müəyyən vəzifələr düşür.

Ümumtəhsil məktəblərində ədəbiyyat təliminin məqsədi bədii ədəbiyyat nümunələrini, tarixi-ədəbi prosesi öyrənmək, təhlil etmək, qiymətləndirmək bacarığını formalaşdırmaqla şagirdlərin dünyagörüşünü zənginləşdirmək, mənəvi-estetik inkişafını təmin etmək, nitq mədəniyyətinə yiyələnmələrinə nail olmaqdır. (Ədəbiyyat fənn kurikulumu, 2013)

Məzmun standartları müəyyənləşdirilərkən şagirdlərin idraki, informativ-kommunikativ fəaliyyət göstərmələri, onlarda düşünmə, emosional və hərəki bacarıqların formalaşdırılması əsas götürülmüşdür. Ədəbiyyat fənn kurikulumu, 2013)

Fənn kurikulumunda nəzərdə tutulmuş standartlar müasir bacarıqları qismən inkişaf etdirir. Bu standartlara müəllim yaradıcı yanaşmalıdır. Dərsdə müxtəlif innovativ üsul və formalardan istifadə etməli, hər bir şagirdin əməkdaşlıqda, ünsiyyətdə və fəaliyyətdə olduğuna əmin olmalıdır. Müxtəlif üsulların, qeyri-standart dərs formalarının tətbiqi ilə nəzərdə tutulan təlim nəticələrinə çatmaq olar.

Ədəbiyyat fənninin ümumi təlim nəticələri içərisində də təhsilalanlarda bu səriştənin formalaşması məqsəd kimi qarşıya qoyulmuşdur. Biz ədəbiyyat fənninin təlim nəticələrinə diqqət yetirək. Tam orta təhsil səviyyəsində aşağıdakı təlim nəticələri nəzərdə tutulur:

1. bədii əsərlərin təhlili əsasında müqayisə və ümumiləşdirmələr aparır, rəy və mülahizələr irəli sürür;

2. müxtəlif janrlarda yazılmış əsərləri fərqləndirir və səciyyəvi cəhətlərini şərh edir;

3. ədəbi simalara və onların yaradıcılığına yaşadıqları dövrdəki ictimai-siyasi və əxlaqi-etik dəyərlər zəminində münasibət bildirir;

4. müxtəlif ədəbi üslublarda yaradıcı yazılar yazır;

5. ədəbi simalar, əsərlər, ədəbi hadisələr və dövrlər haqqında məlumatlı olduğunu nümayiş etdirir;

Bu təlim nəticələri vasitəsilə fənn kurikulumunda səviyyələr və siniflər üzrə verilmiş məzmun xətləri, əsas və alt standartlara əsaslanmaqla mövzular və tapşırıqlar vasitəsilə verilən ünsiyyətin müxtəlif formalarının və səviyyələrinin inkişafı təmin olunur.

Təlim prosesində sənətkarın sözdən istifadə məharəti, nitqin bədiiliyi, ifadəliliyi, obrazlı sözün doğurduğu emosionallıq və fikir tutumu haqqında aydın təsəvvür yaradılır, bu əsasda şagirdlərin özünün nitqinin zənginləşməsi təmin edilir. (Ədəbiyyat fənn kurikulumu,2013)

Liderlik və komandada işləmək səriştəsi digər şəxslərə təsir göstərmək və onları məqsədə doğru yönəltmək üçün insanlararası əlaqələr və problem həll etmə bacarıqlarından istifadə, ümumi məqsədə nail olmaq üçün başqalarının güclü tərəflərindən səmərəli istifadə, dürüstlük və etik davranışın nümayiş etdirilməsi, geniş kütlənin maraqlarını nəzərə almaqla fəaliyyət göstərmək kimi bacarıqları da özündə birləşdirir.

Şəxsiyyət üçün özünə inam çox əhəmiyyətlidir. Özünə inam müxtəlif qapıları insanın üzünə açır, bir növ onun uğurunun simvoludur. Bu keyfiyyətin sayəsində insan atrafında baş verən hadisələrə müsbət reaksiya verir, yaxşı davranış sərgiləyir. Özünə inam davranışda və nitq prosesində özünü büruzə verir. Özünəinam bizim mövqeyimizin möhkəmlənməsinə və daha yaxşı inkişaf etməsinə, fikirlərimizin daha ciddi qəbul edilməsinə səbəb olacaq. Ünsiyyət zamanı sizi dinləyəcək, hörmətlə yanaşacaqlar.

Ünsiyyət prosesində iş etikasını qoruyub saxlamağı bacarmalıyıq. Yerinə yetirdiyiniz işdə etibarlılığı qorumalı, peşəkarlığın inkişafı qayğısına qalmalısınız. Peşəkarlıq yalnız tutduğu iş yaxşı bacarmaq deyil, həm də yaxşı ünsiyyətdir, qarşılıqlı hörmət və inamdır, ümumi işin xeyrinə addımlar atmağı bacarmaqdır.

Münasibətləri idarə edə bilmək çox vacibdir. Bu insan həyatının bütün sferalarında eyni əhəmiyyətliliyə malikdir. Şagirdlər müəllimlə və yoldaşları ilə, rəhbərliklə, müəllim şagirdlərlə münasibətlərdə diqqətli olmalıdır. Elə münasibət olmalıdır ki, qarşı tərəf ünsiyyət zamanı özünü rahat hiss edərək fikirlərini bölüşsün, bu ünsiyyətdən qaçmasın.

Söylənilən fikirlərə - irad və təriflərə qarşı dözümlü olmaq vacib bacarıqlardandır. Bu zaman dinləməyi bacarmaq lazımdır. İradı və tənqidi dinləməyi, qəbul etməyi bacarmayan şəxs özünü inkişaf etdirə, səhvlərini düzəldə bilməz. İstənilən mənfi rəyə münasibət bildirmək lazımdır, lakin bu zaman diqqətli olmalı, rəyi düşünməli, mütləq cavab verməli olduğunuzu düşünmək lazım deyil. Belə rəylərdən müsbət nəticə çıxartmaq və gələcək addımlarda nəzərə almaq lazımdır. Müzakirə üsulundan sıx istifadə, qrup və cütlərlə işdən istifadə bu bacarığı inkişaf etdirər.

Ünsiyyətin ayrılmaz bir parçası da bədən dilidir. Bildiyimiz kimi bədən dili ünsiyyətin böyük hissəsini təşkil edir. Sözün gücünün bədən dilindən zəif olduğunu hər kəs bilir. Bu bacarığın formalaşmasında ədəbiyyat fənni əhəmiyyətli rol oynayır. Ümumən ədəbiyyat fənni inteqrativ formada tədris edilməlidir, yeni yanaşmalar tətbiq olunmalı, qeyri-standart dərs formalarından aktiv istifadə olunmalıdır. Şagirdlər müasir bacarıqlara bu üsulla yiyələnə bilər.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Təhsil haqqında Qanunu. Bakı: Hüquq ədəbiyyatı, –2009,
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası , Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixli Sərəncamı. Xalq qəzeti. –2013, 25 oktyabr.
3. Azərbaycan Respublikasının Təhsil İslahatı Proqramı. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 168 №-li sərəncamı, 15 iyun 1999-cu il. Xalq qəzeti. –1999, 16 iyun.
4. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ədəbiyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (V-XI siniflər)- Bakı; 2013.
5. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası( pedaqoji ali məktəblər üçün dərs vəasiti) Bakı-2016 "Müəllim" nəşriyyatı, 452səh.
6. "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)", Bakı şəhəri, 29 sentyabr 2020-ci il
7. Standart və kurikulumlar: nəzəri və praktik məsələlər. Bakı: "Şahin-MB"MMC, 2016, 500 səh. ARTİ.
8. Yeni təhsil proqramlarının (kurikulumlarının) tətbiqi məsələləri. - nəşrə hazırl. Ə.Abbasov, İ.Cavadov, ARTİ- Bakı: Mütərcim , 2014 -380 səh.
9. Yusifov F. Ədəbiyyatin tədrisi metodikasi, Bakı- 2017
10. http://www.kurikulum.az

## İDARƏETMƏDƏ RƏHBƏR-İCRAÇI MÜNASİBƏTLƏRİNDƏ SOSİAL QAVRAYIŞIN ƏSAS PROBLEMLƏRİNİN SOSİAL-PSİXOLOJİ TƏHLİLİ

**Həcəmova Zeynəb Əhməd**
**Fəlsəfə və Sosiologiya İnstitutu**
**https://orcid.org/0000-0001-5886-0984**
**hecemova7@gmail.com**

## SOCIAL-PSYCHOLOGICAL ANALYSIS OF THE MAIN PROBLEMS OF SOCIAL PERCEPTION IN MANAGEMENT-EXECUTIVE RELATIONS

**Hajamova Zeynab Ahmed**
**Institute of Philosophy and Sociology**
**https://orcid.org/0000-0001-5886-0984**
**hecemova7@gmail.com**

### Summary

Management as a separate field of study includes a set of administrative principles. Management is a leading approach to society and has a number of complex aspects. In order to meet the necessary and consistent administrative requirements of society, administration must develop in terms of planning, organizational and goal-directing characteristics. Manager-executive relations, which are one of the important components of management, consist of

"planning" and "execution". A planned and constantly monitored management process is an indicator of disciplined activity. The study of the manifestation characteristics of cognitive processes in management-executive relations also attracts special attention. A person's self-awareness includes his perceptual actions. Purposeful organization of management is conditioned by adequate manifestation of social perception in manager-executive relations. World experience shows that managers can not only gain the respect of employees by their personal example, but can also encourage the provision of correct behavior in the collective. The performance of administrative and social functions in the management system is an indicator of the organization's high-level service to the people and the state. Management is a process that is constantly updated and involves large-scale administrative regulations. The mentioned process should ensure the continuity of the activity that serves to protect the interests of the organization and the state.

**Keywords:** management, social perception, manager-employee relations, law of influence, statehood.

## СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ОСНОВНЫХ ПРОБЛЕМ СОЦИАЛЬНОГО ВОСПРИЯТИЯ В РУКОВОДИТЕЛЬНЫХ ОТНОШЕНИЯХ В УПРАВЛЕНИИ

**Хаджамова Зейнаб Ахмед**

**Институт Философии и Социологии**

**https://orcid.org/0000-0001-5886-0984**

**hecemova7@gmail.com**

### Резюме

Управление как отдельная область исследования включает в себя набор административных принципов. Управление является ведущим подходом к обществу и имеет ряд сложных аспектов. Для удовлетворения необходимых и последовательных управленческих потребностей общества управление должно развиваться по плановым, организационным и целеустремленным характеристикам. Отношения менеджер-исполнитель являющиеся одной из важных составляющих управления, состоят из "планирования" и "исполнения". Планируемый и постоянно контролируемый процесс управления является показателем дисциплинированной деятельности. Изучение особенностей проявления когнитивных процессов в отношениях лидер-исполнитель также привлекает особое внимание. Самосознание человека включает в себя его персептивные действия. Целенаправленная организация управления обусловлена адекватным проявлением социального сознания в отношениях лидер-руководитель. Мировой опыт показывает, что лидеры своим личным примером могут не только завоевать уважение сотрудников, но и стимулировать обеспечение правильного поведения в коллективе. Выполнение управленческих и социальных функций в системе управления является показателем высокого уровня служения организации народу и государству. Управление – это процесс, который постоянно обновляется и включает крупномасштабные административные регламенты. Указанный процесс должен обеспечивать непрерывность деятельности служащей защите интересов организации и государства.

**Ключевые слова:** управление, социальное восприятие, отношения менеджер-исполнитель, закон влияния, государственность.

Tədqiqatın əsas məqsədi idarəetmədə rəhbər-icraçı münasibətlərində sosial qavrayışın əsas problemlərinin öyrənilməsindən ibarətdir. Tədqiqatın əsas vəzifəsi idarəetmənin kadr potensialının inkişaf etdirilməsini, elmi, ictimai və təşkilati fəaliyyətin şəffaf hədəflərə əsaslanmasını və innovativ nailiyyətlərin əldə olunmasına yönəldilmiş sistem kimi şərh olunmasını əhatə edir. Tədqiqatın metodologiyası ilə əlaqədar qeyd edə bilərik ki, tədqiqat zamanı problem haqqında müvafiq məlumatların əldə olunması idarəetmədə rəhbər-icraçı münasibətlərində sosial qavrayışın

proses olaraq hərəkət ardıcıllığının praktiki əhəmiyyətinin sosial-psixoloji təhlilinə yönəldilərək dövrü müşahidə metodu vasitəsilə öyrənilmişdir. Dövrü müşahidə metodu vasitəsilə rəhbər-icraçı münasibətlərində qavrayışın sosial tərəflərinin idarəetmədə təzahür xüsusiyyətləri, prioritetlər və səbəb-nəticə əlaqələri öyrənilmişdir. Tədqiqatın məhdudiyyətləri ondan ibarətdir ki, idarəetmə ilə əlaqədar məlum faktların sayı kifayət qədər çoxluq təşkil edir, lakin rəhbər-icraçı münasibətlərinin sosial qavrayış ilə diferensial analizi elmi problemin yeni hadisələr sferasında qavranılmasına şərait yaradır. Tədqiqat zamanı istinad edilən mənbələr isə mövzuya dair müasir dövrü əhatə edən problemlərin təhlilini aparmağa zəmin yaratmışdır.

Planlaşdırma və icra idarəetmə prosesinin əsas mərhələsi hesab olunur. İdarəetmədə planlaşdırma rəhbər şəxsin, icra isə icraçı şəxslərin əsas vəzifəsi hesab olunur (Canetti, 2021). İdarəetmə mürəkkəb proses olduğundan sosial-psixoloji problemləri də əhatə edir. Sosial problemlərin demək olar ki, hər biri idarəetmənin strukturunda öz əksini tapır. Bu baxımdan idarəetməni sosial-psixoloji problemlər baxımından şərh etmək üçün nəticə etibarı ilə ilk öncə onun sosial tərəflərinə nəzər salmaq tövsiyə olunur (Sayqın, 2019). Sosial mühit insanın özünüdərk qabiliyyətinə (self-awareness) də təsir göstərir (Mayer, 2002). Təşkilat daxilində işçilər arasında sağlam işgüzar və şəxsiyyətlərarası münasibətlərin yaradılması ilə əlaqədar məsuliyyət rəhbər şəxsin üzərinə düşür və ya insanları mütəmadi işgüzarlığa təşviq edən mühiti rəhbər şəxs özü yaradır (Canetti, 2021). Son dövrlərdə idarəetmə və rəhbər-icraçı münasibətləri sahəsində çoxsaylı tədqiqatlar aparılmış və məlum olmuşdur ki, müasir gələcək özü ilə bir sıra problemlərin təzahürünü də istisna etmir. Diqqət yetirilməsi tövsiyə olunan aktual problemlərdən bəzilərinə nəzər salaq (Ertürk, 2017). İdarəetmənin təkmilləşdirilməsi insanların peşə vərdişlərinə və ixtisaslarına dərindən yiyələnməsi, onların öz vəzifə öhdəliklərini layiqincə yerinə yetirməsi və idarəçilikdə nizamlı fəaliyyətin təşkili ilə tənzimlənərək növbəti komponentlərlə səciyyələnir: istedadlı və savadlı mütəxəssislərin fəaliyyətə cəlb olunması (Sayqın, 2019); idarəetmədə müasir texnoloji imkanlardan istifadənin genişləndirilməsi (Canetti, 2021); iş yerlərində nəsillərarası harmoniyanın gözlənilməsi; psixi sağlamlıq problemlərinin həlli (Ertürk, 2017); müxtəliflik və dəyişikliklərə davamlığın artırılması. Rəhbər-icraçı münasibətlərində etimad və inamın vəhdət təşkil etməsi idarəetmədə qarşılıqlı əlaqələrin möhkəmləndirilməsinə də şərait yaradır və bir neçə mühüm kateqoriya ilə xarakterizə olunur: fəaliyyətə təşviqetmə; qarşılıqlı məmnuniyyət; səmərəli fəaliyyət və ya məhsuldar əmək; gücləndirmə və saxlama qanunu (Sayqın, 2019).

İdarəetmədə sosial qavrayış şəxsiyyətlərarası münasibətlərdə işgüzar əlaqələrin formalaşmasında və qarşılıqlı təsir prosesinin genişlənməsində xüsusi əhəmiyyət kəsb edir və müxtəlif insan qrupları tərəfindən fərqli şəkildə qarşılanır (Ertürk, 2017). Rəhbər və icraçı şəxslərin müəyyən bir situasiyaya göstərdiyi reaksiya fərqli təzahür xüsusiyyətləri ilə səciyyələnir. Deməli, rəhbər şəxs ətrafdakılara təsir göstərmək sahəsində peşəkar bacarıqlara malik olmalıdır (Ertürk, 2017). Bu baxımdan, liderliyin (rəhbərliyin) həqiqi prinsipləri dəyişməzdir. Özünü lider olaraq görmək istəyən hər bir şəxs idarəçiliyin inkarolunmaz qanunlarını bilməlidir. Belə bir fikir formalaşmışdır ki, liderliyin 21 inkarolunmaz qanunu var və onların mahiyyətinin dərk olunması böyük uğurlar qazanan liderlər səviyyəsinə yüksəlməyə imkan verir (Abbasov, 2013). Mözvu ilə

əlaqədar idarəetmədə xüsusi səmərəsi ilə seçilən “təsir qanunu”nu vurğulamaq istərdik. Əgər insan təsir etmək qabiliyyətinə malik deyilsə, o başqalarını ardınca apara bilməz (Abbasov, 2013).

Cəmiyyətdə dövlətin müstəqilliyinin gücləndirilməsinə yönəlmiş məşəqqətli və siyasi inkişaf (ARPİİPK, 2005) yolunu ixtiyari və qeyri-ixtiyari keçən insan kütləsi vardır. Bu baxımdan, hər bir şəxs fəaliyyət göstərdiyi sahədə məsuliyyətli olmalı, Vətənə sadaqətlə və ləyaqətli xidmət göstərməlidir. Yekun olaraq, Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevin söylədiyi əhəmiyyətli fikrə istinad etmək böyük şərəf olardı: “Bizim vəzifəmiz ölkəmizi daha da gücləndirmək, iqtisadi potensialı möhkəmləndirmək, Azərbaycanda sabitliyi, əmin-amanlığı qorumaq və Azərbaycan xalqının daha da yaxşı yaşaması üçün şərait yaratmaqdır (ARPİİPK, 2005).”

Tədqiqat zamanı toplanılan nəzəri və praktiki məlumatlara istinad etməklə idarəetmədə rəhbər-icraçı münasibətlərində qavrayışın sosial tərəflərinin və səbəb-nəticə əlaqələrinin dövrü müşahidə metodu vasitəsilə sosial-psixoloji təhlili aparılmışdır. Məlum olmuşdur ki, idarəetmədə idarəçilik fəaliyyətinin daha səmərəli və peşəkar yerinə yetirilməsi şəxsiyyətlərarası münasibətlərdə sosial-psixoloji problemlərin təzahürü ilə əlaqədardır. Sosial qavrayışın hərəkət mexanizmləri idarəetmədə qarşıya çıxan problemlərin qarşılıqlı əməkdaşlıq prinsiplərinə uyğun olaraq həlli yollarını tənzimləyən əsas xüsusiyyət kimi çıxış edə bilir. Əldə edilən nəticələr onu deməyə əsas verir ki, idarəetmənin məqsədyönlü fəaliyyətini tənzimləyən əsas prioritetlərə rəhbər-icraçı münasibətlərində qarşılıqlı hörmət, qavrayış prosesinin adekvatlığı, rəhbər-icraçı münasibətlərində düzgün davranış qaydaları, empatiya, qarşılıqlı təsir prosesində etibarlıq, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, yüksək elmi kadrların inkişafına şərait yaradılması və onların fəaliyyətində fasiləsizliyin təmin olunması, informasiya təhlükəsizliyi, o cümlədən inzibati, elmi və ictimai fəaliyyətdə inkişafyönümlü prinsiplərin gözlənilməsi aid edilə bilər.

**Ədəbiyyat:**


1. Abbasov V.M. (2013). Liderlik fəlsəfəsi. Bakı: Təhsil, 189 s. 10-15
2. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası. (2005). Dövlətçilik haqqında iqtibaslar. Ağdaş şəhər stadionunun açılışından nitq, 23 s. 3-4
3. Əliyev İ.H. (2017). İnkişaf məqsədimizdir. Bakı: Azərnəşr, 399 s. 30
4. Həmzəyev M.Ə., Əmiraslanova S.F. (2007). Ünsiyyətin psixologiyası. Dərs vəsaiti. Bakı: 229 s.
5. Quliyeva Ş.T. (2018). İdarəetmə psixologiyası və sosiologiyası. Bakı: “İqtisadiyyat Universiteti”nin nəşriyyatı, 230 s.
6. Mayer D.G. (2002). Sosial psixologiya. “Piter” nəşriyyatı, VII nəşr, 1037 s. 36
7. Canetti E. (2021). Kitle ve iktidar. İstanbul: Larus yayınevi, X basım, 2021, 527 s. 314-332
8. Ertürk D.Y. (2017). Davranışlarımız ve biz. Sosyal psikoloji bakışıyla. İstanbul: “Pozitif”, 2017, 455 s. 22-69
9. Saygın O. (2019). Etkili iletişimin altı yolu. İstanbul: Şenyıldız matbaacılık, 256 s. 69-213
10. https://www.ddiworld.com